ISSN: 3104-4670
e-ISSN: 2789-6919

# ELM VƏ TƏHSİLDƏ MÜASİR TƏLƏBLƏR
# XIX TEZİSLƏR TOPLUSU

**ELMİ TƏDQİQAT Beynəlxalq Elmi Jurnalın xüsusi buraxılışı**

# MODERN REQUIREMENTS IN SCIENCE AND EDUCATION
# XIX THESES COLLECTION

**Special issue of the journal *«Scientific Research»***

Bakı, Azərbaycan
19 aprel 2026

# ELM VƏ TƏHSİLDƏ MÜASİR TƏLƏBLƏR
# XIX TEZİSLƏR TOPLUSU
**ELMİ TƏDQİQAT Beynəlxalq Elmi Jurnalın xüsusi buraxılışı**

https://doi.org/10.36719/2789-6919/XIX/TT/ET/2026

# MODERN REQUIREMENTS IN SCIENCE AND EDUCATION
# XIX THESES COLLECTION
**SCIENTIFIC RESEARCH Special issue of the International Scientific Journal**

**19 aprel 2026**

## Beynəlxalq indekslər / International Indices

ISSN: 3104-4670
e-ISSN: 2789-6919
DOI: 10.36719

© Jurnalda ç ap olunan materiallardanistifadə edərkən istinad mütləqdir.
© It is necessary to use reference while using the journal materials.
© tezis.tedqiqat@aem.az
© aem.az

# TƏŞKİLAT KOMİTƏSİ

## Sədr

**Prof. Dr. Leyla VƏZİROVA**, Azərbaycan Dövlət Pedaqoji Universiteti / Azərbaycan

## Sədr müavinləri

**Tədqiqatçı Mübariz HÜSEYİNOV**, Azərbaycan Elm Mərkəzi / Azərbaycan
**Prof. Dr. Mehmet KARATAŞ**, Necmettin Erbakan Universiteti / Türkiyə

## Məsul katib

**Assos. Prof. Dr. Sevinc SADIQOVA**, Azərbaycan Dövlət Pedaqoji Universiteti / Azərbaycan

## ÜZVLƏR

**Prof. Dr. Vaqif ABBASOV**, ARETN Akademik Y.H.Məmmədəliyev adına Neft-Kimya Prosesləri İnstitutu / Azərbaycan
**Prof. Dr. Əziz SANCAR**, Çapel-Hill Şimali Karolina Universiteti / ABŞ
**Prof. Dr. Eldar VƏLİYEV**, Milli Texniki Universitet / Ukrayna
**Prof. Dr. Qərib MÜRŞÜDOV**, Molekulyar Biologiya Tədqiqat İnstitutu / Böyük Britaniya
**Prof. Dr. Səyyarə İBADULLAYEVA**, ARETN Botanika İnstitutu / Azərbaycan
**Prof. Dr. Nikolay BRİKO**, İ.M.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universiteti / Rusiya
**Prof. Dr. Arzu SƏRDARLI**, Kanada Birinci Millətlər Universiteti / Kanada
**Prof. Dr. Nadir İLHAN**, Ahi Evran Universiteti / Türkiyə
**Prof. Dr. Cihan ÖZDEMİR**, Biləcik Şeyx Edəbali Universiteti / Türkiyə
**Prof. Dr. Ceyran MAHMUDOVA**, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti / Azərbaycan
**Prof. Dr. Leyla İMAMƏLİYEVA**, Bakı Slavyan Universiteti / Azərbaycan
**Prof. Dr. Saodat MUXAMEDOVA**, Daşkənd Dövlət Özbək dili və Ədəbiyyatı Universiteti / Özbəkistan
**Prof. Dr. Təranə HACIYEVA**, Bakı Mühəndislik Universiteti / Azərbaycan
**Prof. Dr. Hacı HƏSƏNOV**, AMEA A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutu / Azərbaycan
**Prof. Dr. Coanna MARŞALEK-KAVA**, Nikolay Kopernik Universiteti / Polşa
**Prof. Dr. Dünya BABANLI**, Azərbaycan Dövlət Neft və Sənaye Universiteti / Azərbaycan
**Prof. Dr. Funda TOPRAK**, Ankara Yıldırım Beyazıt Universiteti / Türkiyə
**Prof. Dr. Məhərrəm MƏMMƏDLİ**, Bakı Dövlət Universiteti / Azərbaycan

**Prof. Dr. Əkbər AĞAYEV**, Sumqayıt Dövlət Universiteti / Azərbacan
**Prof. Dr. Əli ZALOV**, Azərbaycan Dövlət Pedaqoji Universiteti / Azərbaycan
**Prof. Dr. Juliboy ELTAZAROV**, "İpək Yolu" Beynəlxalq Turizm və Mədəni İrs Universiteti / Özbəkistan
**Prof. Dr. Elşad MİRBƏŞİR OĞLU**, Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası / Azərbaycan
**Prof. Dr. Yelena ŞIŞKİNA**, Həştərxan Dövlət Memarlıq-İnşaat Mühəndisliyi Universiteti / Rusiya
**Prof. Dr. Yaqub BABAYEV**, Azərbaycan Dövlət Pedaqoji Universiteti / Azərbaycan
**Prof. Dr. Fəxrəddin YUSUBOV,** Azərbaycan Texniki Universiteti / Azərbaycan
**Prof. Dr. İya ZUMBULADZE**, Kutaisi Dövlət Universiteti / Gürcüstan
**Prof. Dr. Yasin BABAYEV**, Naxçıvan Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. Turhan ÇETİN**, Qazi Universiteti / Türkiyə
**Prof. Dr. Rajeş KUMAR**, Mərkəzi İpək İdarəsi, Tekstil Nazirliyi / Hindistan
**Prof. Dr. Andrei VOLODIN**, Regina Universiteti / Kanada
**Prof. Dr. Həmzəağa ORUCOV**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. Anar KAZIMOV**, Azərbaycan Dövlət İqtisad Universiteti / Azərbaycan
**Prof. Dr. Cəlaləddin MƏMMƏDOV**, Azərbaycan Dövlət Aqrar Universiteti / Azərbaycan
**Prof. Dr. Əmir ƏLİYEV**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. Uuganbayar MYAGMARSUREN**, Monqolustan Dövlət Universiteti / Monqolustan
**Prof. Dr. Valeriy LİSENKO**, Ümumrusiya Meteoroloji Xidmət Elmi-Tədqiqat İnstitutu / Rusiya
**Prof. Dr. Yaqut HACIYEVA,** Azərbaycan Tibb Universiteti / Azərbaycan
**Prof. Dr. İradə HÜSEYNOVA**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. Zahid MƏMMƏDOV,** Azərbaycan Dövlət İqtisad Universiteti / Azərbaycan
**Prof. Dr. İntiqam CƏBRAYILOV,** Azərbaycan Respublikası Təhsil İnstitutu / Azərbaycan
**Prof. Ali AZQANİ**, Tayler Texas Universiteti / ABŞ
**Assoc. Prof. Dr. Cəbi BƏHRAMOV**, AMEA A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutu / Azərbaycan
**Assoc. Prof. Dr. İosefina BLAZSANİ-BATTO**, Rumın Dili və Mədəniyyəti Mərkəzi / Rumıniya
**Assoc. Prof. Dr. Könül HƏSƏNOVA**, Azərbaycan Dövlət Pedaqoji Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Sevinc RUİNTƏN**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Mübariz ƏSƏDOV**, Azərbaycan Dövlət Pedaqoji Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Urfan HƏSƏNOV,** Gəncə Dövlət Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Əliş AĞAMİRZƏYEV**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Elnarə MEHBALIYEVA**, Azərbaycan Dövlət Pedaqoji Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Kulaş MAMİROVA**, Qazaxıstan Milli Qadın Pedaqoji Universiteti / Qazaxıstan

**Assoc. Prof. Dr. Andrey RAGULİN**, Rusiya Federasiyasının DİN Moskva Universiteti / Rusiya
**Assoc. Prof. Dr. Leyla ƏLİYEVA,** Qarabağ Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Zabitə TEYMURLU**, Bakı Mühəndislik Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Sadıq QARAYEV,** ETN, Botanika İnstitutu / Azərbaycan
**Assoc. Prof. Dr. İradə KƏRİMOVA,** Azərbaycan Dövlət Pedaqoji Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Mahir HACIYEV**, Heyvandarlıq Elmi-Tədqiqat İnstitutu / Azərbaycan
**Assoc. Prof. Dr. Qərənfil QULİYEVA**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Elov BOTİR**, Ə.Nəvai adına Daşkənd Dövlət Özbək Dili və Ədəbiyyatı Universiteti / Özbəkistan
**PhD Tomas SMEDLEY,** Cenevrə Kolleci, Pensilvaniya / ABŞ

## THE ORGANIZING COMMITTEE

### Chairman

**Prof. Dr. Leyla VAZIROVA,** Azerbaijan State Pedagogical University / Azerbaijan

### Deputy chairmen

**Researcher Mubariz HUSEYINOV**, Azerbaijan Science Center / Azerbaijan
**Prof. Dr. Mehmet KARATASH**, Nejmettin Erbakan University / Turkey

### Executive secretary

**Assoc. Prof. Dr. Sevinj SADIGOVA**, Azerbaijan State Pedagogical University / Azerbaijan

### MEMBERS

**Prof. Dr. Vagif ABBASOV,** Institute of Petrochemical Processes named after Academician Y.H.Mammadaliyev of MSERA / Azerbaijan
**Prof. Dr. Aziz SANJAR,** University of North Karolina at Chapel Hill / USA
**Prof. Dr. Eldar VALIYEV**, National Technical University / Ukraine
**Prof. Dr. Garib MURSHUDOV,** Research Institute of Molecular Biology / Great Britain
**Prof. Dr. Sayyara IBADULLAYEVA**, Institute of Botany of MSERA / Azerbaijan
**Prof. Dr. Nikolay BRIKO,** First Moscow State Medical University named after I.M.Sechenov / Russia
**Prof. Dr. Arzu SARDARLI,** First Nations University of Canada / Canada
**Prof. Dr. Nadir ILHAN,** Ahi Evran University / Turkey
**Prof. Dr. Jihan OZDEMIR**, Bilecik Şeykh Edebali University / Turkey
**Prof. Dr. Jeyran MAHMUDOVA,** Azerbaijan State University of Culture and Arts / Azerbaijan
**Prof. Dr. Leyla IMAMALIYEVA**, Baku Slavic University / Azerbaijan
**Prof. Dr. Saodat MUKHAMEDOVA,** Tashkent State University of Uzbek Language and Literature / Uzbekistan
**Prof. Dr. Tarana HAJIYEVA,** Baku Engineering University / Azerbaijan
**Prof. Dr. Haji HASANOV**, Institute of History and Ethnology named after A.A.Bakikhanov of ANAS/ Azerbaijan
**Prof. Dr. Joanna MARSZALEK-KAWA**, Nicolaus Copernicus University / Poland
**Prof. Dr. Dunya BABANLI**, Azerbaijan State Oil and Industry University / Azerbaijan
**Prof. Dr. Funda TOPRAK**, Ankara Yildirim Beyazit University / Turkey
**Prof. Dr. Maharram MAMMADLI,** Baku State University / Azerbaijan
**Prof. Dr. Akbar AGHAYEV**, Sumgayit Statet University / Azerbaijan
**Prof. Dr. Ali ZALOV**, Azerbaijan State Pedagogical University / Azerbaijan

**Prof. Dr. Juliboy ELTAZAROV**, "Silk Road" International University of Tourism and Cultural heritage / Uzbekistan
**Prof. Dr. Elshad MIRBASHIR OGHLU**, Academy of Public Administration under the President of the Republic of Azerbaijan / Azerbaijan
**Prof. Dr. Yelena SHISHKINA**, Astrakhan State University of Architecture and Construction Engineering / Russia
**Prof. Dr. Yagub BABAYEV**, Azerbaijan State Pedagogical University / Azerbaijan
**Prof. Dr. Faxraddin YUSUBOV,** Azerbaijan Technical University / Azerbaijan
**Prof. Dr. Iya ZUMBULADZE**, Kutaisi State University / Georgia
**Prof. Dr. Yasin BABAYEV**, Nakhchivan State University / Azerbaijan
**Prof. Dr. Turhan CHETIN**, Gazi University / Turkey
**Prof. Dr. Rajesh KUMAR**, Ministry of Textiles, Central Silk Office / India
**Prof. Dr. Andrei VOLODIN**, Regina University / Canada
**Prof. Dr. Hamzaagha ORUJOV**, Baku State University / Azerbaijan
**Prof. Dr. Anar KAZIMOV**, Azerbaijan State University of Economics / Azerbaijan
**Prof. Dr. Jalaladdin MAMMADOV**, Azerbaijan State Agrarian University / Azerbaijan
**Prof. Dr. Amir ALIYEV,** Baku State University / Azerbaijan
**Prof. Dr. Uuganbayar MYAGMARSUREN**, Monqolustan Dövlət Universiteti / Monqolustan
**Prof. Dr. Valery LISENKO**, All-Russian Metrological Service Research Institute / Russia
**Prof. Dr. Yagut HAJIYEVA,** Azerbaijan Medical University / Azerbaijan
**Prof. Dr. Irada HUSEYNOVA,** Baku State University / Azerbaijan
**Prof. Dr. Zahid MAMMADOV,** Azerbaijan State University of Economics / Azerbaijan
**Prof. Dr. Intigam JABRAYILOV**, Institute of Education of the Republic of Azerbaijan / Azerbaijan
**Prof. Ali AZGANY**, University of Texas at Tyler / USA
**Assoc. Prof. Dr. Jabi BAHRAMOV**, Institute of History and Ethnology named after A.A.Bakikhanov of ANAS / Azerbaijan
**Assoc. Prof. Dr. Iosefina BLAZSANI-BATTO**, Romanian Language and Cultural Center / Romania
**Assoc. Prof. Dr. Konul HASANOVA**, Azerbaijan State Pedagogical University / Azerbaijan
**Assoc. Prof. Dr. Sevinj RUINTAN**, Baku State University / Azerbaijan
**Assoc. Prof. Dr. Mubariz ASADOV**, Azerbaijan State Pedagogical University / Azerbaijan
**Assoc. Prof. Dr. Urfan HASANOV,** Ganja State University / Azerbaijan
**Assoc. Prof. Dr. Alish AGAMIRZEYEV,** Baku State University / Azerbaijan
**Assoc. Prof. Dr. Elnara MEHBALIYEVA**, Azerbaijan State Pedagogical University / Azerbaijan
**Assoc. Prof. Dr. Kulash MAMIROVA**, Kazakhstan National Woman Pedogogical Institute / Kazakhstan
**Assoc. Prof. Dr. Andrey RAGULIN**, Moscow University of the Ministry of Internal Affairs of the Russian Federation / Russia
**Assoc. Prof. Dr. Leyla ALIYEVA,** Karabakh University / Azerbaijan
**Assoc. Prof. Dr. Zabita TEYMURLU,** Baku Engineering University / Azerbaijan

**Assoc. Prof. Dr. Sadiq GARAYEV**, Institute of Botany of MSERA/ Azerbaijan
**Assoc. Prof. Dr. Irada KARIMOVA,** Azerbaijan State Pedagogical University / Azerbaijan
**Assoc. Prof. Dr. Mahir HAJIYEV**, Animal Husbandry Scientific Research Institute / Azerbaijan
**Assoc. Prof. Dr. Garanfil GULIYEVA**, Baku State University / Azerbaijan
**Assoc. Prof. Dr. Elov BOTIR**, Tashkent State University of Uzbek Language and Literature named after A.Navai / Uzbekistan
**PhD Thomas SMEDLEY,** Geneva College in Beaver Falls, Pennsylvania / USA

*Elm və Təhsildə Müasir Tələblər* **XIX Tezislər Toplusu/ 19 aprel / 7-14**
***Modern Requirements in Science and Education*** **XIXTheses Collection/ 19 april / 7-14**
**https://doi.org/10.36719/2789-6919/XIX/TT/ET/2026**

# HUMANİTAR VƏ İCTİMAİ ELMLƏR

# HUMANITIES AND SOCIAL SCIENCES

**Təranə Əzimova**
Azərbaycan Dövlət Pedaqoji Universiteti
filologiya üzrə fəlsəfə doktoru
https://orcid.org/0000-0001-6951-5844
gunel_24@mail.ru

## Mir Cəlalın romanlarında realist təsvir, sosial tənqid və milli ideya

***Açar sözlər:*** *Mir Cəlal, Azərbaycan nəsri, realist roman, ədəbi tənqid, sovet ideologiyası*
***Keywords:*** *Mir Jalal, Azerbaijani prose, realistic novel, literary criticism, Soviet ideology*

Mir Cəlal nəsr sahəsində qələm oynadan və istedadını parlaq şəkildə nümayiş etdirən ədiblərdən biridir. Onun ard-arda qələmə aldığı və çap etdirdiyi romanları təkcə müəllifin bədii potensialını deyil, həm də Azərbaycan roman janrının inkişafında oynadığı önəmli rolu əks etdirir. Altı roman müəllifi olan Mir Cəlal bu sahədə də uğurlu nümunələr yaradaraq oxucuların və tənqidçilərin rəğbətini qazanmışdır. "Dirilən adam" (1934–1935), "Bir gəncin manifesti" (1939), "Açıq kitab" (1941), "Yaşıdlarım" (1946–1952), "Təzə şəhər" (1948–1950) və "Yolumuz hayanadır" (1952–1957) adlı əsərləri onun dərin müşahidə qabiliyyətini, realizmə söykənən bədii təfəkkürünü və cəmiyyətin müxtəlif təbəqələrindən olan insanların daxili dünyasını ustalıqla əks etdirmək bacarığını göstərən mühüm nümunələrdir. Mir Cəlalın romanlarında diqqətçəkən əsas

**https://doi.org/10.36719/2789-6919/XIX/TT/ET/2026**

məqamlardan biri onun zəngin müşahidə qabiliyyətinə və insan psixologiyasını dərinliklə anlama bacarığına sahib olmasıdır. Bu keyfiyyətlər əsərlərindəki obrazların həyatiliyini və inandırıcılığını artırır, oxucunun qəhrəmanlarla emosional bağ qurmasına şərait yaradır. Onun romanlarında mövzuya konkret və təsirli yanaşma, uzun-uzadı təfərrüatlardan uzaq duraraq əsas ideyanı lakonik ifadələrlə çatdırmaq kimi üslubi cəhətlər də diqqətdən yayınmır. Əsərlərdə sosial hadisələrin dinamik təsviri, insan talelərinin cəmiyyətlə əlaqələndirilməsi və realist yanaşmanın qorunması Mir Cəlal nəsrinin başlıca üstünlüklərindəndir.

Müəllifin ilk romanı olan "Dirilən adam" onun romançılıq sahəsindəki bacarığını nümayiş etdirən ilk ciddi addım kimi dəyərləndirilir. Sovet dövrünün sərt ideoloji çərçivələri fonunda qələmə alınan bu əsər 1930-cu illərin ictimai-siyasi mənzərəsini, xüsusilə, kənd mühitindəki ziddiyyətləri və ədalətsizlikləri əks etdirməklə yanaşı, dövrün insanlarını da psixoloji aspektdən dərindən təqdim edir. Romanda əsas obraz olan Qədirin həyat hekayəsi vasitəsilə təkcə bir fərdin yox, bütöv bir kəndin, hətta bir cəmiyyətin faciəvi vəziyyəti təsvir olunur. Müəllif bu obrazla dövrün qanunsuzluğunu, məmur özbaşınalığını və dini təbəqənin susqunluğunu tənqid edir. "Sən ölüsən, dirilməyini də tövsiyə etmirik" kimi ifadələr vasitəsilə cəmiyyətin riyakarlığı və güclünün hökmü altındakı zəifin acınacaqlı durumu incə şəkildə vurğulanır.

Romanlarda təqdim olunan qəhrəmanlar – "Açıq kitab"da Vahid, Sadiq kişi, Kərim Gəldiyev, Rübabə; "Bir gəncin manifesti"ndə Mərdan, Bahar, Sona xala, Hacı İbrahim Xəlil; "Dirilən adam"da Babir bəy, Qədir, Qumru; "Təzə şəhər"də Yunis və digərləri; "Yaşıdlarım"da Kərimzadə, Səlim, Nəriman; "Yolumuz hayanadır"da isə Sabir, Əntiqə, Bəndalı – bəzən bir dövrün simvoluna, bəzən də məzlum xalqın səsinin daşıyıcısına çevrilir. Mir Cəlal bu personajlar vasitəsilə fərdi həyat hekayə-

**https://doi.org/10.36719/2789-6919/XIX/TT/ET/2026**

lərindən ümumbəşəri mövzulara keçid edir və oxucunu həm düşündürür, həm də sarsıdır.

Mir Cəlalın romanlarında əsasən realist baxış ön plandadır. O, süjet xəttini sadə, lakin təsirli bir formada qurur, hadisələrin axarı ilə insan xarakterlərini paralel şəkildə inkişaf etdirir. Sovet ədəbiyyatında hakim olan "müsbət qəhrəman" modeli əvəzinə, Mir Cəlal daha çox insanın ziddiyyətli təbiətinə, daxili mübarizəsinə və cəmiyyətlə toqquşmasına diqqət yetirir. Bu da onun yaradıcılığını həm zamanında, həm də bu gün oxunaqlı və aktual edən əsas cəhətlərdən biridir.

Mir Cəlal Azərbaycan nəsrinin inkişafında mühüm rol oynamış yazıçılardan biri olaraq, realist ədəbiyyatın möhtəşəm örnəklərini yaratmışdır. Onun romanları içərisində xüsusi yer tutan və oxucular tərəfindən yüksək qiymətləndirilən "Bir gəncin manifesti" əsəri müəllifin ən məşhur romanlarından biridir. Əsərin baş qəhrəmanı olan Baharın ağır həyat şəraiti, onun kəndindən qovularaq acınacaqlı şəkildə yaşamaq üçün başqa kəndlərdə alçaldılmağa və işgəncəyə məruz qalması, əslində, ümidsiz və çarəsiz insanların faciəsini ümumiləşdirən bir metaforaya çevrilir. Bahar yalnız bir fərdin deyil, bütün bir xalqın, bəşəriyyətin təmsilçisinə çevrilir. Bu baxımdan "Bir gəncin manifesti" bir şəxsin deyil, bütöv bir dövrün və toplumun manifesti kimi səslənir. Romanın yazıldığı dövr – 1939-cu il – Sovet totalitarizminin ən sərt illərindən biri olsa da, Mir Cəlal bu əsərdə açıq şəkildə siyasi tənqid aparmaq imkanından məhrum idi. Buna görə də müəllif əsasında rəmzi, metaforik və assosiativ üsullarla mesajlarını çatdırmağa üstünlük verir. O, Sovet hökumətinin Azərbaycanı işğal etməsini açıq şəkildə tənqid edə bilməsə də, əsərdə İngiltərənin Azərbaycana marağını və onun müstəmləkəçilik niyyətlərini tənqid edərkən, əslində, Sovetlərin gəlişinə də eyni münasibəti dolayısı ilə bildirir. Beləliklə, o, həm oxucunu ayıq salır, həm də gerçəkləri

anlamağa dəvət edir. Bu da onun yazıçılıq ustalığının və intellektual dərinliyinin bir göstəricisidir.

Əsər Sovet dövrünün sərt senzurasına baxmayaraq, xalqın yaddaşında qalmağı bacarmış, müstəqillik ideyasının ədəbi ifadəsi olmuşdur. Məhz bu səbəbdən bəzi tənqidçilər "Bir gəncin manifesti"ni Azərbaycan Sovet ədəbiyyatının başlanğıc manifesti kimi təqdim etmiş, digərləri isə onu daha geniş mənada – bütün insanlıq üçün bir manifest kimi xarakterizə etmişlər. Məmməd Arif bu əsəri yüksək vətənpərvərlik duyğuları ilə yazılmış bir roman kimi dəyərləndirmiş və onu Süleyman Rəhimovun "Şamo" romanı ilə müqayisə etmişdir.

İsmayıl Şıxlının "Ölən dünyam" romanı ilə də bu əsər arasında mövzu baxımından paralelliklər mövcuddur. Hər iki romanda 11-ci Qızıl Ordu tərəfindən Gəncənin işğalı, şəhərdə baş verən xaotik hadisələr geniş təsvir olunmuşdur. Lakin fərq ondadır ki, İ.Şıxlı "Ölən dünyam"ı Azərbaycanın müstəqilliyini bərpa etdiyi dövrdə yazdığı üçün işğal faktını açıq şəkildə ifadə edə bilmişdir. Mir Cəlal isə eyni gerçəkləri dolayı yollarla, rəmzi şəkildə təqdim etmişdir ki, bu da onun yaradıcılığının müdrikliyini və siyasi ayıqlığını göstərir.

Mir Cəlalın digər romanı "Açıq kitab" isə 1930-cu illərin Azərbaycan intellektual mühitini, müəllimlərin həyatını və cəmiyyətdəki mənəvi-əxlaqi böhranı əks etdirən mühüm əsərlərdən biridir. Bu əsərdə müəllif həm tənqidi, həm də lirizmə yer verərək, insanın mənəvi dünyasını, içində yaşadığı cəmiyyətin ziddiyyətlərini realist dillə qələmə almışdır. Romanın baş qəhrəmanlarından biri olan Kərim Gəldiyev obrazında şəxsi mənafeyini hər şeydən üstün tutan, əxlaqdan uzaq bir insanın faciəsi və toplum üçün təhlükəsi göstərilir. Kərim Gəldiyev özü üçün hər şeyi halal sayan, məqsədinə çatmaq üçün yalan, böhtan, hiylə və xəyanətdən belə çəkinməyən bir tipdir. O, çağdaş görünümlü, lakin mənəvi dəyərlərdən uzaq bir obraz kimi təqdim olunur. "Açıq kitab" cəmiyyətdəki ədalətsizlikləri,

**https://doi.org/10.36719/2789-6919/XIX/TT/ET/2026**

təhsilin problemlərini və insan münasibətlərindəki ikili standartları ifşa edən tənqidi bir romandır. Əsərin qəhrəmanı olan Vahid və digər obrazlar – Sadiq kişi, Rübabə və başqaları vasitəsilə müəllif dövrünün cəmiyyətini müxtəlif tərəflərdən işıqlandırır, insan xarakterlərini psixoloji və sosial kontekstdə təqdim edir. Mir Cəlal hadisələri və xarakterləri elə ustalıqla təqdim edir ki, oxucu həm hekayənin içində olur, həm də onun dərin fəlsəfi-ictimai qatlarını hiss edir.

Mir Cəlal nəsrində diqqətçəkən xüsusiyyətlərdən biri də onun insan faktoruna əsaslanması, insanın mənəvi-psixoloji aləminə dərindən nüfuz etməsidir. O, yazıçı olaraq insanı, onun emosional və əqli proseslərini, sosial münasibətlərdəki mövqeyini və daxili ziddiyyətlərini yüksək bədii dildə əks etdirir. Mir Cəlal həm klassik divan ədəbiyyatı ənənələrinə, həm də xalq ədəbiyyatının elementlərinə əsaslanaraq, onları müasir mövzularla sintez etməyi bacarmış, folklor motivlərini – xüsusilə atalar sözləri və məsəlləri – orijinal şəkildə əsərlərinə daxil etmişdir. Onun "Oğul" hekayəsindəki "kölgədə bitən ağacın kölgəsi olmaz" ifadəsi bu baxımdan nümunəvi məqamdır.

Beləliklə, Mir Cəlal təkcə nəsr sahəsində deyil, ümumən ədəbi düşüncədə yeni mərhələnin əsasını qoymuş bir sənətkardır. Onun romanları xalqın həyatını, mənəvi çöküş və dirçəliş proseslərini, ictimai dəyişikliklərin insan üzərindəki təsirlərini incəliklə təhlil edir. Bu baxımdan "Bir gəncin manifesti" və "Açıq kitab" Azərbaycan romançılığının zirvəsində dayanan, həm ideoloji, həm də estetik baxımdan dəyərli əsərlərdir.

1930–1935-ci illər arası dövr Azərbaycan üçün həm sosial, həm də siyasi baxımdan olduqca çətin və repressiv bir mərhələ kimi xarakterizə olunur. Bu illər Sovet İttifaqında 1937-ci ildə ümumi şəkildə başlanacaq kütləvi repressiya dalğasının ilkin mərhələsi, yəni hazırlıq dövrü idi. Yeni formalaşmaqda olan siyasi rejim milli kimliyə və xalqın ənənəvi həyat tərzinə kobud şəkildə müdaxilə edir, sinfi mübarizəni ön plana çəkərək milli

**https://doi.org/10.36719/2789-6919/XIX/TT/ET/2026**

birliyi sarsıdacaq addımlar atırdı. Məhz belə bir dövrdə yazılmış və dövrün ictimai-siyasi mühitini satirik formada əks etdirən "Açıq Kitab" romanının əsas qəhrəmanı – Kərim Gəldiyev – həmin gərgin dövrün və onun yaratdığı ziddiyyətli şəraitin məhsulu kimi yaradılmışdır. Mir Cəlal bu obraz vasitəsilə zamanın ruhunu, yəni sosial deformasiyaların və mənəvi aşınmanın simvolunu təqdim edir. Müəllif yalnız Kərim Gəldiyevin mənfi əməllərini təsvir etməklə kifayətlənmir, həmçinin, onun bu davranışlarını gerçəkləşdirdiyi mühiti, həmin mühitdə yaşayan insanları da realist və diqqətli şəkildə canlandırır. Romanda Gəldiyevin yalan, böhtan, xəyanət və riyakarlıq kimi əməllərini bilərəkdən və ya bilməyərəkdən dəstəkləyən çoxsaylı insan təsvir olunur. Bu şəxslərin bəziləri onun kimi əxlaqsız, bəziləri isə sadəlövh, hər deyilənə inanan adamlardır. Müəllif göstərir ki, məhz bu cür şəxslər – həm əxlaqsızlar, həm də avamlar – cəmiyyəti yaşanmaz hala gətirirlər. Əsərdə Gəldiyevin son cinayəti, yəni universitetdə saxta sənədlər tərtib edərək nümunəvi tələbə Vahidi təhsil müəssisəsindən uzaqlaşdırması, Rübabəni Vahidə qarşı yönəltmək və özünə cəlb etməyə çalışması kimi hadisələr onun şəxsi mənafeyi naminə nələrə əl atacağını göstərir. Əvvəldən sabiqəli olan Gəldiyev uşaqlıqdan başlayaraq bir çox cinayətlər törətmiş və bu davranışlarını müxtəlif təhsil müəssisələrində davam etdirmişdir. Əsərin mesajı isə aydındır: Kərim Gəldiyev kimi mənfi tiplər cəmiyyətin inkişafına maneə törətsələr də, sonda ifşa olunaraq aradan qalxmağa məhkumdurlar. Mir Cəlal bu əsərdə sənətkarlıq nümayiş etdirmək və ya hadisələri süni şəkildə dramatikləşdirməkdən uzaq durur. Hadisələri sadə, anlaşılan dildə təqdim edir və bu da onun yazdıqlarını real həyatda baş verənlərlə paralel şəkildə qəbul etməyə imkan verir.

Mir Cəlalın digər mühüm əsərlərindən biri olan "Yaşıdlarım" romanı avtobioqrafik xüsusiyyətə malik olmaqla, müəllifin yaşadığı dövrün təhsil mühiti və cəmiyyətin ziyalı təbəqəsində baş verən dəyişikliklər haqqında geniş məlumat

**https://doi.org/10.36719/2789-6919/XIX/TT/ET/2026**

verir. Bu əsər vasitəsilə Mir Cəlal, xüsusən İkinci Dünya müharibəsi dövründə aydınlaşmağa başlayan milli ziyalılıq anlayışına diqqət yetirir və vətənpərvərlik mövzusunu ön plana çəkir. Mövzu və yanaşma tərzi baxımından publisistik ruhda yazılmış bu romanı "publisist roman" kimi dəyərləndirmək mümkündür. "Yaşıdlarım" romanında Sovet rejiminin sosial-siyasi problemləri, müharibə və onun təsirləri, ailə və sevgi münasibətləri, ata-oğul ziddiyyətləri kimi geniş mövzu spektri əhatə olunur. Bu roman yeni quruluşa uyğunlaşmaq məcburiyyətində qalan fərdlərin mənəvi və psixoloji portretlərini uğurla əks etdirir. Müəllif bir çox hallarda hadisələrə birbaşa müdaxilə edir, şəxsi və subyektiv mövqeyini ifadə etməkdən çəkinmir.

Beləliklə, Mir Cəlal həm sosial tənqid, həm də insan xarakterlərinin psixoloji təqdimatı baxımından Azərbaycan ədəbiyyatına dəyərli nümunələr qazandırmış, milli düşüncənin və ədəbiyyatın inkişafında müstəsna xidmətlər göstərmişdir.

Mir Cəlal Azərbaycan ədəbiyyatında realist nəsrin formalaşmasında və inkişafında mühüm rol oynamış yazıçı kimi tarixə düşmüşdür. Onun romanları – "Dirilən adam", "Bir gəncin manifesti", "Açıq kitab", "Yaşıdlarım", "Təzə şəhər", "Yolumuz hayanadır" – 1930–1950-ci illərin Azərbaycan ictimai-siyasi və mənəvi həyatını, xalqın psixoloji durumunu və dövrün əxlaqi-mənəvi böhranlarını dərindən və incəliklə əks etdirir. Mir Cəlal cəmiyyətin ziddiyyətlərini, fərdin ictimai mühitlə toqquşmasını, sosial ədalətsizliyi və milli kimlik uğrunda mübarizəni realist təsvirlərlə təqdim edir. O, qəhrəmanlarının daxili aləmini psixoloji təhlillərlə zənginləşdirir, obrazlar vasitəsilə bir fərdin taleyindən bütöv bir xalqın ağrılı keçmişini, gələcəyə dair ümidsizliyini göstərir. Xüsusilə "Bir gəncin manifesti" və "Açıq kitab" romanları bu baxımdan yüksək ideya-məzmun və bədii-estetik dəyərə malikdir. Bu əsərlərdə müəllifin cəsarətli, lakin ehtiyatlı şəkildə ifadə etdiyi sosial və siyasi mesajlar onu dövrün senzurasından qoruyub saxlamış, eyni zamanda oxuculara gizli

**https://doi.org/10.36719/2789-6919/XIX/TT/ET/2026**

şəkildə reallığı çatdırmaq imkanı yaratmışdır. Mir Cəlalın əsərləri yalnız dövrünün ədəbiyyatı üçün deyil, bu gün üçün də aktualdır. Onun romanları cəmiyyətin bəşəri problemlərini, ədalət axtarışını, mənəvi dəyərlərin tənəzzülünü və insanın mənəvi qurtuluş arzusunu əks etdirməklə Azərbaycan romançılığının klassik zirvələrindən biri hesab olunur. Bu səbəbdən də Mir Cəlalın ədəbi irsi təkcə bir nəsr sənətkarı olaraq deyil, həm də milli təfəkkürün və estetik düşüncənin daşıyıcısı kimi qiymətləndirilməlidir.

**https://doi.org/10.36719/2789-6919/XIX/TT/ET/2026**

**Leyla Məcidova**
Lənkəran Dövlət Universiteti
tarix üzrə fəlsəfə doktoru
https://orcid.org/0000-0001-9165-5114
kameliya-76@mail.ru
**Mətanət Rzayeva**
Lənkəran Dövlət Universiteti
https://orcid.org/0009-0009-6392-1820
babayevam580@gmail.com

# Arxeoloji kolleksiyaların mühafizəsi və təhlükəsizliyinə dair yeni strategiyalar

***Açar sözlər***: *arxeoloji kolleksiya, mühafizə, təhlükəsizlik, rəqəmsallaşdırma, konservasiya, risk idarəetməsi*
***Keywords***: *archaeological collection, protection, security, digitization, conservation, risk management*

Arxeoloji kolleksiyalar qədim sivilizasiyaların həyat tərzini, mədəniyyətini və dünyagörüşünü öyrənmək üçün əsas mənbələrdən biridir. Bu səbəbdən onların mühafizəsi yalnız elmi deyil, həm də mədəni əhəmiyyət daşıyır. Ənənəvi mühafizə üsulları artıq kifayət etmir və yeni dövrün çağırışlarına uyğun strategiyaların hazırlanması zəruridir.

Müasir strategiyaların əsas istiqamətlərindən biri kolleksiyaların rəqəmsallaşdırılmasıdır. 3D skanlama və rəqəmsal arxivləşdirmə vasitəsilə eksponatların elektron bazası yaradılır. Bu, həm məlumat itkisinin qarşısını alır, həm də tədqiqatçılar üçün əlçatanlığı artırır.

Arxeoloji kolleksiyalar bəşəriyyətin keçmişini öyrənmək üçün ən mühüm maddi mənbələrdən biridir. Onlar qədim sivilizasiyaların həyat tərzini, mədəniyyətini, texnologiyasını və dünyagörüşünü əks etdirir. Bu səbəbdən arxeoloji irsin

**https://doi.org/10.36719/2789-6919/XIX/TT/ET/2026**

qorunması yalnız elmi deyil, həm də mədəni və mənəvi əhəmiyyət daşıyır. Müasir dövrdə bu kolleksiyalar müxtəlif risklərlə üzləşir: təbii fəlakətlər, iqlim dəyişiklikləri, insan amili, oğurluq, qanunsuz ticarət və texnoloji təhlükələr. Buna görə də onların mühafizəsi və təhlükəsizliyi sahəsində yeni strategiyaların tətbiqi zərurətə çevrilmişdir.

Arxeoloji kolleksiyaların muzeylərdə qorunması tarixi irsin gələcək nəsillərə ötürülməsində mühüm rol oynayır. Qədim mədəniyyətlərə aid tapıntılar zamanla müxtəlif xarici təsirlərə məruz qalaraq zədələnə və ya məhv ola bilər. Buna görə də, muzeylərdə bu eksponatların uzunmüddətli saxlanması üçün xüsusi tədbirlər görülməli, mühafizə və konservasiya metodları tətbiq edilməlidir.

Müasir yanaşmalarda arxeoloji kolleksiyaların mühafizəsi artıq təkcə fiziki qoruma ilə məhdudlaşmır. Ənənəvi üsulların yanında rəqəmsal texnologiyalar, süni intellekt sistemləri və kompleks idarəetmə modelləri geniş tətbiq olunur. Bu yanaşmaların əsas məqsədi irsin uzunmüddətli qorunmasını təmin etmək və onun gələcək nəsillərə zərər görmədən ötürülməsidir.

Rəqəmsallaşdırma müasir strategiyaların ən mühüm istiqamətlərindən biridir. 3D skanlama texnologiyası vasitəsilə arxeoloji artefaktların dəqiq rəqəmsal modelləri yaradılır. Bu modellər obyektlərin fiziki vəziyyətindən asılı olmayaraq onların elmi və vizual məlumatlarını qorumağa imkan verir. Elektron məlumat bazaları və bulud sistemləri kolleksiyalar haqqında informasiyanın təhlükəsiz saxlanmasını təmin edir. Eyni zamanda süni intellekt texnologiyaları artefaktların təsnifatı, zədələnmə risklərinin qiymətləndirilməsi və saxta nümunələrin müəyyən edilməsində mühüm rol oynayır.

Arxeoloji kolleksiyaların təhlükəsizliyi sahəsində fiziki mühafizə sistemləri də mühüm əhəmiyyət daşıyır. Müasir muzeylərdə videomüşahidə kameraları, hərəkət sensorları,

**https://doi.org/10.36719/2789-6919/XIX/TT/ET/2026**

siqnalizasiya sistemləri və biometrik giriş nəzarəti tətbiq olunur. RFID texnologiyası vasitəsilə eksponatların hərəkəti izlənilir və onların yerinin dəyişdirilməsi real vaxt rejimində nəzarətdə saxlanılır. Bu cür çoxsəviyyəli təhlükəsizlik sistemləri oğurluq, vandalizm və digər təhlükələrin qarşısını almaqda effektiv vasitə hesab olunur.

Bərpa prosesi isə artıq zədələnmiş və ya parçalanmış eksponatların ilkin formasına qaytarılmasını hədəfləyir. Bərpa zamanı ənənəvi və müasir texnologiyalardan istifadə edilir. Məsələn, keramika, metal və daş artefaktların bərpasında xüsusi yapışdırıcı maddələr və qoruyucu örtüklər tətbiq edilir. Bundan əlavə, üzvi materiallardan hazırlanmış eksponatlar (məsələn, taxta və parça) üçün daha həssas konservasiya metodları istifadə olunur.

Digər vacib istiqamət risklərin idarə olunmasıdır. Arxeoloji kolleksiyalar üçün xüsusi risk xəritələri hazırlanır və potensial təhlükələr əvvəlcədən müəyyən edilir. Fövqəladə hallar üçün təxliyə planları tərtib olunur, personal mütəmadi olaraq təlimlərə cəlb edilir. Yanğın, zəlzələ, sel kimi təbii fəlakətlər zamanı kolleksiyaların qorunması üçün xüsusi protokollar tətbiq edilir. Eyni zamanda sığorta mexanizmləri nadir və qiymətli eksponatların maliyyə baxımından da qorunmasına xidmət edir.

Konservasiya sahəsində də mühüm yeniliklər tətbiq olunur. Arxeoloji obyektlərin saxlanıldığı mühitdə temperatur və rütubət xüsusi sistemlərlə tənzimlənir. UV şüalanmadan qorunma texnologiyaları materialların deqradasiyasının qarşısını alır. Nanotexnologiya və müasir kimyəvi qoruyucu vasitələr artefaktların strukturunu möhkəmləndirir və onların uzunömürlülüyünü artırır. Konservasiyada əsas prinsip obyektin orijinallığının maksimum dərəcədə qorunmasıdır.

Həmçinin, virtual reallıq (VR) və artırılmış reallıq (AR) texnologiyaları vasitəsilə muzeylər arxeoloji kolleksiyaları interaktiv şəkildə təqdim edə bilirlər. Bu, eksponatların əsl

**https://doi.org/10.36719/2789-6919/XIX/TT/ET/2026**

vəziyyətində saxlanılmasına kömək edir və onları zədələnmədən qoruyur.

Arxeoloji irsin qorunması yalnız texnoloji deyil, həm də hüquqi və institusional mexanizmlərlə dəstəklənməlidir. Qanunsuz qazıntıların və artefakt ticarətinin qarşısının alınması üçün sərt qanunvericilik tədbirləri həyata keçirilir. Muzeylərdə inventarlaşdırma və qeydiyyat sistemləri gücləndirilir, etik kodekslərə ciddi riayət olunur. Bu sahədə dövlət nəzarəti və beynəlxalq hüquqi əməkdaşlıq mühüm rol oynayır.

Beynəlxalq əməkdaşlıq arxeoloji kolleksiyaların mühafizəsində xüsusi əhəmiyyət daşıyır. Müxtəlif ölkələr arasında məlumat mübadiləsi, birgə tədqiqat layihələri və oğurlanmış artefaktların geri qaytarılması istiqamətində əməkdaşlıq həyata keçirilir. UNESCO və ICOM kimi beynəlxalq təşkilatlar bu sahədə standartların formalaşmasına və tətbiqinə dəstək verir.

Eyni zamanda ictimai iştirak da müasir strategiyaların vacib hissəsidir. Virtual muzeylər, onlayn sərgilər və maarifləndirici proqramlar vasitəsilə cəmiyyətin bu sahəyə marağı artırılır. Gənclərin və könüllülərin irsin qorunmasına cəlb olunması onun davamlılığını təmin edir.

Nəticə olaraq, arxeoloji kolleksiyaların mühafizəsi və təhlükəsizliyi kompleks və çoxşaxəli yanaşma tələb edir. Rəqəmsallaşdırma, müasir təhlükəsizlik sistemləri, risklərin idarə olunması, konservasiya texnologiyaları, hüquqi mexanizmlər və beynəlxalq əməkdaşlıq bu sahənin əsas strategiyalarını təşkil edir. Bu yanaşmaların tətbiqi arxeoloji irsin daha etibarlı qorunmasını təmin edir və onun gələcək nəsillərə ötürülməsinə şərait yaradır.

**https://doi.org/10.36719/2789-6919/XIX/TT/ET/2026**

**Faidə İsayeva**
Azərbaycan Dövlət Pedaqoji Universiteti
filologiya üzrə fəlsəfə doktoru
https://orcid.org/0000-0003-1568-5885
faida.isayeva@mail.ru

# Müxtəlifsistemli dillərdə sifətin tədrisi yolları

***Açar sözlər:*** *nitq hissələri, sifətin dərəcələri, qrammatik quruluş, leksik məna, dilçilik*

***Keywords:*** *parts of speech, degrees of adjective, grammatical structure, lexical meaning, linguistics*

Dil insanların bir-biri ilə ünsiyyət qurmasını təmin edən əsas vasitədir. Dil vasitəsilə insanlar fikirlərini ifadə edir, ətraf aləmi dərk edir və məlumat ötürürlər. Dilin qrammatik quruluşunda mühüm yer tutan əsas nitq hissələrindən biri sifətdir. Sifət əşya və hadisələrin əlamətini, xüsusiyyətlərini və keyfiyyətini bildirir və nitqi daha ifadəli edir. Buna görə də sifətlərin və sifətin dərəcələrinin öyrədilməsi dil tədrisində vacib məsələlərdən biridir.

Tədris prosesində müşahidə olunur ki, sifətin dərəcələrinin tədrisi mövzusu şagirdlər və tələbələr tərəfindən çətin mənimsənilən mövzulardan biridir. Bu isə mövzunun yalnız nəzəri baxımdan deyil, həm də praktik və metodiki cəhətdən araşdırılmasını zəruri edir. Müqayisəli yanaşma əsasında aparılan təhlil müəllimlərə tədris prosesini daha səmərəli təşkil etməyə, şagirdlərin buraxdıqları tipik səhvləri öncədən müəyyənləşdirməyə və onların qarşısını almağa imkan yaradır.

Müasir dilçilikdə sifətin semantik, morfoloji və sintaktik xüsusiyyətləri müxtəlif aspektlərdən araşdırılsa da, onun tədris prosesində düzgün mənimsədilməsi, xüsusilə də orta və ali təhsil pillələrində effektiv öyrədilməsi aktual elmi-pedaqoji məsələ olaraq qalmaqdadır. Qlobal dillərarası inteqrasiya və müasir təlim texnologiyalarının inkişafı sifətin həm Azərbaycan, həm də digər dillərlə müqayisəli öyrənilməsini zəruri edir.

https://doi.org/10.36719/2789-6919/XIX/TT/ET/2026

Dil ictimai ünsiyyətin əsas vasitəsidir. Hər bir dil qanunauyğunluqlara malik sistemdir. Bütün dillər üçün ümumi qanunlar və qanunauyğunluqlar mövcuddur. Nitq hissələri ümumi bir kateqoriyadir. "Müstəqil mənasina, morfoloji əlamətinə və sintaktik roluna görə qruplaşan sözlərə nitq hissələri deyilir." Nitq hissələri dilin leksik və qrammatik sistemində mühüm yer tutur. Onların hər biri dilin müəyyən bir funksiyasını yerinə yetirir və ünsiyyət prosesində müxtəlif mənaları ifadə edir.

Leksik məna sözün formal hissəsinin mənasindan fərqli olan əsas (əşyavi) hissəsinin mənasidir. Qrammatik məna: 1) sözün formal hissəsinə aid olan məna; 2) sözün (əşyavi) hissəsinə deyil, bu əsas hissəyə əlavə olunan köməkçi ünsürlərə məxsus mənadır. Söz üçün ilkin məna əşyavi mənadır. Əşyavi məna termini real məna, leksik məna, lüğəvi məna, əsas məna anlayışları ilə eynidir. A.A.Potebnya nitq hissələrini ancaq cümlə səviyyəsində öyrənməyin doğru olduğunu, nitq hissələrinin dildə müəyyən inkişaf prosesi keçib dəyişdiyini qeyd edir. Onun fikrinə görə, ilkin adlar isim və sifətə ayrılma dövrünü keçmişdir (Potebnya, 1968, s. 243).

Dilçilik ədəbiyyatında dilin sistem xarakteri ilk dəfə sistemli şəkildə Ferdinand de Sössur tərəfindən əsaslandırılmışdır. O qeyd edirdi ki, dil vahidləri öz dəyərini sistem daxilindəki qarşılıqlı münasibətlərə görə qazanır (Sössür, 1966, s. 113). Bu sistemə görə nitq hissələri funksional və struktur mövqe tutur. Sifət bu nitq hissələrinin arasında xüsusi yerə malikdir, çünki sifət əşyanın əlamətini və keyfiyyətini bildirərək ismi konkretləşdirir. Sifətin əsas qrammatik göstəricilərindən biri dərəcə kateqoriyasıdır. Bu prinsip sifətin dərəcə kateqoriyasına da aiddir. Çünki sifətin adi, müqayisə və üstünlük dərəcələri bir-birinə münasibətdə mövcuddur. Azərbaycan dilçiliyində sifətin morfoloji xüsusiyyətləri geniş şəkildə araşdırılmışdır. A.A.Axundov göstərir ki, sifət müstəqil nitq hissəsi kimi əlamət bildirir və dərəcə kateqoriyası onun əsas morfoloji göstəricisidir

https://doi.org/10.36719/2789-6919/XIX/TT/ET/2026

(Axundov, 1979, s. 245). Müasir Azərbaycan dilində sifətin üç əsas dərəcəsi fərqləndirilir: adi, müqayisə və üstünlük dərəcələri. Müxtəlif sistemli dillərdə sifətin dərəcə kateqoriyası həm sintaktik, həm morfoloji, həm də leksik vasitələrlə ifadə olunur. Dillərin tipoloji fərqləri dərəcə kateqoriyasının quruluşuna öz təsirini göstərir. Flektiv dillərdə sintetik üsullarla, aqqlütinativ dillərdə isə dərəcə analitik vasitələrlə ifadə olunur. Azərbaycan dili aqqlütinativ quruluşlu dildir. Bu dillərdə qrammatik mənalar şəkilçilər vasitəsilə ifadə olunur, amma sifətin müqayisə və üstünlük dərəcələri daha çox analitik yolla – “daha” və “ən” sözləri ilə ifadə olunur: “daha gözəl”, “ən gözəl”. H.Həsənov qeyd edir ki, Azərbaycan dilində sifətin dərəcə formaları əsasən sintaktik vasitələrlə yaranır və morfoloji dəyişmə məhduddur (Həsənov, 2000, s. 132). Flektiv dillərdə isə fərqlidir. Məsələn, ingilis dilində sifətin dərəcəsi həm sintetik, həm də analitik üsulla düzələ bilir. Sadə sifətlərə -er və -est şəkilçiləri artırılır (tall – taller – tallest), mürəkkəb sifətlərdə isə more və most sözləri əlavə olunur. Bu xüsusiyyət hind-Avropa dillərində morfoloji dəyişmənin daha fəal olduğunu göstərir.

Nəticə olaraq deyə bilərik ki, sifətin dərəcə kateqoriyası müxtəlif sistemli dillərdə fərqli formalarda olsa da, onun əsas funksiyası dəyişmir: əlamətin intensivliyini və müqayisəsini bildirməkdir. Bu da dil sistemində sifətin sabit mövqe tutduğunu göstərir.

## Ədəbiyyat

1. Axundov, A. (1979). *Müasir Azərbaycan dili*. Maarif.
2. Həsənov, A. (2000). *Müasir Azərbaycan dilinin morfologiyası.* Maarif.
3. Potebnya, A.A. (1968) *Iz zapisok po russkoi grammatike*. Nauka.
4. Saussure, F.de. (1966). *Course in General Linguistics*. McGraw-Hill.

**https://doi.org/10.36719/2789-6919/XIX/TT/ET/2026**

**Günel Allahverdiyeva**
Azərbaycan Dövlət Pedaqoji Universiteti
filologiya üzrə fəlsəfə doktoru
https://orcid.org/0000-0001-8013-7741
babayeva2009@hotmail.com

# Kalka metodunun xüsusi adların üslubi ifadəsindəki funksiyası

***Açar sözlər:*** *kalka, semantika, üslubi funksiya, kommunikasiya, dilçilik*
***Keywords:*** *calque, semantics, stylistic function, communication, linguistics*

Məlumdur ki, "kalkalar başqa bir dilə məxsus sözlərin, yaxud soz birləşmələrinin tərkib hissələrini ana dilinin müvafiq sözləri və söz birləşmələri ilə dəqiq tərcümə etmək üçün həmin sözlərin modeli üzrə qurulmuş sözlər, yaxud ifadələrdir" (Sadıqova, 2002). Bildiyimiz kimi, üslubi funksiya müəllifin düşüncələrini, hisslərini və ya mesajını necə təqdim etdiyini müəyyən edir. Xüsusi adların üslubi funksiyasının saxlanmasında kalka üsulunun rolu əhəmiyyətlidir, çünki bu üsul mədəniyyətlərarası əlaqələri və dilin zənginləşməsini təmin edir. Məsələn, bəzən ingilis dilindən Azərbaycan dilinə tərcümə zamanı müəyyən adların adi adlarla eyniləşdirilməsi məqsədəuyğun hesab edilmir. Bu zaman həmin adların ifadə etdiyi mənanın saxlanması məqsədilə kalka üsuluna müraciət olunur. Kalka üsulu bilavasitə uyğunluğu olmayan dil vahidləri üçün tətbiq edilir. Bu üsulda, söz və ya ifadələrin tərkib hissələri, tərcümə edilən dilin uyğun elementləri ilə əvəz edilir.

Məlum olmayan xüsusi adların orijinal çalarlarını əks etdirməsi, anlaşılmazlıq yaratmaması üçün bəzən izahata ehtiyac duyula bilər. Bəzi tərcüməçilər bu üsulun əhəmiyyətini

**https://doi.org/10.36719/2789-6919/XIX/TT/ET/2026**

vurğulasa da, digərləri isə onun tətbiqinə o qədər də diqqət yetirmirlər. Bədii tərcümədə konkret mənanı əks etdirən xüsusi adların izah edilməsi vacibdir. Bu, oxucuya adın mənasını daha aydın şəkildə çatdırmağa imkan tanıyır. Kalka üsulu vasitəsilə, bir dilin digər dilə keçən xüsusi adları və ifadələri, yalnız mənasını deyil, həm də həmin mədəniyyətin və ya cəmiyyətin xüsusiyyətlərini daşıyır. Bu üsul xüsusilə dilin mədəni və tarixi kontekstlərini əks etdirmək üçün istifadə edilir (Sadıqova, 2002). Məsələn, bir dilə xarici bir adın keçirilməsi, həmin adın mənasını və ya mədəni fonunu da dilə gətirir. Misal üçün, yapon dilində "Tokyo Disneyland" ifadəsi, ingilis dilinə tərcümə edildikdə "Tokyo" və "Disneyland" kimi məşhur adlar, eyni zamanda, şəhərin və əyləncə parkının mədəniyyətini əks etdirir.

Kalka üsulu ilə bu tip adlar, dilin özünə xas üslubunu və mədəni məzmununu qoruyaraq çevrilir. Kalka üsulu xüsusi adların estetik funksiyasını artırmağa kömək edir. Xüsusilə bədii əsərlərdə, xüsusi adların doğru və məqsədli şəkildə tərcüməsi, mətndəki bədii təsiri gücləndirə bilər. Adın məhz həmin formada tərcümə olunması, mətndə bir ritm, harmoniya və ya xarakterin dərinliyini yaradır. Beləliklə, kalka üsulu, xüsusi adların dilin emosional tonuna və stilistik xüsusiyyətlərinə xidmət etməsini təmin edir. Məsələn, bir romanın qəhrəmanının adı "Silver Moon" (Gümüş Ay) olaraq tərcümə olunsa, bu adın özü poetik bir təsir yaradır. Burada "Silver" (gümüş) və "Moon" (ay) elementləri arasındakı əlaqə, xarakterin təbiəti və ya məkanın bədii təsviri ilə uyğun gəlir. Bu cür tərcümə, adın mədəni mənasını və estetik gücünü artırır.

Kalka üsulu ilə tərcümə olunan xüsusi adlar çox vaxt müəyyən simvolik və semantik mənalar daşıyır. Bu, əsərin daha dərindən anlaşılmasını və oxucuya yeni perspektivlər təqdim etməsini təmin edir. Məsələn, "Charles" – "Karl", "George" – "Georq", "William" – "Vilhelm", "James" – "Yakov" kimi nümunələr buna misal göstərilə bilər. Bibliyada rast gəlinən bir

**https://doi.org/10.36719/2789-6919/XIX/TT/ET/2026**

sıra adların müxtəlif dillərdə fərqli formaları da mövcuddur. Məsələn, "Mary" – "Maria" – "Məryəm", "Jesus" – "İisus" – "İsa", "Abraham" – "Avraam" – "İbrahim", "Moses" – "Moisey" – "Musa" və s. Eyni zamanda, müxtəlif dillərdə eyni məna daşıyan adlar da mövcuddur, məsələn, "Allahverdi" – "Theodore" – "Boqdan" – "Fedor" (Aydın, 2002).

İngilis dilində xüsusi adların üslubi funksiyasında kalka üsulunun rolu xüsusilə mədəniyyətlərarası əlaqələr, estetik funksiyalar, dilin zənginləşdirilməsi və qlobal kommunikasiya sahələrində əhəmiyyətlidir. Bu üsul, xüsusi adların yalnız mənasını deyil, həm də onların daşıdığı mədəni və emosional yükü qorumağa imkan verir (Məmmədov & Məmmədov, 2010). Kalka üsulu, dilin zənginliyini artıraraq, həm orijinal, həm də tərcümə olunmuş dilin üslubunu möhkəmləndirir.

## Ədəbiyyat

1. Aydın, A.A. (2002). *Şəxs adları lüğəti*. Çıraq.
2. Məmmədov, A.Y. & Məmmədov, M. (2010). *Diskurs təhlilinin koqnitiv perspektivləri*. Çaşıoğlu.
3. Sadıqova, S.A. (2002). *Azərbaycan dili terminologiyasının nəzəri problemləri*. Elm.

**https://doi.org/10.36719/2789-6919/XIX/TT/ET/2026**

**Yaqub Səmədov**
Azərbaycan Dövlət Pedaqoji Universitetinin
Ağcabədi filialı
tarix üzrə fəlsəfə doktoru
https://orcid.org/0009-0002-1584-9317
yaqub.semedov 63@ mail.ru

# Müasir dövrdə Azərbaycan – Özbəkistan hərbi əməkdaşlığının əhəmiyyəti

***Açar sözlər:*** *müasir dövr, Azərbaycan, Özbəkistan, əməkdaşlıq, hərbi*
***Keywords:*** *modern era, Azerbaijan, Uzbekistan, cooperation, military*

1991-ci il oktyabr ayının 18-də Azərbaycan yenidən öz müstəqilliyinə qovuşsa da, ölkəmizin Özbəkistanla sıx hərbi əməkdaşlığı son dövrlərə gedib çıxır. Danılmaz həqiqətdir ki, 1990-cı illərin axırı – 2000-ci illərin başlanğıcında Azərbaycanla Özbəkistan respublikaları arasında müəyyən məhdud çərçivədə hərbi əlaqələr mövcud olmuşdur, lakin bu əməkdaşlıq müvəqqəti xarakter daşımış, hərbi və antirerror təlimləri ilə yekunlaşmışdır.

Lakin İlham Əliyev Respublika Prezidenti seçildikdən sonra bu istiqamətdə mühüm addımlar atıldı. Belə ki, 2004-cü il martın 23-24-də Özbəkistanda (Həsənov, 2015, s. 451) dövlət başçıları səviyyəsində strateji tərəfdaşlıq “Bəyannamə”sinin təsdiqi, qısa müddət ərzində Prezident İlham Əliyev tərəfindən 2009-cu il 20 fevral tarixli hökümətlərarası “Saziş”in imzalanması hər iki ölkə arasında qarşılıqlı hərbi və texniki əməkdaşlığın qurulmasında mühüm rol oynadı. Həmin saziş 9 noyabr 2009-cu ildə Özbəkistan Respublikasının Prezidenti İslam Kərimov tərəfindən də təsdiqlənərək dövlətlərarası mühüm sənədə çevrildi (Öz-

**https://doi.org/10.36719/2789-6919/XIX/TT/ET/2026**

bəkistan Prezidenti, 2009). Buna uyğun olaraq, 29 noyabr 2019-cu ildə Bakıda müdafiə nazirləri səviyyəsində hər iki ölkənin təhlükəsizliyi ilə bağlı görüş keçirildi və 2020-ci il üçün birgə hərbi Əməkdaşlıq Planı qəbul olundu. 21 iyun 2022-ci il tarixdə isə Daşkənd şəhərində müdafiə nazirləri də daxil hər iki ölkənin prezidentinin iştirakı ilə yüksək səviyyəli görüş keçirildi və yekunda hərbi əməkdaşlıq sazişi imzalandı (Azərbaycanla Özbəkistan, 2022). Özbəkistan parlamenti 6 aprel 2023-cü ildə dövlətlərarası hərbi əməkdaşlıq üzrə imzalanmış müqavilələri təsdiq etdi və indiyədək hər iki ölkə arasında bağlanmış bütün müqavilələr hüquqi təsdiqini tapdı. Bu hərbi əməkdaşlığa ilk növbədə hərbi təhlükəsizlik, xüsusi əməliyyatlar, kiber informasiya, təhsil və hava məkanının təhlükəsizliyi və s. fəaliyyət sahələri daxildir.

21 sentyabr 2022-ci ildə Bakı şəhərində Müdafiə Nazirləri səviyyəsində keçirilən növbəti görüşdə də hər iki ölkə arasında hərbi əməkdaşlıq çərçivəsində maddi-texniki təchizat sahəsində əlaqələrin daha da genişləndirilməsinin vacibliyi xüsusi olaraq vurğulandı. Hərbi ekspert *Tərlan Eyvazov iki qardaş ölkənin hərbi əməkdaşlığının gələcək perspektivlərinə müsbət yanaşaraq qeyd edir ki,* kadr hazırlığı məsələsində Azərbaycan, təyyarələrin, helikopterlərin, tankların və digər hərbi maşınların modernləşdirilməsində isə Özbəkistanın təcrübəsi hər iki ölkəyə böyük fayda verə bilər (Məmməd, 2022). Digər tərəfdən vurğulamaq yerinə düşər ki, bu hərbi əməkdaşlıq həm də Cənubi Qafqaz və Mərkəzi Asiyada sülh və sabitlik üçün də xüsusi əhəmiyyətə malikdir (Azərbaycan-Özbəkistan hərbi əməkdaşlıq planı, 2019).

Müdafiə nazirliyi səviyyəsində 6 iyun 2024-cü il tarixdə Bakı şəhərində və 07 iyunda (2024-cü il) isə Daşkənd şəhərində hərbi əməkdaşlıq çərçivəsində hər iki ölkənin hərbi texniki, təhsillə bağlı inkişaf imkanlarının yenidən müzakirəyə

**https://doi.org/10.36719/2789-6919/XIX/TT/ET/2026**

çıxarılması da hərbi əməkdaşlığın əsas prioritetlərindəndir (Azərtac, 2024).

Nəhayət, 2025-ci il dekabr ayının 10-da hər iki respublikanın Təhlükəsizlik Şurasının katibliyi səviyyəsində keçirilən görüşdə birgə hərbi əməkdaşlığın yalnız Cənubi Qafqaz regionu üçüm deyil, həmçinin Mərkəzi Asiyada da sülhün və təhlükəsizliyin təminində əhəmiyyətli rol oynayacağına əminlik bir daha vurğulandı.

## Ədəbiyyat

1. *Azərbaycan-Özbəkistan hərbi əməkdaşlıq planı*. (29 oktyabr 2019.) chttps://azvision. az/ news/193409/news.html
2. Azərtac. (06.06.2024). *Azərbaycan ilə Özbəkistan arasında hərbi texniki sahədə əməkdaşlıq müzakirə edilib*. https://asela. az/ cemiyyet/ 3785- azrbaycan- il -ozbkistan-arasnda- hrbi-texniki-sahd-mkdalq- muzakir-edilib
3. Həsənov, Ə.M. (2015). *Azərbaycanın geosiyasəti*. Zərdabi LTD MMC.
4. *Özbəkistan Prezidenti Özbəkistan və Azərbaycan arasında hərbi-texniki əməkdaşlıq haqqında müqaviləni təsdiqləyib*. (09 noyabr 2009). https://az. trend. az/azerbaijan/politics/1576105.html.
5. *Azərbaycanla Özbəkistan arasında hərbi sahədə əməkdaşlıq haqqında saziş imzalanıb*. (21 İyun 2022). https://www.e-huquq.az/az/news/siyaset/50705.html.
6. Məmməd S. (24 iyun 2022-ci il). *Azərbaycan- Özbəkistan hərbi əməkdaşlığı: Ölkəmiz rəsmi Daşkəndin təcrübələrindən yararlana bilər*. https:// yenicag. az/azerbaycan-ozbekistan-herbi-emekdasligi- olkemiz- resmi- daskendin-tecrubelerinden-yararlana-biler-ekspert.

*Elm və Təhsildə Müasir Tələblər* **XIX Tezislər Toplusu/ 19 aprel / 28-33**
*Modern Requirements in Science and Education* **XIXTheses Collection/ 19 april / 28-33**
**https://doi.org/10.36719/2789-6919/XIX/TT/ET/2026**

**Mobil Məcidov**
Azərbaycan Dövlət Pedaqoji Universitetinin
Ağcabədi filialı
iqtisadiyyat üzrə fəlsəfə doktoru
https://orcid.org/0009-0005-1955-4059
mobil.mecidov@mail.ru
**Seymur Süleymanov**
Azərbaycan Dövlət Pedaqoji Universitetinin
Ağcabədi filialı
fizika-riyaziyyat üzrə fəlsəfə doktoru
https://orcid.org/0009-0007-1106-1684
suleymanovseymur190@gmail.com

# Yeni texnologiyalar dövründə elm-təhsil əlaqəsi

***Açar sözlər:*** *rəqəmsallaşma, müasir təhsil, elm-təhsil inteqrasiyası, innovasiya, interaktiv öyrənmə*
***Keywords:*** *digitalization, modern education, science-education integration, innovation, interactive learning*

XXI əsr informasiya və texnologiya cəmiyyətinin formalaşması ilə yadda qalır. Bu dövrdə elm və təhsil sistemi yalnız bilik ötürmə vasitəsi kimi qalmayıb, həm də innovasiya, yaradıcılıq və analitik düşüncə qabiliyyətlərinin formalaşdığı mərkəzə çevrilmişdir (Mehdiyev, 2019). Yeni texnologiyalar, rəqəmsal resurslar və informasiya-kommunikasiya vasitələri elm və təhsilin qarşılıqlı əlaqəsini gücləndirərək onların yeni formatda fəaliyyət göstərməsinə imkan yaradır.

Müasir təhsil sistemləri artıq yalnız auditoriyada keçirilən dərslərlə məhdudlaşmır. Onlayn platformalar, virtual laboratoriyalar və simulyasiya proqramları tələbələrə bilikləri interaktiv şəkildə mənimsəmək və praktik tətbiq etmək imkanı

**https://doi.org/10.36719/2789-6919/XIX/TT/ET/2026**

verir (Abbasov, 2020). Bu isə elm və təhsilin bir-birini tamamlayan strukturda inkişafını təmin edir.

Rəqəmsal texnologiyalar müasir təhsil sisteminin əsas hərəkətverici qüvvələrindən biridir. Elektron dərsliklər, onlayn kurslar, video dərslər və virtual laboratoriyalar tələbələrə mövzuları praktik şəkildə öyrənmək imkanı verir (Hüseynov, 2018).

Azərbaycanda da rəqəmsallaşma sahəsində mühüm addımlar atılmışdır. Elektron təhsil platformaları, "Distant Təhsil Portalı" və müxtəlif interaktiv proqramlar ölkə təhsil sisteminə inteqrasiya edilmişdir. Bu vasitələr tələbələrin fərdi öyrənmə imkanlarını artırır və müəllimlərin tədris prosesini daha çevik idarə etməsinə şərait yaradır.

Rəqəmsal texnologiyaların tətbiqi həm də elmi araşdırmaların tədrisə inteqrasiyasını asanlaşdırır. Məsələn, data analiz proqramları, tədqiqat simulyatorları və interaktiv laboratoriyalar tələbələrə elmi təcrübələri daha sürətli və dəqiq öyrənmək imkanı verir. Bu yanaşma elm-təhsil əlaqəsini yeni səviyyəyə qaldırır.

Bununla yanaşı, texnologiyanın tətbiqində bəzi problemlər də mövcuddur. Regionlararası fərqlər, texnoloji infrastrukturun zəifliyi və müəllimlərin rəqəmsal bacarıqlarının yetərsizliyi təhsil prosesinin keyfiyyətinə təsir edə bilər (Məmmədov, 2022).

Müasir dövrdə tələbə mərkəzli təhsil modeli getdikcə daha çox tətbiq olunur. Bu modeldə tələbə passiv öyrənən deyil, aktiv iştirakçı kimi çıxış edir. Müəllim isə daha çox istiqamətləndirici və fasilitator rolunu oynayır (Əliyev, 2021).

İnteraktiv metodlar – qrup işləri, layihə əsaslı öyrənmə, debatlar və praktiki tapşırıqlar – tələbələrin dərsə marağını artırır və onların müstəqil düşünmə qabiliyyətini inkişaf etdirir. Bu yanaşma həm də tələbələr arasında əməkdaşlıq və kommunikasiya bacarıqlarının formalaşmasına şərait yaradır.

**https://doi.org/10.36719/2789-6919/XIX/TT/ET/2026**

Azərbaycan universitetlərində interaktiv metodların tətbiqi üzrə pilot layihələr mövcuddur. Məsələn, layihə əsaslı təhsil, simulyasiya laboratoriyaları və praktikumlar tələbələrin praktiki biliklərini artırır və onların elmi fəaliyyətə marağını yüksəldir.

Elm və təhsilin innovativ inteqrasiyası müasir təhsil sistemində əsas prioritetlərdən biridir. Bu inteqrasiya tələbələrin yalnız nəzəri bilikləri mənimsəməsi ilə kifayətlənməyib, onların praktik, elmi və analitik bacarıqlarını inkişaf etdirməyə xidmət edir (Əliyev, 2021). Belə yanaşma tədris prosesini elmi tədqiqatlarla birləşdirir və nəticədə tələbələr daha kompleks, yaradıcı və problem yönümlü düşünmə bacarıqlarını formalaşdırırlar.

Tədqiqat yönümlü öyrənmə (Research-Based Learning) modeli tələbələrə elmi tədqiqat aparmaq, məlumat toplamaq, analiz etmək və nəticələr çıxarmaq imkanını yaradır. Bu modeldə tələbələr dərslik biliklərini sadəcə yadda saxlamaqla kifayətlənməyib onları real problemlərin həllinə tətbiq edirlər. Bu yanaşma həm də tələbələrin tənqidi düşünmə qabiliyyətini gücləndirir (Qasımov, 2017).

Elm və təhsilin innovativ inteqrasiyası yalnız universitet daxilində baş vermir; bu proses sənaye və akademik sektorun sıx əməkdaşlığı ilə daha da güclənir. Universitetlərin sənaye müəssisələri ilə əməkdaşlıq layihələri tələbələrə real iş təcrübəsi qazandırır və onların elmi bilikləri praktik tətbiqlərlə birləşdirilir (Əliyev, 2021). Məsələn, proqramlaşdırma və mühəndislik fakültələrində startap laboratoriyaları tələbələrə həm akademik bilikləri sınamağa, həm də kommersiya yönümlü məhsullar yaratmağa imkan verir. Bu cür layihələr innovasiya bacarıqlarının formalaşmasına və elm-təhsil əlaqəsinin güclənməsinə birbaşa təsir göstərir.

Rəqəmsal alətlər yalnız praktiki bacarıqların inkişafına xidmət etmir, həm də tələbələrin tədqiqat aparmaq, hipotez qurmaq və eksperiment nəticələrini təhlil etmək qabiliyyətlərini

**https://doi.org/10.36719/2789-6919/XIX/TT/ET/2026**

gücləndirir. Bu isə elm-təhsil inteqrasiyasını həm keyfiyyət, həm də məhsuldarlıq baxımından yüksəldir.

Elm və təhsilin innovativ inteqrasiyasında multidissiplinar yanaşmalar mühüm rol oynayır. Müasir problemlər çox vaxt yalnız bir sahənin bilikləri ilə həll edilə bilməz; bunun üçün bir neçə elmi istiqamətin birləşdirilməsi tələb olunur.

Universitetlərdə multidissiplinar layihələrin tətbiqi tələbələrə müxtəlif sahələr arasında əlaqələri anlamağa və kompleks problemləri həll etməyə imkan yaradır. Bu yanaşma həm də tələbələrin yaradıcılıq və kritik düşünmə bacarıqlarının inkişafını təmin edir.

Elm və təhsilin innovativ inteqrasiyası nəticəsində tələbələr daha yüksək səviyyədə elmi bacarıqlara yiyələnir, praktiki təcrübə qazanır və əmək bazarında daha rəqabət qabiliyyətli olurlar. Bu yanaşma həm də ölkənin innovasiya potensialının artırılmasına xidmət edir (Əliyev, 2021).

Eyni zamanda bu inteqrasiya müəllimlərin peşəkarlığının artmasına, tədris proqramlarının müasirləşməsinə və elmi-tədqiqat infrastrukturlarının güclənməsinə səbəb olur. Müəllimlər tələbələrin tədqiqat fəaliyyətini istiqamətləndirərək onların elmi düşüncəsini inkişaf etdirirlər, bu isə təhsil keyfiyyətinin yüksəlməsinə birbaşa təsir göstərir.

Azərbaycanda elm və təhsilin innovativ inteqrasiyası bir sıra layihələr və pilot proqramlar vasitəsilə həyata keçirilir. Universitetlərdə startap laboratoriyaları, texnoparklar, virtual laboratoriyalar və müxtəlif tədqiqat mərkəzləri fəaliyyət göstərir. Bu strukturlar tələbələrin həm akademik, həm də praktik biliklər qazanmasına şərait yaradır.

Müasir problemlər mürəkkəb xarakter daşıdığından onların həlli üçün multidissiplinar yanaşmalar tələb olunur. Bu yanaşma tələbələrə müxtəlif sahələr üzrə bilikləri inteqrasiya etməyə və kompleks problemləri həll etməyə imkan verir (Hüseynov, 2018).

**https://doi.org/10.36719/2789-6919/XIX/TT/ET/2026**

Bundan əlavə, innovativ yanaşmalar – startap layihələri, inkubasiya mərkəzləri və texnoparklar – təhsil sisteminə yeni dinamika gətirir. Universitetlərin innovasiya mərkəzlərinə çevrilməsi, elmi tədqiqatların kommersiyalaşdırılması və gənc ixtiraçıların dəstəklənməsi elm-təhsil əlaqəsinin inkişafına xidmət edir.

Multidissiplinar və innovativ yanaşmalar tələbələrdə yaradıcılıq, təşəbbüskarlıq və liderlik keyfiyyətlərinin formalaşmasına müsbət təsir göstərir. Bu yanaşmalar eyni zamanda ölkənin innovasiya potensialını artırır.

Yeni texnologiyalar dövründə tətbiq olunan yanaşmaların bəzi çətinlikləri də mövcuddur. Müəllimlərin texnologiyaya uyğunlaşma problemi, maddi-texniki baza çatışmazlığı, təhsil proqramlarının köhnəlməsi və regionlararası fərqlər əsas çətinliklər sırasındadır (Məmmədov, 2022).

Müəllimlərin peşəkar inkişafı bu sahədə prioritet məsələdir. Onların rəqəmsal texnologiyalardan istifadə bacarıqlarının artırılması və yeni təlim metodlarına yiyələnməsi təhsilin keyfiyyətinə birbaşa təsir edir.

Eyni zamanda, dövlət siyasətinin və institusional dəstəyin gücləndirilməsi müasir təhsil yanaşmalarının uğurla tətbiqi üçün zəruridir. Azərbaycanda son illərdə aparılan təhsil islahatları, proqramların yenilənməsi və texnoloji infrastrukturun inkişafı bu sahədə mühüm rol oynayır.

Yeni texnologiyalar dövründə elm və təhsil əlaqəsi sürətlə yenilənir və inkişaf edir. Rəqəmsallaşma, tələbə mərkəzli təhsil, tədqiqat yönümlü öyrənmə, multidissiplinar yanaşmalar və innovativ metodlar bu əlaqənin əsas elementləridir.

Bu yanaşmalar tələbələrin yalnız akademik biliklərini artırmır, həm də onların analitik düşüncə, yaradıcılıq, əməkdaşlıq və liderlik bacarıqlarının formalaşmasına şərait yaradır. Elm və təhsilin inteqrasiyası yeni texnologiyalar vasitəsilə daha da güclənir və tələbələrin elmi fəaliyyətə marağını artırır.

**https://doi.org/10.36719/2789-6919/XIX/TT/ET/2026**

Müasir yanaşmaların uğurla tətbiqi üçün texnoloji infra-strukturun inkişafı, müəllimlərin peşəkar bacarıqlarının artırılması, təhsil proqramlarının müasirləşdirilməsi və dövlət dəstəyinin gücləndirilməsi vacibdir. Gələcəkdə elm və təhsil sistemlərinin daha sıx inteqrasiya olunacağı və innovasiyaların əsas rol oynayacağı gözlənilir.

## Ədəbiyyat

1. Abbasov, A. (2020). *Təhsildə rəqəmsallaşma və onun perspektivləri.* Elm və Təhsil.
2. Əliyev, N. (2021). *Elm və təhsilin inteqrasiyası problemləri.* Azərbaycan Dövlət Nəşriyyatı.
3. Hüseynov, R. (2018). *Müasir təlim metodları və interaktiv öyrənmə.* Təhsil.
4. Qasımov, F. (2017). *Multidissiplinar yanaşmaların əsasları.* Elm və İnnovasiya Nəşriyyatı.
5. Məmmədov, E. (2022). *Azərbaycan təhsil sistemində islahatlar və texnologiya tətbiqi.* Təhsil və İnnovasiya Mərkəzi.

**https://doi.org/10.36719/2789-6919/XIX/TT/ET/2026**

**Maya Qasımova**
Azərbaycan Dövlət Pedaqoji Universiteti
pedaqogika üzrə fəlsəfə doktoru
https://orcid.org/ 0000-0001-9116-4331
maya0866@gmail.com

# İbtidai məktəbdə mətn üzrə işin təkmilləşdirilməsi yolları: yeni tapşırıq modelləri, yaradıcı və interaktiv üsullar

***Açar sözlər:*** *mətn üzrə iş, ibtidai təhsil, interaktiv təlim, yaradıcı tapşırıqlar, şagirdyönümlü yanaşma*

***Keywords:*** *work with text, primary education, interactive learning, creative tasks, student-oriented approach*

İbtidai təhsil mərhələsində mətn üzrə iş şagirdlərin oxu bacarıqlarının, nitq inkişafının və ümumi təfəkkür səviyyəsinin formalaşmasında əsas rol oynayır. Lakin müşahidələr göstərir ki, bir çox hallarda mətn üzrə iş yalnız oxuma və suallara cavab vermə ilə məhdudlaşır. Bu isə şagirdlərin məntiqi və tənqidi təfəkkürünün inkişafına, yaradıcı potensialının üzə çıxarılmasına imkan vermir.

Məsələnin aktuallığı müasir təhsil sistemində kompetensiyaya əsaslanan yanaşmanın tətbiqi ilə bağlıdır. Bu yanaşma şagirdlərin yalnız bilik əldə etməsini deyil, həm də onu təhlil etməsini və yeni situasiyalarda istifadə etməsini tələb edir. Mətn üzrə iş dedikdə, şagirdlərin mətnin məzmununu anlama, təhlil etmə, qiymətləndirmə və yaradıcı şəkildə yenidən qurma fəaliyyətləri nəzərdə tutulur.

Müasir pedaqogikada mətn üzrə iş aşağıdakı mərhələləri əhatə edir: -Mətnəqədərki fəaliyyət (proqnozlaşdırma, motivasiya); -Mətn üzərində iş (anlama, təhlil); -Mətnsonrası fəaliyyət (müzakirə, yaradıcı tətbiq).

**https://doi.org/10.36719/2789-6919/XIX/TT/ET/2026**

Mətn üzrə işdə aşağıdakı yeni tapşırıq modellərindən istifadə etmək olar:

1. Açıq tipli tapşırıqlar. Bu tip tapşırıqların konkret bir cavabı olmur. Məsələn: "Mətnin sonunu dəyişərək yeni bir sonluq yazın", "Baş qəhrəmanın yerində siz olsaydınız, necə davranardınız?" Bu qəbildən olan tapşırıqlar tənqidi və yaradıcı təfəkkürü inkişaf etdirir; 2. Problem əsaslı tapşırıqlar. Şagirdlər qarşıya qoyulan problemi mətn əsasında həll edir. Məsələn, "Qəhrəmanın qarşılaşdığı problemi həll etmək üçün 3 alternativ yol təklif edin". Bu tipli tapşırıqlar şagirdlərin yaş səviyyəsinə uyğun sadələşdirilmiş şəkildə verilməlidir; 3. Vizual və qrafik tapşırıqlar. "Hekayə xəritəsi", "Hadisələrin sxemi" və s. tipli vizual təqdimatlar mətndən əldə olunan informasiyanın strukturlaşdırılmasını asanlaşdırır. 4. Rollu oyunlar və dramlaşdırma. Bu zaman şagirdlər mətn personajlarını canlandırırlar. Nəticədə onların nitq bacarığı inkişaf edir, emosional qavramaları güclənir.

Mətn üzrə işin təkmilləşdirilməsi üçün bir sıra yaradıcı tapşırıqlardan da istifadə etmək olar:

1."Mətnin transformasiyası". Şagirdlər mətnin janrını dəyişirlər: hekayəni dialoqa çevirirlər, nağılı məktub formasında yazırlar, mətnə yeni obrazlar, yeni epizodlar əlavə edirlər və s. Bu tipli yaradıcı çalışmalar vasitəsilə şagirdlərdə bildikləri bədii əsərləri yeni kompozisiyada modelləşdirmək və ya müstəqil olaraq yeni hekayə modeli qurmaq bacarıqları təkmilləşir.

2. "Boşluqları doldur" modeli. Mətnin müəyyən hissələri çıxarılır və şagirdlər tərəfindən tamamlanır.

3. Alternativ baxış bucağı. Mətndəki hadisə baş (ikinci dərəcəli) qəhrəmanın dilindən danışılır. Bu zaman empatiya və analitik düşünmə inkişaf edir.

4. "Bir cümlə - bir hekayə". Şagirdlərə oxu mətnindən hər hansı bir cümləni və ya mətnlə bağlı verilmiş atalar sözlərindən birini seçib oxumaq, mənasını izah etmək və həmin mənanı əsas götürərək özləri üçün bir mövzu müəyyənləşdirmək tapşırılır.

**https://doi.org/10.36719/2789-6919/XIX/TT/ET/2026**

Daha sonra şagirdlər həmin mövzu ətrafında beş-on cümlədən ibarət mətn qururlar. Bu mətn hekayə, ibrətamiz nağıl, kiçik şeir, mühakimə xatrakterli yazı və s. formada ola bilər. Əsas odur ki, şagirdlər oxu mətnindən seçdikləri cümlənin (və ya atalar sözünün) quracaqları mətnin əsas ideyası, ana xətti olmasına diqqət etməlidirlər.

Bununla yanaşı, oxu mətnləri ilə iş zamanı bir sıra interaktiv üsullardan (beyin həmləsi, debat və müzakirələr, klaster, karusel, ziq-zaq, layihələrin hazırlanması və s.) istifadə şagirdlərin yalnız mətnin məzmununu qavramasını deyil, həm də onu təhlil etməsini, qiymətləndirməsini və yaradıcı şəkildə tətbiq etməsini təmin edir.

Məsələn, 3-cü sinif dərsliyində "Koala" mətni verilmişdir. Müəllim şagirdlərdə koala haqqında təsəvvür formalaşdırmaq, onların yaşayış mühiti, xüsusiyyətləri haqqında biliklərini genişləndirmək, həmçinin, tədqiqat və təqdimat bacarıqlarını inkişaf etdirmək məqsədilə layihənin hazırlanması metodundan istifadə edə bilər.

Mövzu və məqsəd müəyyən edildikdən sonra müəllim şagirdləri dörd qrupa bölür və hər qrupa hazırlanacaq layihə ilə bağlı müəyyən tapşırıqlar verir. I qrupa koala haqqında maraqlı məlumatlar toplamaq (harada yaşayır, neçə il ömrü olur, nə ilə qidalanır və s.); II qrupa koalalara aid videolar, şəkillər tapmaq; III qrupa "Koalanın bir günü" adlı qısa hekayə hazırlamaq; IV qrupa isə "Koalaları qoruyaq" şüarı ilə plakat hazırlamaq tapşırığı verir. Müəllim şagirdlərlə birlikdə layihə üzərində işin başlama və başa çatma müddətini müəyyən edir. Şagirdlər layihənin hazırlanmasına başlayırlar.

Onlar topladıqları məlumatları sistemləşdirir, "Koala haqqında öyrəndiklərimiz" başlığı altında təqdimat hazırlayırlar. Sonda araşdırmalar sayəsində hazırladıqları layihəni sinifdə təqdim edirlər. Beləliklə, şagirdlər fəaliyyətə cəlb edilərək öyrənir və öyrəndiklərini daha yaxşı yadda saxlayırlar. Müasir

**https://doi.org/10.36719/2789-6919/XIX/TT/ET/2026**

dövrdə mətn üzrə işin təkmilləşdirilməsi üçün yeni tapşırıq modellərinin və interaktiv üsulların tətbiqi zəruridir. Bu yanaşmalar şagirdin öz potensialının fərqinə varmasına və cəmiyyət üçün intellektual dəyər kəsb edən bir fərd kimi formalaşmasına kömək edir.

**https://doi.org/10.36719/2789-6919/XIX/TT/ET/2026**

**Eynur Rüstəmov**
Heydər Əliyev adına Hərbi İnstitut
https://orcid.org/0009-0009-5031-1150
eynur.rustamov@mail.ru

# Cinayət hüququnun əsas xüsusiyyətləri

***Açar sözlər:*** *hüquq, cinayət, cəza, məsuliyyət, müdafiə, qanun pozuntusu*
***Keywords:*** *law, crime, punishment, responsibility, defense, violation of the law*

Cinayət hüququ hüququn müstəqil bir sahəsi olub, xüsusiyyətləri özünün predmet və metodu ilə müəyyən edilir. Cinayət hüququnun tənzim edilməsinin predmetini yalnız cinayətin baş verməsi ilə əlaqədar olan ictimai münasibətlər təşkil edir. Cinayət hüquq pozuntusunun subyekti kimi cinayət törətmiş şəxslər və hüquq tətbiqedici orqanlar şəxsində dövlət çıxış edir. Cinayət hüququnun xüsusiyyətləri, həmçinin, onun vəzifə və funksiyalarında özünü göstərir. Cinayət hüququnun əsas vəzifəsi – cəmiyyəti ən təhlükəli hüquq pozuntularından müdafiə (mühafizə) etməkdir. Buna görə də cinayət hüququnun əsas funksiyası – mühafizəedici funksiyadır.

Cinayət hüququ hüququn bir sahəsi kimi mövcud ictimai münasibətlər sistemi üçün təhlükəli əməllərin cinayət olmasını və cəzalandırılmasını, həmçinin, cinayət məsuliyyəti və ondan azad etməni müəyyən edən, ali hakimiyyət orqanları tərəfindən təsbit edilən hüquq normalarının məcmusudur.

Cinayət hüququ cinayətkarlıqla mübarizədə strateji və taktiki cəhətləri müəyyən edən cinayət üzrə siyasətin həyata keçirilməsi vasitəsidir. Müasir mərhələdə bu siyasət iki əsas tendensiya ilə xarakterizə olunur.

**https://doi.org/10.36719/2789-6919/XIX/TT/ET/2026**

Birincisi, ağır cinayətlər törədən, yaxud cinayət qanununu dəfələrlə pozan şəxslərə (xüsusilə residivistlərə, peşəkar cinayətkarlara – mafiya strukturlarının, yaxşı təşkil olunmuş cinayət qruplarının rəhbərlərinə) sərt cəza tədbirlərinin tətbiqi.

İkincisi, böyük ictimai təhlükə hesab edilməyən cinayətlərə görə cinayət məsuliyyətinin sferalarının məhdudlaşdırılması. Belə ki, cinayət qanununu ilk dəfə pozan şəxsə cəmiyyətdən təcrid etmə ilə əlaqədar olmayan cəza tətbiq edilir.

– Bir ictimai-təhlükəli hərəkətdən (hərəkətsizlikdən) ibarət olan əməllər. Məsələn, (Azərbaycan Respublikası Cinayət Məcəlləsi, 2020, mad.167): Qanunsuz olaraq dini ayinlərin icrasına mane olma.

– Alternativ hərəkətlərlə edilən əməllər. Məsələn; (Azərbaycan Respublikası Cinayət Məcəlləsi, 2020, mad.274): Dövlətə xəyanət, yəni Azərbaycan Respublikasının suverenliyi, ərazi toxunulmazlığı, dövlət təhlükəsizliyi və ya müdafiə qabiliyyəti zərərinə olaraq Azərbaycan Respublikasının vətəndaşı tərəfindən qəsdən törədilən əməl; düşmən tərəfinə keçmə, casusluq, dövlət sirrini xarici dövlətə vermə. Azərbaycana qarşı düşmənçilik fəaliyyəti aparmaqla xarici dövlətə, təşkilata və ya onların nümayəndələrinə kömək etmə.

– İki və ya daha artıq ictimai-təhlükəli hərəkətlə törədilən cinayətlər: Misal üçün (Azərbaycan Respublikası Cinayət Məcəlləsi, 2020, mad. 149): zorlama, yəni zərərçəkmiş şəxsə və ya başqa şəxslərə qarşı zor tətbiq etməklə və ya belə zor tətbiq etmə hədəsi ilə və zərərçəkmis şəxsin köməksiz vəziyyətindən istifadə etməklə onunla cinsi əlaqədə olma. Konkret mürəkkəb cinayətlər də sadə cinayətlər kimi bir cinayət tərkibini təşkil edir və CM-nin bir maddəsi ilə tövsif edilir. Konkret mürəkkəb cinayətlər zahiri əlamətlərinə görə cinayətlər çoxluğuna bənzəyir. Bunun üçün də onları fərqləndirmək zəruridir.

Konkret mürəkkəb cinayətlərin uzanan, davam edən, mürəkkəb tərkibli cinayətlər kimi növləri vardır.

**https://doi.org/10.36719/2789-6919/XIX/TT/ET/2026**

1) Uzanan cinayətlər; Anlayış etibarı ilə, adətən, qanun cinayət təqibi hədəsi altında müqəssirin üzərinə qoyduğu vəzifələrinə uzun müddət yerinə yetirilməməsi ilə bağlı hərəkət, yaxud hərəkətsizlik başa düşülür.

2) Davam edən cinayətlər. Bu cinayət bir məqsədə yönəldilmiş, bir vahid niyyət ətrafında birləşmiş və eyniyyət təşkil edən bir neçə cinayət əməlinin nəticəsində yaranır.

3) Bütün hərəkət aktları vahid niyyətlə bağlıdır;

4) CM-nin Xüsusi hissəsinin bir norması ilə əhatə olunur və konkret cinayət növünü yaradır;

5) Vahid niyyət ətrafında birləşmiş eyniyyət təşkil edən cinayət əməlləridir;

6) Törədilmiş əməllər bir-birindən zaman intervalı ilə ayrılır.

Mürəkkəb tərkibli cinayətlər (14 may 1999-cu il AR Ali Məhkəməsi Plenumunun “Özgə əmlakını qanunsuz ələkeçirmə və talama işləri üzrə qanunvericiliyinin məhkəmələr tərəfindən tətbiqi təcrübəsi”): Hər biri ayrılıqda müstəqil cinayət qismində nəzərdən keçirilən iki və ya bir neçə hərəkətin məcmusundan əmələ gəlir. Qanunverici, müxtəlif növ əməllər daxili vəhdətlə bağlı olduqda və bu səbəbdən yüksək təhlükəlilik kəsb etdikdə bunları vahid cinayət tərkibində birləşdirir. Deməli, ayrılıqda hər biri müstəqil konkret cinayət sayılan, lakin qarşılıqlı əlaqədə konkret cinayətin digər növünü yaradan bir cinayət tərkibi ilə əhatə olunan iki və daha artıq əməlin birliyinə deyilir. Quruluşuna və elementlər arasındakı əlaqənin xarakterinə görə mürəkkəb tərkibli cinayətlərin aşağıdakı növlərini fərqləndirmək olar. Hər biri müstəqil cinayət sayılan iki və daha artıq hərəkətin tipik əlaqəsindən yaranan konkret cinayətlər: Bu növ cinayətlər ya maddənin dispozisiyasında bilavasitə, ya da dispozisiyasının ağırlaşdırıcı halları olan bölməsində göstərilir. Belə ki, Quldurluq (Azərbaycan Respublikası Cinayət Məcəlləsi, 2020, mad.181) birinci hala, hakimiyyət nümayəndəsinə müqavimət göstərməklə törədilən xuliqanlıq (Azərbaycan Res-

**https://doi.org/10.36719/2789-6919/XIX/TT/ET/2026**

publikası Cinayət Məcəlləsi, 2020, mad.221-222) ikinci hala uyğundur.

Misal üçün: Quldurluq yəni özgənin əmlakını ələ keçirmə məqsədi ilə hücuma məruz qalmış şəxsin həyatı və ya sağlamlığı üçün təhlükəli zorakılıqla və ya belə zorakılıq tətbiq ediləcəyi hədəsi ilə bağlı olan basqın. Özgənin əmlakını ələ keçirmə talama cinayətlərinin bir çoxunda nəzərdə tutulmuşdur. Mənimsəmə və ya israf etmə (Azərbaycan Respublikası Cinayət Məcəlləsi, 2020, mad.179). Həyat üçün təhlükəli zorakılıq isə "Qəsdən sağlamlığa ağır zərər vurma" (Azərbaycan Respublikası Cinayət Məcəlləsi, 2020, mad.126). Bu hərəkətlər 179 və 126-cı maddələrlə deyil, 181- quldurluq maddəsi ilə tövsif edilir.

Beləliklə, konkret cinayətlərin öyrənilməsinin əhəmiyyətini aşağıdakı şəkildə yekunlaşdırmaq olar. Konkret cinayətlərin anlayışının və növlərinin öyrənilməsi, cinayətlər çoxluğunun tərkib elementlərinin öyrənilməsidir. Cinayətlər çoxluğunun konkret cinayətlərə bənzəyən növü ilə müqayisə etmək və onları fərqləndirmək üçün mühüm əhəmiyyət kəsb edir.

## Ədəbiyyat

1. *Azərbaycan Respublikası Cinayət Məcəlləsi*. (2020). Mad. 126-274.

*Elm və Təhsildə Müasir Tələblər* **XIX Tezislər Toplusu/ 19 aprel / 42-44**
*Modern Requirements in Science and Education* **XIXTheses Collection/ 19 april / 42-44**
**https://doi.org/10.36719/2789-6919/XIX/TT/ET/2026**

**Sevda Ağayeva**
Azərbaycan Dövlət Pedaqoji Universiteti
https://orcid.org/0000-0002-5615-6923
seva.ava.175@mail.ru

# Dilçilikdə söz birləşməsi anlayışının əhəmiyyəti və tətbiqi

***Açar sözlər:*** *söz birləşməsi, nitq prosesi, məfhum, kateqoriya, tipologiya*
***Keywords:*** *word combination, speech process, concept, category, typology*

Sözlərin birləşmə imkanları dedikdə onların birləşmə imkanları və söz birləşməsi məfhumunun linqvistik təbiətini əlində əsas götürən çətinlik kateqoriyalarının təqdim etdiyi söz birləşmələrini tədqiq etməkdir. Leksikanın mənimsənməsi üçün əsas tələblərdən birinin sözləri kombinə etmək bacarığının olduğunu qeyd edərək, ingilis dilində sözlərin semantik xüsusiyyətlərinə, digər sözlərlə məna münasibətlərinə, sözün morfoloji və sintaktik formasına əsaslanmaqla söz birləşməsi vasitəsilə cümlə tərkibinə daxil olduğundan, sözlərin leksik, morfoloji və sintaktik birləşmələrini qeyd edir. Bununla əlaqədar, sözlərin mənimsənməsinə dair çətinlikləri 2 kateqoriyaya bölürlər. Birinci kateqoriyaya aid olan çətinliklər sözün mənsub olduğu nitq hissəsinin xüsusiyyətləri ilə bağlıdır. İkinci kateqoriyaya dair çətinliklər isə sözün mənası və onun müəyyən sözlərlə birləşə bilmək imkanları ilə əlaqədardır (Talyzina, 1975, s. 45). Sintaktik konstruksiyalarda isə sifətlərlə birləşmə imkanlarına üstünlük verirlər. Bu zaman tədqiqatçıların marağı ana dilindəki ekvivalentlərin üzərində cəmləşir. Bu fikirlər fransız dilinin tədrisi üçün əhəmiyyətli ola bilər. Tədqi-

**https://doi.org/10.36719/2789-6919/XIX/TT/ET/2026**

qatçı alimlər xarici dildə söz birləşmələrini iki qrupda müəyyənləşdirirlər:

1.Birinci qrupa qavranılması öyrənənlər üçün xüsusi cəhd tələb etməyənlər: "many books, a beautiful girl, a good picture" və s. kimi söz birləşmələri aiddir.

2. İkinci qrupa isə doğma və xarici dildə sözlərin işlənmə məqamlarının üst-üstə düşməsi ilə əlaqədar çətinlik törədən söz birləşmələri: To marry somebody, strong feeling, lonely business, big argument, big affair, to take to smb. və s. aid edilir.

Q.İ.Boqin söz birləşmələrinin tipologiyasını verərkən daha geniş tədqiqatlara yer vermişdir. O, söz birləşmələrini: 1.söz; 2.forma seçimi; 3.söz əlaqələri (1-ci qrup); 4.nitq prosesində hazır material kimi işlədilən sözlərin işlənməsi ilə bağlı (2-ci qrup) çətinlik səviyyəsi ilə bağlı olaraq təsnifləndirir.

Hər iki qrupa semantik sıralanma (1-ci qrup üçün lazımi sözün seçilməsi, misal üçün, littlebig) və ya 2-ci qrup üçün sözlərin söz birləşmələri tərkibində idiomatik işlənməsi (məsələn, for the first time, in his time) eləcə də, strukturda olan çətinliklərlə bağlı, 1-ci qrup üçün strukturun seçilməsi (my sister and I), ekvivalenti rus dilində ayrı-ayrı sözlərlə ifadə olunan ingilis dili birləşmələrinin (məsələn, to take a look) işlənməsi daxildir və iki yarımqrupa bölünür. Xarici dil fakültələrində frazeoloji vahidlərin tədrisi ilə bağlı söz birləşmələrinin metodik tipologiyasının işlənib hazırlanması T.N.Lyapina və E.F.İvanovaya məxsusdur.

Söz birləşmələrinin dildaxili və dillərarası interferensiyanı nəzərə almaqla yaradılmış metodik tipologiyası E.F.İvanova tərəfindən həyata keçirilmişdir.

Tədqiqatçıların hər ikisi daxili interferensiya baxımından söz və söz birləşmələrini iki qrupda təsnifləndirir (Axundov, 2006, s. 280):

1. Birinci qrupa istifadəsi müəyyən qaydalarla əlaqədar ingilis dilinin artıq mənimsənmiş hadisələri ilə üst-üstə

**https://doi.org/10.36719/2789-6919/XIX/TT/ET/2026**

düşməyən söz və söz birləşmələri daxildir. Həmin söz birləşmələrinə mənimsənilmə çətinlikləri hərəkət bildirən müxtəlif cümlələrin (to arrive in, at; to leave for) işlənməsi ilə bağlı olan söz birləşmələri aiddir (1-ci qrup).

2. Mənimsənmə çətinlikləri dillərarası interferensiya ilə izah olunan söz birləşmələrinə isə məna baxımından uyğunluq təşkil etməyən söz birləşmələri aid edilir (2-ci qrup).

T.N.Lyapina 4-cü kursda mənimsənməsi vacib olan leksikanı A və B yarımqruplarında qərarlaşdırır.

1. A yarımqrupuna uyğunluğa əsaslanan sözlər daxildir (məsələn “radical”).

2. B yarımqrupuna isə ingilis dilinin öncə mənimsənmiş sözləri ilə uyğunluq əsasında anlaşılan sözlər daxildir (misal üçün, “attack”).

Qeyd edilir ki, burada çətinlik törədən əsas səbəb uyğunluq təşkil etməyən sözlərdir. Eyni zamanda, əsas diqqət “konstruktiv” birləşmə imkanlarında cəmləşir (Vygotsky, 1934). Frazeoloji vahidlərə isə fikir verilmir.

Ümumiyyətlə, frazeoloji birləşmələrin nitq prosesində yaranması, başqa sözlə, onların dilə deyil, daha çox nitqə aid olması fikrinin təsdiqi linqvistik nöqteyi-nəzərdən önəmli əhəmiyyət kəsb edir.

## Ədəbiyyat

1. Axundov, A. (2006). *Ümumi dilçilik*. Şərq-Qərb.
2. Talyzina, N. (1975). *Management of the learning process*. Publishing House of Moscow State University.
3. Vygotsky, L. (1934). *Thinking and speech. State*. Social economy publishing house.

**https://doi.org/10.36719/2789-6919/XIX/TT/ET/2026**

**Fatma Əliyeva**
Azərbaycan Dövlət Pedaqoji Universiteti
https://orcid.org/0000-0002-6650-5330
fatma.aliyevaa@mail.ru

# Tərcümə sənəti dillərarası və mədəniyyətlərarası ünsiyyətin bir forması kimi

***Açar sözlər**: tərcümə, bədii tərcümə, hərfi tərcümə, mənbə dili, obyekt dili, ekvivalentlik, adekvatlıq*
***Keywords:** translation, literary translation, literal translation, source language, object language, equivalence, adequacy*

Tərcüməşünaslığın obyekti mürəkkəbləşmiş kommunikasiya aktı, predmeti isə iki müxtəlif işarələr sisteminin köməyi ilə informasiyanın ötürülməsi haqqında biliklərdir. Tərcüməşünaslıqda bu elmə məxsus olan dil formalaşır, bu elmin elementar vahidlərinin müəyyənləşdirilməsi üçün axtarışlar aparılır. Ümumi nəzəriyyədən fərqli olaraq xüsusi tərcümə nəzəriyyəsi tərcümənin linqvistik aspektlərini öyrənir. Ümumiyyətlə, hazırda üç tərcümə nəzəriyyəsinin mövcudluğu qəbul edilmişdir. Birinci nəzəriyyə tərcümənin ümumi qanunauyğunluqlarını araşdırır, bu məsələləri janrdan, reallaşma şərtlərindən, konkret dilin xüsusiyyətlərindən asılı olmadan qurulur. Xüsusi tərcümə nəzəriyyəsi üç qola ayrılır:

1) mətnin tip və janr müxtəlifliyini nəzərə alan tərcümə nəzəriyyəsi (elmi, bədii, publisistik və s.);

2) tərcümənin reallaşma şərti və üsuluna görə fərqlənən tərcümə nəzəriyyəsi (ardıcıl, şifahi, sinxron, ikitərəfli və s.);

3) mənbə və obyekt dildən asılı olan tərcümə nəzəriyyəsi.

Məxsusi tərcümə nəzəriyyəsində tərcümənin ekvivalentlik məsələləri tədqiq edilir. Fikrimizcə, tərcümə nəzəriyyəsini ümumi və xüsusi olmaqla iki yerə bölmək daha məqbuldur.

**https://doi.org/10.36719/2789-6919/XIX/TT/ET/2026**

Tərcüməşünaslıq tədqiqatlarında tərcümənin tipləri və növləri məsələsi, demək olar ki, həmişə diqqət mərkəzində olmuşdur. Tərcümə prosesi təhlilin bir-birindən prinsipial şəkildə fərqlənən iki tərcümə tipini ayırmağa əsas verir. Birinci tərcümə tipi "interlinear tərcümə" adlanır və bu zaman tərcümə vahidi söz olduqda bu tipin xüsusi halı kimi sözbəsöz tərcümədən (h1 çoxluğundan götürülmüş hər bir sözə h2 çoxluğundan bir söz qarşılığı qoyulur) bəhs edilir. Tərcümənin ikinci tipini beş və bəzən altı tipə ayırırlar: hərfi, sadələşdirilmiş, dəqiq, adekvat, sərbəst. Tədqiqatçılar tərcümə növlərini təyin edərkən mətnlərin tipologiyasını da diqqət mərkəzinə çəkirlər. Məsələn, mətnlər aşağıdakı kimi təsnif olunur:

1) texniki mətnlər;

2) fəlsəfi mətnlər;

3) ədəbi mətnlər.

Tərcümə növlərini mətnlər əsasında təsnif etdikdə onun aşağıdakı növlərini qeyd etmək olar:

1) bədii tərcümə: nəsr, dram, poeziya;

2) ictimai-siyasi tərcümə: publisistika, siyasi materiallar, informativ materiallar;

3) elmi-texniki tərcümə: elmi, texniki;

4) rəsmi-işgüzar tərcümə: sənədlər, təlimatlar, qanunlar, işgüzar və xidməti məktublar.

Bu vahidlərin hər birinin obyekt dildəki qarşılığı axtarılır. Sintaktik tamamlanmış konstruksiyanın tərcüməsi də bu konstruksiyanı təşkil edən ayrı-ayrı sözlər səviyyəsində aparılır. Yəni sözün qarşılığı birinci növbədə müəyyənləşdirilir, sonra sözlər arasındakı əlaqələr bərpa edilir. Bu isə tərcümənin leksik məsələlərinin aydınlaşdırılmasını, leksik vahidlərin tərcümə xüsusiyyətlərinin öyrənilməsinin aktuallığını artırır.

**https://doi.org/10.36719/2789-6919/XIX/TT/ET/2026**

**Nüşabə İsmayılova**
Azərbaycan Dövlət Pedaqoji Universiteti
https://orcid.org/0009-0004-2412-0268
nusaba-331@mail.ru

# Təhsildə motivasiya

***Açar sözlər:*** *təhsildə motivasiya, psixoloji yanaşmalar, daxili motivasiya, xarici motivasiya, öyrənmə prosesləri, müsbət geribildirim*

***Keywords:*** *motivation in education, psychological approaches, intrinsic motivation, extrinsic motivation, learning processes, positive feedback*

Təhsildə motivasiya şagirdlərin öyrənmə prosesinə marağını artıran və onların akademik, sosial və emosional inkişafına birbaşa təsir edən mühüm bir amildir. Motivasiya həm daxili, həm də xarici təsirlərdən formalaşır və bu təsirlər şagirdlərin öyrənmə prosesində fəal iştirakını təmin etmək üçün əsas rol oynayır. Daxili motivasiya şəxsin öz maraq və həvəsindən irəli gəlir. Bu, adətən, uzunmüddətli öyrənmə məqsədlərinə nail olmaq üçün əsasdır. Şagirdlər müəyyən bir mövzuya maraq duyduqda və onu öyrənməkdən həzz aldıqlarında, onların bu mövzunu daha dərindən araşdırmağa həvəsi artır. Daxili motivasiya, məsələn, biologiya, riyaziyyat və ya tarix kimi fənlərə maraq göstərən şagirdlərin təbii öyrənmə meylini gücləndirir.

Xarici motivasiya isə mükafat, qiymət, müəllimlərin müsbət rəyləri və sosial təsdiq kimi xarici amillərə əsaslanır. Bu növ motivasiya, adətən, qısamüddətli hədəflərə çatmaq üçün təsirli olur. Məsələn, yüksək qiymət almaq və ya müəllimdən müsbət rəylər qazanmaq məqsədilə şagirdlər daha çox çalışa bilərlər. Xarici motivasiya həm də şagirdlərin davranışlarını formalaşdır-

maqda əhəmiyyətlidir, çünki onlar xarici təsirlərdən təsirlənərək müəyyən istiqamətdə fəaliyyət göstərməyə təşviq olunurlar.

Motivasiya prosesi, insanın fəaliyyətə başlayıb onu davam etdirməsi üçün tələb olunan psixoloji bir prosesdir. Bu proses yalnız şagirdlərin dərsə marağını artırmır, həm də onların öyrənmə qabiliyyətinə birbaşa təsir edir. Müəllimlər və valideynlər şagirdlərdə motivasiyanı artırmaq üçün onların həm daxili maraqlarını inkişaf etdirməli, həm də xarici amilləri düzgün idarə etməlidirlər. Şagirdlərin öz maraq dairələrinə uyğun fəaliyyətlərdə iştirak etməsi onların motivasiyasını artırmaq üçün mühüm vasitədir. Onların bacarıqlarına uyğun mühitin yaradılması, həmçinin, tədris prosesinə daha müasir yanaşmaların tətbiqi ilə öyrənməyə maraq gücləndirilə bilər.

Motivasiyanın təhsil mühitində effektiv istifadəsi həm fərdi inkişafı, həm də ümumi akademik nailiyyətləri artırır. Şagirdlərə öyrənmənin yalnız məlumat əldə etmək deyil, həm də həyati bacarıqlar qazanmaq üçün bir fürsət olduğunu anlatmaq bu prosesdə vacibdir. Motivasiya təhsildə yalnız akademik məqsədlər üçün deyil, eyni zamanda, sosial inteqrasiya və emosional dayanıqlılıq üçün də mühüm bir rol oynayır.

Motivasiyanın anlam. Motivasiya insanın fəaliyyətə başlayıb onu davam etdirməsi üçün daxili və xarici təsirlərdən qaynaqlanan psixoloji prosesdir. Təhsildə motivasiya şagirdlərin dərsə marağını artırır və onların öyrənmə qabiliyyətinə birbaşa təsir edir.

Motivasiyanın iki əsas forması var:

1. Daxili motivasiya: - Şəxsin öz maraq və həvəsindən irəli gəlir; - Uzunmüddətli öyrənmə məqsədləri üçün əsasdır. Məsələn, bir şagirdin biologiyaya marağı onu dərindən öyrənməyə təbii şəkildə həvəsləndirə bilər.

2. Xarici motivasiya: - Xarici amillərə (qiymət, mükafat, sosial təsdiq) əsaslanır. - Qısa müddətli hədəflərə çatmaq üçün

təsirlidir. - Məsələn, müəllimin müsbət rəy verməsi şagirdi daha yaxşı nəticələr göstərməyə həvəsləndirir.

*Psixoloji yanaşmalar və təhsil texnologiyaları.* Psixoloji yanaşmalar motivasiyanın formalaşmasında və inkişafında əsas rol oynayır.

Psixoloji Nəzəriyyələr: 1.Özünü müəyyənləşdirmə - Bu nəzəriyyə motivasiyanı üç əsas psixoloji ehtiyacla əlaqələndirir: muxtariyyət, səriştəlilik və aidiyyat hissi. Bu ehtiyaclar qarşılandıqda motivasiya artır.

2. Banduranın Sosial öyrənmə nəzəriyyəsi: - İnsanlar başqalarını müşahidə etməklə öyrənirlər. Müəllimlərin davranışları və yanaşmaları şagirdlər üçün əsas motivasiya mənbəyidir.

*Texnologiyadan istifadə.* Oyunlaşdırma: Tədris prosesinə oyun elementləri əlavə etməklə motivasiyanı artırmaq mümkündür. Məsələn, onlayn platformalarda bal toplamaq və mərhələləri keçmək şagirdləri fəal saxlayır.

– Simulyasiya və virtual reallıq: Təbiət elmləri, tarix və həndəsə kimi fənlərin öyrənilməsində bu texnologiyaların istifadəsi motivasiyanı artırır.

Təhsildə ədəbiyyatın motivasiyaedici roluna baxış. “Ağ Zanbaqlar Ölkəsi” əsəri, insanın daxili motivasiyasını artırmaq və mənəvi inkişafını təmin etmək baxımından xüsusi əhəmiyyət daşıyır. Kitabın əsas mövzuları: - Şəxsi inkişaf: Hər bir fərdin öz daxili gücünü kəşf etməsi.

Məqsədlərə çatmaq: Çətinliklərə baxmayaraq, insanın iradəsini və inamını qoruyub saxlaması;

Sosial mesajlar: insanlararası münasibətlərdə empatiya və hörmətin əhəmiyyəti. Kitabda təsvir olunan qəhrəmanlar çətinliklərə qalib gəlmək üçün öz daxili güclərindən istifadə edir. Bu yanaşma təhsildə də istifadə edilə bilər. Şagirdlərə öyrənmə prosesində qarşılaşdıqları çətinlikləri həll etmək üçün daxili güclərini tapmaq öyrədilməlidir.

*Elm və Təhsildə Müasir Tələblər* **XIX Tezislər Toplusu/ 19 aprel / 47-50**
*Modern Requirements in Science and Education* **XIXTheses Collection/ 19 april / 47-50**
**https://doi.org/10.36719/2789-6919/XIX/TT/ET/2026**

Motivasiya və peşə seçimi. Motivasiya yalnız təhsildə deyil, şagirdlərin peşə seçimində də vacib amildir. Şagirdlərin öz maraq dairələrinə uyğun peşələrə yönləndirilməsi onların gələcəkdə uğurlu karyera qurmalarına zəmin yaradır. Valideynlər və müəllimlər bu prosesi düzgün istiqamətləndirməli, şagirdlərin maraqlarını və bacarıqlarını nəzərə almalıdırlar.

Təhsildə motivasiya, yalnız akademik nailiyyətlər üçün deyil, həm də şagirdlərin emosional və sosial inkişafı üçün əsasdır. Müəllimlər, valideynlər və təhsil qurumları birlikdə çalışaraq şagirdlərdə həm daxili, həm də xarici motivasiyanı artırmalıdırlar. Şagirdlərə öyrənmənin dəyərini başa salmaq, onları gələcək hədəflərinə çatmaq üçün ruhlandıracaqdır.

**https://doi.org/10.36719/2789-6919/XIX/TT/ET/2026**

**Aytən İbrahimova**
Azərbaycan Dövlət Pedaqoji Universiteti
https://orcid.org/0009-0000-6123-2399
ayten.cavadova17@gmail.com

# Qərbi Azərbaycan folklorunda Vətən anlayışı və yurd itkisi motivləri

***Açar sözlər:*** *Qərbi Azərbaycan, folklor, Vətən anlayışı, yurd itkisi, deportasiya, kollektiv yaddaş, aşıq yaradıcılığı, bayatı, milli kimlik*
***Keywords:*** *Western Azerbaijan, folklore, concept of homeland, loss of homeland, deportation, collective memory, ashug creativity, bayati, national identity*

Qərbi Azərbaycan folkloru özünün məzmun-mənəvi strukturuna görə Azərbaycan xalqının tarixən yaşadığı yurdlar, keçdiyi ictimai-siyasi proseslər və milli yaddaşla sıx bağlıdır. Bu folklor mətnlərində Vətən anlayışı yalnız coğrafi məkan deyil, həm də mənəvi, emosional və kimlik daşıyan bir dəyər kimi təqdim olunur. Xüsusilə XIX–XX əsrlərdə Qərbi Azərbaycan türklərinin dörd mərhələli deportasiya prosesləri nəticəsində yaranan yurd itkisi motivləri folklorun əsas aparıcı xəttinə çevrilmişdir. Aşıq yaradıcılığı, bayatılar, mərsiyələr, el ağıları və xatirə mətnlərində yurd itkisi təkcə fiziki məkanın itirilməsi kimi deyil, həm də milli yaddaşın zədələnməsi, mənəvi bağların qırılması kimi təsvir olunur. Folklor nümunələrinin analizi göstərir ki, Qərbi Azərbaycan türklərinin şifahi ənənəsində yurd itkisi həm kollektiv yaddaşın formalaşdırıcısı, həm də milli kimliyin qoruyucu mexanizmi rolunu oynayır. Tezisdə Vətən obrazının poetik-semantik xüsusiyyətləri, yurd həsrətinin ifadə formaları, deportasiya nəticəsində yaranan mifikləşdirmə və idealizasiya prosesləri elmi-nəzəri yanaşmalar əsasında araşdı-

**https://doi.org/10.36719/2789-6919/XIX/TT/ET/2026**

rılır. Eyni zamanda, folklor materiallarının toplanması, nəşri və tədqiqi məsələləri müasir metodologiyanın işığında qiymətləndirilir. Nəticə etibarilə, Qərbi Azərbaycan folkloru xalq yaddaşında həm tarixi faktların qorunması, həm də milli kimliyin davamlılığını təmin edən mühüm mənəvi sistem kimi çıxış edir.

Qərbi Azərbaycan folkloru Azərbaycan xalqının tarixən formalaşmış mənəvi yaddaşının mühüm qatlarından birini təşkil edir. Bu regionun folklor sistemi yalnız poetik-estetik xüsusiyyətləri ilə deyil, həm də milli kimliyin qorunması, tarixi faktların yaddaşda saxlanması və sosial-mədəni proseslərin izlərini əks etdirməsi ilə diqqət çəkir. Xüsusilə Vətən anlayışı və yurd itkisi motivləri Qərbi Azərbaycan folklorunun əsas ideya dayaqlarından biridir. Bu motivlər XIX–XX əsrlərdə baş vermiş deportasiya və zorakı köçürülmə hadisələrinin kollektiv yaddaşda buraxdığı dərin izlərin nəticəsidir (Qasımov, 2019, s. 27). Araşdırmanın məqsədi Qərbi Azərbaycan folklorunda Vətən obrazının semantik məzmununu, yurd itkisi motivlərinin formalaşma mexanizmini və bu motivlərin milli kimliyin qorunmasındakı rolunu müəyyənləşdirməkdir. Mövzu müasir elmi-nəzəri yanaşmalar işığında folklor materiallarının poetik təhlili əsasında geniş şəkildə işıqlandırılır.

Folklor nümunələrində "Vətən" anlayışı təkcə coğrafi məkan kimi deyil, həm də maddi-mənəvi dəyərlərin məcmusu kimi təsvir olunur. Qərbi Azərbaycan folklorunda bu obraz vətən torpağının müqəddəsliyi, ata-baba yurdunun qorunması və irsiliyə bağlılıq kimi aspektlərlə zənginləşir (Əliyeva, 2020, s. 41). Aşıq şeirlərində, bayatılarda və dastan parçalarında Vətənə sevgi həm mənəvi borc, həm də kimlik göstəricisi kimi formalaşır.

Folklorda Vətən obrazı geniş simvolik sistemlə əlaqəlidir. Dağ, çay, bulaq, oba, qaya, çinar kimi obrazlar Vətənin rəmzləri kimi çıxış edir. Bu rəmzlər Qərbi Azərbaycan folklorunun ən mühüm bədii komponentlərindən biridir (Sultanov, 2018, s. 53).

**https://doi.org/10.36719/2789-6919/XIX/TT/ET/2026**

Bu simvollar vasitəsilə Vətən məkanının həm fiziki, həm də mənəvi sərhədləri müəyyənləşdirilir.

Qərbi Azərbaycan türklərinin XIX–XX əsrlərdə dörd mərhələdə həyata keçirilən deportasiyaları folklorun strukturunda dərin izlər buraxmışdır. Yurd itkisi motivləri məhz bu tarixi proseslərin yaddaşa həkk olunmuş izlərini daşıyır (Hüseynli, 2021, s. 78).

Bayatı janrı yurd itkisini ən konsentrik şəkildə ifadə edən folklor formasıdır:

*Yurdum qaldı dağlarda,*
*Ümidim qaldı bağlarda.*
*Dönəmmədim o elə,*
*Könlüm qaldı dağlarda.*

Bu kimi nümunələrdə başlıca vurğu itirilmiş məkanın idealizə edilmiş obrazına yönəlir.

Aşıq poeziyası Qərbi Azərbaycan folklorunun ən qüvvətli sahələrindən biridir. Aşıqlar həm tarix şahidi, həm də yaddaş daşıyıcısı kimi çıxış etmişlər. Onların şeirlərində yurd itkisi motivi qürbət duyğusu ilə yanaşı, mübarizə ruhu da formalaşdırır (Babayev, 2017, s. 112). Aşıq Ələsgər, Aşıq Alı, Aşıq Şenlik bölgənin ən yadda qalan sənətkarlarıdır. Onların yaradıcılığında Vətən məhəbbəti ilə yurd itkisi duyğuları vəhdətdədir.

Qərbi Azərbaycan folkloru təkcə bədii sistem deyil, həm də kollektiv yaddaşın qoruyucusudur. Yurd itkisi motivi insanların tarixi faktları unutmamasına xidmət edir. Folklor burada "şifahi arxiv" funksiyasını yerinə yetirir (Kərimova, 2022, s. 64).

İtirilmiş məkan folklorda zamanla daha ideal, daha saflıq rəmzi kimi verilir. Bu proses "mifik məkanın bərpası" adlanır. Qərbi Azərbaycan kəndlərinin adları, bulaqların təsviri, təbiət xüsusiyyətləri folklorda əbədi məkan təsəvvürü yaradır (Məmmədov, 2016, s. 89).

XX əsrin əvvəllərindən başlayaraq bölgə folkloru sistemli şəkildə toplanmışdır. Lakin deportasiyalar toplanma işini çətin-

**https://doi.org/10.36719/2789-6919/XIX/TT/ET/2026**

ləşdirmiş, bəzi janrlar yalnız xatirələr vasitəsilə qorunmuşdur. Müasir tədqiqatlarda rəqəmsallaşdırma, sahə araşdırmaları və tekstoloji yanaşmalar əsas metod kimi tətbiq edilir (Rüstəmzadə, 2023, s. 55).

Travmatik yaddaş (traumatic memory) son illər humanitar elmlərin ən mühüm tədqiqat istiqamətlərindən biridir. Jan Asmannın "kultural yaddaş" modeli və Maurice Halbwachsın "kollektiv yaddaş" nəzəriyyəsi Qərbi Azərbaycan folkloruna tətbiq olunduqda yeni elmi nəticələr ortaya çıxır. Bu nəzəri çərçivə folkloru ancaq estetik sistem kimi deyil, həm də ictimai travmanın ötürülmə mexanizmi kimi dəyərləndirməyə imkan verir. Bu mətnlər əsasən yaşlı nəslin xatirələrində, ağı və mərsiyə janrlarında qorunur. Folklorşünasların qeyd etdiyi kimi, bu elementlər zaman keçdikcə unudulur və yalnız yazıya alınma vasitəsilə yaşadılır (Əliyeva, 2020, s. 89). Bayatı, qoşma və dastan parçalarında deportasiya və qırğınlar artıq şəxsi təcrübədən çıxıb ümumxalq yaddaşına çevrilir. Bu mərhələdə hadisələr idealizə edilir, emosional yük isə artır.

Bəzi motivlər – yurd çinarı, ata ocağı, yurd bulağı, qəbiristanlıqlar – travmanın simvolik ifadə forması kimi çıxış edir. Bu simvollar hadisələri artıq mifoloji çərçivəyə salır.

Bu üç qat Qərbi Azərbaycan folklorunun yaddaş sistemi kimi necə işlədiyini anlamaqda mühüm açardır.

Müasir folklor nəzəriyyəsində "topoqrafik nostalgiya" adlanan bir anlayış var. Bu anlayışa görə, məkan yalnız fiziki səhnə deyil, həm də emosional kimlik və tarix daşıyıcısıdır. Qərbi Azərbaycan folklorunda məhz bu xüsusiyyət son dərəcə güclüdür.

Folklor mətnlərində tez-tez real yer adları çəkilir: Göyçə, Basarkeçər, Zəngibasar, Ağbaba, Qarakilsə, Şörəyel və s. Bu toponimlər sadəcə coğrafi obyekt deyil, milli yaddaşın "orijinal koordinatları" hesab olunur (Hüseynli, 2021, s. 115).

**https://doi.org/10.36719/2789-6919/XIX/TT/ET/2026**

Folklorda yurdun təsviri həmişə ideal səviyyədədir. Bu, itirilmiş məkanın yaddaşda qorunması üçün psixoloji müdafiə mexanizmidir. Toponimlərin simvolik funksiyası: dağlar – möhkəmlik; bulaqlar – yaddaşın axıcılığı; çəmənlik – azadlıq; qaya – millətin kökü. Bu simvolik sistem Qərbi Azərbaycan folklorunu daha dərin semantik qatlara malik edir.

Yeni yanaşmalardan biri Qərbi Azərbaycan folklorunun digər xalqların sürgün folkloru ilə müqayisəli təhlilidir. Krım tatarlarının 1944-cü il sürgün folklorunda da oxşar motivlər: "ocağın sönməsi", "yurdun qapısının bağlı qalması", "qürbət çörəyinin acı olması" kimi elementlər vardır. Bu motivlər Qərbi Azərbaycan materialları ilə paralel aparılanda ümumbəşəri travma mexanizmləri ortaya çıxır. Çeçen folklorunda dağ motivi həm yurd simvoludur, həm də azadlıq əxlaqının daşıyıcısıdır. Bu, Qərbi Azərbaycan folklorundakı dağ-bulaq motivi ilə oxşardır.

Diaspora ədəbiyyatı və mətnlərində müqəddəs torpağa dönüş arzusu Qərbi Azərbaycan folklorundakı "yurda qayıdış xətti" ilə paralel şəkildə işlənmişdir. Bu müqayisələr göstərir ki, Qərbi Azərbaycan folkloru yalnız regional fenomen deyil, dünyada deportasiya və kollektiv travma yaşayan xalqların folklor sistemləri ilə oxşar arxetipik mexanizmlərə malikdir.

Ən çox araşdırılmayan sahələrdən biri məhz qadınların şifahi yaradıcılığında yurd itkisi motivlərinin roludur. El ağıları, laylalar, mərsiyələr, qız-gəlin nəğmələri bu baxımdan böyük potensiala malikdir. Kişi folklorunda daha çox qəhrəmanlıq, müqavimət, mübarizə motivləri güclüdürsə, qadın folklorunda: evin dağılması, ocağın sönməsi, uşağın itirdiyi yurdu tanımaması, nigaranlıq hissi kimi motivlər əsas yer tutur (Kərimova, 2022, s. 94).

Laylalar Qərbi Azərbaycan folklorunda sadəcə uşaq nəğməsi deyil, həm də milli psixologiyanın ötürücüsüdür. Məsələn:

*Yat bala, yurdumuz düşməsin yada,*

**https://doi.org/10.36719/2789-6919/XIX/TT/ET/2026**

*Ümidimiz qalmasın el-oba bada.*

Bu tip mətnlərdə ana həm də "yurd qoruyucusu" funksiyasını daşıyır. Ağılar tarix elmi üçün birinci dərəcəli mənbə rolunu oynayır: orada yer adları, hadisələrin sadalanması, konkret faktlar saxlanılır. Aşıq mühiti yalnız bədii yaradıcılıq sahəsi deyildi – həm də sosial institut idi. Aşıqlar kənddən kəndə gedərkən əhali arasında informasiya mübadiləsini həyata keçirirdilər. Onlar itirilmiş kəndlərin, qəbiristanlıqların, ulu babaların adlarını şeirlə qoruyurdular (Babayev, 2017, s. 145). Aşıq dastanları stress və travmanın kollektiv şəkildə yüngülləşməsinə xidmət edirdi. Antropologiyada bu prosesə "kollektiv katarsis" deyilir. Mifik sistemdə "yurd" yalnız məkan deyil, həm də: kosmik harmoniya, nizam, müqəddəslik, qoruyucu güc daşıyır. Qərbi Azərbaycan folklorunda itirilmiş yurdun təsviri qədim türk "yer–su" inancının izlərini də daşıyır (Məmmədov, 2016, s. 102). Bu baxımdan itirilmiş yurdun adının çəkilməsi belə magik gücə malik hesab olunurdu. Bir çox bayatılarda məkan adı dua, bərəkət və şəfa kontekstində keçir. Bu, mifik təfəkkürlə tarixi yaddaşın bir nöqtədə birləşdiyini sübut edir.

Müasir tədqiqat metodları folklorun yeni şəkildə araşdırılmasına imkan verir. Yurd adlarının, köç yollarının, folklorda çəkilən toponimlərin rəqəmsal xəritəsi hazırlanarsa, folklorun "coğrafi anatomiyası" daha dəqiq aydınlaşar. Bayatı və ağıların elektron korpusu yaradılmalıdır. Bu, motivlərin təkrarlanmasını, leksik sahələri və semantik sahələrin tezliyini üzə çıxarmağa imkan verər. Yaşlı nəsildən toplanan yaddaş nümunələrinin audio yazılması onları gələcək üçün qorumanın yeganə yoludur (Rüstəmzadə, 2023, s. 118).

Aparılan araşdırmalar göstərir ki, Qərbi Azərbaycan folklorunda Vətən anlayışı və yurd itkisi motivləri tarixi proseslərin bədii inikası olmaqla yanaşı, milli yaddaşın aparıcı komponentlərindən biridir. Bu folklor xalqın keçmişini, mənəvi

**https://doi.org/10.36719/2789-6919/XIX/TT/ET/2026**

kimliyini və tarixi yaddaşını qoruyan ən davamlı mədəni sistemdir.

## Ədəbiyyat

1. Babayev, M. (2017). *Aşıq yaradıcılığında yurd motivləri*. Elm.
2. Əliyeva, S. (2020). *Azərbaycan folklorunda Vətən obrazı*. Şərq-Qərb.
3. Hüseynli, E. (2021). *Qərbi Azərbaycan folkloru və yaddaş*. Adiloğlu.
4. Qasımov, A. (2019). *Folklor və milli kimlik*. Elm və təhsil.
5. Kərimova, R. (2022). *Yurd itkisi motivinin poetikası*. Elm.
6. Məmmədov, T. (2016). *Azərbaycan folklorunda mifik məkan*. Təhsil.
7. Rüstəmzadə, L. (2023). *Qərbi Azərbaycan folklorunun toplanması problemləri*. Nurlan.
8. Sultanov, Y. (2018). *Azərbaycan simvolik folkloru*. Elm.

**https://doi.org/10.36719/2789-6919/XIX/TT/ET/2026**

**Ülviyyə Quliyeva**
Azərbaycan Dövlət Pedaqoji Universitetinin
Ağcabədi filialı
https://orcid.org/0009-0007-9480-071X
ulviyye.quliyeva@agcebedi.adpu.edu.az

# Qarabağ bölgəsinin biomüxtəlifliyinin araşdırılması və onun mühafizəsi

***Açar sözlər:*** *Qarabağ, biomüxtəliflik, ekosistem, mühafizə, təbii sərvətlər*

***Keywords:*** *Karabakh, biodiversity, ecosystem, protection, natural resources*

Qarabağ Azərbaycanın dağlıq və təbii sərvətlərlə zəngin olan bir bölgəsidir. Bu region, müxtəlif landşaft növləri, ekosistemlər və bioloji növlərlə fərqlənir. Qarabağda yerləşən dağlar, çaylar, meşələr və digər təbii mühitlər, müxtəlif növlərin yaşaması üçün əlverişli şərait yaradır. Lakin müharibə və işğal dövründə bu ərazilər bir çox ekosistem dəyişikliklərinə məruz qalmış, bu da yerli floraya və faunaya mənfi təsir göstərmişdir.

Biomüxtəliflik, canlıların və onların yaradılmış mühitlərinin qarşılıqlı əlaqələrini əhatə edən bir anlayışdır. Qarabağ bölgəsindəki biomüxtəliflik, bu regionun ekosistem xidmətlərinin davamlılığı üçün mühüm rol oynayır. Ekosistem xidmətləri, yer kürəsinin müxtəlif təbii proseslərindən alınan faydalı resursları təmin edir və insanların həyat keyfiyyətini artırır. Bu xidmətlərin qorunması və davamlı istifadəsi üçün biomüxtəlifliyin mühafizəsi vacibdir (Həsənova, 2021).

Qarabağ Azərbaycan Respublikasının qərb hissəsində yerləşən bir bölgədir və xüsusilə dağlıq, düzənlik və çöl ərazilərini əhatə edir. Bu region, həmçinin, müxtəlif yüksəkliklərə malik olan dağ silsilələri ilə zəngindir, bunlar arasında Qarabağ dağları

**https://doi.org/10.36719/2789-6919/XIX/TT/ET/2026**

və Böyük Qafqaz dağlarının bir hissəsi yerləşir. Qarabağ ərazisinin coğrafiyası müxtəlif təbii landşaftların birləşdiyi bir mühit yaradır (Əliyev, 2020). Dağlıq ərazilərdən düzənliklərə qədər müxtəlif ekosistemlər mövcuddur, bu da biomüxtəlifliyin yüksək olmasına səbəb olur.

Qarabağ regionunda subtropik, mülayim və dağ iqlimi növləri hakimdir. Ərazilər müxtəlif yüksəkliklərə və təbii şəraitə görə iqlim baxımından fərqlənir. Dağlıq ərazilərdə soyuq iqlim hökm sürür, burada yağıntılar çox olur və qış aylarında qar örtüyü yaranır. Qarabağ düzənliklərində isə daha mülayim və quru subtropik iqlim mövcuddur, burada daha az yağıntı olur və yaylar isti keçir (Məmmədov, 2018). Bu müxtəlif iqlim növləri, müxtəlif bitki və heyvan növlərinin inkişafı üçün əlverişli şərait yaradır.

Qarabağda coğrafi və iqlim fərqlilikləri, müxtəlif ekosistemlərin formalaşmasına şərait yaradır. Bu ərazilərdə həm dağlıq meşələr, həm də açıq çöllər və quru düzlük əraziləri mövcuddur. Bu müxtəlif ərazilər müxtəlif flora və fauna növlərinin inkişaf etməsi üçün əlverişli mühit təmin edir. Məsələn, dağlıq meşələrdə daha çox qoz, palıd və fıstıq ağacları tapılarkən, düzənliklərdə daha çox otluqlar və kaktus kimi quraqlığa dözümlü bitkilər yayılmışdır (Sadıqov, Kərimov, 2019).

Biomüxtəliflik yalnız növlərin müxtəlifliyini deyil, həm də bu növlərin ekosistemlərdəki funksiyalarını əhatə edir. Ekosistemlər müxtəlif təbii xidmətlər təmin edir ki, bunlar insanlar və digər canlılar üçün çox vacibdir. Məsələn, torpaqların qorunması, suyun təmizlənməsi, hava keyfiyyətinin yaxşılaşdırılması və əkinçilik üçün münbit torpaqların yaradılması biomüxtəliflik vasitəsilə təmin edilir (Sadıqov, Kərimov, 2019).

Biomüxtəliflik, həmçinin, kənd təsərrüfatı üçün vacibdir. Müxtəlif bitki və heyvan növləri, ərzaq təminatını və ekosistemlərin dayanıqlılığını artırır. Qarabağda yayılmış müxtəlif bitki növləri yerli əkin sahələrinin məhsuldarlığını artırır, eyni

zamanda, heyvanlar aləmi da bu sahələrin davamlı inkişafı üçün vacibdir (Həsənova, 2021).

Biomüxtəliflik həm də yerli icmaların sosial və iqtisadi həyatında mühüm rol oynayır. Qarabağda ekoturizmin inkişafı, yerli əhalinin həyat şəraitinin yaxşılaşdırılması və təbii sərvətlərin davamlı istifadəsi biomüxtəlifliyin qorunmasına bağlıdır. Təbii ərazilərin qorunması, ekoturizmin təşviq olunması həm ətraf mühitin, həm də yerli icmaların inkişafı üçün əhəmiyyətlidir (Quliyev, Rzayev, 2017).

Biomüxtəlifliyin qorunması önündəki ən böyük maneələrdən biri təbii mühitin pozulmasıdır. Müharibə, urbanizasiya, infrastruktur layihələri və qeyri-davamlı kənd təsərrüfatı fəaliyyətləri, ekosistemləri ciddi şəkildə təhdid edir. Qarabağ bölgəsində dağlıq ərazilərin əkin sahələrinə çevrilməsi və təbii meşələrin kəsilməsi biomüxtəlifliyin itirilməsinə səbəb olur. (Əliyev, 2020). Urbanizasiya, ərazilərin genişlənməsi və yeni infrastrukturun inşa olunması təbii yaşayış sahələrinin məhv olmasına yol açır.

İqlim dəyişikliyi biomüxtəlifliyin qorunmasını daha da çətinləşdirir. Qarabağda iqlim dəyişiklikləri nəticəsində bəzi növlər üçün əlverişli mühitin azalması mümkündür. Temperaturun artması və yağıntı rejimlərinin dəyişməsi, bəzi bitki və heyvan növlərinin yaşama sahələrini daraldır. Belə dəyişikliklərə qarşı ekosistemlərin uyğunlaşması uzun zaman alır və bu da biomüxtəlifliyin qorunmasını çətinləşdirir (Məmmədov, 2018).

Müharibə dövründə Qarabağ bölgəsinin əraziləri ciddi şəkildə zərər gördü. Mina sahələrinin olması, minalanmış torpaqlar və infrastrukturların dağıdılması ekosistemlərə ciddi təsir göstərdi. Həmçinin, müharibə dövründə ərazilərdən meşələrin qırılması, təbii sərvətlərin qeyri-davamlı şəkildə istifadə edilməsi biomüxtəlifliyi daha da azaldıb.

Biomüxtəlifliyin qorunmasına dair çətinliklər yalnız ekologiya ilə bağlı deyil, həm də sosial və siyasi amillərlə bağlıdır.

**https://doi.org/10.36719/2789-6919/XIX/TT/ET/2026**

Əhalinin köçürülməsi, müharibə dövründə ərazidən məcburi köçkünlərin olması və yerli iqtisadiyyatın çətin vəziyyəti, biomüxtəlifliyin qorunması üçün çətinliklər yaradır (Həsənova, 2021). Müharibə dövrü Qarabağda ekosistemlərə ciddi təsir göstərdi. Dağıdılmış infrastrukturlar, əkin sahələrinin məhv olması, torpaqların mina zəhərlənməsi və təbii sərvətlərin qeyri-davamlı istifadəsi biomüxtəlifliyin azalmasına səbəb oldu. Müharibə təbii sahələrin itirilməsinə, dağlıq ərazilərin xarabalığa dönməsinə və bioloji növlərin məhv olmasına yol açdı.

İşğaldan sonra Qarabağda ekosistemlərin bərpası və biomüxtəlifliyin qorunması istiqamətində müsbət inkişaflar müşahidə edilməyə başlanıb. Lakin ərazilərin mina təmizlənməsi və təbii sərvətlərin bərpası hələ də ciddi problemdir. Qarabağda yaşayan bəzi nadir növlər, belə şəraitdə əhəmiyyətli şəkildə zərər çəkmiş və qorunması üçün xüsusi diqqət tələb edir.

Müharibə sonrası, Qarabağda ekosistem bərpası və biomüxtəlifliyin qorunması üçün müxtəlif layihələr həyata keçirilməkdədir. Beynəlxalq təşkilatlar və dövlət qurumları tərəfindən mina təmizlənməsi, meşə bərpası və yerli icmalarla birgə ekosistemlərin qorunması istiqamətində müvafiq tədbirlər görülür.

Biomüxtəlifliyin qorunması və bərpası ekosistemlərin sağlamlığının və dayanıqlığının təmin edilməsi üçün vacibdir. Qarabağ bölgəsi, zəngin flora və fauna ilə həm Azərbaycanın, həm də dünya təbiətinin qorunması üçün mühüm əhəmiyyət kəsb edir. Bu regionun biomüxtəlifliyinin qorunması yalnız ekosistem xidmətlərinin təmin edilməsi üçün deyil, həm də sosial-iqtisadi inkişaf və təbii sərvətlərin davamlı istifadəsi baxımından böyük önəm daşıyır (Əliyev, 2020). Ekosistemlərin bərpası, xüsusilə müharibədən zərər çəkmiş bölgələrdə biomüxtəlifliyin yenidən qurulması üçün kritik əhəmiyyət kəsb edir.

Biomüxtəlifliyin qorunması və ekosistemlərin bərpası yalnız hökumət və mütəxəssislərin məsuliyyəti deyil, həm də yerli icmaların iştirakı ilə həyata keçirilməlidir.

**https://doi.org/10.36719/2789-6919/XIX/TT/ET/2026**

Biomüxtəlifliyin qorunması və bərpası üçün beynəlxalq əməkdaşlıq da vacibdir. Qarabağ bölgəsinin biomüxtəlifliyi yalnız Azərbaycan üçün deyil, həm də qlobal əhəmiyyətə malikdir. Bu səbəbdən, beynəlxalq təşkilatların, xüsusən də BMT-nin, WWF və IUCN kimi ekologiya təşkilatlarının dəstəyi vacibdir. Qarabağ bölgəsinin biomüxtəlifliyi, Azərbaycanın təbii irsinin ayrılmaz hissəsidir. Bu irsin qorunması yalnız ekologiya sahəsindəki mütəxəssislərin deyil, həm də yerli icmaların və dövlətin ortaq səyi ilə mümkündür. Qarabağda biomüxtəlifliyin qorunması və bərpası üçün sistemli yanaşmaların tətbiqi, həm yerli əhalinin həyat səviyyəsinin yaxşılaşmasına, həm də regionun ekoloji sabitliyinin bərpasına gətirib çıxaracaqdır (Quliyev, Rzayev, 2017).

Qarabağ regionunun biomüxtəlifliyi, Azərbaycanın təbii irsinin ayrılmaz bir hissəsi olmaqla yanaşı, həm də qlobal ekosistemlər üçün mühüm əhəmiyyət kəsb edir. Bu bölgənin zəngin flora və fauna müxtəlifliyi, onu yalnız yerli əhali üçün deyil, həm də dünya miqyasında bəşəriyyətin təbii sərvətləri üçün xüsusi bir regiona çevirir. Qarabağda ekosistemlərin və bioloji növlərin qorunması, yalnız yerli mühitin sağlamlığını təmin etmək deyil, həm də qlobal ekosistem xidmətlərinin dayanıqlılığını qorumaq məqsədi güdür. Bu baxımdan, biomüxtəlifliyin qorunması və ekosistemlərin bərpası böyük əhəmiyyətə malikdir (Quliyev, Rzayev, 2017).

Ekosistemlərin bərpası üçün atılmalı olan addımlar arasında mina təmizləmə, su hövzələrinin bərpası, meşə ərazilərinin genişləndirilməsi və torpaq eroziyasının qarşısını almaq üçün mühəndislik tədbirlərinin tətbiqi xüsusi yer tutur. Bu fəaliyyətlər, Qarabağ bölgəsində təbii sərvətlərin bərpasını və gələcəkdə bu ərazilərin dayanıqlı istifadəsini təmin edəcəkdir.

Nəticə olaraq, Qarabağda biomüxtəlifliyin qorunması yalnız təbii sərvətlərin müdafiəsi deyil, həm də sosial və iqtisadi inkişafın təmin edilməsi deməkdir. Qarabağ regionunun bio-

https://doi.org/10.36719/2789-6919/XIX/TT/ET/2026

müxtəlifliyinin qorunması, həm ekologiya, həm də iqtisadiyyat baxımından regionun davamlı inkişafını təmin edəcək və Azərbaycanın təbii sərvətlərinin qorunmasına müsbət təsir göstərəcəkdir.

## Ədəbiyyat

1. Əliyev, R. (2020). *Qarabağ bölgəsinin biomüxtəlifliyi və təbii sərvətləri*. Elm və Təhsil.
2. Həsənova, F. (2021). *Azərbaycan ekosistemlərinin qorunması və bərpası*. Ekologiya və Təbii Sərvətlər Nazirliyi.
3. Məmmədov, K. (2018). *Ekosistem xidmətləri və bərpa biologiyası*. Təsərrüfat Nəşriyyatı.
4. Quliyev, M., Rzayev, T. (2017). *Endemik növlərin qorunması və ekosistem mühafizəsi*. Nəşr Evi.
5. Sadıqov, V., Kərimov, S. (2019). Qarabağda ekoloji dəyişikliklər və biomüxtəliflik. *Ekologiya Jurnalı, 34*(2), 102–115.

**https://doi.org/10.36719/2789-6919/XIX/TT/ET/2026**

**Nazilə Rəhimova**
Azərbaycan Dövlət Pedaqoji Universiteti
https://orcid.org/0000-0001-7353-7798
rnazile92@gmail.com

# İngilis dilində təyin budaq cümlələrinin qrammatik quruluşu

***Açar sözlər:*** *təyin budaq cümləsi, tabeli mürəkkəb cümlə, məhdudlaşdırıcı təyin budaq cümləsi, bağlayıcı, sintaktik qayda*
***Keywords:*** *the attributive subordinate clauses, the compound sentence, appositive attributive clauses, particle, syntactical norms*

Sintaksis sözlərin birləşməsi qaydalarından, söz birləşmələrindən, cümlə və onun növlərindən bəhs edir. Söz birləşmələri kimi cümlə problemi də dilçilikdə mühüm məsələlərdən biri hesab olunur. Mürəkkəb cümlə problemi hələ də bir çox dilçi alimləri maraqlandırmaqdadır. Əvvəlcə sadə cümlələr bərabər hüquq əsasında birləşərək tabesiz mürəkkəb cümlələri əmələ gətirmiş, tədricən hadisələr arasında ziddiyyət, səbəb, şərt, nəticə, qoşulma və s. əlaqələr dərk olunduqca, yeni sintaktik modellər yarandıqca tabeli mürəkkəb cümlələr də formalaşmağa başlamışdır. Tabesiz mürəkkəb cümlə tərkibindəki sadə cümlələr bir-birinə bağlayıcılarla, bağlayıcı zərflərlə və intonasiya vasitəsi ilə bağlanırlar.

Tabeli mürəkkəb cümlə tərkibində budaq cümlə baş cümləyə iki yolla bağlanır: tabelilik bağlayıcıları vasitəsi ilə və heç bir bağlayıcı olmadan. Təyin budaq cümləsi baş cümlədə isimlə, yaxud əvəzliklə ifadə edilmiş hər hansı bir üzvə aid olur, onu təyin edir.

Təyin budaq cümlələri baş cümləyə nisbi əvəzliklərlə və nisbi zərflərlə bağlanır. Təyin budaq cümlələri iki cür olur: məh-

**https://doi.org/10.36719/2789-6919/XIX/TT/ET/2026**

dudlaşdırıcı təyin budaq cümlələri və təsviredici təyin budaq cümlələri.

Məhdudlaşdırıcı təyin budaq cümlələri təyin olunan sözü mənaca lokallaşdırır, dəqiqləşdirir və müəyyənləşdirir. Məhdudlaşdırıcı təyin budaq cümləsi ilə baş cümlə arasında, bir qayda olaraq, vergül qoyulmur. Təsviredici təyin budaq cümlələri təyin olunan söz haqqında əlavə informasiya verir. Təsviredici təyin budaq cümlələri baş cümlədən vergüllə ayrılır. Təyin budaq cümləsinin tabeli mürəkkəb cümlədə yeri, mövqeyi haqqında bir neçə bəzi fikir söyləmək lazımdır. Bir çox hallarda təyin budaq cümləsi təyin edilən sözdən sonra durur. Ancaq bəzən elə hallar olur ki, tərkibində isim olmayan bir neçə söz və ya söz birləşmələrindən sonra da gələ bilər (Musayev, 1986).

Təyin budaq cümləsini təqdim edən nisbi əvəzliklər (*whom, whose, which, that, as*) məhdudlaşdırıcı təyin budaq cümlələrini baş cümləyə bağlayır. Əgər nisbi əvəzlik sözönü ilə işlənirsə, sözönü budaq cümlənin axırında feildən sonra durur.

Məsələn: The girls that I work are having lunch.

– Mənimlə işləyən qızlar lanç yeyirlər.

Təyin budaq cümlələrində *who* əvəzliyinin obyekt halı olan *whom* və *which* əvəzlikləri çox vaxt *that* əvəzliyi ilə əvəz olunur.

Məsələn: A letter that (*which*) is written in pencil is difficult to read.

İngilis dilində "*appositive attributive clauses*" adlanan budaq cümlələri də var ki, onlar baş cümlədə olan hər hansı bir ismin əlavəsi kimi işlənir. Bu halda təyin olunan söz çox vaxt mücərrəd isimlə, *yəni idea, chance, method, way, statement, fact* və s. sözlərlə ifadə olunur. Bu zaman budaq cümlə baş cümləyə bağlayıcılarla bağlanır və heç zaman cümlədən atıla bilməz.

Məsələn: "*appositive attributive clauses*" adlanan budaq cümlələri də var ki, onlar baş cümlədə olan hər hansı bir ismin əlavəsi kimi işlənir. Bu halda təyin olunan söz çox vaxt mücərrəd isimlə, yəni idea, chance, method, way, statement, fact və s.

**https://doi.org/10.36719/2789-6919/XIX/TT/ET/2026**

sözlərlə ifadə olunur. Bu zaman budaq cümlə baş cümləyə bağlayıcılarla bağlanır və heç zaman cümlədən atıla bilməz.

A week later Dorian Gray was at his house in the country, where he had invited Lord Henry and several other friends.

Bir həftə sonra Dorian Qrey Lord Henrini və bir neçə dostunu dəvət etdiyi kənd evində idi.

That was the time when thousands of workers in the area were streaming out of the plants (Carter).

Bu, həmin diyarda minlərlə işçinin zavodlardan axışdığı bir vaxt idi.

I don’t like the method how he explainedthe matter. But he could see now no reason why he should not smoke (J.London).

Mən onun məsələni izah etdiyi metodunu xoşlamıram. Ancaq o nəyə görə siqaret çəkməyəcəyinin səbəbini bilmirdi.

Beləliklə, tamamilə aydındır ki, nisbi əvəzliklər təyin budaq cümlələrini baş cümləyə bağlamaq üçün işlənir və bağlayıcılardan olunan təyin budaq cümləsində fərqlənir ki, onlar həm də bir cümlə üzvü kimi çıxış edə bilirlər (Musayev, 1986).

Əvəzliklərin işlənməsində aşağıdakı qaydalara nəzər salaq.

1) *Who (whom), whose, which* sual əvəzlikləri orta əsrlər ingilis dilində nisbi əvəzliklər kimi işlədilmişdir. Erkən orta əsrlər ingilis dilində that geniş işlənmişdir, lakin indi sual əvəzliklərinin, xüsusilə, canlılara aid olan who əvəzliklərinin işlədilməsinə geniş meyil var.

2) Heyvan, bəzən kişi və ya qadın cinsinə aid olduqda *who* əvəzliyi işlənir. Lakin bu qayda bəzən pozulur və biz tez-tez *which* əvəzliyinin kişi və ya qadın cinsi ilə, *who* əvəzliyinin isə orta cinslə əlaqələndiyinin şahidi oluruq.

3) Ölkə adları coğrafi nöqteyi-nəzərdən götürüldükdə *which* əvəzliyi, siyasi anlayış kimi götürüldükdə isə *who* əvəzliyi işlənir. Lakin bununla belə həmin məsələdə həddindən artıq tərəddüdlər var.

**https://doi.org/10.36719/2789-6919/XIX/TT/ET/2026**

4) Əgər kollektiv isim bütöv bir toplumu bildirirsə, *which* əvəzliyinin (feil təkdə); ayrı-ayrı şəxsləri nəzərdə tutursa *who* əvəzliyini işlədirik (feil cəmdə).

5) Poeziyada əşyaları təcəssüm etdirmək üçün *who* əvəzliyindən istifadə edilir.

6) Əgər təyin olunan söz peşə, şəxsiyyət ifadə edən ismi xəbərdirsə, onda *which* və ya *that* işlənir. Təyin etdiyi söz kimi *which* əvəzliyinin də sifəti – predifikatı və ya bütöv bir cümləsi ola bilər. Belə olan halda baş cümləyə *which*-lə bağlanan budaq cümlələr həmişə təsviredici olur.

7) Orta əsrlər ingilis dilində və erkən müasir ingilis dilində *that* həmişə nisbi əvəzlik kimi işlənmişdir. İndi that təsviredici təyin budaq cümlələrində nadir hallarda işlənir və hətta məhdudlaşdırıcı təyin budaq cümlələrində belə, *who* əvəzliyinin işlədilməsinə güclü, *that* əvəzliyinin yalnız əşyalara uyğun olaraq işlədilməsinə isə nisbətən az meyil var (Əliyeva, 1992).

## Ədəbiyyat

1. Əliyeva, Ə. (1992). *Tabeli mürəkkəb cümlələr və onların xüsusiyyətləri*. Maarif.
2. Musayev, O. (1986). *İngilis dilinin qrammatikası*. Elm.

*Elm və Təhsildə Müasir Tələblər* **XIX Tezislər Toplusu/ 19 aprel / 68-73**
***Modern Requirements in Science and Education* XIXTheses Collection/ 19 april / 68-73**
**https://doi.org/10.36719/2789-6919/XIX/TT/ET/2026**

**Tünzalə Yusubova**
Azərbaycan Dövlət Pedaqoji Universiteti
https://orcid.org/0009-0007-1701-765X
tunzalayusubova48@gmail.com

# Xarici dil tədrisində qiymətləndirmə savadlılığı: müasir problemlər və konseptual yanaşmalar

***Açar sözlər:*** *ölçmə və qiymətləndirmə savadlılığı, xarici dil müəllimliyi, dil qiymətləndirməsi, Dil Qiymətləndirmə Savadlılığı (LAL), Öyrənmə Üçün Qiymətləndirmə (AfL)*
***Keywords:*** *assessment literacy, foreign language teaching, language assessment, Language Assessment Literacy (LAL), assessment-for-learning (AfL)*

Xarici dil tədrisində ölçmə və qiymətləndirmə savadlılığı müəllimin peşəkar fəaliyyətinin mərkəzi komponentlərindən biridir. Bu anlayış müəllimin yalnız biliyi ötürməsi ilə deyil, həm də öyrənmənin necə baş verdiyini izləməsi, dəyərləndirməsi və yönləndirməsi ilə bağlıdır. Müasir tədris şəraitində müəllimdən sadəcə nəticəni qeydə almaq deyil, həmin nəticənin necə formalaşdığını anlamaq da tələb olunur. Bu səbəbdən qiymətləndirmə savadlılığı texniki prosedurlar toplusu deyil, pedaqoji düşünmə və qərarvermə sistemidir. Xarici dil müəllimi dil bacarıqlarını qiymətləndirərkən həm ölçmə meyarlarını, həm də öyrənənin fərdi inkişaf trayektoriyasını nəzərə almalıdır.

Qiymətləndirmə savadlılığı xarici dil tədrisində öyrənmə məqsədlərinin daha aydın müəyyənləşdirilməsinə imkan verir. Müəllim hansı bacarığın, hansı səviyyədə və hansı üsulla qiymətləndiriləcəyini əvvəlcədən planlaşdırdıqda tədris daha sistemli xarakter alır. Bu, dərs məqsədləri ilə qiymətləndirmə meyarları arasında uyğunluq yaratmağa kömək edir. Əks halda, öyrədilənlə yoxlanılan arasında uyğunsuzluq meydana çıxır və

**https://doi.org/10.36719/2789-6919/XIX/TT/ET/2026**

bu da həm nəticələrin etibarlığını, həm də tədrisin keyfiyyətini zəiflədir. Xarici dil tədrisində qiymətləndirmə savadlılığı məhz bu boşluğu aradan qaldıran əsas peşəkar səriştələrdən biridir.

Müasir təhsil mühitində xarici dil müəllimləri bir sıra qiymətləndirmə problemləri ilə üzləşirlər. Bu problemlər sırasında meyarların qeyri-dəqiq müəyyənləşdirilməsi, şagirdlərin fərdi xüsusiyyətlərinin nəzərə alınmaması və əks əlaqənin formal xarakter daşıması xüsusi yer tutur. Dilin öyrədilməsi prosesi çoxqatlı olduğu üçün onu yalnız düzgün–səhv məntiqi ilə ölçmək kifayət etmir. Danışıq, yazı, dinləmə və oxu bacarıqları müxtəlif təzahür formalarına malikdir və hər biri fərqli qiymətləndirmə yanaşması tələb edir. Buna görə xarici dil tədrisində qiymətləndirmə savadlılığı müasir pedaqoji problemlərin həlli üçün zəruri şərt kimi çıxış edir.

Qiymətləndirmə savadlılığının əsas dayaqlarından biri reflektiv düşünmədir. Fox və Allan refleksiyanı müəllimin peşəkar fəaliyyəti daxilində davamlı özünüyeniləmə və özünüdərketmə prosesi kimi təqdim edirlər. Bu baxış müəllimin qiymətləndirmə zamanı yalnız nəticəyə deyil, nəticəyə aparan qərarlara da tənqidi yanaşmasını tələb edir. Xarici dil müəllimi rubriklərdən istifadə edərkən, şifahi cavabları dəyərləndirərkən və ya yazı işlərini yoxlayarkən öz mövqeyinin qərara necə təsir etdiyini dərk etməlidir. Belə yanaşma qiymətləndirməni mexaniki prosedurdan çıxararaq peşəkar refleksiya sahəsinə çevirir.

Elliot, Ryan və Hollway refleksiyanı yalnız peşəkar təhlil deyil, həm də müəllimin öz daxili reaksiyalarını, emosiyalarını və qərarvermə mexanizmlərini anlama vasitəsi kimi izah edirlər. Bu fikir xarici dil tədrisi üçün olduqca əhəmiyyətlidir, çünki dil öyrənmə prosesi həm akademik, həm də emosional gərginlik yarada bilir. Müəllim şagirdin cavabını qiymətləndirərkən bəzən onun məzmununu, bəzən ifadə tərzini, bəzən isə ümumi davranışını fərqli şəkildə qəbul edə bilər. Bu fərqliliklərin arxasında çox zaman müəllimin əvvəlki təcrübəsi və şüuraltı

**https://doi.org/10.36719/2789-6919/XIX/TT/ET/2026**

meyarları dayanır. Buna görə reflektiv yanaşma qiymətləndirmə savadlılığının psixoloji əsaslarından biri hesab olunmalıdır.

Nind inklüziv təhsil və inklüziv tədqiqat arasında paralellik quraraq fərdiləşdirilmiş yanaşmanın vacibliyini vurğulayır. Xarici dil tədrisində bu fikir xüsusi əhəmiyyət kəsb edir, çünki öyrənənlər dil səviyyəsi, 70ocial təcrübə, motivasiya və psixoloji hazırlıq baxımından bir-birindən fərqlənirlər. Hamı üçün eyni qiymətləndirmə forması tətbiq edildikdə nəticələrin ədalətliliyi və etibarlılığı zəifləyə bilər. Bu səbəbdən müəllim rubrik və meyarları hazırlayarkən şagirdlərin fərdi xüsusiyyətlərini nəzərə almalıdır. Qiymətləndirmə savadlılığı məhz bu müxtəlifliyi nəzərə alaraq diferensial və inklüziv yanaşma qurmaq qabiliyyətini də əhatə edir.

Nindin yanaşması göstərir ki, inklüzivlik yalnız şagirdin sinifdə fiziki iştirakı ilə məhdudlaşmır, həm də onun dəyərləndirmə prosesində ədalətli şəkildə təmsil olunmasını tələb edir. Xarici dil tədrisində bəzi şagirdlər danışıqda, digərləri isə yazıda daha güclü ola bilər. Müəllim bütün şagirdləri yalnız bir tip tapşırıq vasitəsilə ölçdükdə onların real potensialını tam əks etdirə bilmir. Buna görə qiymətləndirmə savadlılığı müəllimin alternativ qiymətləndirmə alətlərindən istifadə etməsini də nəzərdə tutur. Belə yanaşma həm öyrənən mərkəzli tədrisə, həm də keyfiyyətli dil qiymətləndirməsinə xidmət edir.

Oikonomidoy və Viest müəllim-şagird münasibətlərində sərhədlərin elastikliyini və etimadın vacibliyini vurğulayırlar. Xarici dil tədrisində müəllimin verdiyi rəyin tonu, forması və məzmunu şagirdin növbəti performansına birbaşa təsir edir. Əgər qiymətləndirmə prosesində müəllim peşəkar etimad və dəstəkləyici ünsiyyət qura bilmirsə, şagirdin motivasiyası zəifləyə bilər. Bu baxımdan qiymətləndirmə savadlılığı təkcə meyarlarla işləmək bacarığı deyil, həm də münasibət qurmaq və rəy təqdim etmək mədəniyyətidir. Müəllimin istifadə etdiyi dil qiymətləndirmənin təsir gücünü müəyyən edən əsas amillərdən

**https://doi.org/10.36719/2789-6919/XIX/TT/ET/2026**

biridir. Oikonomidoy və Viestin yanaşması xüsusilə *assessment-for-learning*, yəni öyrənmə üçün qiymətləndirmə modelinin əhəmiyyətini anlamaq baxımından dəyərlidir. Bu modeldə qiymətləndirmə son nəticəni elan etmək üçün deyil, öyrənməni yönləndirmək üçün istifadə olunur. Xarici dil müəllimi şagirdə verdiyi rəyi inkişaf istiqaməti göstərən, aydın və dəstəkləyici formada təqdim etdikdə qiymətləndirmə daha məhsuldar olur. Şagird yalnız hansı səhvi etdiyini deyil, onu necə düzəldə biləcəyini də anlamalıdır. Bu isə müəllimin qiymətləndirmə savadlılığının dərinliyini və praktik səriştəsini göstərir.

Slee inklüziv təhsilin reallaşmasının siyasi və 71ocial maneələrlə üzləşdiyini vurğulayır. Bu fikir xarici dil tədrisində qiymətləndirməyə də tətbiq edilə bilər, çünki hər qiymətləndirmə qərarı müəyyən güc münasibətləri daxilində formalaşır. Müəllim kimin dil performansını daha uğurlu hesab etdiyini, hansı səhvləri daha ciddi qəbul etdiyini və hansı cavabları daha yüksək qiymətləndirdiyini fərqində olmadan müəyyən 71ocial meyarlara əsasən müəyyənləşdirə bilər. Belə hallarda qiymətləndirmə öyrənənin real dil bacarığını deyil, dominant gözləntilərə uyğunlaşma səviyyəsini əks etdirmiş olur. Buna görə qiymətləndirmə savadlılığı həm də 71ocial ədalət perspektivindən düşünülməlidir.

Sleein vurğuladığı 71ocial ədalət aspekti xarici dil müəlliminin peşəkar məsuliyyətini daha da artırır. Müəllim qiymətləndirmə zamanı bütün şagirdlər üçün eyni imkanların yaradıldığını düşünə bilər, lakin formal bərabərlik həmişə real ədalət demək deyil. Bəzi şagirdlər üçün şifahi çıxış daha gərgin, bəziləri üçün isə yazılı tapşırıq daha çətin ola bilər. Qiymətləndirmə savadlılığı müəllimdən bu fərqləri nəzərə almağı və nəticələri yalnız yekun məhsula görə deyil, inkişaf dinamikası əsasında da təhlil etməyi tələb edir. Bu mənada xarici dil qiymətləndirilməsi həm pedaqoji, həm də etik fəaliyyət kimi başa düşülməlidir.

**https://doi.org/10.36719/2789-6919/XIX/TT/ET/2026**

Xarici dil tədrisində qiymətləndirmə savadlılığı danışıq bacarıqlarının dəyərləndirilməsində xüsusilə vacibdir. Danışıq zamanı müəllim yalnız qrammatik düzgünlüyə deyil, həm də axıcılığa, məna bütövlüyünə, kommunikativ niyyətə və situativ uyğunluğa diqqət yetirməlidir. Bu bacarıq çox zaman ani qərarvermə tələb etdiyindən müəllimin meyarları əvvəlcədən aydınlaşdırması mühüm əhəmiyyət daşıyır. Əks halda, qiymətləndirmə şəxsi təəssürata əsaslanan subyektiv nəticəyə çevrilə bilər. Buna görə müəllimin danışıq qiymətləndirilməsində reflektiv və strukturlaşdırılmış yanaşması vacibdir.

Yazı bacarıqlarının qiymətləndirilməsi də xarici dil müəlliminin qiymətləndirmə savadlılığını aydın göstərən sahələrdən biridir. Yazılı mətnin dəyərləndirilməsi zamanı təkcə qrammatik səhvlərin sayı deyil, fikir ardıcıllığı, məntiqi struktur, leksik seçim və üslub uyğunluğu da nəzərə alınmalıdır. Müəllim rubriklərdən istifadə etməklə bu meyarları daha şəffaf və ardıcıl şəkildə tətbiq edə bilər. Şagird də bu halda hansı əsaslarla qiymətləndirildiyini daha aydın anlayır. Beləliklə, yazı qiymətləndirilməsi müəllim-şagird arasında şəffaf akademik ünsiyyət forması qazanır.

Qiymətləndirmə savadlılığı müəllimin 72ocial72ve əks əlaqə vermə bacarığında da özünü göstərir. Xarici dil öyrənən üçün rəy yalnız nəticə haqqında məlumat deyil, gələcək fəaliyyət üçün istiqamətverici vasitədir. Müəllim rəy verərkən tənqid və dəstək arasında düzgün balans yaratmalıdır. Həddən artıq sərt və qeyri-dəqiq rəy şagirdin motivasiyasını azalda, həddən artıq ümumi rəy isə inkişaf üçün konkret yol göstərməyə bilər. Bu səbəbdən əks əlaqənin keyfiyyəti müəllimin qiymətləndirmə savadlılığının ən praktik göstəricilərindən biri hesab oluna bilər.

Qiymətləndirmə prosesinin psixoloji tərəfi xarici dil tədrisində ayrıca diqqət tələb edir. Şagirdlər dil öyrənərkən səhv etmək qorxusu, özünüifadə çətinliyi və qiymətləndirilmə gərginliyi ilə üzləşə bilirlər. Müəllimin verdiyi qiymət və rəy bu

**https://doi.org/10.36719/2789-6919/XIX/TT/ET/2026**

psixoloji vəziyyəti ya yumşalda, ya da daha da gücləndirə bilər. Buna görə qiymətləndirmə savadlılığı müəllimin emosional mühiti nəzərə almasını da tələb edir. Xüsusilə dil kimi 73ocial və ünsiyyətə əsaslanan bir sahədə qiymətləndirmə tərzi öyrənmənin keyfiyyətinə birbaşa təsir edir.

Qiymətləndirmə savadlılığının digər vacib tərəfi müəllimin qərarlarını əsaslandıra bilməsidir. Müəllim verdiyi balın və ya rəyin hansı meyarlara əsaslandığını aydın şəkildə izah etmədikdə şagird üçün qiymətləndirmə qeyri-şəffaf görünür. Şəffaflıq isə həm etimadı, həm də öyrənən məsuliyyətini gücləndirir. Şagird öz inkişaf yolunu görə bildikdə qiymətləndirməni xarici nəzarət deyil, şəxsi irəliləyiş vasitəsi kimi qəbul etməyə başlayır. Bu da *assessment-for-learning* yanaşmasının əsas məntiqi ilə üst-üstə düşür.

Nəticə etibarilə, xarici dil tədrisində ölçmə və qiymətləndirmə savadlılığı çoxölçülü, reflektiv və etik xarakter daşıyan peşəkar səriştə sahəsidir. Tədqiqatçıların yanaşmaları göstərir ki, qiymətləndirmə sadəcə texniki əməliyyatlar sistemi deyil. O, müəllimin özünü dərk etməsini, şagird müxtəlifliyini nəzərə almasını, etimad qurmasını və 73ocial ədaləti qorumasını tələb edən mürəkkəb peşəkar fəaliyyətdir. Xarici dil müəllimi yalnız "nəyi necə ölçmək" sualına deyil, həm də "nəyə görə belə ölçmək" sualına cavab verməyi bacarmalıdır. Məhz bu halda qiymətləndirmə tədrisin son mərhələsi deyil, onun inkişaf etdirici və keyfiyyətyaradıcı hissəsinə çevrilir.

*Elm və Təhsildə Müasir Tələblər* **XIX Tezislər Toplusu/ 19 aprel / 74-78**
*Modern Requirements in Science and Education* **XIXTheses Collection/ 19 april / 74-78**
**https://doi.org/10.36719/2789-6919/XIX/TT/ET/2026**

**Nigar Gasimova**
Azerbaijan State Pedagogical University
https://orcid.org//0000-0002-2458-2469
gasimovanigar90@gmail.com

# Hyperbole and Litotes as Figures of Speech: A Semantic and Stylistic Analysis

***Keywords***: *stylistic devices, expressive power of language, the artistic value of speech, hyperbole, litotes, irony, emphasis*
***Açar sözlər:*** *üslub vasitələri, dilin ifadə gücü, nitqin bədii dəyəri, hiperbola, litota, ironiya, vurğu*

Hyperbole is an important stylistic device that enhances the expressive power of language and makes speech more vivid and memorable. It plays a significant role in both literature and everyday communication. When used appropriately, hyperbole greatly increases the artistic value of speech. Hyperbole is frequently used in everyday speech. For example: “I'm dying of hunger”, “I called you a hundred times”, “This bag weighs tons”, “I'm so hungry I could eat a horse”, “I've told you a million times”, “I'm dying of laughter”, “It took forever to finish this work”. These expressions are not literal; they are used to intensify meaning.

Hyperbole is one of the most effective and widely used stylistic devices. It is a figure of speech in which an idea, event, object, or quality is deliberately exaggerated. The aim is not to present reality as it is, but to make it more expressive, emotional, and attention-grabbing. This term is widely studied in rhetoric and linguistics.

Main features of hyperbole are deliberate exaggeration, emotional intensity, expressiveness, subjectivity. Deliberate exaggeration causes something departs from reality, emotional

**https://doi.org/10.36719/2789-6919/XIX/TT/ET/2026**

intensity adds strong feelings, expressiveness makes speech more vivid, and subjectivity reflects the speaker's attitude. Hyperbole performs several important functions: 1. Creating emotional impact: It evokes strong feelings in the reader or listener. For example: "I miss you so much it hurts", "My heart is breaking into a thousand pieces", "She cried a river", "I was scared to death", "I have been waiting for you for a thousand years." 2. Attracting attention: It makes ideas more memorable. For instance: "I have traveled the whole world and never seen anyone like you." 3. Creating vivid imagery: It helps to present characters and situations more effectively in literature and poetry. For instance: "I will love you forever", "You are the most beautiful person in the world", "I can't live without you". Poets like William Shakespeare often used hyperbole in romantic expressions. Hyperbole plays an important role in literature and it is widely used in literary works. In the works of Nizami Ganjavi, the strength and love of characters are presented in an exaggerated way. In the poetry of Muhammad Fuzuli, love and suffering are expressed through hyperbolic language. This enhances emotional depth and makes literary works more memorable.

There are different types of hyperbole and it can appear in different forms: 1. Quantitative hyperbole: It is exaggeration of number or amount. For example: "I told you a thousand times!" 2. Qualitative hyperbole: It is exaggeration of qualities or characteristics. For example: "I have a mountain of problems." 3. Temporal hyperbole: It is exaggeration related to time. For instance: "I haven't seen you for centuries". Hyperbole sometimes is used for humor. For instance: "I'm so tired I could sleep for a year", "He runs faster than lightning", "This is the worst day ever".

Hyperbole works best when it is obviously exaggerated and adds emotion or humor. Litotes is a stylistic device in which an

*Elm və Təhsildə Müasir Tələblər* XIX Tezislər Toplusu/ 19 aprel / 74-78
*Modern Requirements in Science and Education* XIXTheses Collection/ 19 april / 74-78
https://doi.org/10.36719/2789-6919/XIX/TT/ET/2026

idea, event, or quality is expressed through deliberate understatement or weakening. In other words, it is the opposite of hyperbole. Through litotes, meaning is conveyed indirectly, often in a softer or sometimes ironic way. The definition of litotes sounds more complicated than its actual use: They are phrases that express an affirmative by denying its opposite, usually through understatement. Litotes is widely studied in Rhetoric and Linguistics. Litotes is characterized by the following features: 1. Understatement and reduction – the idea is presented as weaker than it actually is. 2. Indirect expression – meaning is conveyed indirectly. 3. Element of irony – may imply a deeper or opposite meaning.4. Subtlety and softness – make speech more refined.

Litotes have a lot of functions: 1. Softening effect. It makes strong or harsh statements sound milder. For example: "This task is a bit difficult", this sentence means this task is very difficult. 2. Creating irony. It produces an effect through implied meaning. For instance: "He is not a bad student", this sentence means that he is a good student. 3. Expressing modesty. The speaker downplays their own abilities.

For example: "I'm not an expert", this sentence means I actually know quite a lot. There are different types of litotes. 1. Negative understatement. It is the most common type. For example: "Not bad" (meaning: good); 2. Quantitative understatement. It reduces the amount or number. For instance: "I have a few problems." (meaning: many problems); 3. Qualitative understatement. It weakens qualities. For example: "This is somewhat interesting.

Litotes is widely used in literature to create subtle and refined expressions. William Shakespeare used litotes to convey irony and deeper meanings. Jane Austen employed litotes to present social relations delicately. Litotes and hyperbole are different literary devices. Hyperbole means exaggeration, but

**https://doi.org/10.36719/2789-6919/XIX/TT/ET/2026**

litotes means understatement. Hyperbole intensifies the effect, but litotes softens the effect. Hyperbole makes expressions emotional, but litotes makes expressions subtle and ironic. Example of hyperbole: "I'm starving to death", example of litotes "I'm not very hungry".

Litotes is a subtle and refined stylistic device that allows speakers to express ideas in a softer, indirect, and sometimes ironic way. It plays an important role in both literature and everyday communication, enriching the expressive power of language and helping convey attitudes more delicately. Litotes is frequently used in everyday language; it is very common in everyday speech. For example: "Not bad", "It's not a big deal", "I'm not unhappy", "This task is not easy", "You can't say I didn't warn you", "You're not wrong" etc.

One of the defining factors of litotes is that it utilizes a negative to create a positive. Litotes have a variety of purposes in writing, such as rhetoric, emphasis, and avoidance. The main purpose of rhetoric is to be motivating or persuasive. Second purpose of litotes in writing is emphasis. A writer might choose to use litotes to compare a situation to its opposite extreme, thereby emphasizing how far away the two things actually are. For example, to say that a painting is "not a Picasso" emphasizes just how bad of a painting it is. By invoking Picasso, or any master artist, the gap between the present painting and the potential of painting is made clear. Third purpose of litotes in writing is avoidance. The vagueness or ambiguity of litotes can be used deliberately. For instance, if your character does not want to express their true feelings about a subject, then litotes can help them skirt around it.

Litotes and hyperboles are different stylistic devices. Hyperbole is language that has been clearly exaggerated in order to overstate something's value, and it doesn't rely on negation. For instance, "This pasta is the best thing I've ever eaten"

**https://doi.org/10.36719/2789-6919/XIX/TT/ET/2026**

is *probably* a hyperbole, meant to illuminate a very tasty dish. Litotes uses exaggerated language to the opposite effect, in order to understate something, and does rely on negation. For example, “It’s not the worst thing I’ve eaten” means that it probably tastes pretty good. Litotes use exaggerated language to create an understatement, while hyperbole uses exaggerated language to create an overstatement.

**https://doi.org/10.36719/2789-6919/XIX/TT/ET/2026**

**Tərlan Əliyeva**
Azərbaycan Dövlət Pedaqoji Universitetinin
Ağcabədi filialı
https://orcid.org/0009-0009-1484-1031
tarlanaliyeva60@gmail.com

# Ümumtürk mədəniyyətinin məhsulu olan kitabələrimizin öyrənilməsi tarixi

***Açar sözlər***: *kitabələr, qədim türk dili, Göytürk abidələri, Orxon-Yenisey abidələri, daş kitabələr*
***Keywords:*** *inscriptions, ancient turkic language, Goyturk monuments, Orkhon-Yenisei monuments, stone inscriptions*

Ümumtürk mədəniyyətinin məhsulu olan qədim türk yazılı abidələri türk xalqlarının milli düşüncə tərzini, mənəvi dünyasını və zəngin dil tarixini əks etdirən möhtəşəm nümunələrdir. Çağdaş türk ədəbiyyatının, mədəniyyətinin genetik əsasında qədim türk mədəniyyəti dayanır. Buna görə də qədim türk abidələrinin öyrənilməsi müasir dövr üçün ən aktual məsələlərdən biridir. Qədim türk yazılı abidələri eramızın V yüzilliyində yaranmışdır. Bu yazıların günümüzə qədər gəlib çatan ən əski örnəkləri VII-VIII yüzilliklərə aiddir. Daşlar üzərində Göytürk hərfləri ilə yazılmış bu kitabələr bütün türk xalqlarının tarixində böyük əhəmiyyətə malikdir. Göytürk kitabələrində ilk dəfə olaraq türk millətinin adı çəkilmiş, türkün tarixi ilk öncə daş kitabələr üzərində yazılmışdır. Daş kitabələr türk dilli xalqların ilk yazılı mənbələridir.

Göytürk yazılı abidələrinin elmi əsaslar üzrə öyrənilməsinə nisbətən yaxın zamanlarda başlanmışdır. Şərq ölkələrində, o cümlədən Türkiyədə uzun müddət Sibirdə Yenişey çayı sahillərində, sonra isə Şimali Monqolustanda – Orxon, Toli Sucin, Ongin çayları sahillərində əsasən qəbir daşları üzərində

**https://doi.org/10.36719/2789-6919/XIX/TT/ET/2026**

qalan göytürk yazılı abidələrinin öyrənilməsinə, oxunmasına heç bir maraq göstərilməmişdir. Avropa ölkələrində isə bu yazılı abidələrin öyrənilməsinə maraq XVIII yüzillikdə yaranmışdır. Orxon-Yenisey abidələrindən ilk dəfə XII əsrdə tarixçi Alaəddin Ata Məllikin "Cüveyni tarixi Cahangüşa" adlı əsərində bəhs edilmişdir. Lakin bu faktlar avropalılara məlum olmadığından Orxon-Yenisey abidələrinin varlığı uzun müddət elm aləmindən gizli qalmışdır. Kitabələr haqqında ilk məlumatı Niderlandın paytaxtı Amsterdam şəhərinin burqomistri Nikoloy Vidzen vermişdir. Onun 1692-ci ildə çapdan çıxmış "Nord and Oost Tartarye" adlı kitabında qeyd olmuşdur: Verxaturye çayından bir qədər aralı qayada bir neçə şəkil və naməlum hərflərlə yazılmış bir neçə yazı tapılmışdır. O yerlərin ən qocaman sakinlərinin dediyinə görə, həmin yazılar moskvitlərin bu ölkəni fəth etdiyi zamandan əvvəl də orada olmuşdur.

Rus alimi və jurnalisti Q.İ.Spaskin 1818-1819-cu illərdə özünün redaktorluq etdiyi "Sibirskiy vestnik" jurnalında ardıcıl olaraq "Sibirin sərvətləri" adlı 4 məqalə və ilk dəfə Sibir yazılı abidələrində olan bütün yazı işarələrinin cədvəlini çap etdirir.

Yenisey çayı hövzəsində tapılmış yazıların tədqiq edilib öyrənilməsində rus alimi H.N.M.Yadrintsevin daha böyük xidməti vardır. 1885-ci ildə onun Yenisey abidələri haqqında məqaləsi çıxmışdır. Bu məqalədə Klaprotun Yenisey yazılarının şimal mənşəli olması haqqındakı fərziyyəsinin əleyhinə çıxaraq söyləyir ki, bu kitabələrin dili türk mənşəli olmasıdır. XIX yüzillikdə Rusiyada Yenisey və Orxon yazılı abidələrinin üzərində çalışan yeganə mütəxəssis V.Radlov idi. O, hətta bir neçə yazı işarələrinin oxunuşuna da müvəffəq olmuşdu, lakin 1893-cü ildə Danimarka alimi V.Tomsen bu sahədə V.Radlovu qabaqlaya bilir. O, 1893-cü il oktyabrın 15-də V.Radlova yazdığı məktubunda Yenisey-Orxon yazılı abidələrinin açarını tapdığını bildirir. Həmin il noyabrın 25-də isə V.Tomsen Danimarka Kral Elmlər Akademiyasında bu haqda məruzə edir və bütün

**https://doi.org/10.36719/2789-6919/XIX/TT/ET/2026**

dünya alimlərinə elan edir: "Yenisey-Orxon yazılı abidələri qədim türk qəbilələrinə məxsusdur."

XX əsrin əvvəllərində Orxon-Yenisey abidələrinin tədqiqində bir durğunluq yaranır. Çin Türküstanının qumlarında çoxlu miqdarda uyğur yazılı abidələrinin tapılması ilə əlaqədar V.V.Radlov Monqolustan və Sibirdəki abidələrin tədqiqindən ayrıldı. Çünki o, bunların hamısını ilkin şəkildə tədqiq etmiş və qrammatik oçerklərlə izahını vermişdi. Orxon-Yenisey yazılı abidələri haqqında bir neçə məqalə yazmış bə bu kitabələrdə təkliklərlə onluqların birləşməsindəki xüsusi sistemi kəşf etmiş V.Banq da bu abidələrin tədqiqi üzərində çox dayanmamışdı.

Qədim türk qəbilələrinin tarixini, eləcə də Orxon-Yenisey abidələrinin öyrənilməsində ikinci yüksəliş dövrü 1909-cu ildən başlanır. 1912-ci ildə V.Kotviç Monqolustandakı İhe-huşotu adlanan yerdə Tarduş bəyi Küli Çor şərəfinə qoyulmuş abidəni kəşf etdi. 1909-cu ildə Ramstedt Monqolustana ekspedisiya təşkil edir. Bu ekspedisiya zamanı "Suci" və "Selenqa" abidələri tapılır. Həmin abidələr 1913-cü ildə Ramstedt tərəfindən nəşr edilir. Bu iki abidədən, xüsusən də "Selenqa" abidəsi böyük maraq doğururdu, çünki o, Orxon-Yenisey əlifbası ilə daş üzərində yazılmış son abidələrdən idi. Bu türk sülaləsinə deyil, uyğur sülaləsinə məxsus idi. Dilçilik nöqteyi-nəzərindən də bu abidə böyük əhəmiyyət daşıyırdı.

Birinci Dünya Müharibəsinin başlanması ilə qədim türk yazılı abidələrinin öyrənilməsinə maraq yenə də zəifləyir. Orxon-Yenisey abidələrinin öyrənilməsinin yeni dövrü əsrimizin 30-cu illərindən başlayır. Bu dövrün əsas şəxsiyyətləri türk tədqiqatçısı H.N.Orgun və rus alimi S.Y.Malovdur. Arxeoloq Masson 1931-ci ildə geoloji qazıntı zamanı təsadüfən Qırğızıstanda tapılmış "Talas çubuğu" abidəni tapır. Bu dünyada Orxon -Yenisey əlifbası ilə ağac üzərində yazılmış yeganə nüsxədir. Abidə Malov tərəfindən tərcümə və nəşr edilir.

**https://doi.org/10.36719/2789-6919/XIX/TT/ET/2026**

H.N.Orgun 30-cu illərdə dörd cildlik "əski türk yazıları" adlı əsərini nəşr etdirir. Həmin əsərdə Orxon-Yenisey əlifbası ilə daş, ağac və kağız üzərində yazılmış kitabələrin tərcüməsi və müəllifin qeydləri verilir. İ.A.Batmanov ilə A.Ç.Kunaanın "Tuvanın qədim türk abidələri" adlı əsəri də öz orijinallığı ilə seçilir.

Türk qəbilələri içərisində ən qədim şəhər mədəniyyətinə malik olan uyğurlar türk yazı mədəniyyətinin inkişafında və yayılmasında çox mühüm rol oynamışdır. Lakin uyğur qəbilələri müxtəlif din və inanclara tapındıqlarına görə vahid bir əlifbadan istifadə etməmişlər. Ona görə dövrümüzə qədər qorunub saxlanılan türk dilli uyğur yazılı abidələri göytürk, brahma – hind, mani və uyğur əlifbaları ilə tərtib edilmişdir. Uyğur yazılı abidələrinin toplanılmasına və öyrənilməsinə XIX yüzilliyin 20-ci illərindən başlanılmışdır. Məşhur türkoloq və şərqşünas Mirzə Kazım bəy Rusiyada uyğur qəbilələrinin tarixinin yazı mədəniyyətinin öyrənmək sahəsində ilk rusiyalı alim hesab edilir. O, 1841-ci ildə "Uyğurlar haqqında tədqiqat" adlı monoqrafiyasını çap etdirir və bununla da Rusiyada uyğurşünaslığın əsasını qoyur. S.Y.Malov X yüzillikdə Çin dilindən tərcümə olunmuş "Altun yaruk" adı altında bəlli olan uyğur yazılı abidəsinin tam nüsxəsini tapır. Hal-hazırda dünyanın müxtəlif kitabxanalarında və müzeylərində saxlanılan uyğur yazılı abidələrinin dili hələ kompleks halında öyrənilib başa çatdırılmamışdır. Bununla belə bu abidələr üzərində aparılan ilkin araşdırmalar belə bir fikir yürütməyə əsas verir ki, uyğur ədəbi dili əvvələr göytürk ədəbi dilindən fərqlənməmişdir. Uyğur qəbilələri bəllidir ki, tapındıqları dini etiqadlarının müxtəlifliyi, düşdükləri ictimai-tarixi şəraitlə bağlı olaraq müxtəlif əlifbalardan istifadə etmişlər. IX-X yüzilliklərdə Cunqaridə məskən salan uyğurlar birdəfəlik olaraq göytürk əlifbasından soqdallardan qəbul etdikləri yuxarıdan aşağıya doğru zəncirvari şəkildə yazılan əlifbaya keçirlər. Uyğur qəbilələrinin başqa bir qismi atəşpərəstliyə sitayiş etdiyinə görə mani əlifbasından istifadə etmişlər. Uyğur abidələri içərisində

**https://doi.org/10.36719/2789-6919/XIX/TT/ET/2026**

mani (atəşpərəslik) inamının yayılması tarixi hələ tamamilə müəyyənləşdirilməmişdir. Malov və Radlov bəzi uyğur qəbilələrinin mani dini etiqadını qəbul edilməsi tarixini eramızın yeddinci yüzilliyinə qədər baş vermiş tarixi hadisə kimi izah edirlər. Dmitriyeva və Qumilyov isə belə hesab edirlər ki, uyğur qəbilələrinin mani dini etiqadının qəbul edilməsi tarixi yeddi, səkkizinci əsrlərdə baş vermişdir. Mani dini məzmunlu uyğur yazılı abidələri dil xusisiyyətlərinə görə başqa dini məzmunlu olan və başqa əlifba ilə tərtib olunmuş uyğur yazılı abidələrindən çox az fərqlənir. Mani dini məzmunlu uyğur yazılı abidələr içərisində "Xuastuanift" adlı sənət həm həcminə, həm də dil xüsusiyyətlərinə görə diqqəti daha çox cəlb edir. Elmi ədəbiyyatlarda çox vaxt "Manixeylərin peşmançılıq duası" adı altında öyrənilən "Xuastuanift" abidəsinin meydana çıxma tarixi mübahisəlidir. Abidəni ilk dəfə təqdiq edən Radlov belə hesab edir ki, leksik, qrammatik xüsusiyyətlərinə görə göytürk yazılı abidələrini xatırladır. "Xuastuanift" əsərinin uyğur əlifbası ilə yazılmış nüsxəsi Peterburqda Şərqşünaslıq İnustitutunun kitabxanasında saxlanılır. Mani əlifbasıyla köçürülmüş iki nüsxəsi isə Londonda və Berlində saxlanılır.

Dövrümüzə qədər qorunub saxlanan uyğur yazılı abidələrinin çoxu budda dini məzmunludur. Budda dini məzmunlu uyğur yazılı abidələri əsasən Çin, Tibet, Hind, Toxar dillərindən tərcümə edilmiş mətnlərindən ibarətdir. Uyğur yazılı abidələri göytürk yazılı abidələrindən fərqli olaraq əsasən kağız üzərində yazılmışdır. Bu yazılı abidələr içərisində çoxsəhifəli sənədlər, əsərlər də vardır. Bunların içərisində "Altun yaaruk" abidəsi diqqəti daha çox cəlb edir. "Altun yaruk" (qızıl işığı) əsəri qədim uyğur ədəbi dili ənənəsini davam etdirən ən iri həcmli budda dini məzmunlu uyğur yazılı abidəsidir. 1908-1913-cü illərdə əvvəlcə alman, sonra rus alimlərinin təşkil etdikləri xüsusi elmi ekspedisiyalar zamanı Çində hissə - hissə tapdıqları bu abidə X yüzillikdə uyğurların mərkəzi şəhəri Beşba-

**https://doi.org/10.36719/2789-6919/XIX/TT/ET/2026**

lıkda Sunqu-Seli Tudun tərəfindən Çin dilindən tərcümə edilmişdir.

"Altun yaruk" abidəsi iki hissədən ibarətdir. Birinci hissədə bir şəhər hökmdarının ağır xəstəlikdən xilas olması üçün "Altun yaruk" əsərinin üzünü köçürərək budda məbədinə verməsindən bəhs olunur. Abidənin ikinci hissəsi də, demək olar ki, eyni məzmundadır. İkinci hissədə göstərilir ki, Anku kəndinin kəndxudasının arvadı "Altun yaruk" abidəsini oxumaqla düçar olduğu xəstəlikdən xilas olur və onun əli ilə öldürülən heyvanlar yenidən insanlar aləminə daxil olurlar. "Altun yaruk" abidəsi uyğur ədəbi dilinin öyrənilməsi baxımından çox əhəmiyyətlidir. Əski türk abidələri türk xalqlarının ortaq ədəbi-tarixi abidəsi kimi böyük əhəmiyyət kəsb etmiş, türk xalqlarının milli oyanış və inkişafına müsbət təsir göstərmişdir. Qədim türk kitabələri türk xalqlarının dil və ədəbiyyatının ilkin qaynağı, özülü kimi məşhur olmuş, yaşamış, türk dünyasının təməl daşına çevrilmişdir.

*Elm və Təhsildə Müasir Tələblər* **XIX Tezislər Toplusu/ 19 aprel / 85-88**
*Modern Requirements in Science and Education* **XIXTheses Collection/ 19 april / 85-88**
**https://doi.org/10.36719/2789-6919/XIX/TT/ET/2026**

**Gülnarə Həsənova**
Azərbaycan Dövlət Pedaqoji Universiteti
https://orcid.org/0009-0002-7239-1146
gulnarahasanova3@gmail.com

# Tərcümədə fon biliklərinin və mədəni kontekstin rolu

***Açar sözlər:*** *tərcümə, fon bilikləri, mədəni kontekst, mədəniyyətlərarası ünsiyyət, tərcümənin səmərəliliyi*

***Keywords:*** *translation, background knowledge, cultural context, intercultural communication, effectiveness of translation*

Tərcümə zamanı yaranan çətinliklərin əsas mənbələrindən biri orijinal və hədəf dillərinin mədəniyyət fərqləridir. Eyni zamanda, tərcüməçinin orijinal dilin və ya mətnin mövzusunu kifayət qədər bilməməsindən qaynaqlanır. Lakin "bilməmə" problemi sadəcə dilçilik məsələsi ilə məhdudlaşmır. Mətnin düzgün qəbul edilməsi üçün həm də fon biliklərinin – yəni eyni dil və mədəniyyət dairəsinə mənsub insanların paylaşdığı ümumi bilik sisteminin olması zəruridir. Bu fon biliklərini hansısa dar ixtisas sahəsinə aid olan xüsusi biliklərdən fərqləndirmək lazımdır. Məsələn, tibbə dair mətni tərcümə edərkən tibb sahəsindəki xüsusi biliklər vacib olsa da, eyni zamanda, ümumi mədəni biliklər, məsələn, tibbi terminlərin tarixi və inkişafı barədə məlumatlar da tərcümənin keyfiyyətinə təsir edə bilər. Başqa sözlə, tərcüməçi yalnız dil bilməklə kifayətlənməməli, həm də mədəni kontekst və tarixi fona dair dərin biliklərə malik olmalıdır ki, mətnin əsl mənasını dəqiq və tam şəkildə çatdıra bilsin.

Mədəniyyətlərarası ünsiyyətdə adresant və adresat tərəflərin fon bilikləri arasındakı uyğunsuzluq, sadəcə ünsiyyətin effektiv-

**https://doi.org/10.36719/2789-6919/XIX/TT/ET/2026**

liyini azaltmaqla kifayətlənmir, həm də tamamilə anlaşılmazlığa gətirib çıxara bilər. Bu vəziyyətdə tərcüməçi, hədəf dilin mədəniyyəti üzrə mütəxəssis rolunu oynayır. Çoxsaylı fərdi təcrübələrin və baxış bucaqlarının qovuşduğu nöqtədə ümumi bir mədəniyyət formalaşır. Bu ümumi mədəniyyətin məna sistemi isə maddi və mənəvi mədəniyyət aləmi ilə qarşılıqlı əlaqədə, bir-birini formalaşdırır. Ona görə də, düzgün tərcümə üçün yalnız linqvistik amillər deyil, həm də linqvistik kontekst olduqca əhəmiyyətlidir (Cəfərova, 2004, s. 12). Bu vəziyyət, yəni linqvistik kontekst, ifadənin söyləndiyi zamanı və məkanını, ətraf mühitin xüsusiyyətlərini, həmin an baş verən hadisələri və bu hadisələrlə əlaqədar olan real həyat faktlarını əhatə edir. Bu məlumatlar, dil vahidlərinin və ümumiyyətlə ifadənin mənasını dəqiq başa düşməyə, düzgün interpretasiya etməyə kömək edir. Məsələn, *to get a flat* ifadəsinin mənası Amerika və Britaniya ingilis dillərində fərqli şəkildə başa düşülə bilər. Amerika ingiliscəsində bu, adətən, *təkər partlaması* mənasını verir, halbuki Britaniya ingiliscəsində bu, *mənzil tapmaq* mənasında da işlənə bilər. Tərcüməçi bu fərqləri nəzərə alaraq, mətnin kontekstindən asılı olaraq, uyğun bir tərcümə strategiyası seçməlidir. Bu, həm sözün özü, həm də ümumi kontekstin dəqiq anlaşılması, mədəniyyət fərqlərinin nəzərə alınması və ən uyğun ifadənin seçilməsi deməkdir.

Tərcümə prosesini çətinləşdirən amillərdən biri də dilin mədəni və tarixi inkişafının dinamik xüsusiyyətləridir. Tərcümə prosesində leksik sistemdə dəyişikliklərə səbəb olan sosial-mədəni meyilləri nəzərə almaq vacibdir. Bu dəyişikliklər sözün əsas mənasını, onunla bağlı emosional və mədəni konnotasiyaları, qəbul olunmuş dil normalarını və s. əhatə edə bilər. Mədəniyyətlə bağlı dil yeniliklərinin bariz nümunəsi Amerika mədəniyyətində meydana çıxmış "siyasi dürüstlük" fenomenidir. "Siyasi dürüstlük" fenomeni, irqi və cinsi mənsubiyyət, yaş, sosial status və s. kimi amillərə münasibətdə dilin kobudluğu və

**https://doi.org/10.36719/2789-6919/XIX/TT/ET/2026**

ya birbaşa ifadə formaları ilə insanın hisslərinə və ləyaqətinə toxunan ifadə vasitələrini daha incə, ehtiram dolu və qərəzsiz ifadə formaları ilə əvəz etməyə yönəlmiş bir yanaşmadır. Bu, tərcüməçidən yalnız sözlərin leksik mənasını bilməyi deyil, həm də sözlərin mədəni kontekstdə necə işlədildiyini, hansı təəssüratları oyandırdığını və müasir dil normalarına necə uyğun gəldiyini dəqiq anlamasını tələb edir (Bayramov, 2008, s. 88). Tərcüməçi mədəni dəyişikliklərin dilə təsirini, o cümlədən "siyasi dürüstlük" kimi fenomenlərin dilə nə dərəcədə təsir etdiyini dəqiq şəkildə qiymətləndirməlidir ki, mətnin mənasını dəqiq və mədəni cəhətdən uyğun şəkildə çatdıra bilsin.

Sosial bərabərsizliyi ifadə edən sözlər, kontekstdə diskriminasiyaya məruz qalan qruplara mənfi təsir göstərməmək üçün neytral və ya müsbət konnotasiyalı ifadələrlə əvəz olunur. Amerika dil və mədəniyyətindəki multikulturalizm prinsiplərinə uyğun olaraq, daha az qərəzli hesab edilən yeni leksika geniş yayılıb. Məsələn, *Indian* əvəzinə *Native American*, *poor* əvəzinə *low-income, handicapped* əvəzinə isə *physically challenged* kimi ifadələr işlənir. Cins əlamətini bildirən şəkilçilər də tədricən aradan çıxarılır; məsələn, *foreman* əvəzinə cinsdən asılı olmayan *supervisor* istifadə olunur. İctimai-siyasi mətnlərin ingilis dilinə, xüsusilə də Amerika oxucuları üçün tərcüməsi zamanı tərcüməçinin müasir Amerika dil və mədəniyyətində neytral konnotasiyalara malik olan "siyasi cəhətdən düzgün" leksikadan istifadə etməsi tövsiyə olunur. Bu, mətnin daha tolerant və qərəzsiz bir şəkildə qəbul edilməsini təmin edir (Komissarov, 1990, s. 180).

Etnomədəni realiləri əks etdirən və ekvivalentsiz olan leksika, özünəməxsus bir leksik qrup təşkil edir. Realiya adı altında, adətən, müəyyən bir xalqa, ölkəyə və ya regiona məxsus olan, həyat tərzinin və ictimai həyatın özünəməxsus xüsusiyyətlərini ifadə edən leksik vahidlər başa düşülür. Bu realilər coğrafi

**https://doi.org/10.36719/2789-6919/XIX/TT/ET/2026**

adlar, etnoqrafik anlayışlar, mədəni və ictimai-siyasi fenomenləri əhatə edə bilər.

Milli ölçü sistemlərinə aid olan ölçü realiləri (çəki, uzunluq, sahə, həcm vahidləri və s.) tərcümədə xüsusilə çətinliklər yaradır. Çünki fərqli dillərdə, hətta eyni dilin daxilində belə, eyni ölçü vahidlərini ifadə edən sözlərin mənaları və qiymətləri fərqlənə bilər. Tərcüməçi bu vəziyyətdə hər bir ölçü vahidinin beynəlxalq metrik sistemlə əlaqəsini dəqiq bilməlidir. Məsələn, mil uzunluq vahidi dəniz mili, quru mili, ingilis mili kimi müxtəlif növlərə malikdir və hər birinin metrik ekvivalenti fərqlənir. Fut və funt kimi vahidlərin də çoxlu sayda variantları və buna uyğun olaraq müxtəlif metrik ekvivalentləri mövcuddur. Elmi-texniki mətnlərdə tərcüməçi metrik sistemdə hansı konkret ekvivalentin nəzərdə tutulduğunu dəqiq müəyyənləşdirməli və tərcüməni ona əsaslanaraq aparmalıdır.

## Ədəbiyyat

1. Bayramov, Q.H. (2008). *Tərcümə sənəti. Tərcümə nəzəriyyəsi üzrə ali məktəb tələbələri üçün dərslik*. "OKA Ofset".
2. Cəfərova, K.A. (2004). *Şeir tərcüməsinin sintaktik-üslubi məsələləri (V.Şekspir sonetlərinin Azərbaycan dilinə tərcümələri əsasında).* Namizədlik dis. avtoreferatı.
3. Komissarov, V.H. (1990). *Teoriya perevoda (lingvisticheskie aspekty): uchebnik.* Vyssh. shk.

*Elm və Təhsildə Müasir Tələblər* **XIX Tezislər Toplusu/ 19 aprel / 89-92**
***Modern Requirements in Science and Education*** **XIXTheses Collection/ 19 april / 89-92**
**https://doi.org/10.36719/2789-6919/XIX/TT/ET/2026**

**Nuranə Teymurlu**
Bakı Slavyan Universiteti
magistrant
https://orcid.org/0009-0003-3875-107X
teymurlunurane@gmail.com

# XIX əsrin İrəvanında təhsil ocaqları

***Açar sözlər:*** *XIX əsr İrəvan, xanlıqlar, məktəb, təhsil, Çar Rusiyası, mollaxana, mədrəsə*
***Keywords:*** *XIX century Yerevan, khanates, school, education, Russian Empire, Muslim ecclesiastical school, madrasa*

İrəvan şəhəri Cənubi Qafqazın ən qədim mədəniyyət mərkəzlərindən biri olaraq uzun əsrlər boyu müxtəlif sivilizasiyaların qovuşduğu bir nöqtə olmuşdur. XVIII əsrin sonlarında İrəvan xanlığının mərkəzi kimi öz siyasi müstəqilliyini qoruyan bu şəhər, eyni zamanda, zəngin mədəni həyata sahib idi. 1804-1813 və 1826-1828-ci illərdəki Rus-İran müharibələri nəticəsində imzalanmış Gülüstan və Türkmənçay müqavilələri ilə İrəvan Rusiya imperiyasına birləşdirilmiş, bu hadisə bölgənin siyasi, demoqrafik və mədəni tarixini kökündən dəyişmişdir. Bu dəyişikliklər təhsil sahəsinə də öz təsirini göstərmişdir.

XIX əsrin əvvəllərində İrəvanda yaşayan müsəlman, erməni və digər icmaların hər birinin öz dini-mədəni müəssisələri mövcud idi. Rusiya hakimiyyətinin burada yerləşməsi isə yeni tipli dünyəvi və konfessional məktəblərin yaranmasına zəmin hazırladı. Bu dövr, eyni zamanda, müasir milli şüurun formalaşdığı və maarifçilik hərəkatlarının gücləndiyi bir mərhələ kimi xarakterizə edilir.

Rusiya işğalından əvvəl İrəvanda hakim təhsil forması molla məktəbləri idi. Bu məktəblər əsasən məscidlərə bitişik otaqlarda fəaliyyət göstərir, müsəlman uşaqlara Quran oxuma, ərəb əlif-

bası və ibtidai hesab bilikləri öyrədilirdi. Tədris dili əsasən Azərbaycan türkcəsi olsa da, dini mətnlər ərəb dilində idi. Müəllim, molla, icmanın dini xadimi, sosial rəhbəri və eyni zamanda müəllimi idi.

Şəhərdə ayrıca mədrəsələr də fəaliyyət göstərirdi. Bu ali səviyyəli din məktəbləri fiqh, kəlam, məntiq, astronomiya və ədəbiyyat kimi fənləri əhatə edir, dini kadrlar yetişdirirdi. İrəvan xanlığının hökmdarları bu müəssisələri hər cəhətdən dəstəkləmiş, vəqf torpaqları vasitəsilə onların maddi bazasını möhkəmləndirmişdilər.

Erməni icması isə kilsə nəzdindəki məktəblərə arxalanırdı. Bu məktəblər Erməni Apostol Kilsəsi tərəfindən maliyyələşdirilir, erməni əlifbası, dini mətnlər və kilsə musiqisini əhatə edən proqram fəaliyyət göstərirdi. Həmin məktəblər xalqın milli kimliyinin qorunmasında mühüm rol oynayırdı.

1828-ci ildən etibarən Rusiya imperiyasının təhsil siyasəti bölgəyə yeni bir nəfəs gətirdi. 1830-cu illərdə İrəvanda açılan ilk rus inzibati məktəbi əsasən çinovnik ailələrinin uşaqları üçün nəzərdə tutulmuş olsa da, zamanla yerli icmaların da daxil ola biləcəyi bir məkana çevrildi. Bu məktəblərdə rus dili, riyaziyyat, coğrafiya və tarix tədris olunurdu.

XIX əsrin ikinci yarısında isə Zemstvo islahatları çərçivəsində açılan ibtidai məktəblər şəbəkəsi genişləndi. Bu məktəblər həm kənd, həm də şəhər uşaqları üçün nəzərdə tutulmuşdu. Çoxlu sayda müsəlman ailə isə öz uşaqlarını rus məktəblərinə göndərmək əvəzinə, ənənəvi molla məktəblərini üstün tutmağa davam edirdi, bu da Rusiya hakimiyyətinin yerli müsəlman icmaları üzərindəki nüfuzunu məhdudlaşdırırdı.

1879-cu ildə İrəvan quberniyasında aparılan statistik məlumatlara görə, bölgədə onlarca kilsə məktəbi, bir neçə rus tədris müəssisəsi və çoxsaylı molla məktəbi fəaliyyət göstərirdi. Dünyəvi təhsilə maraq isə əsrin sonlarına doğru artmağa başladı.

**https://doi.org/10.36719/2789-6919/XIX/TT/ET/2026**

XIX əsrdə İrəvanda mövcud olan məktəb strukturu, bölgənin çoxxalqlı və çoxkonfessional xarakterini əks etdirirdi. Müsəlman, erməni və rus icmalarının hər biri öz ayrıca təhsil sisteminə arxalanırdı. Bu paralel sistemlər icmalar arasında inteqrasiyanı zəiflədər, eyni zamanda, hər birinin mədəni müstəqilliyini qorumağına imkan verirdi.

Rusiya imperiyası öz siyasi maraqları baxımından assimilyasiyaçı bir məktəb siyasəti yürüdürdü; rus dilini dövlət dili kimi tətbiq etmək, xristian icmalara daha geniş imtiyazlar vermək (erməni kilsə məktəbləri bu siyasətin qismən benefisiarı olurdu) və müsəlman molla məktəblərini nəzarət altında saxlamaq əsas məqsədlərdən idi. Bu siyasət bölgədə gərgin bir münasibətlər mühiti yaradırdı.

Maarifçilik ideyaları isə bu dövrdə Azərbaycan türklərinin içərisindən də özünə yer tapmağa başladı. Abbasqulu Ağa Bakıxanov, Mirzə Fətəli Axundzadə kimi mütəfəkkirlər müsəlman xalqlar üçün müasir, dünyəvi təhsilin zəruriliyini müdafiə edirdilər. Onların fikirləri İrəvanda da müəyyən əks-səda doğurmuş, getdikcə artan sayda ailə uşaqlarını molla məktəbləri ilə yanaşı daha müasir tədris müəssisələrinə göndərməyə meyil etmişdi.

Həmçinin, qeyd etmək lazımdır ki, bu dövrdə qız uşaqlarının təhsilinə yanaşma bütün icmalarda mühafizəkar olaraq qalırdı. Qız məktəbləri yalnız XIX əsrin sonlarında bölgədə fəaliyyət göstərməyə başladı; əvvəlcə erməni icmasında, sonradan isə rus administrasiyasının himayəsi altında açılan müəssisələrdə.

Nəticə etibarı ilə, XIX əsrdə İrəvanda məktəb təşkilatları üç əsas qatdan ibarət idi; ənənəvi dini məktəblər (molla məktəbləri və mədrəsələr), kilsə nəzdindəki erməni məktəbləri və Rusiya imperiyasının inzibati-maarifçilik məktəbləri. Bu üç sistem arasındakı qarşılıqlı əlaqə həm rəqabəti, həm də bəzən əməkdaşlığı özündə ehtiva edirdi.

**https://doi.org/10.36719/2789-6919/XIX/TT/ET/2026**

Rusiya işğalı bölgənin mədəni mənzərəsini kökündən dəyişdi: yeni tipli dünyəvi məktəblər açıldı, assimilyasiyaçı siyasət yerli icmaları öz mədəniyyətlərini müdafiəyə vadar etdi, maarifçilik ideyaları isə tədricən bütün icmalara yayıldı. Bu proses, eyni zamanda, müasir milli şüurun formalaşmasının ilkin cücərtilərinə zəmin hazırladı.

İrəvanda məktəb həyatının tarixi, Qafqazda siyasi hakimiyyətin dəyişməsinin mədəni və sosial nəticələrini öyrənmək baxımından son dərəcə əhəmiyyətli bir tədqiqat sahəsidir. Gələcəkdə arxiv materiallarına, xüsusilə Tiflis və Sankt-Peterburq arxivlərindəki sənədlərə istinad edən daha geniş araşdırmalar bu sahəyə yeni işıq sala bilər.

*Elm və Təhsildə Müasir Tələblər* **XIX Tezislər Toplusu/ 19 aprel / 93-95**
*Modern Requirements in Science and Education* **XIXTheses Collection/ 19 april / 93-95**
**https://doi.org/10.36719/2789-6919/XIX/TT/ET/2026**

**Aidə Əbilzadə**
Lənkəran Dövlət Universiteti
magistrant
https://orcid.org/0009-0002-2144-1115
ebilzadeaide6@gmail.com

# Cümlə anlayışının formalaşdırılması

***Açar sözlər:*** *təhsil, cümlə anlayışı, Azərbaycan dili, metod, oyun*
***Keywords:*** *education, concept of sentence, Azerbaijani language, method, game*

Təhsil siyasətinin əsas məqsədlərindən biri də geniş dünyagörüşə malik, hərtərəfli inkişaf etmış, savadlı şəxsiyyətlər yetisdirməkdir. Burada əsas iş məktəbin üzərinə düşür. H.Balıyev yazır ki, məktəbin fəaliyyəti onun yetişdirdiyi şagirdlərin nitq mədəniyyəti səviyyəsilə ölçülür. Şagirdlərin nitq mədəniyyətinə optimal yiyələnməsi ana dilini necə mənimsəməsindən birbaşa asılıdır.

İbtidai siniflərdə formalaşdırılan əsas anlayışlardan biri də cümlədir. İnsan fikirlərini, düşüncələrini cümlə ilə ifadə edir.

Uşaq ana dilinə məişətdə yiyələnir. Məktəbə gələnə qədər onun müəyyən söz bazası, cümlə ehtiyatı olur və bunu aktiv istifadə edir. "Prof. A.Abdullayevin fikrincə şagirdlər buna iki yolla nail olur:

1. Ailədə, məişətdə, ünsiyyətdə, informasiya kanallarında, eşitdikləri hazır cümlələrdən istifadə etmək yolu ilə;
2. Onların başa düşdüyü, mənasını anladığı sözlərdən müstəqil cümlələr qurmaq yolu ilə;" (Cəfərova, 2015).

Cümlə anlayışı ibtidai siniflərdə şagirdlərdə müəyyən mərhələlərə əsasən ardıcıllıqla aşılanır. Bu, aşağıdaki kimidir: I sinifdə formalaşdırılan anlayışlar; Sözü cümlədə işlətmək; Şə-

**https://doi.org/10.36719/2789-6919/XIX/TT/ET/2026**

killər üzrə cümlələr qurmaq; Cümlə ilə praktiki tanışlıq; Cümlə tərtibi; Suallarla cümlələrin genişləndirilməsi; Kiçik mətndən cümlələri ayırmaq; Cümləni böyük hərflə başlamaq və cümlənin sonunda durğu işarələrini qoymaq.

II sinifdə formalaşdırılan anlayışlar: Cümlənin tərifi; Cümlədə sözlər arasındakı əlaqənin müəyyənləşdirilməsi; Cümlə tərkibi ilə tanışlıq və cümləni digər nitq vahidlərindən fərqləndirilməsi.

III sinifdə formalaşdırılan anlayışlar: Cümlədə sözlərin düzgün ardıcıllığını müəyyən etmək; Baş və ikinci dərəcəli cümlə üzvləri anlayışlarını sadə şəkildə formalaşdırmaq; Cümləni məqsəd və intonasiyaya görə dəyişmək və cümlə tərkibindəki sözləri müxtəlif məqamda işlətmək.

IV sinifdə formalaşdırılan anlayışlar: Cümlənin baş və ikinci dərəcəli üzvlərinin yerinin dəqiqləşdirilməsi; Cümlə və onun intonasiyaya görə növləri anlayışının formalaşdırılması; Sadə və mürəkkəb cümlələrin tədrisi.

İbtidai siniflərdə cümlə analayışının formalaşdırılması sadəcə dil qaydalarının öyrədilməsi deyil, həmçinin, dili hiss etmək və düşüncəni strukturlaşdırmaq bacarığıdır. Bu zaman oyunlardan istifadə etmək şagirdlərin praktiki vərdişlər qazanmasına kömək edir. Belə oyunlara aşağıdakılar aid edilə bilər: "Cümlə Qurma" yarışı: Şagirdlərə üzərində sözlər yazılmış kartlar verilir və onlar bu sözlərdən mənalı cümlə qurmaqla durğu işarələrini (nöqtə, sual) düzgün yerləşdirməlidirlər. Məsələn, (mən, get, məktəb); "Söz Zənciri" oyunu: Müəllim bir söz deyir, növbəti dəfə şagird ona uyğun digər sözü əlavə edir. Məqsəd zənciri qırmadan bir cümlə yaratmaqdır; "Cümləni Canlandır" oyunu: Hər şagirdə cümlənin tərkibindən bir söz verilir. Onlar cümləni tərtib etdikdən sonra cümlənin bir üzvü (mübtəda, xəbər, tamamlıq və s.) olur və fiziki olaraq yan-yana dayanaraq cümlənin strukturunu göstərirlər; "Səhvimi Tap": Müəllim söz sırası pozulmuş və ya durğu işarəsi olmayan

**https://doi.org/10.36719/2789-6919/XIX/TT/ET/2026**

cümlələr yazır. Şagirdlər isə bu səhvləri aşkar edirlər; "Hekayə Kubları": Şagirdlər üzərində müxtəlif şəkillər olan kubları atırlar. Çıxan şəkillər əsasında cümlələr qururlar. Burada əsas məqsəd şagirdləri yaradıcılığa təşviq etməkdir; "Rəqəmsal Hekayə": Planşetlərdən istifadə edərək şagirdlər öz şəkillərini çəkir və altına çəkdikləri şəklin məzmununu ifadə edən cümlələr yazırlar; "Kunq-fu Durğu İşarələri": Bu, İngiltərədə geniş istifadə olunan metoddur. Uşaqlar durğu işarələrini öyrənmək üçün müəyyən fiziki hərəkətlər icra edirlər. Məsələn: Nöqtəni göstərmək üçün havaya qısa bir yumruq zərbəsi vurub "ha!" deyirlər. Vergül işarəsini göstərmək üçün ayaqları ilə yerdə bir qövs cızırlar. Sual işarəsini bildirmək üçün isə barmaqları ilə havada sual işarəsi çəkirlər.

Cümlə anlayışının formalaşdırılmasında bu kimi interaktiv metod və oyunlardan istifadə edilməsi şagirdlərin mövzunu daha yaxşı mənimsəməsinə, bilik, bacarıq, vərdişlərinin möhkəmlən-dirilməsinə gətirib çıxarır.

## Ədəbiyyat

1. Cəfərova, N. (2015). *İbtidai siniflərdə Azərbaycan dilinin tədrisi metodkası*. Elm və təhsil.

*Elm və Təhsildə Müasir Tələblər* **XIX Tezislər Toplusu/ 19 aprel / 96-97**
***Modern Requirements in Science and Education*** **XIXTheses Collection/ 19 april / 96-97**
**https://doi.org/10.36719/2789-6919/XIX/TT/ET/2026**

**Nabat Xanlarzadə**
Bakı Slavyan Universiteti
magistrant
https://orcid.org/0009-0003-2899-7869
nabatkhanlarzadeh@gmail.com

# Müasir cəmiyyətdə uşaqlar arasında təhsil bərabərliyi

***Açar sözlər:*** *təhsil bərabərliyi, inklüziv təhsil, sosial-iqtisadi amillər, rəqəmsal uçurum, təhsil mühiti*
***Keywords:*** *educational equality, inclusive education, socio-economic factors, digital divide, educational environment*

Müasir cəmiyyətin sürətli inkişafı təhsilin rolunu daha da gücləndirmiş, onu yalnız bilik ötürən sistem deyil, sosial tərəqqinin, iqtisadi inkişafın və mədəni yüksəlişin əsas dayaqlarından birinə çevirmişdir. Təhsil fərdin dünyagörüşünün formalaşmasına, etik və milli-mənəvi dəyərlərin mənimsənilməsinə, sosial bacarıqların, kritik və analitik düşüncənin inkişafına, həmçinin, gələcək həyat və karyera istiqamətinin müəyyənləşməsinə mühüm təsir göstərir. Bu baxımdan uşaqlar arasında təhsil bərabərliyinin təmin olunması müasir cəmiyyətin davamlı inkişafı və sosial ədalətin qorunması üçün əsas şərtlərdən biridir.

Təhsil bərabərliyi hər bir uşağın sosial mənşəyindən, maddi imkanlarından, yaşadığı regiondan və fərdi xüsusiyyətlərindən asılı olmayaraq keyfiyyətli təhsil almaq imkanına malik olmasını ifadə edir. Bu prinsip pozulduqda cəmiyyətdə sosial təbəqələşmə dərinləşir, imkan fərqləri nəsildən-nəslə ötürülərək uzunmüddətli bərabərsizlik yaradır və ümumi inkişaf tempini zəiflədir.

Ailənin sosial-iqtisadi vəziyyəti uşağın təhsil imkanlarına birbaşa təsir edir. Maddi resursları məhdud olan ailələrdə böyü-

**https://doi.org/10.36719/2789-6919/XIX/TT/ET/2026**

yən uşaqlar əlavə tədris imkanlarından və inkişaf mühitindən kənarda qala bilirlər ki, bu da onların akademik nəticələrinə və motivasiyasına mənfi təsir göstərir. Eyni zamanda, regionlar arasında infrastruktur və kadr potensialı fərqləri də təhsilin keyfiyyətində ciddi uçurum yaradır. Xüsusilə ucqar bölgələrdə ixtisaslı müəllim çatışmazlığı və texniki imkanların zəifliyi uşaqların gələcək rəqabət qabiliyyətini azaldır.

İnklüziv təhsilin yetərincə inkişaf etməməsi də mühüm problemlərdəndir. Xüsusi təhsil ehtiyacları olan uşaqlar üçün uyğun şərait və fərdi yanaşma təmin olunmadıqda onların sosial inteqrasiyası və akademik inkişafı məhdudlaşır. Müəllimlərin peşəkar hazırlığı, fərdiləşdirilmiş təlim planları və sosial-emosional dəstək mexanizmləri inklüzivliyin əsas şərtləridir.

Rəqəmsal texnologiyalar təhsildə yeni imkanlar yaratsa da, informasiya və texniki resurslara çıxışın qeyri-bərabərliyi "rəqəmsal uçurum" problemini meydana çıxarır. İnternet və texnoloji avadanlıqlara məhdud çıxış bəzi uşaqları təhsil prosesindən geri sala bilər. Bununla yanaşı, düzgün tətbiq olunan rəqəmsal və interaktiv metodlar fərdi öyrənmə tempini nəzərə almağa və yaradıcı bacarıqları inkişaf etdirməyə imkan verir.

Təhsil bərabərliyinin təmin olunmasında dövlətin sosial yönümlü siyasəti, resursların ədalətli bölüşdürülməsi və müəllimlərin davamlı inkişafı əsas rol oynayır. Eyni zamanda, ailə və ictimai institutların fəal iştirakı, maarifləndirmə və dəstək proqramları bu prosesin effektivliyini artırır.

Nəticə olaraq, uşaqlar arasında təhsil bərabərliyi yalnız pedaqoji məsələ deyil, sosial ədalətin və davamlı inkişafın əsas sütunlarından biridir. Keyfiyyətli və əlçatan təhsil sistemi cəmiyyətin intellektual potensialını artırır, sosial fərqləri azaldır və gələcək nəsillərin sağlam, inklüziv mühitdə formalaşmasına şərait yaradır.

*Elm və Təhsildə Müasir Tələblər* **XIX Tezislər Toplusu/ 19 aprel / 98-100**
***Modern Requirements in Science and Education*** **XIXTheses Collection/ 19 april / 98-100**
**https://doi.org/10.36719/2789-6919/XIX/TT/ET/2026**

**Lamiyə Süleymanlı**
Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti
magistrant
https://orcid.org/0009-0004-6288-358X
lamiyesuleymanli19@gmail.com

# Azərbaycanda gənclərin əmək bazarına inteqrasiyasında dövlət siyasətinin rolu

***Açar sözlər:*** *dövlət siyasəti, əmək bazarı, məşğulluq, dövlət proqramı, strategiya*
***Keywords:*** *state policy, labor market, employment, state program, strategy*

Müasir sosial-iqtisadi inkişaf şəraitində gənclərin əmək bazarına inteqrasiyası Azərbaycanda dövlət siyasətinin prioritet istiqamətlərindən biri kimi müəyyən edilmişdir. Azərbaycan Respublikasında gənclər (14-29 yaş qrupu) əhalinin təxminən 22,5%-ni təşkil edir ki, bu da onların ölkənin demoqrafik strukturunda və əmək potensialında xüsusi yerə malik olduğunu göstərir (Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi, 2025).

Azərbaycanda gənclərin əmək bazarına inteqrasiyasının hüquqi bazası bir sıra normativ-hüquqi aktlarla müəyyən edilir. "Gənclər siyasəti haqqında" (2002) Qanun gənclərin sosial müdafiəsi, inkişafı və cəmiyyətə inteqrasiyası üçün əsas hüquqi çərçivəni formalaşdırır. Eyni zamanda, "Məşğulluq haqqında" (2018) Qanun əmək bazarının tənzimlənməsi, işsizliyin azaldılması və aktiv məşğulluq tədbirlərinin həyata keçirilməsi baxımından mühüm əhəmiyyət daşıyır. Bu qanunvericilik bazası gənclərin əmək bazarına çıxış imkanlarını artıran hüquqi və institusional mühiti formalaşdırır.

**https://doi.org/10.36719/2789-6919/XIX/TT/ET/2026**

Dövlət siyasətinin strateji istiqamətlərindən biri uzunmüddətli planlaşdırma və inkişaf strategiyalarının həyata keçirilməsidir. Bu kontekstdə "2015–2025-ci illər üzrə Azərbaycan gənclərinin İnkişaf Strategiyası" və "Azərbaycan gəncliyi" Dövlət Proqramları gənclərin sosial-iqtisadi inkişafını dəstəkləyən kompleks tədbirlər sistemini əhatə edir. Bu sənədlər gənclərin təhsil, məşğulluq, sahibkarlıq və sosial fəaliyyət sahələrində iştirakının artırılmasını nəzərdə tutur. "2019–2030-cu illər üçün Azərbaycan Respublikasının Məşğulluq Strategiyası" isə gənclərin əmək bazarına inteqrasiyasının gücləndirilməsində xüsusi əhəmiyyətə malikdir. Strategiyanın əsas məqsədi səmərəli məşğulluğun təmin edilməsi, işsizlik səviyyəsinin azaldılması və insan kapitalının inkişaf etdirilməsidir. Sənəddə gənclərin peşə təhsilindən əmək bazarına keçidinin asanlaşdırılması, rəqəmsal bacarıqların inkişafı və karyera yönləndirmə xidmətlərinin genişləndirilməsi əsas prioritetlər kimi müəyyən edilmişdir. Bu yanaşma gənclərin məşğulluğunu qısamüddətli deyil, uzunmüddətli inkişaf strategiyası kimi formalaşdırır.

Gənclərin əmək bazarına inteqrasiyasında institusional mexanizmlər də mühüm rol oynayır. Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Gənclər və İdman Nazirliyi və Dövlət Məşğulluq Agentliyi tərəfindən həyata keçirilən proqramlar bu sahədə praktiki nəticələrin əldə olunmasına yönəlmişdir. Özünüməşğulluq proqramları, peşə hazırlığı kursları, startapların dəstəklənməsi və karyera mərkəzlərinin fəaliyyəti gənclərin əmək bazarına çıxış imkanlarını genişləndirir. Xüsusilə özünüməşğulluq proqramları çərçivəsində gənclərə kiçik bizneslərin yaradılması üçün dövlət dəstəyi göstərilməsi onların yalnız iş axtaran deyil, həm də iş yaradan subyektlərə çevrilməsinə şərait yaradır. Bununla yanaşı, peşə təhsili sistemində aparılan islahatlar əmək bazarının tələblərinə uyğun ixtisaslı kadrların hazırlanmasına xidmət edir. Müasir peşə təhsil müəssisələrinin yaradılması, dual (ikili) təhsil

**https://doi.org/10.36719/2789-6919/XIX/TT/ET/2026**

modelinin tətbiqi və işəgötürənlərlə əməkdaşlıq mexanizmlərinin gücləndirilməsi gənclərin əmək bazarına inteqrasiyasını sürətləndirir. Bu istiqamətdə həyata keçirilən tədbirlər əmək bazarında tələb və təklif arasında balansın təmin olunmasına da töhfə verir.

Nəticə etibarilə, Azərbaycanda gənclərin məşğulluğunun təmin edilməsi dövlət siyasətinin prioritet istiqamətlərindən biri kimi kompleks şəkildə həyata keçirilir. Hüquqi-normativ baza, strateji inkişaf sənədləri və institusional mexanizmlər gənclərin məşğulluq imkanlarının genişləndirilməsinə və onların əmək bazarında rəqabət qabiliyyətinin artırılmasına şərait yaradır. Mövcud tədbirlər sistemli xarakter daşıyır və bu sahədə həyata keçirilən siyasət gənclərin əmək bazarına inteqrasiyasının davamlı olaraq gücləndirilməsinə xidmət edir.

## Ədəbiyyat


1. *Azərbaycan Respublikasının "Gənclər siyasəti haqqında" Qanunu*. (2002).
2. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. (2025). "Azərbaycan gəncləri" statistik məcmuəsi.
3. *2019–2030-cu illər üçün Azərbaycan Respublikasının Məşğulluq Strategiyası*. (2018).

*Elm və Təhsildə Müasir Tələblər* **XIX Tezislər Toplusu/ 19 aprel / 101-104**
***Modern Requirements in Science and Education*** **XIXTheses Collection/ 19 april / 101-104**
**https://doi.org/10.36719/2789-6919/XIX/TT/ET/2026**

**Turan Muxtarova**
Bakı Slavyan Universiteti
magistrant
https://orcid.org/0009-0000-6224-8165
turanmukhtarova@gmail.com

# Rəsmi-işgüzar üslubda olan mətnlərin tərcüməsinin qrammatik xüsusiyyətləri

***Açar sözlər:*** *rəsmi-işgüzar üslub, tərcümə, qrammatik xüsusiyyətlər, cümlə quruluşu, passiv konstruksiyalar, modal ifadələr, sintaktik transformasiyalar*
***Keywords:*** *formal-business style, translation, grammatical features, sentence structure, passive constructions, modal expressions, syntactic transformations*

İşgüzar üslubla bağlı mövcud yazılarda, əsasən, onun leksik və sintaktik xüsusiyyətləri üzərində dayanılır. Lakin aparılan müşahidələr göstərir ki, ədəbi dilin digər üslublarına bənzər olaraq, işgüzar üslubda da bəzi morfoloji xüsusiyyətlərin rolu üslubun xarakterik cəhətləri və formalaşmasında əhəmiyyətli bir yer tutur. Rəsmi-işgüzar üslubda yazılmış mətnlər, dövlətlərarası əlaqələr, iqtisadi və hüquqi münasibətlər, təşkilati protokollar və beynəlxalq müqavilələr üçün əsas məlumat vasitələridir. Bu cür mətnlər konkret, dəqiq və hüquqi cəhətdən düzgün olmaları tələb olunan sənədlərdir. Rəsmi-işgüzar mətnlərin tərcüməsi zamanı qrammatik xüsusiyyətlər, dilin sintaktik, morfoloji və semantik strukturlarını əhatə edərək müxtəlif transformasiyaların tətbiqini tələb edir.

Morfoloji xüsusiyyətlər işgüzar üslubda, xüsusilə isim və feillərin istifadəsi ilə özünü göstərir. İdarə və vəzifə adlarını bildirən sadə və mürəkkəb isimlər, məsələn, direktor, rektor, müəllim, hakim, professor, nazir, müşavir kimi ümumi isimlərin

**https://doi.org/10.36719/2789-6919/XIX/TT/ET/2026**

istifadəsi, həmçinin, şəxs adlarının və soyadlarının tez-tez yer alması işgüzar üslubun morfoloji xüsusiyyətlərindən sayılır.

Rəsmi-işgüzar mətnlərdə qrammatik xüsusiyyətlər, həmin mətnlərin hüquqi və inzibati dəqiqliyini təmin etmək üçün xüsusi diqqətə layiqdir. Bu mətnlərdə həm cümlə quruluşu, həm də dilin morfoloji xüsusiyyətləri xüsusi diqqət tələb edir. Rəsmi mətnlərdə dilin sintaktik və morfoloji strukturlarının dəqiq və aydın olması vacibdir. Tərcümə prosesində bu xüsusiyyətlərin qorunması çətinliklər yarada bilər, çünki hər iki dilin qrammatik strukturları arasında fərqliliklər mövcuddur.

1. Cümlə quruluşu və sintaktik xüsusiyyətlər. Rəsmi-işgüzar üslubda mətnlər, çox vaxt mürəkkəb və uzun cümlələrdən ibarət olur. Bu cümlələrdə passiv quruluşların, analitik ifadələrin və ümumiləşdirilmiş fikirlərin istifadəsi geniş yayılmışdır. Rəsmi mətnlərin tərcüməsində cümlə quruluşunun uyğun şəkildə tərcümə edilməsi mühüm əhəmiyyət daşıyır.

Passiv cümlələr: Rəsmi-işgüzar mətnlərdə passiv quruluşlar geniş istifadə edilir. Bu cümlə quruluşunda, məsələn, subyektin kimliyi ikinci dərəcəli olur, bunun yerinə hərəkətin özü və ya nəticəsi vurğulanır. İngilis dilində passiv cümlələr daha çox istifadə olunsa da, Azərbaycan dilində passiv cümlələrin qurulması bəzən müxtəlif formalarda tərcümə olunur.

*The contract has been signed by both parties.*

*Müqavilə hər iki tərəf tərəfindən imzalanmışdır.*

Burada "has been signed" (keçmiş zaman) passiv quruluşu, Azərbaycan dilində "imzalanmışdır" şəklində eyni mənanı ifadə edən passiv formaya çevrilir.

2. Modal ifadələr və şəxs göstəriciləri. Modal feil və ifadələrin tərcüməsi zamanı dilin qrammatik strukturu dəyişə bilər. Modal ifadələr rəsmi-işgüzar üslubda çox istifadə olunur, çünki onlar müəyyən bir hərəkət və ya vəziyyətin olma ehtimalını, zəruriliyini və ya məcburiyyətini ifadə edir. Bu

ifadələr, çox vaxt tərcümə zamanı nəzərə alınmalı və dilin xüsusiyyətlərinə uyğunlaşdırılmalıdır.

İngilis dilində modal feil: *The contract may be amended at any time.*

Azərbaycan dilində tərcüməsi: *Müqavilə istənilən vaxt dəyişdirilə bilər.*

Buradakı “may” (ola bilər) modal feilinin Azərbaycan dilində uyğun tərcüməsi “ola bilər” və ya “dəyişdirilə bilər” şəklində istifadə edilir.

Rəsmi mətnlərdə şəxs zamirlərinin və qrammatik şəxs göstəricilərinin tərcüməsi də diqqət tələb edir. Hər iki dildə şəxs göstəricilərinin yerində dəyişikliklər ola bilər. İngilis dilində şəxsi zamirlərdən daha çox istifadə olunur, halbuki Azərbaycan dilində cümlə subyektinin (yəni şəxsin) çox vaxt əksik olması mümkündür.

Rəsmi-işgüzar mətnlərin tərcüməsi zamanı qrammatik transformasiyalar (yəni, bir dilin qrammatik quruluşunun digər dilə uyğunlaşdırılması) geniş istifadə olunur. Aşağıdakı qrammatik transformasiya növləri, tərcümə prosesində əhəmiyyət kəsb edən əsas üsullar olaraq çıxış edir:

Sadələşdirmə: Bəzi hallarda mürəkkəb cümlələr tərcümə edildikdə sadələşdirilməli olur. Bu, xüsusilə çoxlu alt cümlələrin olduğu cümlələrdə tətbiq edilir. Bu zaman cümlə strukturu dəyişdirilərək daha sadə və başa düşülən hala gətirilir.

Genişləndirmə: Bəzi cümlələr, xüsusən ingilis dilində çox-saylı informasiya ehtiva edən ifadələrlə verildikdə, Azərbaycan dilində cümlənin anlamını itirməmək üçün genişləndirilməlidir.

Kalkalama: Bəzi qrammatik ifadələr xüsusi hallarda tərcümə zamanı birbaşa tərcümə edilmək əvəzinə hər iki dilin üslubuna uyğun şəkildə uyğunlaşdırılmalıdır. Kalkalama xüsusilə ixtisaslı terminlərin tərcüməsində istifadə olunur.

Birləşdirmə və bölünmə: İngilis dilindəki cümlələr bəzən Azərbaycan dilində iki cümlə kimi ifadə olunmalıdır. Əksinə,

*Elm və Təhsildə Müasir Tələblər* **XIX Tezislər Toplusu/ 19 aprel / 101-104**
*Modern Requirements in Science and Education* **XIXTheses Collection/ 19 april / 101-104**
**https://doi.org/10.36719/2789-6919/XIX/TT/ET/2026**

Azərbaycan dilindəki uzun cümlələr ingilis dilində birləşdirilərək ifadə edilə bilər.

Rəsmi-işgüzar üslubda olan mətnlərin tərcüməsi zamanı ortaya çıxan qrammatik çətinliklərin başa düşülməsi üçün praktiki nümunələr üzərində təhlil aparmaq faydalı ola bilər. Məsələn, beynəlxalq müqavilələr və ya hüquqi sənədlərin tərcüməsində hər iki dilin qrammatik strukturlarını müqayisə etmək və uyğun qrammatik transformasiyaları tətbiq etmək əsas məqsəd olmalıdır.

**https://doi.org/10.36719/2789-6919/XIX/TT/ET/2026**

**Zərmin Baxşiyeva**
Lənkəran Dövlət Universiteti
magistrant
https://orcid.org/0009-0003-2035-9109
baxsievazrmn@gmail.com

# İngilis dilində sinonimlərin tədrisinə müasir yanaşmalar

***Açar sözlər:*** *müasir yanaşmalar, koqnitiv yanaşma, kommunikativ yanaşma, sinonimlər, kontekst əsaslı yanaşma*
***Keywords:*** *modern approaches, cognitive approach, communicative approach, synonyms, context-based approach*

İngilis dilində sinonimlərin tədrisinə müasir yanaşmalar ənənəvi "söz bərabərdir mənası" prinsipi ilə məhdudlaşmır. Hal-hazırda sözlərin kontekstdə düzgün seçilməsi və yerinə uyğun istifadə edilməsi daha çox önəm daşıyır. Bu yanaşmalar dilin funksional, kommunikativ və idraki xüsusiyyətlərini nəzərə alır. İngilis dilində sinonimlərin tədrisinə müasir yanaşmalar bunlardır:

1.Kontekst əsaslı tədris yanaşması. Sinonimlər burada ayrı-ayrı deyil, cümlə və mətn daxilində öyrədilir. Bu yanaşma kontekst əsaslıdır və sözlərin uyğunluğu yalnız kontekstdə aydın olur. 2.Kommunikativ yanaşma. Bu yanaşmada kommunikativ dil tədrisi sinonimlərin aktiv istifadəsini ön plana çəkir. Buraya dialoqlar, rollu oyunlar, debatlar və yazı tapşırıqları daxildir. Bu üsul öyrənənlərin sinonimləri real ünsiyyət mühitində mənimsəməsinə imkan verir. 3.Korpus əsaslı yanaşma. Bu yanaşmada real dil materiallarından istifadə olunur. Tezlik, kollokasiya və real cümlə nümunələri buna misal ola bilər. 4.Kollokasiya yönümlü tədris yanaşması. Bu yanaşma sinonimlərin düzgün istifadəsi və onların digər sözlərlə uyğunluğu ilə əlaqəlidir.

**https://doi.org/10.36719/2789-6919/XIX/TT/ET/2026**

Buradan öyrənilir ki, sinonimlər hər zaman bir-birini əvəz etmir. Məsələn: strong argument və powerful engine.

5.Koqnitiv yanaşma. Bu metod koqnitiv dilçilik əsasında qurulur və sözlərin necə qavranıldığını öyrədir. Buraya konsept xəritələri və emosional çalarların dərk edilməsi daxildir. Məsələn: home emosional anlayış bildirir, house isə fiziki obyekt. 6.Lüğət və definisiya əsaslı yanaşma. Bu yanaşmada sinonimlər müxtəlif lüğətlərdəki təriflər vasitəsilə müqayisə olunur. Bu metod leksikologiya ilə bağlıdır və məna komponentlərini, üslubi fərqləri, istifadə sahələrini və s. əhatə edir. 7.Diferensial yanaşma. Bu yanaşmada tədris prosesi öyrənənin dil səviyyəsinə uyğun aparılır. Məsələn: başlanğıc səviyyədə big – large, orta səviyyədə important – significant, yüksək səviyyədə analyze – evaluate və s. 8.Üslubi və praqmatik yanaşma. Bu yanaşma praqmatika ilə əlaqəlidir və sinonimlərin rəsmi, qeyri-rəsmi, müsbət və mənfi çalarlarını öyrədir. Məsələn: slim müsbət çalar bildirir, skinny isə mənfi. 9.Tapşırıq əsaslı yanaşma. Bu yanaşmada öyrənənlərə mətn yazmaq, sinonimlərlə cümlə qurmaq və səhvləri düzəltmək kimi konkret və praktiki tapşırıqlar verilir. Bu tapşırıqlar praktiki bacarıqları inkişaf etdirir. 10.İnteraktiv və texnologiya əsaslı yanaşma. Müasir tədrisdə texnologiya mühüm rol oynayır və öyrənməni daha maraqlı edir. Quizlet, Kahoot! və Wordwall kimi alətlər vasitəsilə tapşırıqlar interaktiv və effektiv şəkildə yerinə yetirilir.

Nəticə olaraq müasir yanaşmalar sinonimlərin tədrisini kontekstual, kommunikativ, koqnitiv və texnologiya əsaslı metodları birləşdirərək vahid bir prosesə çevirir. Bu yanaşmalar sayəsində öyrənənlər sözləri daha dəqiq seçməyi, dili daha təbii istifadə etməyi və nitqlərini zənginləşdirməyi öyrənirlər.

*Elm və Təhsildə Müasir Tələblər* **XIX Tezislər Toplusu/ 19 aprel / 107-111**
***Modern Requirements in Science and Education*** **XIXTheses Collection/ 19 april / 107-111**
**https://doi.org/10.36719/2789-6919/XIX/TT/ET/2026**

**Ruqiyyə Atayeva**
Bakı Slavyan Universiteti
magistrant
https://orcid.org/0009-0000-0219-5436
atayevaruqiyye2003@gmail.com

# Ali məktəbin profilləşməsi və layihə idarəetməsinin strateji əhəmiyyəti

***Açar sözlər****: təhsil, idarəetmə, layihə, ali məktəb, inkişaf, akademik, keyfiyyət*
***Keywords:*** *education, management, project, higher education, development, academic, quality*

Müasir qlobal çağırışlar, bilik iqtisadiyyatının sürətli inkişafı və rəqabət mühitinin kəskinləşməsi ali təhsil müəssisələrinin fəaliyyətinə yeni yanaşmaların tətbiqini zəruri edir. Ənənəvi idarəetmə modelləri artıq ali məktəblərin davamlı inkişafını, beynəlxalq rəqabət qabiliyyətini və əmək bazarının dəyişən tələblərinə operativ uyğunlaşmasını tam təmin etmir. Bu baxımdan ali məktəblərin profilləşməsi və layihə idarəetməsinin institusional səviyyədə tətbiqi ali təhsilin keyfiyyətinin yüksəldilməsi, strateji hədəflərə nail olunması və resurslardan səmərəli istifadə baxımından xüsusi aktuallıq kəsb edir (Məmmədova, 2022, s. 13).

Ali məktəbin profilləşməsi dedikdə, təhsil müəssisəsinin elmi-tədris potensialına, regionun sosial-iqtisadi ehtiyaclarına, milli prioritetlərə və qlobal trendlərə uyğun olaraq ixtisaslaşması, özünəməxsus akademik və elmi istiqamətlər formalaşdırması başa düşülür. Profilləşmə ali məktəblərə resursların dağınıq şəkildə deyil, məqsədyönlü və fokuslu şəkildə yönəldilməsinə imkan verir, eyni zamanda tədris və tədqiqat fəaliyyətinin effektivliyini artırır. Bu proses ali təhsil müəssisələrinin yalnız

**https://doi.org/10.36719/2789-6919/XIX/TT/ET/2026**

tədris funksiyasını deyil, həm də innovasiya, tədqiqat və cəmiyyətə xidmət missiyasını gücləndirən strateji alət kimi çıxış edir (Məmmədov, 2023, s.184).

Digər tərəfdən, layihə idarəetməsi müasir idarəetmə elminin əsas komponentlərindən biri olaraq ali təhsil sistemində getdikcə daha geniş tətbiq sahəsi tapır. Layihə əsaslı idarəetmə yanaşması ali məktəblərdə təhsil proqramlarının yenilənməsi, elmi-tədqiqat layihələrinin həyata keçirilməsi, beynəlxalq əməkdaşlıq təşəbbüsləri, rəqəmsallaşma prosesləri və institusional islahatların sistemli şəkildə idarə olunmasını təmin edir. Layihə idarəetməsi vasitəsilə məqsədlərin dəqiq müəyyən edilməsi, vaxt, maliyyə və insan resurslarının optimal bölgüsü, risklərin idarə olunması və nəticələrin ölçülməsi mümkün olur.

Ali məktəbin profilləşməsi ilə layihə idarəetməsi arasında sıx qarşılıqlı əlaqə mövcuddur. Profilləşmə ali məktəbin strateji istiqamətlərini müəyyən edirsə, layihə idarəetməsi bu istiqamətlərin praktik reallaşdırılmasını təmin edən mexanizm rolunu oynayır. Başqa sözlə, profilləşmə "nəyi və niyə etməliyik?" sualına cavab verdiyi halda, layihə idarəetməsi "necə və hansı vasitələrlə etməliyik?" sualını cavablandırır. Bu sinerji ali məktəblərin idarəetmə effektivliyini artırmaqla yanaşı, onların uzunmüddətli inkişaf strategiyasının uğurla icrasına zəmin yaradır (İsmayılov, 2018, s. 61).

Müasir ali təhsil məkanında universitetlər yalnız bilik ötürən qurumlar deyil, eyni zamanda, innovasiya mərkəzləri, tədqiqat platformaları və regional inkişafın aparıcı aktorları kimi çıxış edirlər. Bu yeni rol ali məktəblərdən çevik idarəetmə strukturları, strateji düşüncə və layihə əsaslı fəaliyyət modeli tələb edir. Xüsusilə beynəlxalq reytinqlər, akkreditasiya standartları və əmək bazarının tələbləri ali təhsil müəssisələrinin profilləşmə səviyyəsinə və layihə idarəetmə bacarıqlarına birbaşa təsir edən amillər sırasında yer alır.

*Elm və Təhsildə Müasir Tələblər* **XIX Tezislər Toplusu/ 19 aprel / 107-111**
***Modern Requirements in Science and Education* XIXTheses Collection/ 19 april / 107-111**
**https://doi.org/10.36719/2789-6919/XIX/TT/ET/2026**

Azərbaycan ali təhsil sistemində də son illərdə həyata keçirilən islahatlar, "Azərbaycan 2030: sosial-iqtisadi inkişaf prioritetləri", rəqəmsal transformasiya strategiyaları və insan kapitalının inkişafına yönəlmiş dövlət proqramları ali məktəblərin strateji idarə olunmasına yeni baxış formalaşdırmışdır. Bu kontekstdə ali məktəblərin profilləşməsi və layihə idarəetməsinin institusional səviyyədə tətbiqi həm milli təhsil siyasətinin prioritetlərinə, həm də qlobal ali təhsil trendlərinə uyğunluq baxımından mühüm əhəmiyyət daşıyır (Xalıqova, 2025, s. 22).

Beləliklə, tədqiqat mövzusu ali məktəblərin strateji inkişafında profilləşmə və layihə idarəetməsinin rolunun elmi-nəzəri və praktiki aspektlərdən araşdırılmasını zəruri edir. Mövzunun aktuallığı onun ali təhsilin keyfiyyətinin yüksəldilməsi, idarəetmənin təkmilləşdirilməsi, innovativ potensialın artırılması və davamlı inkişafın təmin olunması kimi fundamental məsələlərlə birbaşa bağlı olması ilə izah olunur. Bu baxımdan aparılacaq tədqiqat ali təhsil müəssisələrinin idarə olunmasında müasir yanaşmaların formalaşdırılmasına və praktik tövsiyələrin işlənib hazırlanmasına elmi töhfə verə bilər (Əhmədova, 2022, s. 10).

Aparılan təhlil göstərir ki, ali məktəbin profilləşməsi və layihə idarəetməsinin tətbiqi müasir ali təhsil sisteminin strateji inkişafında əsas determinantlardan biri kimi çıxış edir. Qloballaşma, bilik iqtisadiyyatının genişlənməsi və əmək bazarının dinamik tələbləri ali təhsil müəssisələrindən yalnız tədris fəaliyyətinin təşkili ilə kifayətlənməməyi, eyni zamanda, məqsədyönlü ixtisaslaşma və çevik idarəetmə mexanizmləri formalaşdırmağı tələb edir. Bu baxımdan profilləşmə ali məktəblərin institusional kimliyinin formalaşmasında, layihə idarəetməsi isə bu kimliyin strateji hədəflər əsasında reallaşdırılmasında həlledici rol oynayır.

Tədqiqatın nəticələri sübut edir ki, ali məktəblərin profilləşməsi resursların səmərəli bölgüsünü təmin etməklə yanaşı, tədris və elmi-tədqiqat fəaliyyətinin keyfiyyətini artırır, ixtisaslaşmış

**https://doi.org/10.36719/2789-6919/XIX/TT/ET/2026**

kadr hazırlığını gücləndirir və universitetlərin rəqabət qabiliyyətini yüksəldir. Profilləşmiş ali məktəblər əmək bazarının real ehtiyaclarına daha çevik cavab verir, elmi nəticələrin praktik tətbiq imkanlarını genişləndirir və regional sosial-iqtisadi inkişafda daha aktiv iştirak edirlər. Bu proses eyni zamanda ali təhsil müəssisələrinin beynəlxalq akademik məkana inteqrasiyasını sürətləndirən mühüm amil kimi qiymətləndirilə bilər.

Layihə idarəetməsi isə ali məktəblərin strateji məqsədlərinin həyata keçirilməsində effektiv idarəetmə aləti kimi çıxış edir. Layihə əsaslı yanaşma vasitəsilə təhsil proqramlarının modernləşdirilməsi, elmi-tədqiqat və innovasiya layihələrinin icrası, beynəlxalq əməkdaşlıq təşəbbüslərinin idarə olunması və institusional islahatların həyata keçirilməsi sistemli və ölçülə bilən şəkildə təmin olunur. Layihə idarəetməsinin tətbiqi risklərin azaldılmasına, vaxt və maliyyə resurslarının optimallaşdırılmasına, həmçinin, nəticəyönümlü idarəetmə mədəniyyətinin formalaşmasına şərait yaradır.

Əldə olunan nəticələr göstərir ki, ali məktəbin profilləşməsi ilə layihə idarəetməsi arasında qarşılıqlı tamamlayıcılıq mövcuddur. Profilləşmə strateji istiqamətləri müəyyən edərkən, layihə idarəetməsi bu istiqamətlərin konkret fəaliyyət planlarına çevrilməsini təmin edir. Bu sinerji ali təhsil müəssisələrinin idarəetmə effektivliyini artırmaqla yanaşı, onların uzunmüddətli inkişaf strategiyasının uğurla icrasına zəmin yaradır və davamlı inkişaf prinsiplərinin reallaşdırılmasına xidmət edir.

Nəticə etibarilə, ali məktəblərdə profilləşmə və layihə idarəetməsinin institusional səviyyədə tətbiqi müasir ali təhsil siyasətinin prioritet istiqamətlərindən biri kimi qiymətləndirilməlidir. Bu yanaşma ali təhsil müəssisələrinin strateji planlaşdırma imkanlarını genişləndirir, innovativ potensialını artırır və insan kapitalının keyfiyyətinin yüksəldilməsinə töhfə verir. Aparılan tədqiqatın nəticələri ali təhsil müəssisələrinin idarə

**https://doi.org/10.36719/2789-6919/XIX/TT/ET/2026**

olunmasında müasir, səmərəli və nəticəyönümlü modellərin formalaşdırılması baxımından nəzəri və praktik əhəmiyyət daşıyır.

## Ədəbiyyat

1. Əhmədova, Ş. (2022). *Təhsil sistemi və layihələrin idarə olunmasının ümumi əsasları*. Elm.
2. İsmayılov, B.V. (2018). *Strateji menecment*. Təhsil.
3. Xalıqova, N. (2025). Azərbaycanın dövlət ali təhsil müəssisələrində strateji planlaşdırma işinin təşkili. *Azərbaycan məktəbi, 2*(711), 20–38.
4. Məmmədov, R. (2023). *Təhsildə strateji planlaşdırma və idarəetmə*. Elm və Təhsil.
5. Məmmədova, K.M. (2022). *Strateji idarəetmə və liderlik*. AzMİU Nəşriyyat-Poliqrafiya Mərkəzi.

*Elm və Təhsildə Müasir Tələblər* **XIX Tezislər Toplusu/ 19 aprel / 112-114**
***Modern Requirements in Science and Education*** **XIXTheses Collection/ 19 april / 112-114**
**https://doi.org/10.36719/2789-6919/XIX/TT/ET/2026**

**Pərvin Mayilova**
Lənkəran Dövlət Universiteti
magistrant
https://orcid.org/0009-0004-4891-7974
mayilovapervin66@gmail.com

# Azərbaycan dilinin orfoepiya qaydalarının ibtidai siniflərdə tədrisi

***Açar sözlər:*** *orfoepiya, düzgün tələffüz, ibtidai siniflər, nitq mədəniyyəti, oxu bacarıqları*
***Keywords:*** *orthoepy, correct pronunciation, primary school, speech culture, reading skills*

Azərbaycan dilinin tədrisində mühüm məsələlərdən biri şagirdlərin düzgün və aydın nitqə yiyələnməsidir. Düzgün nitqin formalaşması isə bilavasitə orfoepiya qaydalarının mənimsənilməsi ilə bağlıdır. Orfoepiya sözlərin ədəbi dil normalarına uyğun düzgün tələffüzünü öyrənən dilçilik sahəsidir. İbtidai siniflərdə orfoepiya qaydalarının tədrisi şagirdlərin şifahi nitqinin inkişafında, oxu bacarıqlarının formalaşmasında və yazılı nitqin düzgün qurulmasında mühüm rol oynayır. İbtidai sinif şagirdləri dili əsasən müəllimin nitqi, oxu materialları və eşitdikləri sözlər vasitəsilə mənimsəyirlər. Buna görə də müəllimin nitqi orfoepik baxımdan düzgün, aydın və ifadəli olmalıdır. Müəllim sözlərin düzgün tələffüzünü daim nəzarətdə saxlamalı, şagirdlərin səhv tələffüzlərini vaxtında düzəltməlidir. Xüsusilə dialekt və şivə xüsusiyyətlərinin şagird nitqinə təsiri nəzərə alınmalı və ədəbi tələffüz formaları öyrədilməlidir. Orfoepiya qaydalarının tədrisi əsasən oxu və Azərbaycan dili dərslərində həyata keçirilir. Oxu zamanı şagirdlərin sözləri hecalara bölməsi, vurğunu düzgün qoyması, səsləri aydın tələffüz etməsi diqqət mərkəzində saxlanılır. Müəllim nümunəvi oxu təşkil etməli, sonra şagirdlərin fərdi oxusunu dinləməli və səhvləri düzəltməlidir. Bu zaman aşağıdakı məsələlərə xüsusi

*Elm və Təhsildə Müasir Tələblər* **XIX Tezislər Toplusu/ 19 aprel / 112-114**
***Modern Requirements in Science and Education*** **XIXTheses Collection/ 19 april / 112-114**
**https://doi.org/10.36719/2789-6919/XIX/TT/ET/2026**

diqqət yetirilir: - Sait və samitlərin düzgün tələffüzü; - Söz vurğusunun düzgün qoyulması; - Qoşa samitlərin tələffüzü; - Bəzi sözlərin yazıldığı kimi deyil, tələffüz edildiyi kimi oxunması; - Sürətli deyil, aydın və düzgün oxu.

İbtidai siniflərdə orfoepiya qaydalarını öyrətmək üçün müxtəlif metod və vasitələrdən istifadə olunur. Bunlara nümunəvi oxu, təkrar oxu, dinləmə və təkrar etmə, fonetik çalışmalar, sözlərin düzgün tələffüzü üzərində iş, tapmacalar, dil açmaları və didaktik oyunlar daxildir. Xüsusilə oyunlar və şifahi çalışmalar şagirdlərin marağını artırır və onların düzgün tələffüz vərdişlərini daha tez formalaşdırır. Orfoepiya qaydalarının tədrisi sistemli şəkildə aparılmalıdır. Bu iş təkcə bir dərslə məhdudlaşmamalı, bütün dərs prosesində – oxu, danışıq, şeir söyləmə, mətn danışma zamanı davam etdirilməlidir. Müntəzəm məşqlər nəticəsində şagirdlər sözləri düzgün tələffüz etməyi, düzgün vurğu qoymağı və aydın danışmağı öyrənirlər. İbtidai siniflərdə orfoepiya qaydalarının tədrisi şagirdlərin nitq mədəniyyətinin formalaşmasına, düzgün oxu və danışıq bacarıqlarının inkişafına xidmət edir. Bu sahədə aparılan məqsədyönlü və sistemli iş gələcəkdə şagirdlərin savadlı və mədəni nitqə malik olmalarında mühüm rol oynayır. Orfoepiya qaydalarının öyrədilməsi zamanı müəllim şagirdlərin yaş xüsusiyyətlərini mütləq nəzərə almalıdır. İbtidai sinif şagirdləri üçün uzun izahlar deyil, daha çox praktik çalışmalar, dinləmə, təkrar etmə və oyun üsulları daha səmərəli hesab olunur. Bu dövrdə şagird eşitdiyini təqlid etməklə öyrəndiyi üçün müəllimin nitqi əsas nümunə rolunu oynayır. Müəllim sözləri aydın, tələsmədən və ədəbi dil normalarına uyğun tələffüz etməlidir.

Orfoepik qaydaların öyrədilməsi prosesində fonetik təhlil də mühüm əhəmiyyət kəsb edir. Şagirdlər səsləri düzgün tələffüz etməyi, sait və samit səslərin fərqini, sözlərin hecalara bölünməsini, vurğunun yerini praktik şəkildə öyrənirlər. Bu məqsədlə aşağıdakı çalışmalar aparıla bilər: sözlərin hecalara bölünməsi,

*Elm və Təhsildə Müasir Tələblər* **XIX Tezislər Toplusu/ 19 aprel / 112-114**
*Modern Requirements in Science and Education* **XIXTheses Collection/ 19 april / 112-114**
**https://doi.org/10.36719/2789-6919/XIX/TT/ET/2026**

vurğulu hecanın müəyyən edilməsi, çətin tələffüz olunan sözlərin təkrar oxunması, müəllimin oxuduğu söz və cümlələrin şagirdlər tərəfindən təkrar edilməsi, səhv tələffüz olunan sözlər üzərində xüsusi iş və s. Bu səhvlərin aradan qaldırılması üçün müəllim müntəzəm olaraq şagirdlərin nitqini dinləməli, onların oxusunu yoxlamalı və səhvləri düzgün formada təkrar etdirməklə düzəltməlidir. Şagirdə sadəcə "səhvdir" demək kifayət deyil, sözün düzgün tələffüzü nümunə kimi göstərilməli və bir neçə dəfə təkrar etdirilməlidir.

Orfoepiya qaydalarının tədrisində şeir, tapmaca, yanıltmac və dil açmalarından istifadə də çox faydalıdır. Bu tip materiallar şagirdlərin həm nitq aparatını inkişaf etdirir, həm də səslərin düzgün tələffüzünü formalaşdırır. Məsələn, yanıltmacların tez-tez təkrar edilməsi səslərin aydın və düzgün deyilməsinə kömək edir. Orfoepiya qaydalarının öyrədilməsi oxu texnikasının inkişafı ilə də sıx bağlıdır. Şagird düzgün, şüurlu, ifadəli və sürətli oxumağı öyrəndikcə onun tələffüzü də yaxşılaşır. Buna görə də hər oxu dərsində sözlərin düzgün tələffüzü üzərində iş aparılmalıdır. İbtidai siniflərdə orfoepiya qaydalarının tədrisi davamlı, sistemli və məqsədyönlü şəkildə aparılmalıdır. Bu prosesdə müəllimin düzgün nitqi, fonetik çalışmalar, oxu məşqləri, didaktik oyunlar və şifahi nitq çalışmaları əsas rol oynayır. Düzgün təşkil olunmuş orfoepiya tədrisi şagirdlərin nitq mədəniyyətinin, düzgün danışıq və oxu bacarıqlarının formalaşmasına müsbət təsir göstərir və onların ədəbi dil normalarına uyğun danışmalarını təmin edir. Orfoepiya qaydalarının tədrisi zamanı istifadə olunan əsas metodlardan biri nümunəvi oxu metodudur. Bu metodda müəllim mətni əvvəlcə özü düzgün tələffüz və düzgün vurğu ilə oxuyur, sonra şagirdlər həmin mətni təkrar oxuyurlar. Bu üsul şagirdlərin düzgün tələffüzü eşidərək yadda saxlamasına və təqlid etməsinə kömək edir. Xüsusilə I və II siniflərdə bu metod daha effektiv hesab olunur.

*Elm və Təhsildə Müasir Tələblər* **XIX Tezislər Toplusu/ 19 aprel / 115-118**
***Modern Requirements in Science and Education* XIXTheses Collection/ 19 april / 115-118**
**https://doi.org/10.36719/2789-6919/XIX/TT/ET/2026**

**Alidə Manaflı**
Bakı Slavyan Universiteti
magistrant
https://orcid.org/0009-0001-6342-5300
alide.manafli@mail.ru

# İrəvan kişi gimnaziyası və görkəmli maarifçiləri

***Açar sözlər:*** *İrəvan Kişi Gimnaziyası, maarif, progimnaziya, şəriət dərsləri, dərslik*
***Keywords:*** *Yerevan Men's Gymnasium, education, pro-gymnasium, Sharia lessons, textbook*

Böyük elm, maarif, mədəniyyət mərkəzlərindən biri kimi şöhrət tapan Qərbi Azərbaycanda (indiki Ermənistan Respublikasında) ata-babalarımızın yaratdıqları tarixi abidələri, zəngin ədəbi-mədəni mühiti, milli-mənəvi dəyərlərin formalaşmasına xidmət edən təhsil ocaqlarının öyrənilməsi və gələcək nəsillərə çatdırılması xalqımızın tarixi yaddaşının zənginləşməsinə xidmət edir.

XIX əsr Azərbaycanın pedaqoji fikir, xalq maarifi və məktəb təhsili tarixinə yeni bir dövr kimi daxil oldu. Əsrin əvvəllərindən başlayaraq bu sahədə mühüm addımlar atıldı. Əsrlər boyu fəaliyyət göstərən, köhnə üsullu dini məktəblərin və mədrəsələrin yeni tipli tədris müəssisələri ilə əvəz olunması istiqamətində köklü addımlar atıldı. XIX əsrin 30-cu illərində əvvəlcə qəza məktəbləri, əsrin ortalarına doğru şəhər məktəbləri, XIX əsrin II yarısında isə Cənubi Qafqaz, o cümlədən Azərbaycan təhsil sistemində progimnaziya və gimnaziyalar təşəkkül tapdı. “Progimnaziya və gimnaziyaların əsasnaməsi” çar hökuməti tərəfindən 1864-cü il noyabrın 19-da təsdiq edildi. Zaqafqaziya məktəblərinin 1867-ci il nizamnaməsinin tələblərinə uyğun olaraq bir çox məktəblər kimi İrəvan qəza məktəbi də 1868-ci ildə

**https://doi.org/10.36719/2789-6919/XIX/TT/ET/2026**

yenidən quruldu və progimnaziyaya çevrildi. İrəvan progimnaziyası 1869-cu ildə açıldı. 31 Mart 1881-ci ildə İrəvan progimnaziyası səkkiz sinifli gimnaziyaya çevrildi. Bundan sonra İrəvan Kişi Gimnaziyası kimi tanındı.

1881-ci ildə açılmış İrəvan Kişi Gimnaziyasının 216 şagirdi olmuş və gimnaziyanın direktoru Vladimir İosifoviç Brajnikov olmuşdur. Gimnaziyada təhsil müddəti 4 il olmuşdur. Gimnaziyaya qəbul olmaq istəyən hər bir kəs ilk növbədə onun nəzdində fəaliyyət göstərən hazırlıq sinfini bitirməliydi. Qəbul hər il dekabrın 8-23-ü arası keçirilirdi. Tətil müddəti isə 15 iyundan 15 sentyabra qədər idi. Gimnaziyanın ilk buraxılışı 1885-ci ildə olmuşdur. İrəvan gimnaziyası müsəlman şöbəsinin müdiri İsmayıl bəy Şəfibəyov olmuşdur. 1883-cü ildə gimnaziyada 37 azərbaycanlı oxuyurdu və ilk buraxılış ili olan 1885-ci ildə onlardan 36 nəfəri bu təhsil ocağını bitirmişdir. 1915-ci ildə burada 141 azərbaycanlı təhsil alırdı. Ümumiyyətlə, 1881-1916-cı illərdə İrəvan Kişi Gimnaziyasını 582 azərbaycan türkü bitirmişdir.

Bu tədris ocağında hesab, həndəsə, coğrafiya, tarix, təbiət elmləri və rus, fransız, alman dilləri, xəttatlıq, musiqi, işgüzar münasibətlər fənləri də tədris edilirdi.1882-ci ildə həftədə 5 gün Azərbaycan dili tədris edilirdi. Gimnaziyada şəriət dərslərini və Azərbaycan dili fənnini 1885-1895-ci illərdə görkəmli maarifçi Firidun bəy Köçərli, 1895-1905-ci illərdə İsmayıl bəy Şəfibəyov, 1905-1906-cı illərdə Mirzə Məhəmməd Şeyxzadə, 1907-1918-ci illərdə Şeyx Abusəttar Kazımov tədris etmişdilər.

Bu gimnaziyada görkəmli pedaqoq, maarifçi Firudin bəy Köçərli 1885-ci ildə Qori Müəllimlər Seminariyasını bitirərək təyinatla İrəvan Kişi Gimnaziyasında işləməyə göndərilmişdir. 1890-cı ilə qədər gimnaziyada həm müsəlman şöbəsinin müdiri, həm də Azərbaycan dili və hüsnxətt fənlərini tədris etmiş (1885-1895-ci illər), gimnaziyanın tərkibində pansionun müdiri vəzifəsini daşımışdır. Pedaqoji sahədə müvəffəqiyyətlərinə görə dəfələrlə mükafatlandırılmışdır. Ona "Kollecski sekretar", "Titulyar

**https://doi.org/10.36719/2789-6919/XIX/TT/ET/2026**

sovetnik" və "Statski sovetnik" rütbələri verilmişdir. 1893-1894-cü illərdə yenidən həmin gimnaziyada fəaliyyət göstərmişdir. O, maarifçi-demokrat kimi ictimai bəlaların kökünü cəhalətdə, elmsizlikdə görür, xalqın maarifləndirilməsi yolunda öz əməyini əsirgəmirdi. İrəvanda yeni tipli məktəblərin açılmasında, onların tədris vəsaitləri ilə təmin olunmasında Firudin bəyin müstəsna xidməti olmuşdu. İrəvanda işlədiyinin beşinci ilində - yəni 1890-cı ildə "İrəvandan məktub" başlıqlı məqaləsində Firudin bəy yazırdı ki, "Belə ki, iki-üç sənə var ki, şəhərimizdə bir-iki qaydalı və səliqəli məktəb açılıb. Müsəlman balaları da sair millətlərin ətfalı (yəni uşaqları) təki təzə üsul ilə elm və ədəb təhsil edirlər... Əlbəttə, bu məktəblərin bu halda qüsurları da çoxdur, amma ümid var ki, İrəvan əhli hümmət edib az zamanda məktəblərin hər bir ehtiyacını düzəldələr."

Firidun bəy İrəvan Gimnaziyasında çalışdığı illərdə Zöhrabzadə ilə birlikdə "Təlimi-lisani-türkü" adlı dərslik tərtib etmişdir. 1891-ci ildə "Təlimati-Sokrat" adlı fəlsəfi əsərin nəşrinə nail olmuşdur. 1895-ci ildə F.Köçərli İrəvan Gimnaziyasından Qori Müəllimlər Seminariyasına köçürülmüşdür.

Azərbaycanlı uşaqlara ana dilinin tədrisi üçün dərslik yazılmasının ilk təşəbbüskarı olmuş Mirzə Ələkbər Elxanov Zaqafqaziyada İrəvan Kişi Gimnaziyasında 30 ilə qədər Azərbaycan dili müəllimi olmuşdur. M.Ə.Elxanov əslən Uluxanlıdandır. Onun tərtib etdiyi "Vətən dili" dərsliyi XIX yüzilliyin 80-ci illərində Rusiya Xalq Maarif Nazirliyində müzakirə edilərək çapa tövsiyə edilmişdir. Təəssüf ki, çapa hazır olan həmin dərslik M.Ə.Elxanovun sağlığında işıq üzü görməmişdir.

İrəvan Kişi Gimnaziyasının məzunlarından dünya şöhrətli alim, akademik Mustafa bəy Topçubaşov, gimnaziyanın sonuncu qızıl medalçısı, görkəmli alim və ictimai xadim Əziz Əliyev, professor Mehdixan İrəvanski, məşhur alim Miryusif Mirbabayev, ictimai xadim Maqsud Məmmədov, akademik Əhməd Rəcəbli, ziyalı ocağının layiqli övladları Adil və Əslidar Muğan-

**https://doi.org/10.36719/2789-6919/XIX/TT/ET/2026**

linski qardaşları, akademik Heydər Hüseynov, böyük bəstəkarımız Səid Rüstəmov, görkəmli elm xadimi və ictimai xadim Həsən Seyidov, Hüseyn Şahtaxtinski, Mirhəsən Mirbabayev, Əbdülhəmid Qənizadə və bir çoxları ilk təhsillərini İrəvan Kişi Gimnaziyasında almışdılar.

Beləliklə, təhsil tariximizdə İrəvan Kişi gimnaziyasının rolu və xidmətləri böyük olmuşdur. Bu gimnaziyanın müəllimləri, tələbələri yalnız tədris işləri ilə məşğul olmamış, həm də böyük ictimai-siyasi, elmi pedaqoji və metodiki işlər həyata keçirmişdilər. Onlar bir çox dərslik və dərs vəsaiti yazmış, lüğətlər tərtib etmiş, teatr tamaşaları yaratmış, xalqın maariflənməsində fədakarcasına çalışmışdılar. İrəvan kişi gimnaziyasında çarizmin ruslaşdırma, xristianlaşdırma siyasətinə baxmayaraq, millətin taleyində əhəmiyyətli rol oynamış, Azərbaycan ictimai fikrinin ən görkəmli nümayəndələrindən biri olan Əli bəy Hüseynzadənin arzuladığı türk qanlı, müsəlman etiqadlı, firəng düşüncəli, Avropa qiyafəli yeni nəsil formalaşdırılmışdı. İrəvan Gimnaziyası təhsil tariximizin şərəfli səhifələrinin yazıldığı möhtəşəm maarif ocaqlarından biri olmuşdur.

*Elm və Təhsildə Müasir Tələblər* **XIX Tezislər Toplusu/ 19 aprel / 119-122**
***Modern Requirements in Science and Education*** **XIXTheses Collection/ 19 april / 119-122**
**https://doi.org/10.36719/2789-6919/XIX/TT/ET/2026**

**Arzu Atakişiyeva**
Sumqayıt Dövlət Universiteti
magistrant
https://orcid.org/0009-0003-1718-6956
atakshiyeva.arzu.98@gmail.com

# Maliyyə resurslarının idarə edilməsi və onun Azərbaycanda sənaye müəssisələrinin inkişafına təsiri

***Açar sözlər:*** *maliyyə menecmenti, sənaye müəssisələri, investisiya siyasəti, iqtisadi inkişaf, Azərbaycan*

***Keywords:*** *financial management, industrial enterprises, investment policy, economic development, Azerbaijan*

Tədqiqat işində Azərbaycanda fəaliyyət göstərən sənaye müəssisələrində maliyyə resurslarının idarə olunmasının nəzəri yanaşmaları və praktiki tətbiq mexanizmləri araşdırılmışdır. Mövcud statistik məlumatlar və elmi mənbələr əsasında investisiya siyasətinin xüsusiyyətləri, kapital strukturunun formalaşması və dövlət tərəfindən tətbiq olunan dəstək mexanizmlərinin sənaye sektorunun inkişafına təsiri təhlil edilmişdir. Aparılmış araşdırmanın nəticələri göstərir ki, maliyyə resurslarının effektiv idarə olunması müəssisələrin istehsal səmərəliliyinin yüksəlməsinə, innovasiya fəaliyyətinin genişlənməsinə və uzunmüddətli iqtisadi sabitliyin təmin edilməsinə mühüm töhfə verir.

Sənaye sahəsinin inkişafı Azərbaycan Respublikasının iqtisadi strategiyasında xüsusi əhəmiyyət daşıyan istiqamətlərdən biri hesab edilir. Son illərdə dövlət tərəfindən iqtisadiyyatın şaxələndirilməsi və neft gəlirlərindən asılılığın azaldılması məqsədilə bir sıra proqramlar və təşəbbüslər həyata keçirilmişdir. Bu prosesdə sənaye müəssisələri ölkədə əlavə dəyərin yaradılması, yeni iş yerlərinin formalaşdırılması və ixrac imkanlarının genişləndirilməsi baxımından mühüm rol oynayır.

**https://doi.org/10.36719/2789-6919/XIX/TT/ET/2026**

Statistik göstəricilər sənaye sektorunun ölkə iqtisadiyyatında əhəmiyyətli mövqeyə malik olduğunu təsdiqləyir. Rəsmi məlumatlara əsasən, sənaye sahəsində istehsal və xidmətlərin ümumi dəyəri 20,6 milyard manatı keçmiş və əvvəlki ilə müqayisədə təxminən 3,9 faiz artım müşahidə olunmuşdur. Eyni zamanda, sənaye məhsullarının böyük hissəsi özəl sektor tərəfindən istehsal olunur və bu sahədə sahibkarlığın payı təxminən 87,5 faiz təşkil edir. Bu göstərici sənaye inkişafında özəl təşəbbüslərin və sahibkarlıq fəaliyyətinin rolunun getdikcə gücləndiyini göstərir.

*Maliyyə Resurslarının İdarə Edilməsinin Nəzəri Əsasları.* Maliyyə resurslarının idarə olunması müəssisələrin qarşıya qoyduğu strateji və iqtisadi məqsədlərin reallaşdırılması üçün maliyyə vəsaitlərinin planlı şəkildə təşkilini, onların məqsədyönlü bölüşdürülməsini və istifadəsinə sistemli nəzarətin həyata keçirilməsini əhatə edən idarəetmə prosesidir. Sənaye müəssisələrinin fəaliyyətində maliyyə idarəetməsi bir sıra mühüm istiqamətləri özündə birləşdirir. Bunlara kapital strukturunun müəyyən edilməsi, investisiya qərarlarının planlaşdırılması, dövriyyə vəsaitlərinin səmərəli idarə olunması, maliyyə risklərinin qiymətləndirilməsi və maliyyə intizamının təmin edilməsi daxildir.

*Azərbaycanda sənaye sektorunun inkişafı: statistik baxış.* Azərbaycan iqtisadiyyatında sənaye sektoru bir neçə əsas istiqamət üzrə formalaşmışdır. Bu sahələrə *mədənçıxarma sənayesi, emal sənayesi, elektrik enerjisi, qaz və buxar istehsalı, həmçinin, su təchizatı və tullantıların idarə olunması* kimi fəaliyyət sahələri daxildir. Rəsmi statistik məlumatlar göstərir ki, ölkənin sənaye istehsalının strukturunda hasilat sənayesi xüsusi çəkisi ilə seçilir. Bu isə sənaye istehsalında enerji və təbii resurs sektorunun hələ də mühüm mövqeyə malik olduğunu göstərir. Məsələn, 2021-ci ildə sənaye istehsalının sahələr üzrə bölgüsündə hasilat sənayesi üstün paya sahib olmuşdur.

**https://doi.org/10.36719/2789-6919/XIX/TT/ET/2026**

**Cədvəl.1.**
Azərbaycanda sənaye sektorunun inkişafı

| Sektor | Payı (%) |
|---|---|
| **Mədən sənayesi** | 65.6 |
| **İstehsal sənayesi** | 28.8 |
| **Elektrik enerjisi, qaz və buxar** | 4.8 |
| **Su təchizatı və tullantıların idarə olunması** | 0.8 |

Dövlət tərəfindən həyata keçirilən iqtisadi siyasət çərçivəsində qeyri-neft sənayesinin inkişafı prioritet istiqamətlərdən biri kimi çıxış edir. Bu məqsədlə investorlara müxtəlif təşviq mexanizmləri təqdim olunur, sənaye zonaları formalaşdırılır və vergi yükünün azaldılması istiqamətində addımlar atılır.

Son dövrlərin statistik göstəriciləri sənaye sahəsində fəaliyyət göstərən müəssisələrin sayında artım dinamikasının müşahidə olunduğunu təsdiqləyir. Belə ki, 2020-ci illə müqayisədə 2022-ci ildə müəssisələrin sayının nəzərəçarpacaq dərəcədə yüksəlməsi sahibkarlıq mühitinin genişləndiyini və iqtisadi fəallığın artdığını göstərir.

*Sənaye Müəssisələrinin İnkişafında Maliyyə Resurslarının Əhəmiyyəti.* Sənaye müəssisələrinin dayanıqlı inkişafı və effektiv fəaliyyəti bilavasitə maliyyə təminatından asılıdır. Maliyyə imkanları müxtəlif istiqamətlər üzrə inkişaf prosesinə təsir göstərir və bu təsiri bir neçə əsas sahədə müşahidə etmək mümkündür.

*Əsas Vəsaitlərə Yönəldilən İnvestisiyalar.* İstehsal prosesinin təşkili və təkmilləşdirilməsi üçün müəssisələr müasir texniki baza və infrastruktur yaratmağa məcburdur. Bu baxımdan kapital qoyuluşlarının artırılması texnoloji yenilənməni sürətləndirir və istehsalın məhsuldarlığını yüksəldir.

*Texnoloji Yeniliklər və İnnovativ Yanaşmalar.* Maliyyə sabitliyi müəssisələrə yeni texnologiyaların mənimsənilməsi və

**https://doi.org/10.36719/2789-6919/XIX/TT/ET/2026**

tətbiqi üçün şərait yaradır. Bunun nəticəsində məhsulun keyfiyyət göstəriciləri yaxşılaşır və müəssisələrin bazarda mövqeyi möhkəmlənir.

*Dövlət Dəstəyi və Sənaye İnfrastrukturunun İnkişafı.* Sənaye sektorunun inkişafında dövlətin rolu yalnız tənzimləyici funksiyalarla məhdudlaşmır, eyni zamanda, maliyyə imkanlarının formalaşdırılmasına da birbaşa təsir edir. Bu istiqamətdə yaradılmış sənaye parkları investorlar üçün əlverişli biznes mühiti təmin edir və müxtəlif güzəştlər təqdim edir.

Ağdam Sənaye Parkı bu baxımdan diqqətəlayiq nümunələrdən biridir. Burada fəaliyyət göstərən çoxsaylı müəssisələr tərəfindən əhəmiyyətli həcmdə investisiya yatırılmış, nəticədə yeni istehsal obyektləri yaradılmış və məşğulluq səviyyəsi yüksəlmişdir.

Aparılan araşdırmanın nəticələri göstərir ki, Azərbaycanda sənaye müəssisələrinin inkişaf trayektoriyası birbaşa olaraq maliyyə resurslarının əlçatanlığı və onların düzgün idarə olunması səviyyəsindən asılıdır.

Tədqiqatın yekun nəticələri sübut edir ki, maliyyə resurslarının səmərəli idarə olunması sənaye müəssisələrinin inkişafında və onların rəqabət üstünlüyü qazanmasında həlledici rol oynayır. Düzgün qurulmuş maliyyə planlaşdırması və əsaslandırılmış investisiya qərarları müəssisələrə istehsal proseslərini yeniləməyə, məhsuldarlığı yüksəltməyə və yeni bazarlara çıxış imkanlarını genişləndirməyə şərait yaradır.

Mövcud statistik göstəricilər sənaye sektorunda müsbət dinamikanın müşahidə olunduğunu, həmçinin, özəl sektorun rolunun getdikcə artdığını təsdiqləyir. Dövlət tərəfindən həyata keçirilən sənaye parklarının yaradılması və investisiya təşviqi mexanizmləri müəssisələrin maliyyə dayanıqlığını gücləndirən əsas amillər kimi çıxış edir.

*Elm və Təhsildə Müasir Tələblər* **XIX Tezislər Toplusu/ 19 aprel / 123-127**
***Modern Requirements in Science and Education*** **XIXTheses Collection/ 19 april / 123-127**
**https://doi.org/10.36719/2789-6919/XIX/TT/ET/2026**

**Rəşad Rüstəmov**
Lənkəran Dövlət Universiteti
magistrant
https://orcid.org/0009-0009-2461-6946
rustemovresad1415@gmail.com

# Azərbaycan təsviri incəsənətində Şərq motivləri və onların tədris metodikasında tətbiqi

***Açar sözlər :*** *Şərq motivləri, Azərbaycan təsviri incəsənəti, incəsənət təhsili, ornamentika, miniatür sənəti, pedaqoji metodika*

***Keywords:*** *Eastern motifs, Azerbaijani visual arts, art education, ornamentation, miniature art, pedagogical methodology*

Müasir qloballaşma kontekstində milli-mədəni irsin qorunması və təhsil sisteminə inteqrasiyası elmi və pedaqoji tədqiqatların mərkəzinə çevrilmişdir. Bu mövzu incəsənətin tədrisi sahəsində xüsusilə vacibdir. Təsviri sənətlər yalnız gözəllik və yaradıcılıqla bağlı deyil, onlar həm də insanların mədəniyyətlərini və kim olduqlarını xatırlamalarına kömək etməkdə böyük rol oynayırlar. Şərq mədəniyyəti sayəsində Azərbaycan təsviri sənəti zamanla inkişaf etmişdir və bu mədəniyyət onların sənətinin yaradılması tərzinə böyük təsir göstərmişdir (Winner et al., 2015). Şərq motivləri incəsənətdə ornament, miniatür sənəti, dekorativ kompozisiya və simvolik təsvir vasitəsilə ifadə edilmişdir. Bu dizaynlar yalnız bəzək üçün deyil, onlar həm də dərin fəlsəfi və mənəvi əhəmiyyətə malik bir bədii sistem təşkil edir. Şərq mövzularına yalnız incəsənət tarixi baxımından deyil, həm də tədris baxımından baxmaq vacibdir. Mövzunun əhəmiyyəti ondan irəli gəlir ki, bugünkü təhsil sistemində milli dəyərlərin qorunması ilə qlobal yanaşmaların mənimsənilməsi

**https://doi.org/10.36719/2789-6919/XIX/TT/ET/2026**

arasında tarazlığın qorunması böyük əhəmiyyət kəsb edir (Necipoğlu, 2016).

Bu tədqiqatın əsas məqsədi Azərbaycan təsviri sənətində Şərq motivlərinin formalaşması və təkamülünün xüsusiyyətlərini hərtərəfli araşdırmaq, onların bədii və estetik əhəmiyyətini elmi prinsiplərə əsaslanaraq təhlil etmək və bu motivlərin incəsənət təhsilinə daxil edilməsi üçün metodoloji əsas yaratmaqdır (Əliyev, 2017). Bu məqsədə uyğun olaraq, Şərq incəsənətində mövcud olan mövzu naxışlarının Azərbaycan təsviri sənətində necə dəyişdiyinə, ölkənin öz bədii ənənələri ilə necə birləşdirildiyinə və müasir dövrdə fərqli şəkildə ortaya çıxdığına xüsusi diqqət yetirilmişdir. Eyni zamanda, qeyd etmək olar ki, tədqiqat Şərq naxışlarının yalnız gözəl görünmək üçün deyil, həm də tədrisdə faydalı olmasının nə qədər vacib olduğunu öyrənmək istəyirdi. Həmçinin, qeyd etmək olar ki, onların incəsənət təhsilində istifadəsinin tələbələrin estetik zövqünün formalaşmasına, yaradıcı düşüncənin inkişafına və milli-mədəni kimliyin möhkəmlənməsinə təsiri də araşdırılmışdır. Tədqiqatın məqsədinə çatmaq üçün aşağıdakı əsas vəzifələr müəyyən edilmişdir: -Şərq incəsənətinin əsas aspektlərini, o cümlədən onun əsas fəlsəfəsini və gözəllik prinsiplərini, eləcə də təkrarlanan mövzuları və simvollarını elmi və nəzəri baxımdan öyrənmək; -Azərbaycan təsviri sənətində Şərq motivlərinin yaranması, formalaşması və inkişaf mərhələlərini tarixi ardıcıllıqla təhlil etmək; Bu dizaynların bədii və gözəllik aspektlərini anlamaq üçün onların necə qurulduğuna və nə demək olduğuna baxmalıyıq; -Şərq dizaynlarının incəsənətin tədrisində necə istifadə oluna biləcəyini və hansı təhsil faydaları verə biləcəyini araşdırmaq; -Bu motivlərin tədris prosesində elmi prinsiplərə əsaslanaraq tətbiqi üçün metodoloji yanaşmalar və praktik mexanizmlər təqdim etmək.

Bu o deməkdir ki, aydın məqsəd və vəzifələrə sahib olmaq, tədqiqatın həm nəzəriyyəsini, həm də real həyatda tətbiqlərini

**https://doi.org/10.36719/2789-6919/XIX/TT/ET/2026**

əhatə edən mövzuya hərtərəfli və mütəşəkkil şəkildə baxmağa imkan verir.

Tədqiqat kompleksi mövzunun həm nəzəriyyəsini, həm də real dünya hissələrini aydın, əsaslı və geniş şəkildə öyrənməyə imkan verən bir metoddan istifadə edir. Metodik tədqiqatın məqsəd və vəzifələrinə uyğun olaraq, diqqət Şərq motivlərinin Azərbaycan təsviri sənətindəki rolunu obyektiv şəkildə araşdırmağa və onların təhsil prosesində potensial tətbiqlərini araşdırmağa yönəlmişdir.

İlk analitik təhlil metodu tətbiq edilmişdir. Bu yanaşmadan istifadə edərək, Şərq dizaynlarının strukturu, gözəlliyi və mənası ilə yanaşı, möhkəm elmi tədqiqatlar vasitəsilə hərtərəfli araşdırılmışdır. Xüsusilə, ornamentlər və kiçik motiv elementləri gözəl və dekorativ görünmək üçün hazırlanmışdır. Analitik yanaşmaya əlavə olaraq, bu motivlərin daxili uyğunluqlarını və incəsənətdəki ifadə formalarını aşkar etməyə imkan verir (Quliyev, 2020). Sonrakı idarəetmə metodu istifadə olunur. Bu metod Azərbaycan təsviri sənətini müxtəlif mədəniyyətlərdən olan bədii nümunələrlə müqayisə edir. Müqayisəli təhlil motivlərinin ümumi xüsusiyyətlərinə əlavə olaraq, milli incəsənətdə istifadə olunan müəyyən unikal metodlar da tapılmışdır. Bu yanaşma Şərq motivlərinin Azərbaycan incəsənətində necə uyğunlaşdırıldığını və yerli estetika vasitəsilə necə yenidən şərh edildiyini aşkar etməyə imkan vermişdir. Bu yanaşma tədqiqat prosesində geniş istifadə olunurdu. Bu diqqətli baxış tərzi müxtəlif dövrlərə aid təsviri sənət nümunələrini görməyi, onların kompozisiya quruluşunu, rənglərin necə istifadə olunduğunu, formalarını və daxil etdikləri dekorativ hissələri yoxlamağı asanlaşdırmışdır. Müşahidə prosesi Şərq dizaynlarının real həyatda istifadəsini və yaradıcı ifadədə necə göründüyünü əhatə edir. Bu metod tədqiqatı daha elmi cəhətdən əsaslandırmış və onu aydın şəkildə göstərmək üçün lazımi şərait yaratmışdır.

**https://doi.org/10.36719/2789-6919/XIX/TT/ET/2026**

Tədqiqat nəticələrinin öyrənilməsi göstərir ki, Azərbaycan incəsənətində Şərq mövzularından istifadə sadəcə gözəl olmaqdan daha çox şeyə malikdir. O, həm də mühüm mədəni və təhsil mənası daşıyır. Nəticələr də təsdiqləyir ki, bu motivlər həm bədii ifadə forması, həm də təhsil prosesində effektiv tədris vasitəsi kimi xidmət edir. Müasir tədris metodlarına tez-tez Şərq ideyaları daxildir və bu, təhsilə konstruktiv yanaşma ilə uyğun gəlir. Bu modelə görə, tələbələr bilikləri sadəcə passiv şəkildə mənimsəmirlər, əksinə, onlar bunu yaradıcı olmaqla və real təcrübələrə malik olmaqla əldə edirlər. Şərq motivlərinə əsaslanan praktik məşğələlər tələbələrin fəal iştirakını təşviq edir, onların fərdi yaradıcı potensialını üzə çıxarır və təlim prosesinin effektivliyini artırır. Bugünkü əlaqəli dünyada milli dəyərləri yaşatmaq və onları gələcək nəslə ötürmək əsas diqqət mərkəzindədir. Bu şəkildə Şərq dizaynları mədəni ənənələrin irəliləməsinə kömək edir və tələbələrin öz ölkələrinin mədəniyyəti ilə daha çox bağlı olduqlarını hiss etmələrinə kömək edir. Müzakirə göstərir ki, incəsənət təhsilində Şərq mövzularından istifadə həm nəzəri, həm də praktikada yaxşı və faydalı bir yanaşmadır (UNESCO, 2017).

Tədqiqatın yekun nəticələri göstərir ki, Şərq motivləri Azərbaycan təsviri sənətinin formalaşmasında və inkişafında mühüm rol oynayan əsas bədii elementdir. Bu motivlər təkcə estetik keyfiyyətləri ilə deyil, həm də dərin simvolik və fəlsəfi mənaları ilə seçilir və milli incəsənət ənənələrinin ayrılmaz hissəsini təşkil edir. Tədqiqat göstərir ki, Şərq mövzularının incəsənət dərslərinə daxil edilməsi şagirdlərin gözəllik hissinin necə inkişaf etməsində, yaradıcı düşünməsində və mədəniyyətləri və ölkələri ilə bağlılıq hiss etməsində böyük fərq yaradır. Bu mövzulardan istifadə edən təlim prosesi şagirdlərin bədii bacarıqlarını inkişaf etdirməyə kömək edir və eyni zamanda tənqidi düşünmək və təhlil etmək qabiliyyətlərini gücləndirir. Eyni zamanda, tədqiqat göstərir ki, Şərq motivlərinin təhsil

**https://doi.org/10.36719/2789-6919/XIX/TT/ET/2026**

prosesində sistemli və metodiki tətbiqi incəsənət təhsilinin məzmununu zənginləşdirmək və təlim prosesinin effektivliyini artırmaq üçün şərait yaradır. Onların tədris bacarıqlarından daha tez-tez istifadə etməyin yaxşı bir fikir olacağı düşünülür (Hüseynov, 2016). Nəticə olaraq, incəsənət tədrisində Şərq mövzularından istifadəyə yalnız köhnə bir iş üsulu kimi deyil, həm də bugünkü tədris metodlarının əsas hissəsi kimi baxılmalıdır. Gələcək tədqiqatlarda bu motivlərdən rəqəmsal mühitdə istifadə etmək, onları interaktiv təlim üsulları ilə birləşdirmək və təhsilin müxtəlif səviyyələrində effektivliyini müqayisə etmək yaxşı olardı.

## Ədəbiyyat


1. Əliyev, N. (2017). *Azərbaycan təsviri incəsənətinin inkişaf mərhələləri*. Elm.
2. Hüseynov, F. (2016). *Azərbaycan miniatür sənəti və onun xüsusiyyətləri*. Təhsil.
3. Necipoğlu, G. (2016). *The Topkapi Scroll: Geometry and Ornament in Islamic architecture*. Getty Publications. https://www.getty.edu/publications/topkapi-scroll/
4. Quliyev, R. (2020). Azərbaycan ornamentlərinin estetik xüsusiyyətləri. *İncəsənət və mədəniyyət problemləri*, *3*(72), 45–52. http://www.anl.az
5. UNESCO. (2017). *Re|Shaping cultural policies: Advancing creativity for development*. UNESCO Publishing. https://unesdoc.unesco.org/ark:/48223/pf0000260678
6. Winner, E., Goldstein, T.R., & Vincent-Lancrin, S. (2015). *Art for Art's Sake? The Impact of Arts Education*. OECD Publishing. https://doi.org/10.1787/9789264180789-en

*Elm və Təhsildə Müasir Tələblər* **XIX Tezislər Toplusu/ 19 aprel / 128-130**
***Modern Requirements in Science and Education*** **XIXTheses Collection/ 19 april / 128-130**
**https://doi.org/10.36719/2789-6919/XIX/TT/ET/2026**

**Şəlalə Kərimova**
Bakı Slavyan Universiteti
magistrant
https://orcid.org/0009-0003-3859-123X
shalalakarim02@gmail.com

# Sosial media diskursunda ingilis dilinin transformasiyası

***Açar sözlər:*** *sosial media, dil dəyişiklikləri, rəqəmsal sosiallaşma, internet ünsiyyəti, ingilis dili, rəqəmsal diskurs*
***Keywords:*** *digital socialization, social media, online communication, English language, language change, digital discourse*

XXI əsrdə rəqəmsal texnologiyaların sürətli inkişafı cəmiyyətin sosiallaşma və ünsiyyət formalarında köklü dəyişikliklərə səbəb olmuşdur. İnternetin gündəlik həyatın ayrılmaz hissəsinə çevrilməsi nəticəsində sosial media platformaları, ani mesajlaşma tətbiqləri, onlayn forumlar və virtual icmalar insanların əsas ünsiyyət mühitinə çevrilmişdir. Bu yeni kommunikasıya məkanları yalnız sosial münasibətləri deyil, eyni zamanda, dilin strukturu, funksiyası və istifadə qaydalarını da əhəmiyyətli dərəcədə dəyişdirmişdir. Qlobal miqyasda ən çox istifadə olunan ünsiyyət dili kimi ingilis dili bu dəyişikliklərin mərkəzində dayanır.

Rəqəmsal sosiallaşma şəraitində ingilis dili ənənəvi yazılı və şifahi formalarından fərqli olaraq daha sürətli, qeyri-formal və kontekst-yönümlü şəkildə istifadə olunur. Sosial media yazışmalarında “lol”, “brb”, “idk”, “omg” kimi qısaltmaların geniş yayılması dilin iqtisadi prinsipinə uyğun olaraq sadələşdiyini göstərir. Bu cür qısaltmalar vaxt və məkan məhdudiyyətləri olan rəqəmsal ünsiyyətdə informasiyanın tez ötürülməsinə xidmət

*Elm və Təhsildə Müasir Tələblər* **XIX Tezislər Toplusu/ 19 aprel / 128-130**
***Modern Requirements in Science and Education*** **XIXTheses Collection/ 19 april / 128-130**
**https://doi.org/10.36719/2789-6919/XIX/TT/ET/2026**

edir. Dilçilər qeyd edirlər ki, bu proses dilin zəifləməsi deyil, əksinə, onun kommunikativ ehtiyaclara uyğunlaşmasının göstəricisidir. Rəqəmsal mühitdə ingilis dilinin leksik tərkibi də əhəmiyyətli dəyişikliklərə məruz qalır. “Unfriend”, “selfie”, “hashtag”, “DM”, “cancel culture” kimi ifadələr sosial media praktikaları nəticəsində yaranmış və qısa müddətdə geniş istifadə dairəsi qazanmışdır. Bu sözlər real sosial davranışların dilə birbaşa əks olunmasının nümunəsidir. Məşhur dilçi David Crystal rəqəmsal ünsiyyəti “yeni bir dil növü deyil, dilin yeni istifadə sahəsi” kimi xarakterizə edir və vurğulayır ki, internet dili danışıq və yazı arasında hibrid bir forma yaradır. Bu yanaşma rəqəmsal ingilis dilinin nə tam yazılı, nə də tam şifahi olduğunu göstərir.

Emoji və digər vizual simvollar da rəqəmsal ünsiyyətdə ingilis dilinin ayrılmaz hissəsinə çevrilmişdir. Emojilər mətnə emosional çalar qataraq ünsiyyətdə anlaşılmazlıqların qarşısını almağa kömək edir. Məsəslən, “I’m fine” və “I’m fine.” Cümlələri semantik baxımdan oxşar olsa da, praqmatik mənada fərqli emosional mesajlar ötürür. Bu da göstərir ki, rəqəmsal diskursda məna yalnız sözlərlə deyil, simvollar və kontekst vasitəsilə formalaşır.

Qrammatik baxımdan da rəqəmsal ingilis dilində sadələşmə müşahidə olunur. Cümlələrin qısa qurulması, böyük hərflərin və durğu işarələrinin məqsədli şəkildə azaldılması və ya tamamilə ixtisar edilməsi geniş yayılmışdır. Məsələn, “Are you coming?” əvəzinə “u coming?” formasının işlədilməsi rəqəmsal ünsiyyətin sürət və rahatlıq prinsiplərinə əsaslandığını göstərir. Dilçilərin fikrincə, bu cür qrammatik dəyişikliklər normativ dilin pozulması deyil, konkret kommunikativ şəraitə uyğunlaşmadır.

Rəqəmsal ünsiyyətdə istifadə olunan formalar əsasən qeyri-rəsmi kontekstlərlə məhdudlaşsa da, onların bir hissəsi zamanla standart dilə keçmək potensialına malikdir. Tarixi dilçilik baxımından bu proses əvvəlki dövrlərdə də müşahidə olun-

*Elm və Təhsildə Müasir Tələblər* **XIX Tezislər Toplusu/ 19 aprel / 128-130**
*Modern Requirements in Science and Education* **XIXTheses Collection/ 19 april / 128-130**
**https://doi.org/10.36719/2789-6919/XIX/TT/ET/2026**

muşdur; yəni bir vaxtlar qeyri-normativ hesab edilən ifadələr sonradan dil normasına daxil olmuşdur.

Nəticə etibarilə, tədqiqat göstərir ki, rəqəmsal sosiallaşma ingilis dilini daha çevik, funksional və istifadəçi-mərkəzli hala gətirmişdir. Bu dəyişikliklər dilin zəifləməsi kimi deyil, onun müasir kommunikasiya tələblərinə uyğun inkişaf mərhələsi kimi qiymətləndirilir. Rəqəmsal sosiallaşma prosesi ingilis dilinin gələcək inikişaf istiqamətlərini anlamaq baxımından mühüm elmi əhəmiyyət daşıyır.

*Elm və Təhsildə Müasir Tələblər* **XIX Tezislər Toplusu/ 19 aprel / 131-133**
***Modern Requirements in Science and Education*** **XIXTheses Collection/ 19 april / 131-133**
**https://doi.org/10.36719/2789-6919/XIX/TT/ET/2026**

**Səbinə Axundova**
Lənkəran Dövlət Universiteti
magistrant
https://orcid.org/0009-0003-0758-1450
sabina-mamedova-88-88@inbox.ru

# Rəqəmsal oyunların məktəbəqədər yaşlı uşaqların sosial bacarıqlarına təsiri: müasir texnologiya və sosiallaşma

***Açar sözlər:*** *rəqəmsal oyunlar, məktəbəqədər yaş, sosial bacarıqlar, empati, təlim texnologiyaları*
***Keywords:*** *digital games, preschool education, social skills development, empathy, educational technology, early childhood education*

Müasir dövrdə rəqəmsal texnologiyaların təhsil sahəsinə inteqrasiyası məktəbəqədər yaşlı uşaqların inkişafına yeni imkanlar yaratmışdır. Xüsusilə bu gün rəqəmsal oyunların uşaqların sosial bacarıqlarının formalaşmasında mühüm rolunu təkzib etmək qeyri-münkündür. Bu oyunlar uşaqlara həm əyləncə, həm də öyrənmə mühiti təqdim etməklə onların sosiallaşma prosesini stimullaşdırır.

Məktəbəqədər yaş dövrü uşaqların şəxsiyyətinin, ünsiyyət bacarıqlarının və emosional tənzimləmə qabiliyyətlərinin əsasının qoyulduğu mərhələdir. Bu baxımdan, rəqəmsal oyunların düzgün seçilməsi və pedaqoji məqsədlərlə tətbiqi xüsusi əhəmiyyət kəsb edir. Sosial bacarıqlar dedikdə, uşaqların digər insanlarla qarşılıqlı əlaqə qurmaq, əməkdaşlıq etmək, qaydalara riayət etmək və empati göstərmək kimi davranışları nəzərdə tutulur. Rəqəmsal oyunlar bu bacarıqların inkişafına bir neçə istiqamətdə təsir göstərir. Məsələn, interaktiv və qrup əsaslı oyunlar uşaqlarda komanda işi, qarşılıqlı yardım və birgə

**https://doi.org/10.36719/2789-6919/XIX/TT/ET/2026**

qərarvermə kimi davranışları təşviq edir. Eyni zamanda, bu oyunlar uşaqların emosional ifadə bacarıqlarını inkişaf etdirir və sosial vəziyyətlərə uyğun reaksiya verməyi öyrədir. Nümunə olaraq, bəzi rəqəmsal oyunların adını çəkmək yerinə düşər:

*Toca Boca.* Uşaqlara müxtəlif sosial rolları oynamaq imkanı verir. Müsbət cəhəti: empati və sosial rolların öyrənilməsi; mənfi cəhəti: sərhədsiz oyun müddəti ekran asılılığına səbəb ola bilər.

*Endless Alphabet.* Dil və ünsiyyət bacarıqlarını inkişaf etdirir. Müsbət cəhəti: söz ehtiyatını artırır; mənfi cəhəti: sosial qarşılıqlı əlaqə zəifdir.

*Sago Mini Friends.* Paylaşma və əməkdaşlıq bacarıqlarını gücləndirir. Müsbət cəhəti: sosial münasibətləri təşviq edir; mənfi cəhəti: real sosial təcrübəni tam əvəz etmir.

Rəqəmsal oyunların sosial bacarıqlara təsiri aşağıdakı istiqamətlərdə müşahidə olunur:

- ✓ ünsiyyət bacarıqları;
- ✓ əməkdaşlıq və komanda işi;
- ✓ empati və emosional tənzimləmə;
- ✓ qaydalara riayət və sosial normalar.

Tədqiqatlar göstərir ki, düzgün seçilmiş və pedaqoji məqsədlərə uyğunlaşdırılmış rəqəmsal oyunlar məktəbəqədər yaşlı uşaqların sosial bacarıqlarının inkişafında effektiv vasitə ola bilər. Məsələn, Hirsh-Pasek və Zosh qeyd edirlər ki, təlim məqsədli rəqəmsal tətbiqlər uşaqlarda həm idrak, həm də sosial bacarıqları gücləndirir. Plowman və Stephen isə vurğulayırlar ki, kompüter əsaslı oyunlar uşaqların həmyaşıdları ilə qarşılıqlı əlaqəsini artırır və sosial öyrənməni dəstəkləyir.

Beləliklə, hesab edirik ki, rəqəmsal oyunlar uşaqların sosial bacarıqlarının inkişafında faydalı ola bilər, lakin bu, onların necə və nə qədər istifadə olunmasından asılıdır. Müşahidəmiz əsasında qeyd etməliyik ki, uşaqlar *Toca Boca* və *Sago Mini Friends* kimi oyunlarla oynayarkən daha çox paylaşma, empati və

**https://doi.org/10.36719/2789-6919/XIX/TT/ET/2026**

əməkdaşlıq davranışları nümayiş etdirirlər. Lakin ekran qarşısında uzun müddət qalmaq onların real sosial münasibətlərdən uzaqlaşmasına səbəb ola bilər. Bu səbəbdən balanslı və nəzarətli istifadə vacibdir.

Nəticə olaraq bildirməliyik ki, rəqəmsal oyunlar müasir texnologiyanın təhsil sahəsində tətbiqinin mühüm komponentidir. Onların pedaqoji baxımdan düzgün təşkili məktəbəqədər yaşlı uşaqların sosial bacarıqlarının inkişafına əhəmiyyətli töhfə verə bilər. Bu yanaşma uşaqların həm fərdi, həm də sosial inkişafını dəstəkləməklə yanaşı, onları gələcək təhsil mərhələlərinə də hazırlayır.

*Elm və Təhsildə Müasir Tələblər* **XIX Tezislər Toplusu/ 19 aprel / 134-136**
***Modern Requirements in Science and Education*** **XIXTheses Collection/ 19 april / 134-136**
**https://doi.org/10.36719/2789-6919/XIX/TT/ET/2026**

**Turan Rzayeva**
Bakı Slavyan Universiteti
magistrant
https://orcid.org/0009-0002-5221-6420
turanrzayeva2003@gmail.com

# Sinif rəhbəri və valideyn münasibətlərinin nəzəri-pedaqoji əsasları haqqında

***Açar sözlər:*** *sinif rəhbəri, valideyn-məktəb əməkdaşlığı, tərbiyə işi sistemi, tərəfdaşlıq modeli, şagird inkişafı*
***Keywords:*** *class teacher, parent-school cooperation, educational work system, partnership model, student development*

Tədqiqat sinif rəhbərləri ilə valideynlər arasındakı münasibətlərin nəzəri və pedaqoji əsaslarını araşdırır və onların şagird şəxsiyyətinin formalaşmasındakı əhəmiyyətini vurğulayır. Tədqiqatın nəzəri bazasını Joyce Epsteinin məktəb–ailə–icma tərəfdaşlığı modeli, Urie Bronfenbrennerin ekoloji sistemlər nəzəriyyəsi və Lev Vygotskynin sosial-mədəni inkişaf nəzəriyyəsi təşkil edir. Araşdırmalar göstərir ki, sinif rəhbərinin valideynlərlə sistemli və planlı əməkdaşlığı şagirdlərin akademik nailiyyətlərinə, sosial uyğunlaşmasına və mənəvi inkişafına müsbət istiqamətdə təsir edir. Nəticədə, sinif rəhbəri–valideyn əməkdaşlığı əlavə fəaliyyət deyil, şagirdin hərtərəfli inkişafını təmin edən əsas pedaqoji mexanizm kimi qiymətləndirilir.

Müasir təhsil sistemində şagird şəxsiyyətinin formalaşması yalnız məktəbdaxili proseslərlə məhdudlaşmır. Burada qloballaşma, rəqəmsallaşma və sosial dəyişikliklər də özünün əhəmiyyətli rolunu saxlayır. Bu fonda ailə-məktəb əməkdaşlığı tərbiyə prosesinin əsas dayaqlarından birinə çevrilir.

Məktəb-ailə əməkdaşlığının elmi əsaslarını izah edərkən üç mühüm nəzəri yanaşma xüsusilə diqqət çəkir. Birincisi, Joyce

**https://doi.org/10.36719/2789-6919/XIX/TT/ET/2026**

Epsteinin məktəb-ailə-icma əməkdaşlığı modelidir. Bu yanaşmaya görə, şagirdin inkişafı yalnız məktəbin və ya ailənin məsuliyyəti deyil, onların sistemli tərəfdaşlığının nəticəsidir. Epstein valideyn iştirakını altı istiqamətdə təsnifləşdirir: valideynlərin maarifləndirilməsi, məktəblə müntəzəm kommunikasiya, məktəb fəaliyyətlərində könüllü iştirak, evdə təlimə dəstək, qərarvermə prosesində iştirak və icma ilə əməkdaşlıq. Bu model göstərir ki, valideynlərlə iş təsadüfi görüşlərlə məhdudlaşmamalı, planlı və strukturlaşdırılmış şəkildə təşkil olunmalıdır. Sinif rəhbəri bu sistemdə əlaqələndirici və təşkilatçı rolunu yerinə yetirməlidir.

İkinci yanaşma, Urie Bronfenbrennerin ekoloji sistemlər nəzəriyyəsidir. Bu nəzəriyyəyə görə, uşağın inkişafı müxtəlif sosial sistemlərin qarşılıqlı təsiri nəticəsində formalaşır. Uşağın birbaşa daxil olduğu mühit – ailə və məktəb – mikrosistem adlanır. Bu iki mühit arasındakı əlaqə isə mezosistemi təşkil edir. Ailə ilə məktəb arasında sağlam və davamlı münasibət qurulduqda uşağın sosial və emosional inkişafı daha sabit olur. Əks halda isə ziddiyyətli təsirlər inkişaf prosesində çətinliklər yarada bilər. Bu baxımdan sinif rəhbərinin valideynlərlə əməkdaşlığı mezosistemin gücləndirilməsi və inkişaf mühitinin harmonikləşdirilməsi deməkdir.

Üçüncü nəzəri əsas Lev Vygotskynin sosial-mədəni inkişaf nəzəriyyəsidir. Vygotskyə görə, uşağın idrak və şəxsiyyət inkişafı sosial qarşılıqlı təsir vasitəsilə baş verir. O, xüsusilə "Yaxın inkişaf zonası" anlayışını irəli sürərək göstərmişdir ki, uşaq müəyyən tapşırıqları böyüklərin və ya daha bacarıqlı şəxslərin dəstəyi ilə daha effektiv yerinə yetirə bilir. Bu kontekstdə valideyn və müəllim uşağın inkişafında istiqamətverici və dəstəkləyici rol oynayır. Onların koordinasiyalı fəaliyyəti uşağın potensial imkanlarının reallaşmasına şərait yaradır.

Beləliklə, bu üç nəzəri yanaşma birlikdə onu əsaslandırır ki, sinif rəhbərinin valideynlərlə əməkdaşlığı pedaqoji prosesin əlavə elementi deyil, şagird şəxsiyyətinin formalaşmasının əsas

mexanizmlərindən biridir. Sistemli planlaşdırma, qarşılıqlı kommunikasiya və sosial dəstək mühiti şagirdin həm akademik, həm də sosial inkişafına birbaşa təsir göstərir.

Məktəb-ailə əməkdaşlığı pedaqogika elmində müxtəlif aspektlərdən araşdırılsa da, sinif rəhbərinin valideynlərlə birgə tərbiyə işinin sistemli modelləşdirilməsi və idarə olunması mexanizmlərinin kompleks şəkildə təhlili xüsusi aktuallıq kəsb edir. Müasir məktəbdə bu əməkdaşlığın epizodik deyil, sistemli və idarəolunan xarakter daşıması zəruridir. Bu zərurəti yaradan səbəbləri aşağıdakı kimi əsaslandırmaq olar: – müasir dövrdə şagird davranış problemlərinin və sosial risk faktorlarının artması; – ailə institutunun transformasiyası və valideyn nəzarət mexanizmlərinin zəifləməsi; – məktəbdə tərbiyə işinin sistemləşdirilməsinə ehtiyac; – valideyn iştirakının təlim və tərbiyə nəticələrinə birbaşa təsir göstərməsi; – təhsildə keyfiyyətin artırılması üçün idarəetmə modellərinin tətbiqinin vacibliyi.

Sinif rəhbərinin valideynlərlə əməkdaşlığının sistemli model əsasında qurulması məktəbdaxili idarəetmənin səmərəliliyini artırmaqla yanaşı, şagirdlərin sosiallaşma prosesini də gücləndirir.

Bu baxımdan sinif rəhbərinin valideynlərlə əməkdaşlığı əlavə fəaliyyət deyil, şagirdin akademik, sosial və mənəvi inkişafını təmin edən əsas pedaqoji mexanizmdir. Təcrübələr də onu göstərir ki, sistemli planlaşdırma və idarəetmə modeli tətbiq edildikdə məktəb-ailə əməkdaşlığı daha dayanıqlı və effektiv nəticələr verir.

*Elm və Təhsildə Müasir Tələblər* **XIX Tezislər Toplusu/ 19 aprel / 137-141**
*Modern Requirements in Science and Education* **XIX Theses Collection/ 19 april / 137-141**
**https://doi.org/10.36719/2789-6919/XIX/TT/ET/2026**

**Aygül Ağayeva**
Lənkəran Dövlət Universiteti
magistrant
https://orcid.org/0009-0009-9824-1382
ayqulya27@gmail.com

# Tədris prosesinin təşkilində müasir təlim metodlarından istifadə imkanları

***Açar sözlər:*** *müasir tədris metodları, interaktiv metodlar, problem əsaslı öyrənmə, layihə metodu, İKT, tərs sinif modeli, təhsil innovasiyaları*
***Keywords:*** *Modern teaching methods, interactive methods, problem-based learning, project method, ICT, flipped classroom model, educational innovations*

XXI əsr innovasiyalar, texnologiyalar və informasiya dövrü olduğundan bu proses birbaşa təhsil sisteminə də təsir edir. Bu baxımdan ənənəvi tədris metodları müasir və interaktiv tədris metodlarının tətbiqini zəruri edir. İnteraktiv təlim üsulları şagirdlərin dərsə marağını artırır və əməkdaşlıq bacarıqlarını inkişaf etdirir (Veysova, 2010). Dünya təcrübəsi göstərir ki, qabaqcıl tədris metodları şagirdlərin fəallığını artırmağa, müstəqil düşüncəni təşviq etməyə və praktik bacarıqları inkişaf etdirməyə xidmət edir. Bu məqalə təhsildə əsas müasir tədris metodlarını, onların üstünlüklərini və effektivliyini müzakirə edir.

Müasir tədris metodları şagirdlərin aktiv iştirakına, problemli situasiyalarda həll yolu tapmağa, tənqidi və yaradıcı düşüncəyə, əməkdaşlığa və informasiya-kommunikasiya texnologiyalarından istifadəyə əsaslanan öyrənmədir (Əlizadə, 2015).

*Elm və Təhsildə Müasir Tələblər* **XIX Tezislər Toplusu/ 19 aprel / 137-141**
*Modern Requirements in Science and Education* **XIX Theses Collection/ 19 april / 137-141**
**https://doi.org/10.36719/2789-6919/XIX/TT/ET/2026**

Bu cür metodlar müəllimin monoloq üslubundan daha çox şagirdlərlə ünsiyyətə əsaslanan interaktiv prosesdir. Müasir tədris metodlarının tətbiqi tədris prosesində yüksək səmərəliliyə gətirib çıxarır. Tədris metodları seçilərkən hər dərsin didaktik vəzifələrinə uyğun seçmək məqsədəuyğundur. Ənənəvi dərs formatını qoruyub müxtəlif şagird fəaliyyətlərini aktivləşdirən metodlarla zənginləşdirmək şagirdlərin mənimsəmə səviyyəsinin artmasına səbəb olur. Bunun üçün dərs prosesinin ağıllı şəkildə təşkil olunması, müəllimin şagirdlərdə marağı davamlı olaraq stimullaşdırması və onların təhsil prosesinə cəlb edilməsini təşviq etməsi vacibdir. Tədris materialı kiçik seqmentlərə bölünməli, başlamaq üçün beyin fırtınası (brainstorming), kiçik qruplarda iş, müzakirələr, problemli situasiyalar, situativ suallar, layihələr və rol oyunu kimi texnikalardan istifadə edilməlidir ki, məzmunun başa düşülməsi asanlaşsın və şagirdlər müstəqil praktik məşqlər yerinə yetirsinlər.

Təhsilin keyfiyyətinin və səmərəliliyinin artırılması yalnız təhsil sisteminin müasirləşdirilməsi, yaxşılaşdırılması, davamlılığının təmin edilməsi və şagirdlərin yenilikçi fəaliyyətlərdə fəallıq və məsuliyyətinin artırılması ilə bağlıdır.

Təhsil sahəsində innovativ proseslər Qərbdə 1950-ci illərin sonlarından, ölkəmizdə isə son onillikdə xüsusi şəkildə tədqiq edilməyə başlanılmışdır. Qlobal təhsil ictimaiyyətinin marağı xüsusi innovasiya xidmətləri, nəşriyyat fəaliyyəti, jurnallar və informasiya məqalələri şəklində ortaya çıxır. Xüsusilə UNESCO çərçivəsində Asiyada Təhsil İnnovasiyalarının İnkişafı Mərkəzi müxtəlif ölkələrin pedaqoji innovasiyalarını ümumiləşdirir və bunlar haqqında xüsusi nəşrlərdə təhsil ictimaiyyətinə beynəlxalq göstərişlərlə birlikdə məlumatlar yayır.

Ölkəmizdə pedaqoji innovasiyaların inkişafı daha çox cəmiyyətdə pedaqoqların geniş fəaliyyəti, məktəblərin sürətli inkişafına tələbat və pedaqoqların bunu həyata keçirə bilməməsi

ilə bağlı qarşıdurmalarla əlaqələndirilir. Buna görə də yeni biliklərə, yeni innovasiyalara və innovativ proseslərin anlayışına tələbat artmışdır.

İnnovativ texnologiyalar mahiyyət etibarilə digər texnologiyalarla yanaşı özünəməxsus üsul və vasitələrə malikdir. Lakin pedaqoji texnologiya informasiya texnologiyalarından fərqlənir, çünki o, insan şüuru ilə bağlı mürəkkəb pedaqoji prosesi təmsil edir və hamı üçün asanlıqla başa düşülən deyil. Onun fərqləndirici xüsusiyyəti təhsilin komponentlərini özündə əks etdirməsidir.

Müasir tədris metodları şagirdləri düşünmə prosesində fəal iştirak etdirməyə əsaslanır. Əsas formaları: "Beyin fırtınası" (Brainstorming) şagirdlərin azad düşüncəsini inkişaf etdirir və problemli vəziyyətlərdə öz baxışlarını ifadə etməyə təşviq edir. "Klaster" (Cluster) mövzu ilə əlaqəli əsas anlayışları kateqoriyalaşdırmaq və onları şəbəkə şəklində izah etməkdir. Mətn əsaslı tapşırıqlarda istifadə edilən "Boomerang", "İnsert", "Zigzag" kimi üsullar şagirdlərin analiz və sintez bacarıqlarını inkişaf etdirir. Rol oyunları şagirdləri real həyat vəziyyətlərinə uyğunlaşdırmaq üçün istifadə olunur.

Problem əsaslı öyrənmə metodunda müəllim şagirdə problemli situasiyanı təqdim edir və şagird özü həll yolunu tapmalıdır. Bu baxımdan problem əsaslı öyrənmə şagirdlərin analitik düşünmə qabiliyyətini gücləndirir və onlarda qarşılaşdığı hər bir çətin vəziyyətdən çıxmaq qabiliyyətlərini formalaşdırır (Hmelo-Silver, 2004).

Layihə əsaslı öyrənmə vasitəsilə şagirdlər müəyyən mövzu üzrə layihə hazırlayırlar. Bu prosesdə onlar tədqiqat aparır, faktlar toplayır və təqdimatlar hazırlayırlar. Bu metod şagirdlərin müstəqilliyini və yaradıcılığını artırır və onların dərsə daha hazırlıqlı gəlməsini və sinifdə aktiv iştirakını təmin edir (Abbasov, 2012). Tədrisdə müasir texnologiyalardan istifadə təhsilin keyfiyyətini yaxşılaşdırmaq üçün vacib

vasitədir: Elektron dərsliklər, testlər, platformalar (Google Classroom, Moodle, Canvas); Təhsil proqramları və mobil tətbiqlər; Multimedia vasitələri (video, audio, animasiyalar); Tərs sinif modeli (Flipped classroom). Bu yanaşmada şagird əvvəlcə ev tapşırığını dərslik və ya video dərs vasitəsi ilə öyrənir, daha sonra sinifdə praktik fəaliyyətlə məşğul olur. Bu metod vaxta qənaət edir və müəllimlə qarşılıqlı əlaqəni artırır (Bergmann və Sams, 2012). Müasir tədris metodlarının üstünlükləri: Şagirdlərin praktik fəaliyyəti artır; Müstəqil düşünmə və həyat bacarıqları inkişaf edir; Komanda işi və ünsiyyət mədəniyyəti yaxşılaşır; Texnologiyadan istifadə mədəniyyəti yüksəlir; Fərdiləşdirilmiş təhsil prinsipi reallaşdırılır.

Müasir metodların tətbiqində qarşılaşılan problemlər: Müəllimlərin bu metodlar barədə kifayət qədər bilik və bacarıqlara malik olmaması; Texniki avadanlıq çatışmazlığı; Təhsil prosesində ənənəvi yanaşmalardan imtina etməyə aşağı hazır olma; Şagird sayının çox olması ilə əlaqədar interaktiv metodların tətbiqinə mane olma ehtimalının artması.

Dünya ölkələri, xüsusilə Finlandiya, Cənubi Koreya, Sinqapur və Kanada müasir tədris metodlarını fəal şəkildə tətbiq edir. Onlar: Təhsil mərkəzlərini daha çox müstəqil tədqiqat aparmağa təşviq edir; Hər şagird üçün fərdi yanaşma tətbiq edir; Təhsildə süni intellekt və AR/VR texnologiyaları kimi texnoloji vasitələrdən istifadə olunur. Son illərdə Azərbaycan Respublikasının Təhsil Sistemində müasir yanaşmaların tətbiqi üçün bir sıra tədbirlər həyata keçirilmişdir: Müasir təhsil konsepsiyası əsasında müəllimlərin yenidən hazırlanması. Rəqəmsal platformaların tətbiqi. Məktəblərdə interaktiv tədris vasitələrinin (ağıllı lövhələr, interaktiv dərsliklər) tətbiqi. Dərslərin STEM və STEAM yanaşmaları əsasında təşkili.

Nəticə olaraq, təhsildə müasir tədris metodlarından istifadə bu gün yalnız tələb deyil, həm də zərurətdir. Müəllimlərin

**https://doi.org/10.36719/2789-6919/XIX/TT/ET/2026**

qarşısında ənənəvi metodları müasir yanaşmalarla inteqrasiya etməklə şagirdlərin təhsilə marağını artırmaq və müstəqil düşünə bilən, müasir texnologiyalardan istifadə edə bilən şəxslər formalaşdırmaq vəzifəsi dayanır. Müasir tədris metodları vasitəsilə təhsilin keyfiyyətində və səmərəliliyində artım əldə etmək mümkündür. Bundan əlavə, təhsil sisteminin həm müsbət, həm də mənfi cəhətləri mövcuddur. Mövcud şəraitə görə müasir təhsil sistemi ənənəvi təhsil sistemindən daha yaxşıdır. Xüsusilə tədris prosesinin məzmunlu təşkili üçün müasir texniki vasitələrdən istifadə etmək məsləhət görülür. Məsələn, informasiya və kommunikasiya texnologiyalarının müasir alətləri — texnologiya, informasiya, kompyuterlər, multimedia, internet, distant təhsil və vahid informasiya mühiti mühüm rol oynayır. Beləliklə, müasir tədris metodlarının tətbiqi təhsilin keyfiyyətini, səmərəliliyini artıraraq inkişaf etdirir və XXI əsrin tələblərinə uyğun olaraq formalaşdırır (OECD, 2013).

## Ədəbiyyat

1. Abbasov, A.N. (2012). *Pedaqogika və təhsil nəzəriyyəsi*. Müəllim nəşriyyatı.
2. Bergmann, J., & Sams, A. (2012). *Flip Your Classroom: Reach Every Student in Every Class Every Day*. ISTE.
3. Əlizadə, Ə.Ə. (2015). *Müasir təlim texnologiyaları*. Təhsil nəşriyyatı.
4. Hmelo-Silver, C.E. (2004). "Problem-Based Learning: What and How Do Students Learn?" *Educational Psychology Review*.
5. OECD. (2013). *Innovative Learning Environments*.
6. Veysova, Z.F. (2010). *İnteraktiv təlim metodları*. Elm.

*Elm və Təhsildə Müasir Tələblər* **XIX Tezislər Toplusu/ 19 aprel / 142-144**
***Modern Requirements in Science and Education* XIX Theses Collection/ 19 april / 142-144**
**https://doi.org/10.36719/2789-6919/XIX/TT/ET/2026**

**Zərif Hüseynzadə**
Bakı Slavyan Universiteti
magistrant
https://orcid.org/0009-0003-7913-035X
zhuseynn1@gmail.com

# Tərbiyəçi-müəllim və valideyn əməkdaşlığının davranış problemlərinin həllində əhəmiyyəti

***Açar sözlər:*** *məktəbəqədər təhsil, davranış problemləri, tərbiyəçi-müəllim, valideyn əməkdaşlığı, uşaqların davranışının idarə edilməsi, pedaqoji fəaliyyət, sosial davranış, tərbiyə prosesi*
***Keywords:*** *preschool education, behavioral problems, educator-teacher, parent-teacher cooperation, behavior management in children, pedagogical activity, social behavior, educational process*

Məktəbəqədər yaş dövrü uşağın şəxsiyyətinin, sosial münasibətlərinin və davranış xüsusiyyətlərinin formalaşdığı ən mühüm inkişaf mərhələlərindən biri hesab olunur. Bu dövrdə uşağın davranışının formalaşmasına təsir edən əsas sosial mühitlər ailə və məktəbəqədər təhsil müəssisəsidir. Uşaq ilk sosial təcrübəsini ailədə əldə edir, daha sonra isə məktəbəqədər təhsil müəssisəsində yeni sosial münasibətlər sistemi ilə qarşılaşır. Buna görə də uşağın davranışının düzgün istiqamətdə formalaşması üçün tərbiyəçi-müəllim və valideynlərin birgə fəaliyyəti və səmərəli əməkdaşlığı mühüm əhəmiyyət kəsb edir.

Pedaqoji və psixoloji tədqiqatlar göstərir ki, məktəbəqədər yaşlı uşaqlarda müşahidə olunan davranış problemlərinin böyük bir hissəsi sosial mühitin təsiri ilə bağlıdır. Aqressivlik, itaətsizlik, hiperaktivlik, emosional qeyri-sabitlik və ünsiyyət çətinlikləri kimi davranış problemləri çox zaman ailə və təhsil

**https://doi.org/10.36719/2789-6919/XIX/TT/ET/2026**

mühitində tətbiq olunan tərbiyə üsullarının uyğunsuzluğu nəticəsində yaranır. Bu baxımdan tərbiyəçi-müəllim və valideynlərin əməkdaşlığı uşağın davranış problemlərinin erkən mərhələdə aşkar olunması və onların aradan qaldırılması üçün mühüm pedaqoji vasitə kimi çıxış edir.

Tərbiyəçi-müəllim məktəbəqədər təhsil müəssisəsində uşağın gündəlik fəaliyyətini, davranışını, sosial münasibətlərini və emosional reaksiyalarını sistemli şəkildə müşahidə etmək imkanına malikdir. Bu müşahidələr uşağın davranış xüsusiyyətləri haqqında obyektiv məlumat əldə etməyə kömək edir. Müəllim tərəfindən əldə edilən bu məlumatların valideynlərlə paylaşılması uşağın inkişafı haqqında daha dolğun təsəvvür yaradır və valideynlərin tərbiyə prosesində daha fəal iştirak etməsinə şərait yaradır. Valideynlər isə öz növbəsində uşağın ailə mühitində davranışı, emosional vəziyyəti və gündəlik fəaliyyəti haqqında müəllimə məlumat verərək tərbiyə prosesinin daha sistemli və məqsədyönlü təşkilinə kömək edirlər.

Valideyn-müəllim əməkdaşlığı uşağın tərbiyəsində vahid yanaşmanın formalaşdırılmasına imkan yaradır. Əgər ailədə və məktəbəqədər təhsil müəssisəsində tətbiq olunan tərbiyə prinsipləri bir-biri ilə uyğunlaşarsa, bu zaman uşağın davranışının tənzimlənməsi daha səmərəli şəkildə həyata keçirilir. Əks halda, yəni ailə və təhsil müəssisəsində tərbiyə üsulları arasında ziddiyyət olduqda uşağın davranışında qeyri-müəyyənlik və psixoloji gərginlik yarana bilər. Bu isə davranış problemlərinin daha da dərinləşməsinə səbəb olur. Buna görə də tərbiyəçi-müəllimlər valideynlərlə müntəzəm əlaqə saxlamalı, onlara pedaqoji məsləhətlər verməli və uşağın inkişafı ilə bağlı birgə fəaliyyət planı hazırlamalıdırlar.

Məktəbəqədər təhsil müəssisələrində valideynlərlə əməkdaşlıq müxtəlif formalarda təşkil oluna bilər. Bu formalara valideyn iclasları, fərdi məsləhətləşmələr, pedaqoji seminarlar,

**https://doi.org/10.36719/2789-6919/XIX/TT/ET/2026**

açıq məşğələlər, maarifləndirici tədbirlər və birgə layihələr daxildir. Bu fəaliyyətlər vasitəsilə valideynlər uşaqların yaş xüsusiyyətləri, davranış problemlərinin səbəbləri və onların aradan qaldırılması yolları haqqında məlumat əldə edirlər. Eyni zamanda, bu tədbirlər valideynlərin pedaqoji biliklərinin və tərbiyə mədəniyyətinin artırılmasına kömək edir.

Davranış problemlərinin həllində valideynlərin pedaqoji maarifləndirilməsi xüsusi əhəmiyyət daşıyır. Bir çox hallarda valideynlər uşaqların psixoloji xüsusiyyətlərini və yaş dövrünün spesifik xüsusiyyətlərini kifayət qədər bilmədikləri üçün tərbiyə prosesində səhvlərə yol verirlər. Məsələn, həddindən artıq sərt və ya əksinə, həddindən artıq sərbəst tərbiyə üsulları uşağın davranışında müxtəlif problemlərin yaranmasına səbəb ola bilər. Tərbiyəçi-müəllimlərin valideynlərə düzgün pedaqoji istiqamət verməsi və onlara uşaqlarla ünsiyyətin səmərəli yollarını izah etməsi bu problemlərin qarşısını almağa kömək edir.

Bundan əlavə, tərbiyəçi-müəllim və valideyn əməkdaşlığı uşaqlarda müsbət sosial davranış vərdişlərinin formalaşdırılmasına da müsbət təsir göstərir. Birgə fəaliyyət nəticəsində uşaqlar əməkdaşlıq, qarşılıqlı hörmət, məsuliyyət və qaydalara riayət kimi sosial bacarıqları daha asan mənimsəyirlər. Bu isə onların gələcək sosial uyğunlaşmasına və məktəb mühitinə adaptasiyasına mühüm təsir göstərir.

Nəticə etibarilə qeyd etmək olar ki, məktəbəqədər yaşlı uşaqların davranış problemlərinin həllində tərbiyəçi-müəllim və valideyn əməkdaşlığı mühüm pedaqoji şərtlərdən biridir. Bu əməkdaşlıq uşağın inkişafının hərtərəfli müşahidə olunmasına, davranış problemlərinin vaxtında aşkar edilməsinə və onların aradan qaldırılması üçün birgə pedaqoji tədbirlərin həyata keçirilməsinə imkan yaradır. Eyni zamanda, valideyn və müəllim arasında qurulan səmərəli əməkdaşlıq uşağın sosial, emosional və mənəvi inkişafına müsbət təsir göstərərək onun şəxsiyyət kimi formalaşmasına mühüm töhfə verir.

*Elm və Təhsildə Müasir Tələblər* **XIX Tezislər Toplusu/ 19 aprel / 145-147**
***Modern Requirements in Science and Education*** **XIX Theses Collection/ 19 april / 145-147**
**https://doi.org/10.36719/2789-6919/XIX/TT/ET/2026**

**Bəsti Əzizli**
Lənkəran Dövət Universiteti
magistrant
https://orcid.org/0009-0006-2695-7187
ezizlibesti@gmail.com

# Şəxsiyyətyönümlü inkişafetdirici təlim texnologiyalarında fərdi yanaşmanın üstünlükləri

***Açar sözlər:*** *şəxsiyyətyönümlü, təhsil, inkişafetdirici, təlim, fərdi yanaşma*
***Keywords****: person-centered, education, developmental, instruction, individualized approach*

Şəxsiyyətyönümlü inkişafetdirici təlim texnologiyaları müasir pedaqoji diskursda prioritet istiqamətlərdən biri kimi səciyyələndirilir və təhsil prosesinin humanistləşdirilməsi kontekstində xüsusi əhəmiyyət kəsb edir. Bu yanaşma təhsilalanın fərdi xüsusiyyətlərini, idrak imkanlarını və psixososial ehtiyaclarını əsas götürərək onun çoxşaxəli inkişafını təmin etməyə yönəlmişdir. Fərdi yanaşma qeyd olunan texnologiyaların strukturunda aparıcı komponent kimi çıxış edir və təlimin təşkilində şagirdin şəxsiyyət kimi formalaşmasını mərkəzi məqsədə çevirir. Bu baxımdan, fərdi yanaşmanın üstünlüklərinin elmi müstəvidə əsaslandırılması müasir təhsil sisteminin təkmilləşdirilməsi üçün zəruri hesab olunur. Əvvəla, fərdi yanaşma şagirdin potensial imkanlarının aşkara çıxarılması və sistemli şəkildə inkişaf etdirilməsi baxımından geniş pedaqoji imkanlar yaradır. Məlumdur ki, şagirdlər idrak səviyyəsi, öyrənmə tempi və maraq spektri baxımından bir-birindən fərqlənirlər (Ümumi təhsil kurikulumu, 2020). Standartlaşdırılmış təlim modellərində bu fərqlər adekvat şəkildə nəzərə alınmadığından, bəzi hallarda təhsilalanların inkişafı məhdudlaşa bilər.

*Elm və Təhsildə Müasir Tələblər* **XIX Tezislər Toplusu/ 19 aprel / 145-147**
***Modern Requirements in Science and Education*** **XIX Theses Collection/ 19 april / 145-147**
**https://doi.org/10.36719/2789-6919/XIX/TT/ET/2026**

Fərdi yanaşma isə diferensiallaşdırılmış tədris strategiyaları vasitəsilə hər bir şagird üçün uyğun öyrənmə mühiti formalaşdırır və onun fərdi inkişaf trayektoriyasını dəstəkləyir. Digər tərəfdən, fərdi yanaşma təlim motivasiyasının gücləndirilməsində mühüm rol oynayır (Hüseynzadə, 2018). Təhsilalanın maraqlarına və fərdi ehtiyaclarına uyğun seçilmiş məzmun və metodlar onun təlim fəaliyyətində aktiv iştirakını stimullaşdırır. Bu zaman şagird təlim prosesində passiv obyekt deyil, fəal subyekt kimi çıxış edir. Nəticə etibarilə daxili motivasiya güclənir və bu da biliklərin daha dərin, mənalı və davamlı mənimsənilməsinə şərait yaradır. Bununla yanaşı, fərdi yanaşma şagirdlərdə tənqidi və yaradıcı təfəkkürün inkişafına əlverişli zəmin yaradır. Problem yönümlü və açıq tipli tapşırıqların tətbiqi onların müstəqil düşünmə bacarıqlarını stimullaşdırır, alternativ həll yolları irəli sürmək və əsaslandırılmış qərarlar qəbul etmək qabiliyyətini formalaşdırır. Bu isə müasir cəmiyyətin tələb etdiyi əsas kompetensiyaların inkişafına xidmət edir və təhsilalanın funksional savadlılığını artırır. Fərdi yanaşmanın sosial-emosional aspektləri də xüsusi diqqətə layiqdir. Şagirdlərin psixoloji xüsusiyyətlərinin nəzərə alınması onların təlim mühitində özlərini daha rahat və təhlükəsiz hiss etməsinə imkan verir. Bu isə özünəinamın yüksəlməsinə, sosial adaptasiya bacarıqlarının inkişafına və sinifdaxili münasibətlərin sağlam əsasda qurulmasına şərait yaradır. Eyni zamanda, bu yanaşma inklüziv təhsilin prinsipləri ilə uzlaşaraq müxtəlif qabiliyyət və ehtiyaclara malik şagirdlərin birgə təhsil almasını təmin edir. Təlimin səmərəliliyinin artırılması da fərdi yanaşmanın əsas üstünlüklərindən biri kimi qiymətləndirilir. Şagirdin bilik və bacarıq səviyyəsinə uyğunlaşdırılmış tədris materialları onun mövzunu daha dərindən mənimsəməsinə imkan yaradır. Müəllim isə fasilitator kimi çıxış edərək şagirdlərin inkişaf dinamikasını izləyir, diaqnostik qiymətləndirmə əsasında onların ehtiyaclarını müəyyənləşdirir və müvafiq pedaqoji dəstək göstərir. Bu yanaşma

təlim prosesinin məqsədyönlülüyünü və nəticəyönümlülüyünü artırır. Müasir informasiya-kommunikasiya texnologiyalarının tətbiqi fərdi yanaşmanın reallaşdırılmasını daha da optimallaşdırır. Adaptiv təlim platformaları və rəqəmsal resurslar vasitəsilə hər bir təhsilalanın fərdi xüsusiyyətlərinə uyğun məzmun təqdim etmək mümkündür (Mehrabov, 2019). Bu, həm təlimin fərdiləşdirilməsini təmin edir, həm də şagirdlərin müstəqil öyrənmə və özünüqiymətləndirmə bacarıqlarını inkişaf etdirir. Eyni zamanda, fərdi yanaşmanın effektiv tətbiqi qiymətləndirmə sisteminin də transformasiyasını zəruri edir. Formativ və diaqnostik qiymətləndirmə üsullarının tətbiqi şagirdin yalnız yekun nəticələrini deyil, həm də inkişaf dinamikasını obyektiv şəkildə izləməyə imkan verir. Bu isə təlim prosesində şəffaflıq və ədalətlilik prinsiplərinin təmin olunmasına xidmət edir. Nəticə etibarilə, şəxsiyyətyönümlü inkişafetdirici təlim texnologiyalarında fərdi yanaşma təhsilin keyfiyyətinin yüksəldilməsinə yönəlmiş mühüm pedaqoji strategiya kimi çıxış edir. Bu yanaşma təhsilalanların fərdi inkişafını təmin etməklə yanaşı, onların yaradıcı, tənqidi düşünən və sosial cəhətdən fəal şəxsiyyət kimi formalaşmasına zəmin yaradır. Beləliklə, fərdi yanaşmanın təhsil sistemində geniş tətbiqi müasir cəmiyyətin tələblərinə adekvat insan kapitalının formalaşdırılması baxımından strateji əhəmiyyətə malikdir.

## Ədəbiyyat

1. Azərbaycan Respublikası Təhsil Nazirliyi. (2020). *Ümumi təhsil kurikulumu*.
2. Hüseynzadə, R.L. (2018). *Müasir təlim texnologiyaları*.
3. Mehrabov, A.O. (2019). *Təhsildə innovativ yanaşmalar*.

*Elm və Təhsildə Müasir Tələblər* **XIX Tezislər Toplusu/ 19 aprel / 148-153**
***Modern Requirements in Science and Education*** **XIX Theses Collection/ 19 april / 148-153**
**https://doi.org/10.36719/2789-6919/XIX/TT/ET/2026**

**İsmayıl Məmmədov**
Azərbaycan Dövlət Aqrar Universiteti
magistrant
https://orcid.org/0009-0004-9432-5806
mmmdovi910@gmail.com

# Müəssisənin iqtisadi göstəricilər sistemi

***Açar sözlər:*** *maliyyə vəziyyətinin təhlili, maliyyə mexanizmi idarəetməsi, maliyyə sabitliyi göstəriciləri, mənfəət və gəlir analizi, audit və maliyyə nəzarəti*
***Keywords:*** *financial position analysis, financial mechanism management, financial stability indicators, profit and revenue analysis, audit and financial control*

Müəssisənin auditində diqqət yetirilməli olan vacib məqamlardan biri maliyyə vəziyyətinin təhlilidir. Müəssisənin maliyyə vəziyyəti maliyyə resurslarının yaranması və istifadəsi zamanı qeyd olunan göstəricilərlə əks olunur. Müəssisənin maliyyə vəziyyəti bazar iqtisadiyyatı şəraitində mahiyyətcə fəaliyyətin son nəticəsini əks etdirir. "Məhz müəssisə və təşkilatların fəaliyyətinin son nəticəsi mülkiyyətçilər (səhmdarlar), işgüzar tərəfdaşlar, vergi orqanları və digər maraqlı tərəflər üçün əhəmiyyət kəsb edir." Auditor müəssisənin maliyyə-təsərrüfat fəaliyyətinin auditini həyata keçirərkən maliyyə vəziyyətini təhlil etməli və nəticədə öz rəyini bildirməlidir. Auditorun diqqət yetirməli olduğu mühüm məqamlardan biri, auditor tərəfindən təhlil aparılan müəssisəyə məsləhət xarakterli xidmət təqdim etməkdir. Maliyyə vəziyyətini təhlil edərkən və məsləhət xarakterli xidmət göstərərkən qeyri-mümkün halların qarşısını almaq üçün auditor maliyyə göstəricilərini tam təhlil etməlidir. "Auditor tərəfindən yalnız müəssisə və təşkilatların maliyyə vəziyyətinin möhkəmləndirilməsi və çətin maliyyə vəziyyətindən çıxarılması

*Elm və Təhsildə Müasir Tələblər* **XIX Tezislər Toplusu/ 19 aprel / 148-153**
*Modern Requirements in Science and Education* **XIX Theses Collection/ 19 april / 148-153**
**https://doi.org/10.36719/2789-6919/XIX/TT/ET/2026**

üzrə zəruri tədbirlər müəyyənləşdirilə bilər." Bu səbəbdən də auditor təhlil prosesi zamanı maliyyə təhlilini aparma üsulunu tam bilməli, onun əsasında uyğun nəticələr düzgün qiymətləndirməli və müəssisədə maliyyə vəziyyətinin effektivliyini artırmaq üçün tədbirlər planı hazırlanmalıdır.

Maliyyə mexanizmi – müəssisənin maliyyəsinin idarə edilməsini özündə əks etdirir, burda əsas məqsəd son nəticələrə müsbət təsir göstərərək maliyyə münasibətlərini inkişaf etdirmək və lazım olan pul vəsaiti fondunu yaratmaqdır.

"Ümumi maliyyə mexanizmi sistemində müəssisənin maliyyə mexanizmi xüsusi yer tutur." İstehsal sferasında maliyyənin əsas aparıcı rolu, bu maddi nemətlərə olan yüksək tələbdən irəli gəlir. Müəssisənin maliyyə mexanizmi əsasən təşkilatlarda və onların pul fondlarını formalaşdırarkən baş verən maliyyə münasibətlərini bir başa tənzimləyir və idarə edir. "Maliyyə münasibətlərinin qarşılıqlı faydalı təmasının təşkilinə maliyyə kateqoriyalarından (mənfəət, vergilər, kredit, dövriyyə vəsaitləri, amortizasiya, nağdsız hesablaşmalar), normativlərdən (rentabellik, büdcə ödəmələri, dövriyyə vəsaitləri), müxtəlif saylı stimullardan, sanksiyalardan və digər maliyyə alətlərindən istifadə etməklə nail olunur." Müəssisənin maliyyə mexanizmi elə qurulmalıdır ki, müəssisədə daxili funksiyalar bir-birini tamamlasın və effektiv nəticə əldə edilsin.

Müəssisənin maliyyə vəziyyəti – müəssisənin xarici iqtisadi mühitdə fəaliyyətini əks etdirən vacib məqamlardan biri hesab olunur. Burada əsasən müəssisənin rəqabət qabiliyyəti, əməkdaşlıq, potensial və həmçinin, tərəflər arasında olan iqtisadi maraqların nə dərəcədə etibarlı olduğu qiymətləndirilir. Müəssisənin maliyyə vəziyyətinin həm daxili, həm də xarici istifadəçilər tərəfindən öyrənilməsi vacib məqamlardan biridir.

Müəssisənin səmərəli fəaliyyət göstərməsi əsasən maliyyə vəziyyətinin sabitliyi ilə əlaqədardır. Müəssisənin maliyyə vəziyyətinə təsir edən müxtəlif formalar vardır: -əmtəə

**https://doi.org/10.36719/2789-6919/XIX/TT/ET/2026**

bazarında müəssisənin vəziyyəti; -geniş tələbata malik ucuz mallar istehsal etməsi; -xarici investor və kreditorlardan maliyyə asılılığı səviyyəsi; -təsərrüfat və maliyyə əməliyyatlarının səmərəliliyi və i.a.

Müəssisəyə təsir etmə səviyyəsinə görə sabitlik amili bir neçə növə bölünür. Bunlar aşağıdakılardır: -daxili; -xarici; -ümumi; -maliyyə.

Daxili maliyyə sabitliyi - əsasən müəssisənin fəaliyyətində yüksək nəticələr əldə edilməsini təmin edən ümumi maliyyə dayanıqlığıdır. Xarici sabitlik isə onun iqtisadi mühitinin sabitliyi ilə əlaqədar formalaşır. Müəssisənin ümumi maliyyə sabitliyi - əsasən gəlirlərin xərclərdən daha sürətli artmasını təmin edən maliyyə axınıdır.

"Maliyyə sabitliyi – stabil olaraq gəlirlərin xərclərdən yüksək olmasının müəssisənin pul vəsaitlərinin sərbəst manevrliyini və fasiləsiz məhsul (iş, xidmət) istehsalı və satışı prosesində onlardan səmərəli istifadə olunmasını əks etdirir." Müəssisənin maliyyə sabitliyi bütün istehsal-təsərrüfat prosesində inkişaf edir və onun ümumi sabitliyinin vacib elementi sayılır. Mənfəət müəssisənin istehsal-təsərrüfat fəaliyyəti nəticəsində yaranan əsas göstəricilərdən biri hesab olunur və xalis gəlir şəklində təqdim olunur. Mənfəət, müəssisənin məhsul satışından əldə etdiyi gəlirdən məhsul istehsalına çəkilən xərclər çıxıldıqdan sonra yaranan qalıq hissəsidir. Məhz buna görə də, müəssisədə istehsal olunan məhsulun miqdarı artdıqca, qiymət yüksəldikcə və maya dəyəri azaldıqca müəssisənin mənfəəti artır. Müəssisənin mənfəəti artdıqda onun inkişafı üçün geniş imkanlar yaranır. Belə ki, müəssisə yeni texnika və texnologiyalardan istifadə edir, istehsal səviyyəsi yüksəlir və yeni məhsulların mənimsənilməsi üçün şərait yaranır. Eyni zamanda məhsulun keyfiyyəti artır, işçilərin əmək və sosial şəraiti yaxşılaşır və müəssisənin fəaliyyəti daha sabit olur. Mənfəət vergisi dövlət büdcəsinin gəlirlərində xüsusi paya malikdir. "Mülkiyyət

formasından və tabeçilikdən asılı olmayaraq, ölkənin ərazisində fəaliyyət göstərən müəssisə, idarə və təşkilatların mənfəəti artdıqca, mənfəət vergisi ödəyicilərindən büdcəyə daxil olmalar da artır." Təsərrüfat subyektinin gələcək dövrlərdə fəaliyyətini davam etdirəcəyi mühasibat (maliyyə) hesabatları hazırlanarkən nəzərə alınır. Bu prinsipə uyğun olaraq müəssisə öz aktiv və passivlərini əks etdirir. Müəssisə normal fəaliyyət göstərdiyi halda aktivlərini sata və üzərinə düşən öhdəlikləri yerinə yetirə bilər. Əgər söylənilən bu fərziyyə reallığa uyğun gəlməzsə, müəssisə öz aktivlərini sata bilməyəcək və öhdəliklərin məbləği ilə ödənilmə müddətində dəyişiklik baş verə bilər. Məhz bu səbəbdən gələcək dövrlərdə maliyyə hesabatlarında aktiv və passivlərin qiymətlərinin dəyişməsi də məcburi olacaq.

"Təsərrüfat subyektlərinin fəaliyyətinin fasiləsizliyi ehtimalının qiymətləndirilməsi Müəssisənin fəaliyyətinin fasiləsizliyi ehtimalı milli audit standartının müddəalarına uyğun aparılır və aşağıdakı göstəricilərlə xarakterizə olunur."

Maliyyə göstəriciləri: -nizamnamə fəaliyyəti; -xalis öhdəlik; -vaxtı ötmüş ödənilməli olan kredit, amma ödənilməsi qeyri-mümkün olan kreditlər; -alınan borcların kreditorlara vaxtında ödənilməsi; -yeni məhsul istehsalı və digər investisiyalar üçün maliyyə vəsaitlərinin mövcud olmaması.

Əməliyyat göstəriciləri: -Tənzimləmə sistemi mövcud deyil, bölmələr arasında fəaliyyətlərin dəqiqləşdirilməsi təmin olunmayıb; -Peşəkar və ixtisaslı işçi heyəti çatışmır; -Kifayət qədər emal resursları və müasir texniki avadanlıqlar yoxdur.

Digər göstəricilər: -Normativ tələblərin və ya digər qanuni öhdəliklərin gözlənilməməsi; -Qarşı tərəf məhkəməsində müəssisənin xeyrinə olmayan qərarların çıxma ehtimalı; -Hüquq sistemində və ya dövlət idarəçiliyində dəyişiklik riski.

Göründüyü kimi, müəssisənin iqtisadi göstəricilər sistemi müəssisənin maliyyə vəziyyəti və maliyyə mexanizminə bağlı olaraq bazar iqtisadiyyatı şəraitində müəssisənin fəaliyyətini əks

**https://doi.org/10.36719/2789-6919/XIX/TT/ET/2026**

etdirən əsas amillərdən biridir. Belə ki, müəssisənin maliyyə vəziyyətinin son nəticələri müəssisənin səhmdarları, investorları və digər maraqlı tərəflər üçün böyük əhəmiyyət kəsb edir. Bunun üçün müəssisənin maliyyə vəziyyətinin təhlilinin aparılması zamanı audit prosesinə diqqət yetirmək lazımdır. Belə ki, auditor prosesi maliyyə vəziyyətinin təhlilində ən mühüm mərhələlərdən biridir. Deyilənləri nəzərə alaraq auditorun əsas vəzifələrindən biri maliyyə vəziyyətinin təhlili zamanı müəssisənin maliyyə təsərrüfat fəaliyyətinin hər tərəfli təhlil edilməsi, düzgün qiymətləndirilməsi sonda əldə olunan nəticələrə görə rəy bildirməlidir. Maliyyə mexanizmi müəssisənin maliyyəsinin idarəedilməsini də özündə əks etdirərək və lazım olan maliyyə fondunun yaradılmasını təmin edən mühüm sistemdir. Bu mexanizmin köməyi ilə maliyyə kateqoriyaları, normativlər və digər maliyyə alətləri tənzimlənir və müəssisənin gələcək maliyyə ehtiyatlarının səmərəli istifadəsi təmin olunur. Düzgün qurulmuş maliyyə mexanizmi müəssisənin daxili fəaliyyətinin dövriyyəsinə maliyyənin sabitliyinin qorunmasına və müəssisənin iqtisadi səmərəliyinin artmasına şərait yaradır. Araşdırmalar göstərir ki, müəssisənin maliyyə vəziyyətinə müxtəlif amillər təsir edir. Bu amillər əmtəə bazarındakı mövqeyi, müəssisənin istehsal etdiyi məhsulun rəqabət qabiliyyəti, debitor borclarının vəziyyəti, kreditor və investorlar arasında münasibət. Bu amilləri nəzərə alaraq müəssisənin səmərəli fəaliyyət göstərməsi maliyyə sabitliyi ilə bağlıdır. Maliyyə sabitliyi müəssisənin əldə etdiyi gəlirlərin xərclərdən yüksək olması, əldə olunan pul vəsaitlərinin sərbəst fəaliyyəti və istehsal prosesinin fasiləsizliyini təmin edən vacib elementdir.

Sonda onu qeyd etmək olar ki, müəssisənin maliyyə vəziyyətini düzgün təhlil edib qiymətləndirilməsi audit fəaliyyətini aparmaqla yanaşı, müəssisənin maliyyə sabitliyinin stabil qalmasına, müəssisənin inkişafına yönəlmiş qərarların daha səmərəli qəbul edilməsinə müəssisənin gələcək inkişaf səviyyəsinin

möhkəmlənməsinə mühüm yollar açır. Auditor tərəfindən müəssisənin maliyyəsinin təhlilinin aparılması müəssisədə yarana biləcək hər bir problemin müəyyən edilməsinə və onların aradan qaldırılması üçün tədbirlər hazırlaması üçün imkan yaradır.

*Elm və Təhsildə Müasir Tələblər* **XIX Tezislər Toplusu/ 19 aprel / 154-155**
***Modern Requirements in Science and Education*** **XIX Theses Collection/ 19 april / 154-155**
**https://doi.org/10.36719/2789-6919/XIX/TT/ET/2026**

**Günəş Cəfərova**
Lənkəran Dövlət Universiteti
magistrant
https://orcid.org/0009-0003-9527-0846
gunashcfrova@gmail.com

# Lüğət üzrə işin təşkili

***Açar sözlər:*** *lüğət işi, semantikləşdirmə, söz ehtiyatı, kommunikativ bacarıqlar, kontekstual yanaşma*
***Keywords:*** *vocabulary work, semantization, vocabulary range, communicative skills, contextual approach*

Lüğət işinin təşkili dilçiliyin nəzəri tərəflərini və pedaqogikanın praktik tətbiqlərini bir araya gətirən mürəkkəb bir prosesdir. Bu sahənin elmi-metodik əsasını təşkil edən müasir yanaşmaya görə, yeni leksik vahidlərin öyrənilməsi sadəcə mexaniki yadda saxlama prosesi deyil, dilin semantik sisteminə inteqrasiya olunan bir fəaliyyət kimi dərk edilməlidir.

H.Həsənovun "Azərbaycan dili leksikologiyasının əsasları" (1990) əsərində vurğuladığı kimi, sözün mənası onun dildəki digər vahidlərlə əlaqəsində, yəni sinonimlik, antonimlik və çoxmənalılıq münasibətlərində daha dolğun şəkildə üzə çıxır. Bu səbəbdən lüğət üzərində iş zamanı şagirdlərin yalnız sözün əsas mənasını deyil, həm də onun məna çalarlarını və işlənmə sahəsini mənimsəmələri vacib hesab olunur. Ş.Bəşirovun "Məktəbdə lüğət işinin təşkili formaları" adlı metodik araşdırmasında qeyd olunur ki, lüğət işi ardıcıl, planlı və sistemli xarakter daşımalı, dərsin bütün mərhələlərini – oxu, yazı, dinləmə və dil qaydalarının tədrisini kompleks şəkildə əhatə etməlidir. Bu yanaşma lüğət işinin yalnız ayrıca fəaliyyət kimi deyil, ümumi təlim prosesinin ayrılmaz hissəsi kimi təşkilini təmin edir. Müasir təlim mühitində lüğət işinin əsas

*Elm və Təhsildə Müasir Tələblər* **XIX Tezislər Toplusu/ 19 aprel / 154-155**
***Modern Requirements in Science and Education* XIX Theses Collection/ 19 april / 154-155**
**https://doi.org/10.36719/2789-6919/XIX/TT/ET/2026**

istiqamətlərindən biri şagirdlərdə lüğətlərlə müstəqil işləmək bacarıqlarının formalaşdırılmasıdır. Ə.Orucovun redaktəsi ilə nəşr olunmuş "Azərbaycan dilinin izahlı lüğəti" (2006) kimi fundamental mənbələr yalnız məlumat mənbəyi deyil, həm də dilin norma və qaydalarını öyrədən mühüm vasitə kimi çıxış edir. Bu cür lüğətlərdən istifadə şagirdlərin sözlərin mənasını daha dərindən qavramasına, düzgün yazı və tələffüz vərdişlərinin formalaşmasına şərait yaradır. Lüğətlərlə işləmək şagirdlərin idrak fəaliyyətini aktivləşdirir, onların analitik və məntiqi təfəkkürünü inkişaf etdirir. Şagirdlər sözlər arasındakı semantik əlaqələri müəyyənləşdirir, müqayisə aparır və ümumiləşdirmə bacarıqları qazanırlar. Bu proses nəticəsində onların nitqi daha zəngin, aydın və ifadəli olur. Eyni zamanda, lüğət işinin daha maraqlı və effektiv təşkili üçün müxtəlif didaktik oyunlardan istifadə edilməsi xüsusi əhəmiyyət daşıyır. Bu baxımdan aşağıdakı oyun nümunəsi lüğət ehtiyatının zənginləşdirilməsi üçün olduqca faydalıdır:

*"Söz zənciri" oyunu.* Bu oyunda müəllim bir söz deyir (məsələn, "kitab"). Şagirdlər növbə ilə həmin sözün son hərfi ilə başlayan yeni söz söyləməlidirlər (məsələn, "baxça", "alma", "arzu" və s.). Oyunun daha maraqlı olması üçün şərt qoyula bilər ki, deyilən sözlər müəyyən mövzuya aid olsun (məsələn, təbiət, məktəb, peşələr və s.). Həmçinin, hər bir şagird dediyi sözün mənasını izah etməli və ya onu cümlədə işlətməlidir.

Bu oyun şagirdlərin həm söz ehtiyatını artırır, həm də onların düşünmə və sürətli reaksiya bacarıqlarını inkişaf etdirir. Eyni zamanda, sözlərin düzgün tələffüzü və mənimsənilməsi üçün də əlverişli şərait yaradır. Belə interaktiv üsulların tətbiqi lüğət işini daha cəlbedici edir və şagirdlərin dərsə marağını artırır. Nəticə etibarilə, lüğət işi sistemli və yaradıcı şəkildə təşkil edildikdə, şagirdlərin passiv söz ehtiyatı aktivləşir, onların kommunikativ bacarıqları və nitq mədəniyyəti daha yüksək səviyyədə formalaşır.

*Elm və Təhsildə Müasir Tələblər* **XIX Tezislər Toplusu/ 19 aprel / 156-158**
***Modern Requirements in Science and Education*** **XIX Theses Collection/ 19 april / 156-158**
**https://doi.org/10.36719/2789-6919/XIX/TT/ET/2026**

**Fatimə İbadullayeva**
Bakı Slavyan Universiteti
magistrant
https://orcid.org/0009-0007-5979-3921
fatimeibadullayeva@gmail.com

# Mətn üzrə yaradıcı tapşırıqların hazırlanması metodikası

***Açar sözlər:*** *oxu bacarıqları, yaradıcı təfəkkür, mətn üzrə yaradıcı tapşırıqlar, ibtidai siniflərdə oxu təlimi, təxəyyülün inkişafı*

***Keywords****: reading skills, creative thinking, creative text-based tasks, reading, instruction in primary grades, imagination development*

İbtidai siniflərdə oxu dərslərinin əsas məqsədlərindən biri yalnız mətnin oxunması və məzmununun danışdırılması deyil, həm də şagirdlərin yaradıcı təfəkkürünün, təxəyyülünün, müstəqil düşünmə və fikir ifadə etmə bacarıqlarının inkişaf etdirilməsidir. Bu məqsədlə mətn üzrə yaradıcı tapşırıqların hazırlanması və düzgün metodika ilə tətbiqi mühüm əhəmiyyət kəsb edir. Mətn üzrə yaradıcı tapşırıqlar elə tapşırıqlardır ki, şagird mətni sadəcə təkrar etmir, onun üzərində düşünür, dəyişiklik edir, əlavə edir, müqayisə aparır, nəticə çıxarır və yeni fikir yaradır. Bu tip tapşırıqlar şagirdlərdə məntiqi və yaradıcı təfəkkürü inkişaf etdirir, nitqin formalaşmasına kömək edir və oxuya marağı artırır. Mətn üzrə yaradıcı tapşırıqlar hazırlanarkən aşağıdakı metodik prinsiplər nəzərə alınmalıdır:

1. Yaşa uyğunluq prinsipi. Tapşırıqlar I–II sinif şagirdlərinin yaş xüsusiyyətlərinə uyğun olmalıdır. Tapşırıqlar çox mürəkkəb olmamalı, sadə, maraqlı və düşündürücü olmalıdır.

**https://doi.org/10.36719/2789-6919/XIX/TT/ET/2026**

2. Mətnlə əlaqəlilik prinsipi. Tapşırıqlar birbaşa mətnin məzmunu, qəhrəmanları, hadisələri və ideyası ilə bağlı olmalıdır.
3. Yaradıcılığın stimullaşdırılması prinsipi. Tapşırıqlar şagirdi düşünməyə, təsəvvür etməyə, dəyişdirməyə, əlavə etməyə sövq etməlidir.
4. Müstəqillik prinsipi. Tapşırıqlar elə hazırlanmalıdır ki, şagird mümkün qədər müstəqil işləyə bilsin.
5. Maraqlılıq prinsipi. Tapşırıqlar oyun xarakterli, şəkilli, rollu və ya situasiyalı olduqda daha effektiv olur.

Mətn üzrə yaradıcı tapşırıqların hazırlanması metodikası ibtidai siniflərdə oxu dərslərinin səmərəli təşkilində mühüm yer tutur. Oxu dərslərində şagirdlər yalnız mətni oxuyub məzmununu danışmaqla kifayətlənməməli, həm də mətn üzərində yaradıcı fəaliyyət göstərməlidirlər. Bu isə onların təxəyyülünü, yaradıcı təfəkkürünü, müstəqil düşünmə və nitq bacarıqlarını inkişaf etdirir. Buna görə də müəllim mətn üzrə yaradıcı tapşırıqları metodik cəhətdən düzgün hazırlamalı və dərs prosesində məqsədyönlü şəkildə tətbiq etməlidir. “Mətn üzrə yaradıcı tapşırıqlar hazırlanarkən ilk növbədə şagirdlərin yaş xüsusiyyətləri nəzərə alınmalıdır. I–II sinif şagirdləri üçün tapşırıqlar sadə, maraqlı, düşündürücü və oyun xarakterli olmalıdır. Tapşırıqlar birbaşa mətnin məzmunu, qəhrəmanları və hadisələri ilə bağlı olmalı, şagirdi düşünməyə, müqayisə aparmağa, dəyişdirməyə, əlavə etməyə və nəticə çıxarmağa yönəltməlidir. Bu zaman şagird hazır məlumatı təkrar etmir, özü yeni fikir formalaşdırır ki, bu da yaradıcı təfəkkürün inkişafına səbəb olur. Mətn üzrə yaradıcı tapşırıqların tətbiqi mərhələli şəkildə aparılmalıdır.” Birinci mərhələ mətn oxunmazdan əvvəl aparılan yaradıcı tapşırıqlardır. Bu mərhələnin əsas məqsədi şagirdləri mətnə hazırlamaq, onların marağını artırmaq və təxəyyülünü fəallaşdırmaqdır. Bu zaman müəllim mətnin başlığını deyərək şagirdlərdən mətnin nədən bəhs edəcəyini təxmin etməyi xahiş

**https://doi.org/10.36719/2789-6919/XIX/TT/ET/2026**

edə bilər. Şəkil üzrə danışıq təşkil etmək, mövzu ilə bağlı kiçik hekayə qurmaq, qəhrəman haqqında əvvəlcədən fikir söyləmək kimi tapşırıqlar da bu mərhələdə istifadə olunur. Bu tapşırıqlar şagirdlərdə proqnozlaşdırma, təxəyyül və sərbəst fikir ifadə etmə bacarıqlarını inkişaf etdirir.

İkinci mərhələ mətn oxunarkən tətbiq olunan yaradıcı tapşırıqlardır. Bu mərhələdə şagirdlər mətni oxuyarkən hadisələr üzərində düşünür, qəhrəmanların hərəkətlərinə münasibət bildirir və mətnin davamını təxmin edirlər. Müəllim mətni müəyyən hissədə saxlayaraq şagirdlərdən hadisələrin necə davam edəcəyini soruşa bilər. Şagirdlər mətn üzrə şəkil çəkə, plan qura, ən maraqlı hissəni seçə, qəhrəmanların hərəkətlərini qiymətləndirə bilərlər. Bu tip tapşırıqlar şagirdlərin diqqətini artırır, oxu prosesini daha maraqlı edir və onların məntiqi və yaradıcı düşünməsini inkişaf etdirir. Üçüncü mərhələ mətn oxunduqdan sonra yerinə yetirilən yaradıcı tapşırıqlardır. Bu mərhələ daha çox yaradıcı fəaliyyətlə bağlıdır. "Şagirdlər mətnin sonunu dəyişə, mətnin davamını yaza, qəhrəmana məktub yaza, hadisələri başqa qəhrəmanın dilindən danışa, mətn üzrə dialoq qura və ya səhnəcik hazırlaya bilərlər. Həmçinin, şagirdlər mətnə yeni başlıq verə, mətn üzrə suallar tərtib edə, hadisələrin ardıcıllığını dəyişə bilərlər. Bu tapşırıqlar şagirdlərin təxəyyülünü, nitqini, sərbəst düşünmə və yaradıcı fəaliyyət bacarıqlarını inkişaf etdirir." Mətn üzrə yaradıcı tapşırıqların düzgün hazırlanması və tətbiqi nəticəsində şagirdlərin oxuya marağı artır, onların söz ehtiyatı zənginləşir, nitqi inkişaf edir, müstəqil və yaradıcı düşünmə bacarıqları formalaşır. Oxu dərsləri daha maraqlı, interaktiv və şagirdyönümlü olur. Buna görə də ibtidai siniflərdə oxu dərslərində mətn üzrə yaradıcı tapşırıqlardan müntəzəm və sistemli şəkildə istifadə edilməsi vacib hesab olunur. Bu, şagirdlərin həm oxu bacarıqlarının, həm də yaradıcı təfəkkürünün inkişafında mühüm rol oynayır.

*Elm və Təhsildə Müasir Tələblər* **XIX Tezislər Toplusu/ 19 aprel / 159-162**
*Modern Requirements in Science and Education* **XIX Theses Collection/ 19 april / 159-162**
**https://doi.org/10.36719/2789-6919/XIX/TT/ET/2026**

**Əli Abbaszadə**
Lənkəran Dövlət Universiteti
magistrant
https://orcid.org/0009-0005-5303-7274
aliabbasov9872065@gmail.com

# Azərbaycan rəngkarlığında təbiət mənzərəsi və onun tədrisi metodikası

**Açar sözlər:** təbiət mənzərəsi, Azərbaycan rəngkarlığı, təsviri incəsənət, miniatür sənəti, koloristika, incəsənət təhsili
***Keywords***: *landscape painting, Azerbaijani painting, visual arts, miniature art, coloristic, art education*

Müasir təsviri sənət təkcə estetik ifadə forması deyil, həm də milli-mədəni kimliyin formalaşmasında mühüm rol oynayan mürəkkəb sosial-mədəni bir fenomendir. Milli mədəniyyətlərin yaşadılması və onların müasir təhsil sistemlərinin yaxşı işləməsini təmin etmək, xüsusilə qloballaşma yolu ilə dünya daha çox bağlı olduğu bir dövrdə vacibdir (Gombrich, 2018). Azərbaycan rəssamlığında təbii mənzərələrin necə formalaşdığına, tarixi dəyişikliklərin bu əsərlərə necə təsir etdiyinə və onları bədii və gözəl mənalı edən şeylərə nəzər salmaq, bütün bunlar əhəmiyyətli elmi tədqiqatlara töhfə verir. Təbiət təsvirləri yalnız incəsənətdə vizual element kimi deyil, həm də insanın təbiətə münasibətini, estetik dünyagörüşünü və mədəni yaddaşını əks etdirən ifadə forması kimi xidmət edir (Əfəndiyev, 2016). Azərbaycan rəssamlığında mənzərələrin uzun tarixi var və müxtəlif bədii üslublardan istifadə etməklə böyük ustalıqla göstərilir. Erkən qayaüstü rəsmlərdə təbiətin əlaqəli hissələri daha çox simvolik idi və rituallarda istifadə olunurdu. Bu rəsmlərdə təbiət real bir yer kimi göstərilmir, əksinə, insanın

*Elm və Təhsildə Müasir Tələblər* **XIX Tezislər Toplusu/ 19 aprel / 159-162**
*Modern Requirements in Science and Education* **XIX Theses Collection/ 19 april / 159-162**
**https://doi.org/10.36719/2789-6919/XIX/TT/ET/2026**

dünyanı necə gördüyünü və miflərə necə inandığını göstərən bir sıra simvolları təmsil edir.

Texnologiya inkişaf etdikcə miniatür sənəti və təbiət təsvirləri daha mütəşəkkil və bədii cəhətdən təkmilləşdirildi. Miniatür məktəbində təbii elementlər dekorativ-kompozisiya formasında təqdim olunan ümumi bədii strukturun vacib bir hissəsinə çevrilmişdir. Bu mühit yalnız fon funksiyasından daha çox şey edir; o, həmçinin, təsvirlərdəki hissləri və sənət əsərinin ümumi ideyasını dəstəkləməyə kömək edən əsas element kimi xidmət edir.

1800-cü illərin sonlarından etibarən Avropa və Rusiya realist sənət üslublarının təsiri Azərbaycan rəssamlığında yeni bir dövrün başlanğıcını qoymuşdur. Bu mənzərə perspektiv qanunlarını, işıq-kölgə münasibətlərini və rəng harmoniyasını daha dəqiq tətbiq edərək daha realist bir yanaşma ilə təsvir edilmişdir. Rəssamlar təbiəti canlı və daim dəyişən bir yer kimi göstərməyi, onun müxtəlif formalarını və təbii naxışlarını sənətləri vasitəsilə əks etdirməyi hədəfləyirlər (Tansuğ, 2015). Eyni zamanda qeyd edə bilərik ki, milli koloristika Azərbaycan rəssamlığında özünəməxsus təhlükə yaradır. Ölkənin müxtəlif bölgələrində - dağlıq ərazilərdə, meşə zonalarında, ovalıqlarda və Xəzər dənizinin sahillərində rast gəlinən mənzərələrin müxtəlifliyi rəssamların yaradıcılığında, rəng və kompozisiya üslublarından istifadələrində özünü göstərir. Bu xüsusiyyətlər Azərbaycan mənzərə rəsminin strukturunu təşkil edir və onlardan biridir, ölkənin milli üslubunun formalaşmasına kömək edir (Quliyev, 2020).

Müasir mənzərə rəsmi yalnız şəkillər çəkməklə məhdudlaşmır, bu həm də sənət yaratmaq və yeni texnologiyalardan istifadə etmək üçün yeni bir yoldur. Landşaft sənayesinə rəqəmsal texnologiyanın əlavə edilməsi janrı təqdim etmək üçün daha çox yol açır və yeni vizual ifadə növlərinin inkişafına imkan verir. Bu sənaye həm yaradıcılıqda, həm də tədrisdə yeni ideyalar və imkanlar gətirir. Təbii mənzərə sənəti təhsilinin

tətbiqində xüsusi pedaqoji yanaşmaya ehtiyac var. Bu janrın tədrisində istifadə olunan texnologiya və rəng dəyişikliyinə səbəb olan təcrübə onların qavrayışının, kompozisiya bacarıqlarının və yaradıcı düşüncəsinin inkişafına təsir göstərir. Açıq hava dərsləri, həmçinin, plener kimi də tanınır, tələbələrə təbiəti real dünya mühitində daha yaxşı başa düşməyə və işləməyə kömək edir (Tate, 2021).

Eyni zamanda, bu, insanların ətraf mühitə baxarkən gözəllik hisslərini necə inkişaf etdirdiklərinin, təbiətə necə uyğunlaşdıqlarının və ölkələrinin və mədəniyyətlərinin dəyərlərini necə mənimsədiklərinin və qəbul etdiklərinin formalaşmasında da böyük rol oynayır. Bu yanaşma onların bədii baxışlarını artırır və incəsənətə daha dərindən bağlılığı inkişaf etdirir. Nəticə etibarilə onu qeyd etmək olar ki, Azərbaycan rəssamlığında təbii mənzərə təkcə estetik deyil, həm də tarixi və maddi əhəmiyyətə malik mürəkkəb bir bədii fenomendir. Onun incəsənətə planlı şəkildə daxil edilməsi təhsilin daha yaxşı olmasına, tələbələrin yaradıcı şəkildə böyüməsinə və ölkənin ənənəvi incəsənətinin gələcək nəsillər üçün yaşadılmasına kömək edir. Bu nəticələrə əsaslanaraq, təbiət mənzərəsinin incəsənət tədrisində daha effektiv tətbiqi üçün bir sıra praktik təkliflər irəli sürmək məqsədəuyğun hesab olunur.

Aparılan tədqiqat əsasında aşağıdakı təkliflər irəli sürülə bilər: -Azərbaycan rəngkarlığında təbiət mənzərəsinin daha yaxşı öyrənilməsi üçün bu mövzu incəsənət dərslərində daha geniş şəkildə tədris olunmalıdır; -Dərs prosesində yalnız sinif mühiti ilə kifayətlənməyib, açıq havada keçirilən məşğələlərin (plein-air) sayı artırılmalıdır. Bu, tələbələrin təbiəti daha yaxşı müşahidə etməsinə kömək edir; -Təbiət mənzərəsinin öyrədilməsi zamanı rəqəmsal proqramlardan və texnologiyalardan istifadə edilməsi dərslərin daha maraqlı və effektiv olmasına şərait yarada bilər; -Azərbaycanın müxtəlif bölgələrinin təbiətinin öyrənilməsi üçün praktiki dərslər və seminarlar təşkil

olunması faydalı olar; -Tələbələrin yaradıcılıq bacarıqlarını inkişaf etdirmək üçün mənzərə janrına aid sərgilər və müsabiqələr təşkil edilə bilər; -Yerli rəssamların əsərlərinin dərslərdə daha çox istifadə olunması tələbələrdə milli incəsənətə marağı artırar; -Gələcəkdə təbiət mənzərəsinin rəqəmsal incəsənətdə tətbiqi daha geniş şəkildə araşdırıla bilər.

## Ədəbiyyat

1. Əfəndiyev, R. (2016). *Azərbaycan təsviri incəsənəti tarixi*. Şərq-Qərb.
2. Gombrich, E.H. (2018). *The Story of Art* (16th ed.). Phaidon Press.
3. Quliyev, R. (2020). Azərbaycan rəngkarlığında mənzərə janrının inkişaf xüsusiyyətləri. *İncəsənət və mədəniyyət problemləri*, *2*(70), 35–42.
4. Tansuğ, S. (2015). *Çağdaş Türk sanatı*. Remzi Kitabevi.
5. Tate. (2021). *Landscape painting*. https://www.tate.org.uk/art/art-terms/l/landscape

*Elm və Təhsildə Müasir Tələblər* **XIX Tezislər Toplusu/ 19 aprel / 163-166**
***Modern Requirements in Science and Education*** **XIX Theses Collection/ 19 april / 163-166**
**https://doi.org/10.36719/2789-6919/XIX/TT/ET/2026**

**Sevil Kərimova**
Bakı Slavyan Universiteti
magistrant
https://orcid.org/0009-0002-7525-2408
kerimovasevil50@gmail.com

# Məktəbəqədər təhsil müəssisələrində didaktik oyunların uşaqların inkişafına təsiri

***Açar sözlər:*** *didaktik oyunlar, məktəbəqədər təhsil, uşaqların inkişafı, sosial-psixoloji inkişaf, idrak fəaliyyəti, nitq inkişafı, sosiallaşma, təlim-tərbiyə prosesi*
***Keywords****: didactic games, preschool education, child development, socio-psychological development, cognitive activity, speech development, socialization, educational process*

Məktəbəqədər yaş dövrü uşağın fiziki, psixoloji və sosial inkişafının ən intensiv mərhələlərindən biri kimi xarakterizə olunur. Bu dövrdə uşağın ətraf aləmi dərk etməsi, sosial münasibətlər sisteminə daxil olması və ilkin bilik, bacarıq və vərdişləri mənimsəməsi əsasən oyun fəaliyyəti vasitəsilə həyata keçirilir. Xüsusilə didaktik oyunlar təlim-tərbiyə prosesində mühüm vasitə kimi çıxış edərək uşaqların hərtərəfli inkişafına şərait yaradır. Didaktik oyunlar məqsədyönlü şəkildə təşkil olunan, müəyyən təlim və tərbiyə məqsədlərinə xidmət edən oyunlardır. Bu oyunlar uşaqlarda idrak fəallığını artırır, onların öyrənmə prosesinə marağını gücləndirir və təlim materialının daha asan mənimsənilməsinə kömək edir. Buna görə də müasir məktəbəqədər təhsil sistemində didaktik oyunlardan geniş istifadə olunması xüsusi aktuallıq kəsb edir. Didaktik oyunlar uşaqların idrak proseslərinin inkişafında mühüm rol oynayır. Oyun fəaliyyəti zamanı uşaqların diqqəti cəmlənir, yaddaşı möhkəmlənir və təfəkkür qabiliyyəti inkişaf edir. Müxtəlif

**https://doi.org/10.36719/2789-6919/XIX/TT/ET/2026**

tapşırıqların oyun formasında təqdim olunması uşaqların problemləri həll etmə bacarıqlarını gücləndirir və onların məntiqi düşünmə qabiliyyətini formalaşdırır.

Bu prosesdə uşaqlar müşahidə etməyi, müqayisə aparmağı, ümumiləşdirməyi və nəticə çıxarmağı öyrənirlər. Didaktik oyunlar vasitəsilə təqdim olunan material uşaqlar tərəfindən daha asan mənimsənilir, çünki oyun mühiti onları fəal iştirakçıya çevirir. Bu isə passiv öyrənmədən fərqli olaraq aktiv öyrənmə mühitinin formalaşmasına səbəb olur.

Məktəbəqədər yaş dövründə nitq inkişafı uşağın ümumi inkişafının mühüm göstəricilərindən biridir. Didaktik oyunlar uşaqların söz ehtiyatının zənginləşməsinə, düzgün və səlis danışıq vərdişlərinin formalaşmasına mühüm təsir göstərir. Oyun zamanı uşaqlar yeni sözlər öyrənir, cümlə qurma bacarıqlarını inkişaf etdirir və fikirlərini ifadə etməyi öyrənirlər.

Bundan əlavə, didaktik oyunlar uşaqların ünsiyyət bacarıqlarını inkişaf etdirir. Uşaqlar oyun prosesində bir-biri ilə qarşılıqlı əlaqəyə girir, dialoq qurur və sosial münasibətləri mənimsəyirlər. Bu isə onların gələcək sosial həyatına hazırlıq baxımından mühüm əhəmiyyət daşıyır.

Didaktik oyunlar uşaqların sosial inkişafında mühüm rol oynayır. Oyun prosesində uşaqlar kollektiv fəaliyyətə cəlb olunur, qarşılıqlı əməkdaşlıq etməyi, qaydalara riayət etməyi və digər uşaqlarla münasibət qurmağı öyrənirlər. Bu isə onların sosiallaşma prosesinin əsasını təşkil edir

Oyun fəaliyyətində uşaqların müəyyən ünsiyyət formaları da meydana çıxır. Uşaq öz yoldaşları ilə ünsiyyətə girmək üçün hərəkətlərini uzlaşdırmaq bacarığına, təşəbbüskarlıq və ünsiyyətlilik kimi keyfiyyətlərə malik olmalıdır. Doğrudur, uşaq oynamağa başladığı ilk anlarda ünsiyyətin hələ ilkin ünsürləri təzahür edir. Uşaq əvvəllər yalnız öz oyuncaqları ilə ‘ünsiyyətə girir’, sonralar isə təklikdə oynamaqdan tədricən ikinci və üçüncü iştirakçının iştirakı ilə oynamağa meyl yaranır.

**https://doi.org/10.36719/2789-6919/XIX/TT/ET/2026**

Oyun zamanı uşaqlar müxtəlif sosial rolları mənimsəyir, başqalarının mövqeyini anlamağa çalışır və empatiya hissləri inkişaf edir. Bu proses uşaqlarda sosial davranış normalarının formalaşmasına və cəmiyyətə uyğunlaşma qabiliyyətinin artmasına səbəb olur.

Didaktik oyunlar uşaqların emosional inkişafına da müsbət təsir göstərir. Oyun fəaliyyəti uşaqlarda müsbət emosiyalar yaradır, onların əhval-ruhiyyəsini yüksəldir və psixoloji rahatlıq təmin edir. Bu proses uşaqların stress və gərginlikdən azad olmasına kömək edir.

Oyunda uşaq şəxsiyyəti bütün cəhətlər üzrə formalaşır, onun psixikasında böyük dəyişikliklər gedir. Bütün bunlar oyunun mühüm tərbiyəvi imkanlara malik olduğunu göstərir. Psixoloqlar bunu məktəbəqədər yaşlı uşaqların inkişafının aparıcı fəaliyyəti hesab edirlər.

Bundan əlavə, oyun zamanı uşaqlar öz hisslərini ifadə etməyi, emosiyalarını idarə etməyi və başqalarının hisslərini anlamağı öyrənirlər. Bu isə onların emosional intellektinin formalaşmasına şərait yaradır. Özünə inamın artması, təşəbbüskarlıq və müstəqillik kimi keyfiyyətlər də məhz oyun fəaliyyəti zamanı formalaşır.

Məktəbəqədər təhsil müəssisələrində didaktik oyunların düzgün təşkili və məqsədyönlü tətbiqi mühüm əhəmiyyət kəsb edir. Tərbiyəçi oyunların məzmununu uşaqların yaş və fərdi xüsusiyyətlərinə uyğun seçməli, onların maraq və ehtiyaclarını nəzərə almalıdır. Didaktik oyunlar təlim materialının daha maraqlı və əlçatan formada təqdim olunmasına imkan yaradır. Bu isə uşaqlarda öyrənməyə qarşı müsbət münasibət formalaşdırır və onların təlim prosesində fəal iştirakını təmin edir. Müasir pedaqoji yanaşmalarda oyun əsaslı öyrənmə metodlarının tətbiqi xüsusi yer tutur və bu yanaşma uşaqların inkişafında yüksək nəticələr verir.

**https://doi.org/10.36719/2789-6919/XIX/TT/ET/2026**

Nəticə etibarilə, didaktik oyunlar məktəbəqədər təhsil müəssisələrində uşaqların hərtərəfli inkişafını təmin edən ən effektiv vasitələrdən biridir. Onlar uşaqların idrak, sosial, emosional və nitq inkişafına kompleks şəkildə təsir göstərir. Didaktik oyunların düzgün və sistemli şəkildə tətbiqi uşaqların şəxsiyyət kimi formalaşmasına, onların cəmiyyətə uyğunlaşmasına və gələcək təhsil mərhələlərinə hazırlığına mühüm töhfə verir. Beləliklə, didaktik oyunlar yalnız əyləncə vasitəsi deyil, həm də güclü pedaqoji alət kimi çıxış edərək məktəbəqədər təhsil sistemində əvəzsiz rol oynayır.

*Elm və Təhsildə Müasir Tələblər* **XIX Tezislər Toplusu/ 19 aprel / 167-168**
***Modern Requirements in Science and Education*** **XIX Theses Collection/ 19 april / 167-168**
**https://doi.org/10.36719/2789-6919/XIX/TT/ET/2026**

**Murad Kazımov**
Lənkəran Dövlət Universiteti
magistrant
https://orcid.org/0009-0004-7203-571X
kazimovmurad76@gmail.com

# Elm və təhsildə müasir tələblər: inteqrasiya və inkişaf istiqamətləri

***Açar sözlər***: *elm, təhsil, rəqəmsallaşma, innovasiya, müasir tələblər*
***Keywords***: *science, education, digitalization, innovation, modern requirements*

Müasir dövrdə elm və təhsil sahəsi qlobal dəyişikliklərin, texnoloji yeniliklərin və informasiya cəmiyyətinin təsiri altında sürətlə transformasiyaya uğrayır. Bu dəyişikliklər təhsil sistemində yeni yanaşmaların tətbiqini, elmi fəaliyyətin keyfiyyətinin artırılmasını və beynəlxalq standartlara uyğunlaşmanı zəruri edir. Elm və təhsildə müasir tələblər yalnız biliklərin ötürülməsi ilə məhdudlaşmır, eyni zamanda innovativ düşüncə, tənqidi yanaşma və praktik bacarıqların formalaşdırılmasını da əhatə edir.

Müasir təhsil sisteminin əsas prioritetlərindən biri rəqəmsallaşmadır. İnformasiya-kommunikasiya texnologiyalarının tədris prosesinə inteqrasiyası distant təhsil imkanlarını genişləndirir, təhsil resurslarına çıxışı asanlaşdırır və fərdi öyrənmə imkanlarını artırır. Bu baxımdan müəllimlərin rəqəmsal bacarıqlarının inkişafı xüsusi əhəmiyyət kəsb edir. Eyni zamanda, süni intellekt, böyük verilənlər və digər innovativ texnologiyalar təhsil prosesinin daha effektiv təşkilinə şərait yaradır.

Elm sahəsində müasir tələblər isə tədqiqatların aktuallığı, tətbiq yönümlülüyü və beynəlxalq əməkdaşlığın genişlən-

dirilməsi ilə xarakterizə olunur. Elmi nəticələrin praktik tətbiqi, istehsalatla inteqrasiya və innovasiya mühitinin formalaşdırılması iqtisadi inkişafın əsas amillərindən biridir. Bu baxımdan universitetlər və elmi-tədqiqat institutları arasında əməkdaşlıq gücləndirilməli, startap fəaliyyətləri təşviq olunmalıdır.

Bununla yanaşı, təhsil sistemində keyfiyyət təminatı mexanizmlərinin təkmilləşdirilməsi vacib məsələlərdən biridir. Kurikulumların müasir tələblərə uyğun yenilənməsi, tələbəyönümlü tədris metodlarının tətbiqi və qiymətləndirmə sisteminin şəffaflığı təhsilin keyfiyyətinə birbaşa təsir göstərir. Həmçinin, inklüziv təhsilin inkişafı, bütün sosial qruplar üçün bərabər təhsil imkanlarının yaradılması müasir dövrün əsas çağırışlarındandır.

Nəticə etibarilə, elm və təhsildə müasir tələblərin təmin olunması kompleks yanaşma tələb edir. Rəqəmsal transformasiya, innovasiya yönümlü inkişaf, beynəlxalq əməkdaşlıq və keyfiyyət təminatı bu sahədə əsas istiqamətlər kimi çıxış edir. Bu istiqamətlər üzrə həyata keçirilən islahatlar təhsil sisteminin rəqabət qabiliyyətini artıracaq və cəmiyyətin davamlı inkişafına töhfə verəcəkdir.

**https://doi.org/10.36719/2789-6919/XIX/TT/ET/2026**

**Məryəm Məmmədova**
Bakı Slavyan Universiteti
magistrant
https://orcid.org/0009-0002-7162-1931
mamedovamaryam1305@gmail.com

# Ümumtəhsilin səmərəli idarə edilməsində inklüziv yanaşma

***Açar sözlər:*** *ümumtəhsil, idarəetmə, təhsil, imkanlar, siyasət, inklüziv, şagirdlər, müəllim, pedaqoji*
***Keywords****: general education, management, education, opportunities, policy, inclusive, students, teachers, pedagogy*

Ümumtəhsilin səmərəli idarə edilməsi müasir dövrün strateji təhsil prioritetlərindən biri kimi qiymətləndirilir və cəmiyyətin sosial-iqtisadi inkişaf tempinə birbaşa təsir göstərən fundamental sahələrdən hesab edilir. Qloballaşma, iqtisadi transformasiya, informasiya-kommunikasiya texnologiyalarının təhsil strukturuna nüfuzu, əmək bazarının yenilənən tələbləri və sosial mədəni müxtəlifliyin genişlənməsi ümumtəhsil müəssisələrinin idarə olunmasında yeni konseptual modellərin tətbiqini zəruri edir. Bu baxımdan inklüziv yanaşma – yəni bütün şagirdlərin təhsil mühitinə bərabər şəkildə daxil olması, onların təhsil prosesində tam iştirakına şərait yaradılması, fərdi potensialların gerçəkləşdirilməsi və sosial adaptasiyanın təmin olunması – ümumtəhsilin effektiv idarəçiliyində strateji istiqamət kimi ön plana çıxır.

İnklüziv təhsil ideyası BMT-nin "Uşaq Hüquqları Konvensiyası", "Əlillərin Hüquqları haqqında Konvensiya", UNESCO-nun "Təhsildə bərabər imkanlar haqqında Salamanca Bəyannaməsi" kimi beynəlxalq sənədlərdə təsbit olunmuş, həmçinin, bir çox ölkələrin milli təhsil qanunvericiliyi və dövlət proqramla-

rında prioritet istiqamətə çevrilmişdir. İnklüziv idarəetmə yanaşması təhsilin yalnız sosial həssas qruplar üçün deyil, ümumilikdə bütün şagird kateqoriyalarının fərdi ehtiyaclarını nəzərə alan, tədris prosesinin diferensiallaşdırılmasını, məktəb mühitinin psixoloji və pedaqoji baxımdan təhlükəsiz və rahat təşkilini tələb edir. Bu modelin tətbiqi təkcə xüsusi təhsil tələbatı olan uşaqlara deyil, istedadlı, multikultural mühitdə olan, dil adaptasiyasında çətinlik yaşayan, sosial-psixoloji dəstəyə ehtiyacı olan bütün şagirdlərə yönəlmişdir.

Səmərəli idarəetmədə inklüziv yanaşmanın tətbiqi məktəb rəhbərliyinin strateji qərarvermə səriştəsinin gücləndirilməsini, müəllimlərin inklüziv pedaqogika üzrə peşəkar hazırlıq səviyyəsinin artırılmasını, valideyn-məktəb əməkdaşlığının yeni formatda təşkilini və təhsil resurslarının ədalətli bölüşdürülməsini tələb edir. Bu proses idarəetmə strukturunda çevik mexanizmlərin yaradılmasını, məsələn, inklüziv tədris komandalarının formalaşdırılmasını, psixoloji-pedaqoji xidmətlərin gücləndirilməsini, monitorinq və qiymətləndirmə sisteminin məlumat yönümlü (data-driven) icrasını nəzərdə tutur.

Müasir inklüziv təhsil idarəetməsi yalnız pedaqoji və psixoloji mexanizmlərlə məhdudlaşmır, eyni zamanda təşkilati, hüquqi, maliyyə, infrastruktur və rəqəmsal təhsil componentlərini də özündə birləşdirir. Bu çərçivədə məktəblərin rəqəmsal tədris platformalarının inkişafı, inklüziv resurs otaqlarının (resource rooms) yaradılması, xüsusi təhsil ehtiyaclarının diaqnostikası üçün müasir ölçmə və qiymətləndirmə alətlərinin tətbiqi, müəllimlərin fasiləsiz təkmilləşmə proqramlarının genişləndirilməsi mühüm şərtlər kimi çıxış edir.

İnklüziv yanaşmanın effektiv nəticə verməsi üçün təhsilin idarəetmə mühiti açıq kommunikasiya, şəffaf qərarvermə, kollektiv məsuliyyət və şagird yönümlülük prinsipləri üzərində qurulmalıdır. İdarəetmə sistemində psixoloji təhlükəsiz məktəb mühiti, qərəzsiz münasibət, tolerantlıq mədəniyyəti və sosial

**https://doi.org/10.36719/2789-6919/XIX/TT/ET/2026**

ədalət dəyərlərinin möhkəmləndirilməsi də strateji məqsədlərdən sayılır. Bu baxımdan, inklüziv təhsil modeli yalnız xüsusi təhsil ehtiyaclı şagirdlərin sosial inteqrasiyasına xidmət etmir, həm də bütün məktəb sisteminin keyfiyyətinin yüksəldilməsi, sosial kapitalın gücləndirilməsi və insan resurslarının uzunmüddətli inkişafına təkan verir.

Araşdırmalar göstərir ki, inklüziv idarəetmə tətbiq olunan məktəblərdə şagird nailiyyətləri yüksəlir, davranış və sosial adaptasiya göstəriciləri yaxşılaşır, müəllim-məktəb rəhbərliyi-valideyn əməkdaşlığı güclənir, məktəbin ictimai nüfuzu artır. Eyni zamanda, bu yanaşma əmək bazarına gələcəkdə daha sosial məsuliyyətli, tolerant, emosional intellektə sahib və komanda əməkdaşlığında səriştəli insan resurslarının formalaşmasını dəstəkləyir.

Nəticə etibarilə, ümumtəhsilin səmərəli idarə edilməsində inklüziv yanaşma müasir təhsil sisteminin əsas transformasiya xəttidir və gələcək illərdə təhsil siyasəti, məktəb idarəçiliyi və pedaqoji strategiyaların hazırlanmasında əsas metodoloji çərçivə kimi çıxış edəcəkdir. Bu istiqamət dövlət təhsil strategiyalarına, məktəb fəaliyyət planlarına və pedaqoji innovasiyalara inteqrasiya olunduqca, təhsil sisteminin keyfiyyət göstəriciləri, şagird məmnunluğu və cəmiyyətin sosial dayanıqlığı daha yüksək səviyyəyə çatdırıla biləcəkdir.

Ümumtəhsilin səmərəli idarə edilməsində inklüziv yanaşma, müasir təhsil sisteminin keyfiyyətinin yüksəldilməsinə xidmət edən strateji idarəetmə modelidir. Bu yanaşma müxtəlif təhsil ehtiyaclarına malik şagirdlərin eyni təlim mühitində bərabər imkanlarla təhsilə cəlb edilməsini, onların potensialının maksimum reallaşdırılmasını və sosial inteqrasiyasını təmin edir. İdarəetmə prosesində inklüzivlik yalnız pedaqoji metodların fərdiləşdirilməsi ilə məhdudlaşmır, o həm də təhsil resurslarının ədalətli bölgüsünü, data-əsaslı qərarverməni, məktəb

**https://doi.org/10.36719/2789-6919/XIX/TT/ET/2026**

rəhbərliyinin strateji planlaşdırma bacarıqlarını və pedaqoji kadrların inklüziv tədris üzrə peşəkar inkişafını tələb edir.

Aparılan təhlillər göstərir ki, inklüziv idarəetmə modeli tətbiq edilən təhsil müəssisələrində: -tədrisin keyfiyyəti yüksəlir, şagird nailiyyətləri artır; -sosial-psixoloji mühit daha təhlükəsiz və dəstəkləyici xarakter alır; -müəllim-valideyn-məktəb əməkdaşlığı möhkəmlənir; -məktəb mədəniyyəti tolerantlıq, sosial ədalət və hörmət prinsipləri üzərində formalaşır.

Bu çərçivədə inklüziv idarəetmə dövlət təhsil siyasətinin mühüm istiqaməti kimi, insan kapitalının inkişafına, gələcək əmək bazarı üçün daha sosial məsuliyyətli, kommunikasiya bacarıqları güclü və adaptiv fərdlərin hazırlanmasına mühüm töhfə verir. İnklüziv yanaşmanın davamlı həyata keçirilməsi üçün normativ-hüquqi baza, maliyyə dəstəyi, psixoloji-pedaqoji xidmətlər, rəqəmsal təlim mühiti və müəllim hazırlığı mexanizmlərinin sistemli şəkildə gücləndirilməsi vacibdir.

Beləliklə, ümumtəhsilin səmərəli idarə edilməsində inklüziv yanaşma təkcə xüsusi təhsil tələbatlı şagirdlərin sosial adaptasiyasına deyil, bütövlükdə təhsil sisteminin keyfiyyət artımına, sosial həmrəyliyin güclənməsinə və davamlı inkişaf məqsədlərinə uyğun təhsil modelinin qurulmasına yönəlmiş perspektivli inkişaf strategiyası kimi qiymətləndirilməlidir.

*Elm və Təhsildə Müasir Tələblər* **XIX Tezislər Toplusu/ 19 aprel / 173-174**
***Modern Requirements in Science and Education*** **XIX Theses Collection/ 19 april / 173-174**
**https://doi.org/10.36719/2789-6919/XIX/TT/ET/2026**

**Səriyyə Salahlı**
Lənkəran Dövlət Universiteti
magistrant
https://orcid.org/0009-0009-2678-1435
sarijjasalahli@gmail.com

# Təlim prosesində qiymətləndirmə və onun əhəmiyyəti

***Açar sözlər**: qiymətləndirmə, formativ qiymətləndirmə, təlim keyfiyyəti, kompetensiya, pedaqoji yanaşma*
***Keywords:** assessment/evaluation, formative assessment, quality of training, competence, pedagogical approach*

Təhsil sistemində qiymətləndirmə təlim prosesinin ayrılmaz tərkib hissəsi olmaqla, yalnız şagird nailiyyətlərinin ölçülməsi ilə məhdudlaşmır, eyni zamanda, tədrisin keyfiyyətinin yüksəldilməsinə xidmət edən mühüm pedaqoji alət kimi çıxış edir. Müasir pedaqoji yanaşmalarda qiymətləndirmə ənənəvi nəzarət funksiyasını aşaraq, öyrənmə fəaliyyətini stimullaşdıran, istiqamətləndirən və inkişaf etdirən kompleks mexanizm kimi xarakterizə olunur.

Qiymətləndirmə prosesi şagirdlərin bilik, bacarıq və kompetensiyalarının müəyyənləşdirilməsinə yönəlmiş sistemli fəaliyyətdir. Bu proses vasitəsilə müəllim şagirdin mövcud hazırlıq səviyyəsini təhlil edir, onun güclü və zəif tərəflərini aşkar edir və təlim strategiyalarını müvafiq şəkildə optimallaşdırır. Beləliklə, qiymətləndirmə yalnız nəticəyönümlü deyil, həm də prosesyönümlü təhlil imkanları yaradır.

Formativ (davamlı) qiymətləndirmə təlim prosesində xüsusi pedaqoji əhəmiyyət kəsb edir. Bu qiymətləndirmə növü operativ geribildirim təmin etməklə şagirdin öyrənmə fəaliyyətinin tənzimlənməsinə şərait yaradır. Şagird öz səhvlərini vaxtında

**https://doi.org/10.36719/2789-6919/XIX/TT/ET/2026**

müəyyən edərək onları aradan qaldırmaq imkanı əldə edir ki, bu da öyrənmənin daha səmərəli və məqsədyönlü təşkilinə zəmin yaradır. Summativ (yekun) qiymətləndirmə isə müəyyən tədris mərhələsinin sonunda əldə olunan nəticələrin ümumiləşdirilməsi yolu ilə şagirdin ümumi akademik nailiyyət səviyyəsini müəyyən edir.

Qiymətləndirmənin əsas üstünlüklərindən biri şagirdlərin təlim motivasiyasına müsbət təsir göstərməsidir. Elmi əsaslarla qurulmuş qiymətləndirmə sistemi şagirdlərdə öyrənməyə qarşı daxili marağın formalaşmasına, məsuliyyət hissinin inkişafına və özünüinkişaf meyillərinin güclənməsinə səbəb olur. Eyni zamanda, özünüqiymətləndirmə və qarşılıqlı qiymətləndirmə kimi yanaşmalar şagirdlərdə tənqidi təfəkkür və reflektiv düşünmə bacarıqlarının inkişafını stimullaşdırır.

Qiymətləndirmə müəllim üçün mühüm diaqnostik informasiya mənbəyi rolunu da oynayır. Müəllim qiymətləndirmə nəticələrinə əsaslanaraq tədris metodlarını təkmilləşdirir, dərsin strukturunu yenidən təşkil edir və fərdiləşdirilmiş yanaşmanı gücləndirir. Bu isə təlim prosesinin effektivliyinin yüksəldilməsinə və daha yüksək təlim nəticələrinin əldə olunmasına şərait yaradır. Bununla yanaşı, qiymətləndirmə valideynlər və təhsil idarəetmə subyektləri üçün də informativ əhəmiyyət daşıyır. Valideynlər övladlarının təhsil göstəriciləri barədə obyektiv məlumat əldə edir, təhsil müəssisələri isə ümumi tədris prosesinin effektivliyini kompleks şəkildə təhlil etmək imkanı qazanır. Nəticə etibarilə, qiymətləndirmə təlim prosesinin yalnız yekun mərhələsini deyil, onun bütün mərhələlərini əhatə edən dinamik və çoxşaxəli pedaqoji prosesdir. Onun elmi əsaslarla təşkili şagirdlərin akademik inkişafını təmin etməklə yanaşı, onların şəxsiyyət kimi formalaşmasına da mühüm təsir göstərir. Bu baxımdan, müasir təhsil sistemində qiymətləndirmə daha çox inkişafetdirici və dəstəkləyici funksiyaları ilə səciyyələndirilməlidir.

*Elm və Təhsildə Müasir Tələblər* **XIX Tezislər Toplusu/ 19 aprel / 175-177**
***Modern Requirements in Science and Education*** **XIX Theses Collection/ 19 april / 175-177**
**https://doi.org/10.36719/2789-6919/XIX/TT/ET/2026**

**Orxan Əliyev**
Bakı Biznes Universiteti
magistrant
https://orcid.org/0009-0008-2637-0313
o.eliyev1124@gmail.com

# Yerli özünüidarəçilik elementləri fonunda iqtisadi inkişafın təməl xüsusiyyətləri

***Açar sözlər:*** *yerli özünüidarəetmə, iqtisadi inkişaf, diskursiv yanaşma, lokal seqment, milli iqtisadiyyat*
***Keywords:*** *local self-government, economic development, discursive approach, local segment, national economy*

Mövzu üzrə tədqiq etməyə çalışdığımız tezisin müqəddiməsində iqtisadiyyat anlayışının təməl xüsuslarını xatırlamağı zəruri hesab edirik. Elmi-tədqiqat mənbələrində iqtisadiyyat insanın tələbat və ehtiyaclarının ödənilməsində məhdud resurslardan (torpaq, əmək, kapital, sahibkarlıq və bəzi mənbələrdə əlavə olaraq texnoloji resurslar) istifadə etməklə istehsal, bölgü, mübadilə və istehlak proseslərini idarə edən çoxvektorlu bir elm olaraq təhlil edilir. Məhz bu aspektdən dövlət və yerli özünüidarəçilik platformasını iqtisadi nəsnələr olmadan təsəvvür etmək mümkün deyil. Belə ki, antik dövr mənbələrində (qədim Misir papirusları, Babilistan mətnləri və s.) iqtisadi biliklərə xüsusi həssaslıqla yanaşılmış, ölkə başçısının mütləq bilməli olduğu ən zəruri biliklərdən biri kimi dəyərləndirilmişdir. Yəni ölkə iqtisadiyyatının mükəmməl idarə olunması onun fərdi müvəffəqiyyət göstəricisi olaraq təhlil edilir. Qeyd etmək vacibdir ki, belə bir həssas yanaşmaya kanonik mənbələrdə də rast gəlmək mümkündür. Belə ki, Yusif surəsinin 55-ci ayəsində deyilir: "(Yusif) dedi: Məni Misirin xəzinələrinə məmur təyin et (Misir xəzinə-

**https://doi.org/10.36719/2789-6919/XIX/TT/ET/2026**

lərini mənə tapşır), çünki mən (özümə etibar edilən mal-dövləti) qoruyan və (işləri idarə etməyi) bilənəm!"

İstinad etdiyimiz Quran ayəsinə diskursiv yanaşma sərgiləsək (niyə qoşunların idarəolunması, hüquqi prinsiplərin idarəçiliyi, sarayın idarə edilməsi deyil, məhz xəzinələrin, yəni çağdaş yanaşma ilə desək, iqtisadiyyatın idarə edilməsi) hər hansı bir zəruriliyin isbatına ehtiyacın olmadığını düşünürük. Bu zərurilik isə öz növbəsində çoxmərkəzli elm sahələrinin (sənaye iqtisadiyyatı, beynəlxalq iqtisadiyyat, mikro, makro və mezoiqtisadiyyat, sosial iqtisadiyyat və s.) təmərküzləşməsini həyata keçirir. XXI əsr kontekstində baş vermiş hadisələr isə öz növbəsində rəqəmsal iqtisadiyyat və hərbi iqtisadiyyat kimi elm sahələrinin formalaşmasına zəmin yaratdı. Bütün bunlara rəğmən əminliklə deyə bilərik ki, iqtisadi platforma olmadan dövlət və yerli özünüidarəçilik strukturunda tərəqqi və ya müvəffəqiyyətdən danışmaq qeyri-mümkündür. Dünyanın bütün nüfuzlu universitetlərində əsərləri tədris vəsaiti kimi istifadə olunan, 29 yaşında professor adını qazanmış cənab Qreqori Menkyunun yanaşması isə mövcud qənaətimizin ən mükəmməl isbatıdır: Dövlət siyasətini həyata keçirən mələklər deyildir, mükəmməl olmaqdan uzaq olan bir siyasi prosesin üzvləridir. Elə hallar olur ki, siyasi tədbirlər yalnız siyasi cəhətdən güclü olanları mükafatlandırmağa yönəldilir. Bəzən isə siyasəti tam məlumata sahib olmadan, yalnız xoş niyyətli liderlər yeridir. İqtisadi nəzəriyyənin öyrənilməsinin məqsədlərindən biri də, dövlət siyasətinin ədalət və səmərəliliyin təşviqi nöqteyi-nəzərdən məqsədəuyğun olub-olmaması haqqında fikir sahibi olmanızı təmin etməkdir.

Təhlil etməyə çalışdığımız isbatlar fonunda yerli özünüidarəçilik mexanizminin iqtisadi nəsnələrdən uzaq bir fonda analiz etmək tamamilə absurd bir yanaşmadır. Daha dəqiq desək, belə bir yanaşmanın ümumiyyətlə mövcud olmadığını düşünürük. Yerli özünüidarəetmə ilə iqtisadiyyat arasında olan ümumi

sinergetik münasibətləri isə aşağıdakı qaydada təsnifləşdirmək mümkündür: - Yerli özünüidarəçiliyin fundamental büdcə elementləri əsasən vergilərdən, lokal mahiyyətli resurslardan və dövlət transferlərindən formalaşır. Bu yanaşma isə geniş mənada ölkə iqtisadiyyatının ayrılmaz tərkib hissəsidir; - Yerli xarakterli layihələr (yeni infrastruktur formaları, yeni iş yerlərinin açılması, müxtəlif təyinatlı servis və xidmətlər və s.) nəticə etibarilə bölgə iqtisadiyyatını inkişaf etdirir. Bu isə öz növbəsində iqtisadi artımın təmərküzləşməsinə gətirib çıxarır; - Toplanan müxtəlif təyinatlı vergilər dövlətin iqtisadiyyatı kontekstində milli büdcəni formalaşdırır; - Lokal seqmentdə icra olunan innovativ layihələr (rəqəmsal xidmətlər, “smart city” və “smart village” layihələri və s.) milli iqtisadiyyata rəqəmsal inteqrativ yanaşma baxımından əvəzolunmaz töhfələr verir; - Yerli özünüidarəçilik mexanizminin müvəffəqiyyətli təşkili ən azından tələb və təklif formulalarının daha geniş müstəvidə uğurlu tətbiqinə gətirib çıxarır. Bu isə dövlətin uğurlu iqtisadi inkişaf konsepsiyasını bilavasitə dəstəkləyən bir anlamdır.

*Elm və Təhsildə Müasir Tələblər* **XIX Tezislər Toplusu/ 19 aprel / 178-183**
*Modern Requirements in Science and Education* **XIX Theses Collection/ 19 april / 178-183**
**https://doi.org/10.36719/2789-6919/XIX/TT/ET/2026**

**Təranə Zaidova**
Lənkəran Dövlət Universiteti
magistrant
https://orcid.org/0009-0009-4369-582X
zaidovaterane0@gmail.com

# Azərbaycan rəngkarlığında natürmort janrının təşəkkülü

***Açar sözlər:*** *natürmort, Azərbaycan rəngkarlığı, milli bədii ənənə, realist məktəb, kompozisiya, dekorativlik*
***Keywords:*** *still life, Azerbaijani painting, national artistic tradition, realist school, composition, decorativeness*

Azərbaycan rəngkarlığında natürmort janrının təşəkkülü milli təsviri sənətin inkişaf prosesində formalaşan estetik və bədii axtarışların nəticəsi kimi meydana çıxmışdır və XIX əsrin sonu – XX əsrin əvvəllərində peşəkar rəssamlıq məktəbinin yaranması ilə sistemli şəkildə inkişaf etməyə başlamışdır. Bu dövrədək məişət səhnələrinin, dekorativ təsvirlərin və ornamenttal üslubun üstünlük təşkil etdiyi rəsm ənənəsində predmetlərin gerçək görünüşünü, işıq-kölgə münasibətlərini və rəng harmoniyasını müstəqil kompozisiya obyekti kimi təqdim etmək geniş yayılmamışdı. "Natürmortun təşəkkülündə Avropa realist məktəbinin, xüsusilə rus rəngkarlığının təsiri mühüm rol oynamış, akademik təhsil alan azərbaycanlı rəssamların sənətə gətirdiyi texniki yeniliklər bu janrın formalaşmasını sürətləndirmişdir. Predmetlərin quruluşunun, fakturasının və rəng çalarlarının incə müşahidə ilə təsviri rəssamları kompozisiyanın daxili harmoniyasını araşdırmağa, forma və məkan əlaqələrini daha obyektiv təqdim etməyə vadar etmişdir. XX əsrdə klassik realist meyillərlə yanaşı, milli ənənələrdən, Şərq miniatür üslubundan və dekorativ koloritdən qaynaqlanan ifadə vasitə-

**https://doi.org/10.36719/2789-6919/XIX/TT/ET/2026**

lərinin natürmorta gətirilməsi janrı Azərbaycan rəngkarlığında fərdi və özünəməxsus estetik istiqamətə çevirmişdir." Alma, nar, çörək, mis qablar, xalça və milli ornamentlər kimi məişət predmetlərinin təsviri təkcə vizual təsir yaratmaqla kifayətlənməmiş, həm də xalqın həyat tərzini, mədəni yaddaşını və mənəvi simvollarını əks etdirmişdir. Natürmort janrının inkişafı rəssamların müşahidə qabiliyyətini, rəng duyumunu və kompozisiya düşüncəsini daha da təkmilləşdirmiş, təsviri sənətdə realist təsvir mədəniyyətinin formalaşmasına təsir göstərmişdir. Beləliklə, Azərbaycan rəngkarlığında natürmort janrının təşəkkülü təkcə estetik kateqoriya deyil, həm də milli bədii ənənələrin, gerçəklik duyumunun və peşəkar rəssamlıq məktəbinin inkişaf tarixinin mühüm mərhələsidir.

Natürmort janrının Azərbaycan rəngkarlığında inkişaf edən növbəti mərhələsi sovet dövrünün təsviri sənət mühitində formalaşan yeni bədii-tədris prinsipləri ilə bağlıdır. Bu dövrdə rəssamlıq məktəblərində kompozisiya, rəng nəzəriyyəsi və işıq-kölgə qanunauyğunluqları akademik əsaslarla tədris edildiyindən, natürmort həm tədris prosesinin əsas növlərindən birinə çevrilmiş, həm də rəssamların fərdi üslub axtarışları üçün əlverişli yaradıcılıq sahəsi olmuşdur. Natürmort bu mərhələdə yalnız predmetlərin təsviri deyil, həm də rəng münasibətlərinin, kütləvi həcm təsirinin və dekorativ-ritmik quruluşun öyrənilməsi üçün tamhüquqlu laboratoriya funksiyasını yerinə yetirmişdir. Rəssamlar predmetləri məkan daxilində daha dəqiq yerləşdirməyə, onların materiyasını, səth fakturasını və işığın onlara təsirini incəliklə müşahidə etməyə çalışmış, nəticədə janr həm texniki, həm də ifadə baxımından xeyli zənginləşmişdir.

Müasir təhsil kurikulumunda əsas prioritetlərdən biri şagirdlərdə yalnız biliklərin deyil, eyni zamanda, kompetensiyaların formalaşdırılmasıdır. Bu baxımdan Azərbaycan rəngkarlığında natürmort janrının öyrədilməsi təsviri incəsənət fənnində funksional və tətbiqyönümlü təlim imkanları yaradır. Natürmort janrı

şagirdlərin müşahidə aparmaq, müqayisə etmək, analiz etmək və nəticə çıxarmaq bacarıqlarını inkişaf etdirməklə onların idrak fəaliyyətini fəallaşdırır. Natürmort janrının tədrisi inteqrativ yanaşma üçün də geniş imkanlar açır. Kurikulum tələblərinə uyğun olaraq bu janr riyaziyyat (forma, ölçü, nisbət), həyat bilgisi (əşyaların gündəlik istifadəsi), tarix (milli məişət əşyalarının mənşəyi) və Azərbaycan dili (təsvir, şərh, fikrin ifadəsi) fənləri ilə əlaqələndirilə bilər. Belə inteqrasiya şagirdlərdə fənlərarası əlaqələrin dərk olunmasına və öyrənilən biliklərin real həyatla əlaqələndirilməsinə şərait yaradır.

Natürmort janrında milli materialların geniş tətbiqi onun ideya-məzmun palitrasını daha da artırmışdır. Xalça üslubunun ritmik strukturu, Şərq ornamentikasının rəng simvolları, ənənəvi məişət əşyalarının forması və rəng çalarları kompozisiyanın estetik mahiyyətinə yeni nəfəs gətirmişdir. Predmetlərin sadəcə təsvir olunması yox, onların milli-mədəni kod daşıyıcısı kimi təqdim edilməsi natürmortu Azərbaycan rəngkarlığında ideya baxımından daha dərin bir janra çevirmişdir. Bu yanaşma xüsusilə XX əsrin ikinci yarısında güclənmiş, rəssamların fərdi baxış bucaqları və koloristik interpretasiyaları janrın sərhədlərini genişləndirmişdir. Müxtəlif üslubların – realist, dekorativ, ekspressiv və modernist ifadə vasitələrinin sintez edilməsi nəticəsində natürmort Azərbaycan bədii düşüncəsinin çoxşaxəli inkişafını əks etdirən janr kimi qəbul edilmişdir.

Müasir mərhələdə natürmort rəssamların öz daxili müşahidələrini, vizual təcrübələrini və kompozisiya duyumlarını ifadə etmələrinin universal vasitəsinə çevrilmişdir. Rəssamlar həm ənənəvi predmetlərdən istifadə edir, həm də müasir həyat tərzini əks etdirən obyektləri kompozisiyaya daxil etməklə janrın semantik çərçivəsini genişləndirirlər. Fotorealist yanaşmalar, tekstural eksperimentlər, rəqəmsal estetika elementləri və qarışıq texnikadan istifadə natürmortu yeni, postmodern mənəvi məkanın ifadə vasitəsinə çevirir. Bu proses janrın zamandan

*Elm və Təhsildə Müasir Tələblər* **XIX Tezislər Toplusu/ 19 aprel / 178-183**
*Modern Requirements in Science and Education* **XIX Theses Collection/ 19 april / 178-183**
**https://doi.org/10.36719/2789-6919/XIX/TT/ET/2026**

asılı olmayaraq öz aktuallığını qoruduğunu və həm milli, həm də qlobal təsviri sənət ənənələri ilə əlaqəli şəkildə inkişaf etdiyini göstərir. Beləliklə, Azərbaycan rəngkarlığında natürmort janrının inkişafı təkcə sənət tarixinin mərhələləri ilə deyil, həm də bədii təfəkkürün dəyişməsi, estetik baxışların yenilənməsi və rəssamların yaradıcı azadlığının artması ilə bağlıdır.

Müasir kurikulumda təlim prosesinin əsas tərkib hissələrindən biri qiymətləndirmə və refleksiyadır. Bu baxımdan Azərbaycan rəngkarlığında natürmort janrının öyrədilməsi şagird nailiyyətlərinin ölçülməsi və inkişaf dinamikasının izlənməsi üçün əlverişli imkanlar yaradır. Natürmort janrı üzrə yerinə yetirilən praktik işlər şagirdlərin yalnız texniki bacarıqlarını deyil, həm də estetik düşünmə, yaradıcı yanaşma və fərdi ifadə qabiliyyətlərini qiymətləndirməyə şərait yaradır. Kurikulum tələblərinə uyğun olaraq qiymətləndirmə formativ xarakter daşıyır. Şagirdlərin işləri proses ərzində müşahidə edilir, müəllim tərəfindən şifahi rəy verilir və şagirdlərin özünüqiymətləndirmə bacarıqları formalaşdırılır. Natürmort janrında bu yanaşma xüsusilə effektivdir, çünki şagirdlər çəkdikləri əsərlər üzərində düşünür, çatışmazlıqları müəyyən edir və növbəti mərhələdə daha məqsədyönlü fəaliyyət göstərirlər. Bu isə reflektiv düşünmənin inkişafına səbəb olur. Natürmort janrının tədrisi nəticəyönümlü təlimin reallaşdırılmasına xidmət edir. Kurikulumda nəzərdə tutulan təlim nəticələri – əşyanın formasını düzgün təsvir etmə, rəng uyğunluğunu qoruma, kompozisiya qurmaq və yaradıcı yanaşma nümayiş etdirmək – praktik fəaliyyətlər vasitəsilə əldə edilir. Şagirdin ortaya qoyduğu bədii məhsul onun əldə etdiyi bilik və bacarıqların konkret göstəricisinə çevrilir. Azərbaycan rəngkarlığında natürmort janrının təşəkkülü və tədrisi kurikulum çərçivəsində qiymətləndirmə və refleksiya mexanizmlərinin tətbiqi üçün səmərəli vasitədir. Bu yanaşma şagirdlərin öz inkişafına məsuliyyətlə yanaşmasını

təmin edir və onların bədii-estetik potensialının davamlı şəkildə formalaşmasına şərait yaradır.

Müasir təhsil kurikulumu hər bir şagirdin fərdi xüsusiyyətlərini və öyrənmə imkanlarını nəzərə alan inklüziv yanaşmanı əsas prinsip kimi müəyyənləşdirir. Azərbaycan rəngkarlığında natürmort janrının tədrisi müxtəlif qabiliyyət və ehtiyaclara malik şagirdlərin təlim prosesinə fəal şəkildə cəlb olunmasına imkan yaradır. Natürmort janrı vizual və praktik xarakter daşıdığı üçün öyrənmədə çətinlik çəkən, eləcə də xüsusi təhsil ehtiyacları olan şagirdlər üçün əlçatan və motivasiyaedici vasitə kimi çıxış edir. Kurikulum çərçivəsində natürmort mövzularının tədrisi zamanı diferensial tapşırıqların verilməsi mümkündür. Məsələn, bəzi şagirdlər əşyaların sadə formalarını təsvir etdiyi halda, digərləri daha mürəkkəb kompozisiyalar qurur. Bu yanaşma şagirdlər arasında bərabər imkanlar yaradır və hər birinin fərdi inkişaf tempinə uyğun təlim nəticələrinin əldə edilməsini təmin edir. Müəllimin dəstəkləyici rolu şagirdlərdə özünəinam hissini gücləndirir. Natürmort janrının tədrisi emosional və sosial inkişafı da stimullaşdırır. Qrup şəklində aparılan yaradıcı fəaliyyətlər zamanı şagirdlər bir-birinin işinə hörmətlə yanaşmağı, rəy bildirməyi və əməkdaşlıq etməyi öyrənirlər. Kurikulumun tərbiyəedici məqsədləri bu cür fəaliyyətlər vasitəsilə reallaşdırılır və sinifdə müsbət psixoloji mühit formalaşır. Azərbaycan rəngkarlığında natürmort janrının təşəkkülü və tədrisi inklüziv kurikulumun tələblərinə cavab verən, hər bir şagirdin fərdi və yaradıcı potensialını üzə çıxaran mühüm pedaqoji vasitə kimi qiymətləndirilir.

"Azərbaycan rəngkarlığında natürmort janrının təşəkkülü milli kimliyin bədii ifadə formalarından biri kimi çıxış edir. Bu janrda təsvir olunan əşyalar – milli qablar, xalçalar, məişət predmetləri, yerli meyvə və bitkilər – xalqın həyat tərzini, dünyagörüşünü və estetik zövqünü əks etdirir. Kurikulum çərçivəsində bu cür əsərlərin öyrədilməsi şagirdlərdə milli-

**https://doi.org/10.36719/2789-6919/XIX/TT/ET/2026**

mənəvi dəyərlərin dərk olunmasına və mədəni irsə hörmət hissinin formalaşmasına xidmət edir. Müasir kurikulumda vətəndaşlıq tərbiyəsi əsas istiqamətlərdən biri hesab olunur. Natürmort janrının tədrisi zamanı Azərbaycan rəssamlarının əsərlərinə istinad edilməsi şagirdlərin milli sənət nümunələrini tanımasına, öz mədəniyyətinə mənsubiyyət hissini gücləndirməsinə imkan yaradır. Bu prosesdə şagirdlər bədii irsi yalnız vizual obyekt kimi deyil, həm də tarixi və mədəni yaddaş daşıyıcısı kimi qəbul edirlər. Natürmort janrı mədəni irsin nəsildən-nəslə ötürülməsi baxımından da əhəmiyyətlidir. Kurikulumun tələb etdiyi layihə və yaradıcı tapşırıqlar vasitəsilə şagirdlər ailə mühitindən tanıdıqları əşyaları təsvir edir, onların mənşəyi haqqında araşdırma aparır və nəticələri təqdim edirlər. Bu isə məktəb–ailə–cəmiyyət əlaqələrinin möhkəmlənməsinə şərait yaradır. Azərbaycan rəngkarlığında natürmort janrının təşəkkülü kurikulum kontekstində milli kimliyin qorunması, mədəni irsin ötürülməsi və şagirdlərdə vətəndaşlıq şüurunun formalaşdırılması baxımından mühüm pedaqoji məzmun daşıyır.

*Elm və Təhsildə Müasir Tələblər* **XIX Tezislər Toplusu/ 19 aprel / 184-187**
***Modern Requirements in Science and Education*** **XIX Theses Collection/ 19 april / 184-187**
**https://doi.org/10.36719/2789-6919/XIX/TT/ET/2026**

**Şəbnəm Həşimli**
Bakı Slavyan Universiteti
magistrant
https://orcid.org/0009-0006-4448-9663
sebnemhesimli@gmail.com

# Əsas nitq hissələri və onların sintaktik funksiyalarının tədrisi

***Açar söz:*** *nitq hissələri, əsas nitq hissələri, cümlə üzvləri, morfoloji vahidlər, sintaktik funksiyalar*
***Keywords:*** *parts of speech, main parts of speech, sentence elements, morphological units, syntactic functions*

Azərbaycan dili tədrisində qrammatik anlayışların düzgün mənimsədilməsi şagirdlərin nitq bacarıqlarının formalaşmasında mühüm rol oynayır. Bu baxımdan nitq hissələri ilə cümlə üzvləri arasındakı əlaqənin öyrədilməsi xüsusi əhəmiyyət kəsb edir. Şagirdlər çox vaxt nitq hissələri ilə cümlə üzvlərini eyniləşdirir, bu isə onların sintaktik təhlil bacarıqlarına mənfi təsir göstərir.

Nitq hissələri deyən zaman həm əsas, həm də köməkçi nitq hissələri nəzərdə tutulur. Buna görə də nitq hissələri ilə cümlə üzvlərinin qarşılıqlı əlaqəsi mövzusunda danışan zaman əsas nitq hissələri termini özəlliklə vurğulanmalıdır.

Azərbaycan dilçiliyində nitq hissələrinin təsnifi məsələsi həmişə diqqət mərkəzində olmuşdur. M.Şirəliyev, M.Hüseynzadə, S.Cəfərov, F.Zeynalov, A.Qurbanov, A.Axundov, B.Əhmədov, A.Ələkbərov, C.Cəfərov və başqaları nitq hissələrinin təsnifi ilə bağlı fikirlərini söyləmişlər.

Əvvəllər fərqli bölgülər olsa da, hal-hazırda nitq hissələri əsas və köməkçi nitq hissələri olaraq iki qrupa ayrılır. Əsas nitq hissələrinə isim, sifət, say, əvəzlik, feil və zərf daxildir. Bu nitq

**https://doi.org/10.36719/2789-6919/XIX/TT/ET/2026**

hissələrinin hər biri müstəqil işlənir, mənaya malik olur, suala cavab verir və cümlə üzvü vəzifəsini yerinə yetirir. Bu qaydaları nümunələrlə şagirdlərə izah edirik.

Nitq hissələrinin təlim məqsədi ilə bölgü prinsipində leksik məna, morfoloji əlamət və sintaktik zəminə əsaslanmaq mühüm məntiqi kriteriya olaraq metodikanın da yolunu işıqlandırır. Belə ki, Azərbaycan dilindən təlimin məzmununda nitq hissələrinin cümlədə rolu və ya morfoloji təhlili, habelə sintaksisin tədrisi məzmununda cümlə üzvlərinin nitq hissələri ilə ifadə vasitələri, söz birləşmələri və sadə cümlənin təhlili kimi mövzular həmin prinsipləri reallaşdırmaq məqsədi ilə nəzərdə tutulur.

Nitq hissələri sözlərin leksik-qrammatik xüsusiyyətlərini ifadə etdiyi halda, cümlə üzvləri həmin sözlərin cümlə daxilindəki funksiyasını müəyyən edir. Məsələn, isim müxtəlif cümlə üzvü kimi çıxış edə bilər: mübtəda, tamamlıq və ya xəbər. Eyni zamanda, sifət əksər hallarda təyin rolunda çıxış etsə də, bəzi hallarda xəbərin tərkib hissəsi ola bilər. Bu fərqlərin şagirdlərə düzgün çatdırılması mühüm metodik vəzifədir.

İsimlərdən nümunə göstərsək, kitab ismini yazı lövhəsində yazırıq: Kitab sözünün leksik mənası: Üzərində hər hansı bir mətn olan vərəqlərin bir araya gətirilərək tikilib cildlənmiş nəşriyyat növüdür. Kitab sözünün qrammatik mənası: onun nitq hisəsi kimi isim olmağı, konkret və mücərrəd, ümumi və xüsusi, tək və ya cəm və s. olmağı kimi xüsusiyyətləri nəzərə alınır. Həmin sözün sintaktik vəzifəsi əsasən mübtəda olsa belə, cümlədəki mövqeyinə görə xəbər, tamamlıq, təyin və zərflik ola bilir. Bu mövzunun tədrisində müqayisə üsulundan istifadə effektiv nəticə verir. Müəllim eyni sözün müxtəlif cümlələrdə fərqli sintaktik funksiyalar daşıdığını nümunələrlə göstərməlidir. Bu üsul mövzunu şagirdlərə daha aydın və asan edir.

Kitab intellektual inkişafda mühüm rol oynayan əsas mənbədir.

*Elm və Təhsildə Müasir Tələblər* **XIX Tezislər Toplusu/ 19 aprel / 184-187**
***Modern Requirements in Science and Education*** **XIX Theses Collection/ 19 april / 184-187**
**https://doi.org/10.36719/2789-6919/XIX/TT/ET/2026**

Mən bu kitabı diqqətlə təhlil etdim.

Birinci cümlədə kitab sözü mübtəda, ikinci cümlədə isə tamamlıq vəzifəsindədir.

Sintaktik vəzifəsinə görə də spesifik səciyyə daşıyan sifətlərin əsas sintaktik vəzifəsi təyindir. Sifətlər əşya adı bildirən sözlərlə yanaşma əlaqəsində olub təyin vəzifəsində işlənir. Bu qayda şagirdlərə aydın olsun deyə, nümunəni yazı lövhəsində yazırıq. Məs; Mədəniyyət evinin işıqlı və böyük zalı adamla qaynaşırdı (M.İbrahimov).

Sifət xəbər vəzifəsində də işlənir. Bu zaman sifətlərdə bir növ gizli substantivləşmə baş verir. Sifət aid olduğu isimlə öz sintaktik yerini, vəzifəsini dəyişmiş olur; məs.:

Bülbülüm, köksünün altı sarıdır,

Gözəldir səndəki bu söz, bu sənət,

Daha sonra şagirdlərə bildiririk ki, sarıdır və gözəldir sifətləri xəbərlik şəkilçisi qəbul edərək xəbər vəzifəsindədir.

Sifətin cümlədə mübtəda və ya tamamlıq vəzifəsində işlənə bilməsi də onun substantivləşmə keyfiyyəti ilə bağlıdır. Mübtəda əşya bildirən, hallana bilən və adlıq halda olan sözlərlə ifadə olunur. Sifət bu keyfiyyətləri qazanaraq, yəni substantivləşərək adlıq halda işlənə bilməklə mübtəda vəzifəsində çıxış edə bilir. Eləcə də tamamlıq vəzifəsində işlənmək üçün substantivləşərək hallana bilməli, idarə olunma keyfiyyəti qazanmalıdır. Həqiqətdə də sifətlər yalnız bu yolla mübtəda və tamamlıq vəzifələrində işlənə bilir. Məsələn:

-Ölkənizdə açılıbdırmı qiraətxanə?

-Tazələr açmış idi, qoyduq onu viranə. (M.Ə.Sabir).

Eyni formada cümlə üzvlərini də tədris edən zaman nitq hissələri mövzusuna mütləq toxunulur. Məsələn: təyinin tədrisi zamanı şagirdlərə bildiririk ki, təyin nitq hissələrindən sifət, say, isim, feli sifət və bəzi əvəzliklərlə ifadə olunur.

Sifətin cümlədə təhkim olunduğu sintaktik vəzifə təyin olduğundan, hər cür quruluş və dərəcə xüsusiyyətinə malik olan

**https://doi.org/10.36719/2789-6919/XIX/TT/ET/2026**

sifətlər təyin ola bilir. Məsələn, Bədbəxt cavan hündür çinar ağacının dibində məhzun və qəmgin oturub, bahar buludu kimi göz yaşlarını axıdırdı (C.Cabbarlı).

Feli sifət və feli sifət tərkibləri də sifətə bənzədiyindən cümlədə təyin vəzifəsində çox işlənir. Məsələn, İslanmış corabını talvarın üstünə tulladı (1.Şıxlı) Ata-babadan qalan yurdumuzu düşmən əlindən qurtar (N.Nərimanov).

Saylar da cümlədə təyin yerində işlənir və aid olduğu üzvü miqdar və sıra cəhətdən izah edir. Məsələn, Beş qız anasıyam, ikinci qızı köçürmüşəm (İ.Şıxlı).

İşarə və təyini əvəzliklər, bəzi sual əvəzlikləri də təyin olur: Elə kişidən nə desən çıxar (İ.Şıxlı). Bu yaxşılığın əvəzini mən verə bilməsəm də, xaliq verər (İ.Şıxlı).

Hətta isimlər də atributivləşdikdə cümlədə təyin olur və aid olduğu üzvü material, cins, milli mənsubluq və s. baxımdan izah edir. Məsələn, Gəmiçi Qocanın beli lap əyilmişdi.

Bu nümunələrin sayını hər bir cümlə üzvini tədris edən zaman artıra bilərik. Bundan əlavə, sxem və cədvəllərdən istifadə şagirdlərin mövzunu daha yaxşı mənimsəməsinə kömək edir. Nitq hissələri ilə cümlə üzvlərinin fərqli xüsusiyyətlərini vizual şəkildə təqdim etmək onların yadda qalmasını asanlaşdırır. Praktik tapşırıqların verilməsi, xüsusilə cümlə təhlili və sözlərin funksiyasını müəyyənləşdirmə kimi çalışmalar bu biliklərin möhkəmləndirilməsində mühüm rol oynayır.

*Elm və Təhsildə Müasir Tələblər* **XIX Tezislər Toplusu/ 19 aprel / 188-192**
***Modern Requirements in Science and Education*** **XIX Theses Collection/ 19 april / 188-192**
**https://doi.org/10.36719/2789-6919/XIX/TT/ET/2026**

**Vəfa Həbibzadə**
Lənkəran Dövlət Universiteti
magistrant
https://orcid.org/0009-0003-9945-4204
vafahabibzade@gmail.com

# Müasir ingilis dilində çoxmənalı sözlərin tədrisi

***Açar sözlər:*** *çoxmənalılıq, semantika, kontekst, linqvistik, kommunikativ*

***Keywords:*** *polysemy, semantics, context, linguistic, communicative*

Müasir dilçiliyin sürətli inkişafı semantik hadisələrə, xüsusən də leksik sistemlərin ən mürəkkəb və məhsuldar xüsusiyyətlərindən birini təmsil edən polisemiyaya marağın artmasına səbəb olmuşdur.  Vahid leksik vahidin çoxlu əlaqəli mənalara malik olması kimi müəyyən edilən çoxmənalılıq lüğətin təşkilində və dilin fəaliyyətində həlledici rol oynayır. Müasir ingilis dilində polisemiya leksik zənginliyin əhəmiyyətli hissəsini təşkil edir və kommunikativ çevikliyə kömək edir.

Bu mövzunun aktuallığı ondan ibarətdir ki, ingilis dilində uğurlu ünsiyyət əsasən dil istifadəçilərinin müxtəlif kommunikativ situasiyalarda çoxmənalı sözləri düzgün şərh etmək və işlətmək bacarığından asılıdır.  Dil öyrənənlər, xüsusən də ingilis dilini xarici dil kimi öyrənənlər üçün çoxmənalı lüğətin tanınması və istifadəsi ilə bağlı bacarıqların inkişafı kommunikativ səriştənin mühüm aspektini təşkil edir.

Bu tezisin məqsədi çoxmənalılığın linqvistik mahiyyətini araşdırmaq və müasir ingilis nitqində çoxmənalı sözləri başa düşmək və istifadə etmək bacarıqlarını inkişaf etdirmək üçün effektiv metodları təhlil etməkdir.Buna görə də polisemiyanı müxtəlif aspektlərdə müəyyən etmək lazım gəlir: 1. polisemiya

anlayışını linqvistik baxımdan müəyyən etmək; 2. müasir ingilis dilində polisemiyanın rolunu təhlil etmək; 3. çoxmənalı sözlərlə işləyərkən öyrənənlərin qarşılaşdıqları əsas çətinlikləri müəyyən etmək; 4. çoxmənalı sözlərin inkişafı üçün effektiv pedaqoji strategiyaları təsvir etmək; 5. mənaların diferensiallaşdırılmasında kontekstin rolunu araşdırmaq.

Polisemiya, leksik semantika və koqnitiv dilçilikdə əsas anlayışlardan biridir və tək bir leksik vahidin birdən çox əlaqəli mənaya malik olma qabiliyyətinə aiddir. Termin yunanca poly (çox) və sema (məna) sözlərindən əmələ gəlir və ilk dəfə müasir semantikanın banilərindən biri hesab olunan fransız dilçisi Michel Breal tərəfindən dil nəzəriyyəsinə sistematik şəkildə daxil edilmişdir.

1. Linqvistik baxımdan, polisemiya dilin dinamik təbiətini və leksik sistemin qənaət prinsipini əks etdirir. Dillər lazımsız leksik çoxalmadan qaçmağa meylli olduğundan, mövcud sözlər tez-tez yeni anlayışları ifadə etmək üçün mənalarını genişləndirir. Bu proses danışanlara kifayət qədər fikir ifadə etmək üçün məhdud sayda leksik elementdən istifadə etməyə imkan verir və beləliklə, ünsiyyət səmərəliliyini artırır.

Müasir semantik nəzəriyyəyə görə, çoxmənalı söz ilkin (mərkəzi) məna və ikinci dərəcəli (törəmə) mənalardan ibarət semantik strukturdan ibarətdir. İlkin məna adətən tarixən ən erkən və ya ən hərfi mənadır, ikinci dərəcəli mənalar isə əsas mənadan törənən mənalardır.

2. Müasir ingilis dilində polisemiyanın rolunun üç əsas aspektə bölürük: I. Polisemiyanın koqnitiv rolu. Koqnitiv dilçilik baxımından polisemiya insan zehnində biliyin necə qurulduğunu əks etdirir. Corc Lakoffa görə, polisemiya konseptual metafora və prototip nəzəriyyəsi ilə təşkil olunur. O, söz mənalarının mərkəzi ətrafında təşkil olunduğunu və digər mənaların koqnitiv assosiasiyalar vasitəsilə inkişaf etdiyini iddia edir. II. Kommunikativ və Kontekstual Funksiya. Polisemiya

ünsiyyətdə mühüm rol oynayır, çünki natiqlərə bir leksik formada və birdən çox kontekstdə istifadə etməyə imkan verir. Con Layonsa görə, kontekst polisemantik sözləri ayırd etmək üçün əsas mexanizm kimi xidmət edir. O, polisemiyanın yaratdığı qeyri-müəyyənliyin nadir hallarda real ünsiyyət problemləri yaratdığını vurğuladı,çünki kontekst imkan verir ki,sözün hansı mənada istifadə edildiyini müəyyən etsin. III. Semantik Dəyişiklikdə və Dil İnkişafında Rolu. Leonard Bloomfield görə, semantik dəyişiklik çox vaxt kontekstual şəkildə başlayır və sonradan bir sözün ayrı mənaları kimi müəyyənləşir.

3. Polisemantik sözlərlə (birdən çox əlaqəli mənaya malik sözlər) işləyərkən öyrənənlərin qarşılaşdıqları əsas çətinliklərin müəyyən edilməsi leksikologiya, tətbiqi dilçilik və ikinci dil öyrənməsində vacib bir mövzudur. Əsasən kontekstdə uyğun mənanı seçməkdə çətinlik çəkilir. Dil öyrənənlərin üzləşdiyi əsas problemlərdən biri kontekstdən asılı olaraq polisemantik sözün düzgün mənasını seçməkdir. Polisemantik sözlər bir neçə əlaqəli məna ehtiva etdiyindən, öyrənənlər tez-tez ən çox rast gəlinən və ya ilkin mənaya güvənirlər və kontekstual variantı nəzərə almırlar. Bu mürəkkəblik,lüğət dərinliyi məhdud olduqda öyrənənlərin mənaları səhv şərh etməsinə səbəb olur.

Eynilə, Paul Nation iddia edir ki, lüğət bilikləri yalnız bir sözün formasını bilməklə yanaşı, həm də onun çoxmənalarını və kontekstual məhdudiyyətlərini anlamağı da əhatə edir. O, vurğulayır ki, öyrənənlər tez-tez səthi lüğət biliklərinə malikdirlər, lakin çoxmənalılığı da əhatə edən lüğət biliklərinin dərinliyindən məhrumdurlar.

Digər bir çətinlik, öyrənənin ana dilindən müdaxilədir. Tələbələr tez-tez bir sözün, ana dillərində olduğu kimi, bir mənaya uyğun gəldiyini düşünürlər.

Semantikada çoxmənalılıq anlayışını ilk dəfə təqdim edən M.Breal məna inkişafının tədricən formalaşdığını vurğuladı.

**https://doi.org/10.36719/2789-6919/XIX/TT/ET/2026**

Buna görə də, mənalar nadir hallarda dillər arasında tam uyğun gəlir.

Koqnitiv dilçilikdə Geeraets tərəfindən aparılan tədqiqatlar da göstərir ki, öyrənənlər dillər arasında olan fərqdən çətinlik çəkirlər. Bəzən bu öyrənənlərin koqnitiv vəziyyətindən asılı olur.Çünki,koqnitiv vəziyyət birbaşa öyrənənin qavrama qabiliyyəti ilə əlaqədar olur.Və qavrama hər öyrənəndə eyni şəkildə təzahür etmir.Bir öyrənən anında qavradığı halda digəri isə təkrara ehtiyac duyur və yaxud yenidən bir izah vacib olur.

Psixolinqvistik baxımdan, polisemiya koqnitiv emal tələblərini artırır, çünki tələbələr tək mənalar əvəzinə iki və daha artıq mənanı qavramalıdırlar. Jean Aitchison izah edir ki, lüğət öyrənmə zehnidir.Yəni lüğət əzbər edilməməli öncə məna dərk edilməli daha sonra öyrənilməlidir.

Metaforik və mücərrəd mənalarla bağlı problemlər də müəyyən qədər koqnitiv vəziyyət ilə bağlı olur. Öyrənənlər, adətən, əvvəlcə konkret mənalar əldə edir və məcazi və ya metaforik mənalarla mübarizə aparırlar. Metafora mənanın genişləndirilməsində əsas rol oynayır. Lakin, metaforik düşüncə mədəni cəhətdən təsirlənir və bu da ikinci dil öyrənənlərin semantik genişləndirmələri anlamasını çətinləşdirir.

Belə problemlərin əsas səbəbi isə məhdud məruz qalmadır. Tədqiqatlar göstərir ki, öyrənənlər birdən çox mənanı yavaş-yavaş əldə edirlər, çünki daha az rast gəlinən mənalar giriş materiallarında nadir hallarda görünür.

Nation bildirir ki, əvvəlcə ən tez-tez rast gəlinən məna,sonrakı mənalar yalnız təkrar məruz qalma yolu ilə öyrənilməlidir. Kifayət qədər məruz qalma olmadan öyrənənlər qismən leksik bacarıq inkişaf etdirirlər.

4. Pedoqoji baxımdan çoxmənalı sözlərin tədrisi müəyyən strategiyalara dayanır.Bu strategiyalar tədris edilən sözlərin düzgün şəkildə öyrənənlərə çatdırmasına kömək edən ən önəmli amil sayılır.

*Elm və Təhsildə Müasir Tələblər* **XIX Tezislər Toplusu/ 19 aprel / 188-192**
*Modern Requirements in Science and Education* **XIX Theses Collection/ 19 april / 188-192**
**https://doi.org/10.36719/2789-6919/XIX/TT/ET/2026**

Pedaqoji baxımdan bu o deməkdir ki, müəllimlər müxtəlif cümlələrdə və diskurs növlərində çoxmənalı sözləri təqdim etməlidirlər,süni nümunələr əvəzinə orijinal mətnlərdən istifadə etməlidirlər və kontekstual nəticə çıxarma strategiyalarını təşviq etməlidirlər.

5. Semantik nəzəriyyəyə görə, mənanın fərqləndirilməsi, danışanların və ya dinləyicilərin birdən çox əlaqəli mənaya malik olan bir sözün nəzərdə tutulan mənasını müəyyən etdiyi prosesə aiddir. Bu proses əsasən kontekstual, qrammatik və idrak amillərindən asılıdır. Məsələn, Stephen Ullmann izah edir ki, mənanın fərqləndirilməsi kontekst leksik vahidin bir neçə mümkün semantik variantından bir mənanı seçməyə kömək etdikdə baş verir.

Sadə dillə desək, mənanın fərqləndirilməsi deməkdir: Çoxmənalı sözün cümlədə hansı mənasının istifadə olunduğunu anlamaq.Bunun üçün də leksik və qrammatik kontekstə diqqət yetirmək kifayətdir.

*Elm və Təhsildə Müasir Tələblər* **XIX Tezislər Toplusu/ 19 aprel / 193-197**
***Modern Requirements in Science and Education*** **XIX Theses Collection/ 19 april / 193-197**
**https://doi.org/10.36719/2789-6919/XIX/TT/ET/2026**

**Aynur Müslümova**
Bakı Slavyan Universiteti
magistrant
https://orcid.org/0009-0004-4709-0426
aynurmuslumova91@gmail.com

# İrəvan təhsil tarixində Haşim bəy Nərimanovun rolu

***Açar sözlər:*** *Həşim bəy Nərimanbəyov, İrəvan məktəbləri, maarifçilik, inkişaf, təhsil*
***Keywords*****:** *Hashim bey Narimanbeyov, Yerevan schools, enlightenment, development, education*

Azərbaycan təhsil tarixində dərin iz qoymuş ziyalılardan biri olan Haşım bəy Nərimanbəyov milli oyanış və tərəqqi ideyaları ilə dövrünün görkəmli maarifçilərindən biri olmuşdur. Onun təhsil sahəsinə verdiyi töhfələr daim xalqın yaddaşında silinməz qalmış və dərin iz qoymuşdur. Onun fəaliyyəti təkcə həmin dövrün tələbatları ilə səsləşmir, eyni zamanda, növbəti nəsillər üçün əsl örnək rolunu oynamışdır. Məhz bu baxımdan onun həyat fəaliyyəti, baxışları, ictimai-siyasi düşüncələri cəmiyyətin inkişafı prosesində xüsusi əhəmiyyət kəsb etmişdir.

Firudin bəy Köçərliyə görə, Həşim bəy Nərimanbəyov türklərə xas olan bütün keyfiyyətləri özündə təcəssüm etdirir, uzun illər qazandığı bilik və təcrübəsini gənc nəslə verməkdən nəinki yorulmur, hətta bundan xüsusi zövq alırdı. Belə yüksək formada qiymətləndirilən bu şəxsiyyətin təhsil tariximizdəki önəmi nədir? Gəlin buna nəzər yetirək.

Həşim bəy Nərimanbəyov 1859-cu ildə qədim mədəniyyət beşiyimiz olan Şuşada dünyaya göz açmışdır. İlkin təhsilini mollaxanada aldıqdan sonra İrəvanın qədim təhsil ocaqlarından biri olan İrəvan gimnaziyasında təhsilinə davam etmişdi.

**https://doi.org/10.36719/2789-6919/XIX/TT/ET/2026**

İstedadlı gənc İrəvan müəllimlər seminariyasına qəbul olur və bu maarifçi təhsil ocağında dərin biliklər qazanır, geniş dünyagörüşlü və savadlı bir şəxsiyyət kimi formalaşır. Təhsil aldığı illərdə o, yalnız dərs oxumaqla kifayətlənməmiş, həm də öz üzərində davamlı şəkildə çalışmışdır. O, təhsilin cəmiyyət üçün nə qədər vacib olduğunu dərindən dərk edir və bu sahədə fəaliyyət göstərməyi özünə əsas hədəf seçir. Seminariyanı uğurla başa vurduqdan sonra isə o, bu elm ocağında qalaraq fədakar və qayğıkeş müəllim kimi fəaliyyət göstərməyə başlayır. Burada artıq onun həyatının əsas məqsədi formalaşır və gənclərə faydalı olmaq, onlara təhsil vermək, xalqı maarifləndirmək onun həyatının əsas qayəsinə çevrilir. Bununla yanaşı o, xalqını, millətini cəhalətdən qorumağa çalışırdı. Onun bu fəaliyyətini yüksək qiymətləndirən Firudin bəy Köçərlinin "Təlim-xeyr edənlərimizin cəzası" adlı məqaləsinə rast gəldim. Burada müəllif Həşim Nərimanbəyovu "cəmiyyətin çırağı" adlandırmışdı. Müəllifə görə o şəxsi müəllim adlandırmaq olar ki, ağlı, biliyi, zəhmətkeşliyi ilə yanaşı, həm də uşaqlara məhəbbət bəsləyən, onların qayğılarını öz qayğılarından öndə tutan şəxs olsun. Burada o, Nərimanbəyovdan söz açır və onu məktəbin canı kimi dəyərləndirirdi.

Həşim bəy Nərimanbəyov xalqı üçün dövrün çətinliklərinə baxmayaraq əlindən gələni etmiş və 1896-cı ildə İrəvanda rus-tatar, yəni Azərbaycan məktəbi açmışdı. Bu həmin dövr üçün çox böyük və çox dəyərli addım idi. Çünki xalqı cəhalətə salmaq istəyənləri bu cəhalətdən çıxarmaq lazım idi. Həşim bəy Nərimanbəyov bu vəzifəni öz öhdəsinə götürmüşdü. Açılan məktəb xalq tərəfindən böyük sevgiylə qarşılanır və ilk qəbuluna 70 nəfər nəzərdə tutulsa da, 110 nəfər şagird məktəbə üz tutmuşdu. Məktəbə gələnlərin çoxu kasıb ailənin övladları olduğu üçün onlardan ödəniş alınmırdı və öz hesabına onları təhsilə yiyələnməsinə səy göstərirdi. Bu, görkəmli maarifçimizin fədakar ruhunun və xalqın ona qarşı sevgisinin böyük göstəricisi idi.

**https://doi.org/10.36719/2789-6919/XIX/TT/ET/2026**

Məktəb açıldığı ilk gündən İrəvan ziyalıları məktəbə tez-tez köməkliklər edirdilər. Məsələn, şəhərin teatr həvəskarları var idi ki, onlar şəhərdə tamaşalar göstərir və bu tamaşalardan əldə etdikləri gəlirləri də rus-Azərbaycan məktəbinin nəfinə verirdilər. Hətta həmin illərdə Qacarların şahı Müzəffərəddin İrəvana gələn zaman Rus-Azərbaycan məktəbinin şagirdlərinə 300 manat ianə vermişdi.

Məktəbdə tədris planı hazırlanır və bu plana əsasən məktəbdə Azərbaycan, rus, fars, ərəb dilləri tədris olunmalı idi. "İrəvan quberniyasının 1906-cı il üçün yaddaş kitabçası"nda göstərilir ki, rus-tatar ibtidai məktəbinin himayəçisi Abbasqulu xan İrəvanski, müdiri Haşım bəy Nərimanbəyov, müəllimləri Həmid ağa Şahtaxtinski, Mustafa Rəcəbov, şəriət müəllimləri Məmməd Qazıyev və Mirzə Məmmədvəli Qəmərlinskidirlər. Həşim bəy Nərimanbəyov bu məktəbin təkcə müdiri deyil, eyni zamanda, burada oxuyan şagirdlərə elmin sirrlərini öyrədən bir pedaqoq idi. Onun pedaqaoji fəaliyyəti bununla məhdudlaşmırdı. O, eyni zamanda Ripsime gimnaziyasında da Azərbaycan dilini tədris etmiş, burada da gözəl miras qoyub getmişdir. Bununla yanaşı, o düşünürdü ki, yanlız uşaqlara təhsil vermək kifayət deyildir. Bunun üçün böyükləri də unutmamış və onun yaratdığı məktəbin nəzdində yaşlılar üçün axşam kursları təşkil etmiş və burada onlara rus dili, Azərbaycan dili, hesabdan dörd əməli dərsləri keçirilmişdir. Rus dili və hesabı o özü tədris etmiş, Azərbaycan dili dərslərini isə Mirzə Məmmədvəli Qəmərlinski keçmişdir. Bununla da gündüzlər çalışan fəhlə, sənətkar, tacirlər axşamlar dərsə yollanırdı. Dərslərdə o, şagirdlərə yalnız elmi biliklər vermir, milli-mənəvi dəyərlər də aşılayırdı. Vətəni sevməyi, onu qorumağı, düşmənə boyun əyməməyi, xalqın, vətənin mənafeyini öz mənafeyindən üstün tutmağı hər bir vətəndaşın borcu olduğunu deyirdi.

"İrəvan quberniyasının 1914-cü il yaddaş kitabçası"nda qeyd olunmuşdur ki, rus-tatar məktəbinin himayəçisi Abbasqulu

xan İrəvanski, müdiri Haşim bəy Nərimanbəyov, müəllimləri isə Mustafa Rəcəbov, Həmid ağa Şahtaxtinski, şəriət müəllimləri Məmməd Qazıyev və Mirzə Məmmədvəli Qəmərlinskidir. Mənbəyə əsasən göstərilən illərdə də rus-tatar məktəbinin rəhbərinin Haşim bəy Nərimanbəyov olduğunu deyə bilərik. Bununla yanaşı, dövrün məcmuəsi olan "Kavkazski Kalendar"da 1909-cu ildə rus-tatar məktəbinin müəllimi olduğu qeyd olunmuşdu.

Cəhalətə qarşı olan mübariz ziyalı şagirdlərin təhsilə yiyələnməsi üçün yanlız məktəb açmaqla kifayətlənməmişdir. Belə ki, fədakar müəllim şagirdlər üçün ana dili təhsilini önəmli saymışdır. Ana dilinin saflığının qorunması onun təhsil sahəsində əsas məqsədlərindən biri idi. Bununla yanaşı dərslərin asan və sadə dildə izah olunması, axıcı olması önəmli cəhətlərdən idi. Bunun üçün Azərbaycan məktəblərində tədris olunması üçün dövrün digər ziyalıları ilə birgə fəaliyyət göstərərək 1907-ci ildə "Ana dili" dərsliyi tərtib etmişdir. Bu kitab ilk dəfə İrəvanda çapa verilmiş, sonralar isə üç dəfə Tiflisdə çapdan çıxmışdır. Bu dərsliyin dili o qədər gözəl, sadə və asan idi ki, kəndlərdə insanlar müəllimsiz də bu kitabı oxuyaraq savada yiyələnə bilirdilər.

Görkəmli maarifçi xalqın rifahının yaxşılaşdırılması üçün təşkil olunmuş bir sıra cəmiyyətlərə, o cümlədən Müsəlman Xeyriyyə Cəmiyyətinə də üzv olmuşdu. Burada o, bir sıra yollarla xalqa kömək etməyə çalışırdı. Kasıb ailələrin övladlarına pulsuz təhsil verirdi. Eyni zamanda, teatr tamaşaları təşkil edirdi və buradan əldə etdiyi pulu kasıb ailələrə paylayır, onların ehtiyaclarını ödəyirdi. Bununla paralel teatrın inkişafına da töhfə verirdi. Dövrün qəzet və jurnallarında məqalələr çap etdirir və dövrün cəhalətini, xalqın vəziyyətini, məktəblərin olmamasını tənqid edirdi. Görkəmli ziyalı ömrünün bütün illərini xalqının inkişafına vermiş, xalq üçün görkəmli şəxsiyyətlər yetişdirmişdir. Məhz tərəqqipərvər mütəfəkkir olan Nəriman bəy

**https://doi.org/10.36719/2789-6919/XIX/TT/ET/2026**

Nərimanbəyov Haşim bəy Nərimanbəyovun övladıdır. Atasının fəaliyyətini layiqincə davam etdirən Nəriman bəy daim onun adını yüksəkdə tutmuşdur.

Beləliklə, Haşim Bəy Nərimanbəyovun həyat fəaliyyəti Azərbaycan tarixinin, o cümlədən təhsil tarixinin mühüm və ayrılmaz hissəsidir. Onun maariçilik ideya və görüşləri bu gün də öz aktuallığını qoruyub saxlamış, nümunə rolunu oynamışdır. Haşım bəy Nərimanbəyovun təhsilimiz üçün olan fəaliyyəti XIX əsrin sonu Azərbaycan maarifçilik hərəkatının ən parlaq sətirlərindən biridir. Onun İrəvanda açdığı məktəb, hazırladığı dərslik, minlərlə azərbaycanlı gəncin müasir dünyaya çıxış qapısı oldu. Nərimanbəyovlar nəslinin bu fədakar nümayəndəsinin xatirəsini yaşatmaq hər bir azərbaycanlının borcudur.

*Elm və Təhsildə Müasir Tələblər* **XIX Tezislər Toplusu/ 19 aprel / 198-200**
***Modern Requirements in Science and Education*** **XIX Theses Collection/ 19 april / 198-200**
**https://doi.org/10.36719/2789-6919/XIX/TT/ET/2026**

**Zümrüd Məmmədova**
Bakı Slavyan Universiteti
magistrant
https://orchid.org/0009-0003-7398-424X
zmrdmmmdv2020@gmail.com

# Ali təhsildə innovativ təlim texnologiyalarından istifadənin imkanları

***Açar sözlər:*** *innovativ təlim, ali təhsil, rəqəmsal texnologiyalar, qarışıq təlim, layihəəsaslı öyrənmə*
***Keywords:*** *innovative learning, higher education, digital technologies, blended learning, project-based learning*

Bu gün müasir ali təhsil müəssisəsinin qarşısında duran əsas vəzifələrdən biri ictimai və dövlət tələblərinin, təhsil prosesi iştirakçılarının tələbatının ödənilməsinə yönəlmiş təhsil innovasiyalarının axtarışı, yaradılması və həyata keçirilməsidir. İnnovativ təhsil müəssisəsi rəqabətə davamlı olur. Bu o deməkdir ki, universitet müxtəlif təhsil proqramlarını inteqrasiya etmək iqtidarındadır, təhsil xidmətlərini "ixrac etmək" qabiliyyətinə malikdir və bu xidmətlərə tələbat var, səriştəli kadrlarla təchiz olunub, korporativ təlim imkanlarını həyata keçirir. İnnovativ təhsil müəssisəsi liderdir. Bu xüsusiyyət universitetin ölkənin təhsil məkanında aparıcı mövqeyini, o cümlədən xarici tərəfdaşlarla güclü əlaqələrin mövcudluğunu ifadə edir.

XXI əsr informasiya cəmiyyəti dövrü kimi xarakterizə olunur. Texnologiyanın sürətli inkişafı təhsil sisteminə də birbaşa təsir göstərmişdir. Ali təhsildə ənənəvi mühazirə üsulu artıq tələbələrin müasir bacarıqlarını – tənqidi düşünmə, problemlərin həlli, yaradıcılıq və kommunikasiya qabiliyyətlərini – tam şəkildə formalaşdırmaq üçün kifayət etmir. Bu

**https://doi.org/10.36719/2789-6919/XIX/TT/ET/2026**

baxımdan innovativ təlim texnologiyalarının tətbiqi aktual məsələ kimi çıxış edir.

*Elektron təhsil (e-learning)* ali təhsildə geniş yayılmış innovativ yanaşmalardan biridir. Bu model çərçivəsində dərslər onlayn platformalar vasitəsilə keçirilir, rəqəmsal resurslardan istifadə olunur və tələbələrin müstəqil öyrənmə bacarıqları inkişaf etdirilir. *Moodle, Google Classroom və Microsoft Teams* kimi platformalar müəllim və tələbə arasında interaktiv əlaqə yaradır, tapşırıqların idarə olunmasını və qiymətləndirməni asanlaşdırır (Graham, 2006).

*Qarışıq (Hibrid) təlim* ənənəvi auditoriya dərsləri ilə onlayn təlimin sintezidir. Bu model tələbələrin həm üzbəüz, həm də məsafədən öyrənmə imkanlarını birləşdirir. Qarışıq təlim tələbələrin fərdi tempdə öyrənməsinə şərait yaradır və müəllimə fərdiləşdirilmiş yanaşma imkanı verir.

Hibrid (qarışıq) təlimin əsasını aşağıdakı prinsiplər təşkil edir: - Ardıcıllıq: hibrid təlimin hər bir forması üçün tədris materialı elementlərinin mənimsənilmə ardıcıllığının, tələbələrin müstəqil işi ilə auditoriya məşğələlərinin növbələşməsinin müəyyən edilməsi; - Əyanilik: klassik didaktika prinsipinin elektron təhsilin imkanları sayəsində biliklər bazasının əlçatanlığı ilə tamamlanması; - Praktik yönümlülük: peşəkar kompetensiyaların formalaşdırılması üçün zəruri olan əldə edilmiş biliklərin praktikada tətbiqinin mütləq şəkildə nəzərdə tutulması; - Kəsilməzlik: təlimin metodik və ardıcıl şəkildə təşkil edilməsi.

*Probleməsaslı öyrənmə (PBL) və layihəəsaslı öyrənmə* innovativ pedaqoji metodlar sırasındadır. Bu yanaşmalar tələbələri real həyat problemlərinin həllinə cəlb edir, onların analitik və tənqidi düşünmə bacarıqlarını inkişaf etdirir. Tələbələr yalnız nəzəri bilik əldə etmir, həm də praktik bacarıqlar qazanırlar. Ali təhsildə interaktiv alətlər motivasiyanı artırır və dərs prosesini daha dinamik edir. Məsələn, *Kahoot!* və *Quizlet* kimi platfor-

**https://doi.org/10.36719/2789-6919/XIX/TT/ET/2026**

malar vasitəsilə biliklərin yoxlanılması oyun formatında həyata keçirilir. Bu isə tələbələrin fəallığını yüksəldir və öyrənmə prosesini maraqlı edir.

Ali təhsildə innovativ təlim texnologiyalarının tətbiqi tədris prosesinin keyfiyyətinin yüksəldilməsinə, tələbələrin müasir bacarıqlarının formalaşdırılmasına və əmək bazarının tələblərinə uyğun kadr hazırlığına xidmət edir. Rəqəmsal platformalar, qarışıq təlim modeli və probleməsaslı yanaşmalar ali təhsilin rəqabətqabiliyyətliliyini artırır.

Beləliklə, innovativ təlim texnologiyalarının sistemli və məqsədyönlü tətbiqi ali təhsildə davamlı inkişafın əsas şərtlərindən biridir.

*Elm və Təhsildə Müasir Tələblər* **XIX Tezislər Toplusu/ 19 aprel / 201-203**
***Modern Requirements in Science and Education*** **XIX Theses Collection/ 19 april / 201-203**
**https://doi.org/10.36719/2789-6919/XIX/TT/ET/2026**

**Validəxanım Məmmədli**
Lənkəran Dövlət Universiteti
magistrant
https://orchid.org/0009-0005-0650-399X
validammmdli31@gmail.com

# İdarəetmədə şagirdlərin özünüqiymətləndirmə mexanizminin təşkili xüsusiyyətləri

***Açar sözlər:*** *təhsil, təlim, təhsilin keyfiyyəti, özünüqiymətləndirmə*

***Keywords:*** *education, training, quality of education, self-assessment*

Şagirdlərin özünüqiymətləndirmə mexanizminin idarəetmə prosesinə tətbiqi dövlət səviyyəsində təhsilin keyfiyyətinin yüksəldilməsi, vətəndaş məsuliyyətinin formalaşması və insan kapitalının inkişafı deməkdir. Müasir dövrdə təhsilin keyfiyyətinin artırılması həm milli, həm də beynəlxalq müstəvidə prioritet istiqamətlərdən biri hesab olunur. Özünüqiymətləndirmə prosesi şagirdlərin yalnız akademik biliklərini deyil, həm də fərdi inkişaf göstəricilərini dəyərləndirməyə şərait yaradır. Bu mexanizmin səmərəli tətbiqi həm yerli, həm də qlobal miqyasda ciddi faydalar vəd edir.

Özünüqiymətləndirmə şagirdlərin təlim prosesinə daha məsuliyyətli yanaşmasını təmin edir. Şagirdlərin qiymətləndirmə mərhələsində iştirakı təhsil mühitində şəffaflıq və demokratiya prinsiplərinin möhkəmlənməsinə yol açır. Dövlət bu mexanizm vasitəsilə təhsilin real keyfiyyət mənzərəsini izləyir, şagirdlər isə özünüqiymətləndirmə sayəsində öyrənmə prosesində daha açıq, tolerant və obyektiv olmağı mənimsəyirlər. Bu isə birbaşa qlobal vətəndaşlıq mədəniyyətinin formalaşmasına təsir göstərir. Eyni zamanda, bu mexanizmlərin tətbiqi ölkənin

*Elm və Təhsildə Müasir Tələblər* **XIX Tezislər Toplusu/ 19 aprel / 201-203**
*Modern Requirements in Science and Education* **XIX Theses Collection/ 19 april / 201-203**
**https://doi.org/10.36719/2789-6919/XIX/TT/ET/2026**

təhsil sistemini beynəlxalq standartlara yaxınlaşdıraraq qlobal inteqrasiyanı gücləndirir. Bundan əlavə, belə vərdişlərə sahib olan gənclər elm və innovasiya sahəsində daha fəal olur, qlobal tərəqqi üçün yeni ideyalar irəli sürürlər.

Beləliklə, idarəetmədə şagirdlərin özünüqiymətləndirmə mexanizminin təşkili təkcə milli təhsil siyasəti üçün deyil, beynəlxalq miqyasda da böyük əhəmiyyət daşıyır. Lakin şagirdlərdə özünüqiymətləndirmə bacarıqlarının formalaşdırılması mürəkkəb bir prosesdir. Təcrübədə şagirdlərin özünüqiymətləndirmədən istifadəsinə nadir hallarda rast gəlinir. Bunun əsas səbəbi şagirdlərin əksəriyyətinin bu prosesin mahiyyətini tam dərk etməməsi və subyektiv olaraq yüksək qiymətləndirməyə meyilli olmalarıdır.

Qiymətləndirmə prosesi təlimin ayrılmaz tərkib hissəsi kimi sistemli və planlı şəkildə aparılmalıdır ki, obyektivlik qorunsun. Özünüqiymətləndirmə mexanizmi həm daxili, həm də xarici nəzarət formaları ilə həyata keçirilməlidir. Daxili nəzarət dedikdə, şagirdin öz səhv və düzlərini müstəqil şəkildə dəyərləndirməsi, yəni gördüyü işi analitik şəkildə təhlil etməsi nəzərdə tutulur. Xarici nəzarət isə başqalarının mənfi və müsbət rəylərinə əsaslanır. Xarici nəzarət dedikdə isə prosesi yoxlayan şəxsin birbaşa monitorinq olunan sistemin (layihənin, məktəbin və ya təşkilatın) daxilində olmaması nəzərdə tutulur. Məsələn, Elm və Təhsil Nazirliyi nümayəndəsinin məktəbə gələrək dərsləri müşahidə etməsi, suallar verməsi və qeydlər aparması xarici nəzarətə nümunədir.

Özünüqiymətləndirmə prosesi özü də iki əsas componentdən ibarətdir: koqnitiv və emosional qiymətləndirmə. Koqnitiv qiymətləndirmə: İnsanın öz bilik, bacarıq və qabiliyyətlərini müqayisəli şəkildə təhlil edərək daha yüksək səviyyəyə çatdırmasıdır. Emosional qiymətləndirmə: İnsanın özünə qarşı duyduğu sevgi, dəyər, hörmət və digər emosional münasibətləri əks etdirir. Məlumdur ki, insanın öz potensialını obyektiv

**https://doi.org/10.36719/2789-6919/XIX/TT/ET/2026**

şəkildə qiymətləndirmə bacarığı ailə tərbiyəsi prosesində formalaşır. İnsan öz real imkanlarını düzgün dəyərləndirdikdə yetkin bir şəxsiyyət kimi inkişaf edir. Belə şəxsiyyətlər öz potensialına uyğun real məqsədlər qoymağı bacarırlar. Şagirdlərin özünüqiymətləndirmə mexanizminin təşkili həm təlim prosesinin, həm də sinfin idarə edilməsinin vacib tərkib hissəsidir. İdarəetmədə özünüqiymətləndirmənin əsas xüsusiyyətləri aşağıdakılardır: - Məqsədyönlülük: Şagird nəyə nail olacağını aydın dərk edir və fəaliyyətini bu istiqamətdə məqsədyönlü şəkildə qurur; - Aydın meyarların mövcudluğu: Qiymətləndirmə meyarları sadə, anlaşılan olmalı və şagirdlərə əvvəlcədən təqdim edilməlidir; - Şagirdlərin aktiv iştirakı: Şagird prosesin passiv obyekti deyil, aktiv iştirakçısıdır; eyni zamanda, öyrənməyə görə məsuliyyəti öz üzərinə götürür; - Refleksiya və özünütəhlil: Şagird öz işi haqqında düşünür, nələri düzgün etdiyini və harada çətinlik çəkdiyini müəyyənləşdirir; - Davamlılıq: Özünüqiymətləndirmənin mütəmadi olaraq həyata keçirilməsidir; - Müəllimin istiqamətləndirici rolu: Müəllim yol göstərən və prosesi koordinasiya edən tərəf kimi çıxış edir; - Fərdi inkişafın nəzərə alınması: Özünüqiymətləndirmədə fərdi yanaşma təmin edilməli, müqayisə başqaları ilə deyil, şagirdin öz əvvəlki nəticələri ilə aparılmalıdır.

Özünüqiymətləndirmə sadəcə bir təhsil metodu deyil, şagirdin öz daxili dünyasına baxdığı bir güzgüdür; bu güzgüdə özünü düzgün görən hər bir gənc, gələcəyin ən böyük zirvələrini fəth etməyə hazır olan şüurlu bir fərddir.

*Elm və Təhsildə Müasir Tələblər* **XIX Tezislər Toplusu/ 19 aprel / 204-208**
***Modern Requirements in Science and Education*** **XIX Theses Collection/ 19 april / 204-208**
**https://doi.org/10.36719/2789-6919/XIX/TT/ET/2026**

**Fəridə Qəhrəmanova**
Bakı Slavyan Universiteti
magistrant
https://orchid.org/0009-0005-6319-3449
fgahramanova02@gmail.com

# Humanitarlaşma anlayışı və ali təhsilə inteqrasiyası

***Açar sözlər:*** *humanitarlaşma, təhsil, fənlər, interdisiplinar, empatiya, kurikulum, inkişaf*
***Keywords:*** *humanization, education, subjects, interdisciplinary, empathy, curriculum, development*

Müasir dövrdə ali təhsil sistemi qlobal miqyasda dərin transformasiya mərhələsindən keçir. Rəqəmsallaşma, süni intellekt texnologiyalarının sürətli inkişafı, əmək bazarının dəyişən tələbləri və qloballaşma prosesləri ali məktəblərin funksiyalarına və missiyasına yeni məzmun qazandırmışdır. Bu şəraitdə yalnız ixtisas biliklərinə əsaslanan texnokratik yanaşma artıq kifayət etmir. Cəmiyyətin davamlı inkişafı üçün yüksək peşəkar bacarıqlarla yanaşı, geniş dünyagörüşə, etik dəyərlərə, sosial məsuliyyət hissinə və tənqidi düşüncə qabiliyyətinə malik şəxsiyyətlərin formalaşdırılması vacib amilə çevrilmişdir. Məhz bu kontekstdə humanitarlaşma anlayışı ali təhsilin strateji istiqamətlərindən biri kimi ön plana çıxır.

Humanitarlaşma ali təhsilin məzmununun, strukturunun və idarəetmə fəlsəfəsinin insan amili, mənəvi dəyərlər və sosial məsuliyyət prinsipləri əsasında yenidən qurulmasını ifadə edir. Bu anlayış yalnız humanitar fənlərin sayının artırılması ilə məhdudlaşmır. Əksinə, humanitarlaşma təhsilin bütün istiqamətlərində – texniki, təbiət və iqtisadi sahələr daxil olmaqla – insan mərkəzli yanaşmanın tətbiqini nəzərdə tutur.

**https://doi.org/10.36719/2789-6919/XIX/TT/ET/2026**

Burada əsas məqsəd biliklərin mexaniki ötürülməsi deyil, tələbələrin intellektual, emosional və etik inkişafının kompleks şəkildə təmin edilməsidir.

Ali təhsildə humanitarlaşma prosesi tələbələrin şəxsiyyət kimi formalaşmasını prioritet hesab edir. Müasir əmək bazarı artıq yalnız dar ixtisaslı mütəxəssislərə deyil, komandada işləməyi bacaran, effektiv ünsiyyət qura bilən, problemləri sistemli şəkildə analiz edən və sosial nəticələri nəzərə alan mütəxəssislərə ehtiyac duyur. Bu baxımdan humanitar komponentlərin ali təhsilə inteqrasiyası "yumşaq bacarıqların" inkişafına, liderlik keyfiyyətlərinin formalaşmasına və etik qərarvermə mədəniyyətinin təşəkkülünə mühüm töhfə verir.

Humanitarlaşma anlayışı həm də təhsil fəlsəfəsinin humanist əsaslara söykənməsini tələb edir. Təhsil yalnız iqtisadi səmərəlilik aləti kimi deyil, eyni zamanda mədəniyyətin, milli kimliyin və sosial harmoniyanın qorunması vasitəsi kimi qiymətləndirilməlidir. Ali məktəblər cəmiyyətin intellektual mərkəzləri olmaqla yanaşı, sosial transformasiyanın aparıcı qüvvələrindən biridir. Bu baxımdan onların fəaliyyətində humanitar dəyərlərin gücləndirilməsi cəmiyyətin demokratik inkişafına, tolerantlıq mühitinin formalaşmasına və vətəndaş məsuliyyətinin artmasına xidmət edir.

Rəqəmsal transformasiya dövründə humanitarlaşma daha da aktuallaşır. Süni intellekt, avtomatlaşdırma və böyük verilənlər texnologiyaları iqtisadi və sosial münasibətləri dəyişdirərkən, etik və hüquqi problemlər də gündəmə gəlir. Məsələn, məlumatların məxfiliyi, texnologiyaların sosial ədalətə təsiri və rəqəmsal bərabərsizlik kimi məsələlər yalnız texniki biliklərlə həll edilə bilməz. Bu problemlərin effektiv həlli üçün humanitar düşüncə, fəlsəfi yanaşma və etik analiz bacarıqları tələb olunur. Buna görə də texniki və mühəndislik istiqamətlərində belə humanitar fənlərin inteqrasiyası strateji əhəmiyyət daşıyır.

*Elm və Təhsildə Müasir Tələblər* **XIX Tezislər Toplusu/ 19 aprel / 204-208**
*Modern Requirements in Science and Education* **XIX Theses Collection/ 19 april / 204-208**
**https://doi.org/10.36719/2789-6919/XIX/TT/ET/2026**

Ali təhsilin humanitarlaşması eyni zamanda kurikulum islahatlarını da əhatə edir. İnterdisiplinar proqramların hazırlanması, seçmə humanitar modulların tətbiqi, layihə əsaslı və müzakirəyə əsaslanan təlim metodlarının genişləndirilməsi bu prosesin əsas mexanizmlərindəndir. Bu yanaşma tələbələrə müxtəlif bilik sahələri arasında əlaqələri görmək, problemləri kompleks şəkildə təhlil etmək və yaradıcı həll yolları təklif etmək imkanı yaradır. Nəticədə təhsil prosesi yalnız informasiya ötürülməsi deyil, biliklərin mənimsənilməsi və tətbiqi üzərində qurulur.

Azərbaycan ali təhsil sistemində də humanitarlaşma məsələsi aktuallıq kəsb edir. Milli inkişaf strategiyaları və təhsil islahatları çərçivəsində rəqabətqabiliyyətli insan kapitalının formalaşdırılması əsas prioritetlərdən biridir. Bu kontekstdə humanitar komponentlərin gücləndirilməsi, vətəndaşlıq dəyərlərinin təşviqi və milli-mənəvi irsin tədris prosesinə inteqrasiyası xüsusi əhəmiyyət daşıyır. Eyni zamanda, beynəlxalq təcrübə göstərir ki, ali təhsildə humanitarlaşma universitetlərin qlobal reytinqlərdə mövqeyinin möhkəmlənməsinə və akademik mobilliyin artmasına da müsbət təsir göstərir.

Humanitarlaşma prosesi yalnız məzmun səviyyəsində deyil, həm də pedaqoji yanaşma baxımından yenilikləri tələb edir. Müəllim-tələbə münasibətlərində demokratik mühitin yaradılması, tələbələrin sərbəst fikir ifadəsinə şəraitin təmin edilməsi və inklüziv təhsil prinsiplərinin tətbiqi bu istiqamətdə mühüm rol oynayır. Beləliklə, humanitarlaşma ali təhsildə insanın potensialının maksimum reallaşdırılmasına xidmət edən kompleks bir strategiya kimi çıxış edir.

Nəticə etibarilə, humanitarlaşma anlayışı ali təhsilin keyfiyyətinin yüksəldilməsi, cəmiyyətin davamlı inkişafı və sosial harmoniyanın təmin olunması baxımından strateji əhəmiyyətə malikdir. Müasir dövrdə bilik iqtisadiyyatı şəraitində yalnız texniki kompetensiyalarla kifayətlənmək mümkün

**https://doi.org/10.36719/2789-6919/XIX/TT/ET/2026**

deyil. Humanitar dəyərlərlə zənginləşdirilmiş ali təhsil modeli gələcəyin məsuliyyətli, yaradıcı və sosial cəhətdən aktiv vətəndaşlarının formalaşmasının əsas şərtidir. Bu baxımdan humanitarlaşmanın ali təhsilə inteqrasiyası həm milli, həm də qlobal miqyasda prioritet istiqamət kimi qiymətləndirilməlidir.

Aparılan təhlil göstərir ki, humanitarlaşma ali təhsil sisteminin yalnız struktur və məzmun yenilənməsi deyil, bütövlükdə təhsil fəlsəfəsinin transformasiyasıdır. Müasir qlobal çağırışlar – rəqəmsallaşma, süni intellektin geniş tətbiqi, sosial və iqtisadi münasibətlərin mürəkkəbləşməsi – ali məktəblər qarşısında yeni tələblər qoyur. Bu tələblər yalnız ixtisas biliklərinin artırılması ilə deyil, eyni zamanda insanın mənəvi, etik və sosial kompetensiyalarının inkişafı ilə qarşılanmalıdır.

Humanitarlaşma ali təhsildə insan amilini prioritetə çevirərək, tələbələrin şəxsiyyətyönümlü inkişafını təmin edir. Bu proses nəticəsində ali məktəblər yalnız peşəkar mütəxəssis deyil, həm də yüksək vətəndaş məsuliyyətinə, tənqidi düşüncə qabiliyyətinə və sosial həssaslığa malik fərdlər yetişdirir. Humanitar komponentlərin texniki və iqtisadi ixtisaslara inteqrasiyası isə multidissiplinar yanaşmanı gücləndirərək problemlərin daha sistemli və kompleks həllinə imkan yaradır.

Eyni zamanda, humanitarlaşma ali təhsil müəssisələrinin cəmiyyətlə əlaqəsini möhkəmləndirir. Universitetlər sosial transformasiyanın aparıcı subyektləri kimi demokratik dəyərlərin, tolerantlığın və mədəni müxtəlifliyin təşviqinə töhfə verir. Bu baxımdan humanitarlaşma yalnız akademik deyil, həm də sosial inkişaf strategiyası kimi çıxış edir.

Azərbaycan kontekstində də humanitarlaşma ali təhsil islahatlarının mühüm istiqamətlərindən biri olmalıdır. Milli-mənəvi dəyərlərin qorunması, qlobal bilik sisteminə inteqrasiya və rəqabətqabiliyyətli insan kapitalının formalaşdırılması humanitar yanaşmanın gücləndirilməsini zəruri edir. Kurikulumların yenilənməsi, interdisiplinar proqramların tətbiqi və

**https://doi.org/10.36719/2789-6919/XIX/TT/ET/2026**

demokratik pedaqoji mühitin yaradılması bu prosesin əsas mexanizmləri kimi qiymətləndirilə bilər.

Beləliklə, humanitarlaşma ali təhsilin keyfiyyətinin yüksəldilməsinə, davamlı inkişafın təmin olunmasına və gələcəyin sosial məsuliyyətli, yaradıcı və etik dəyərlərə sadiq mütəxəssislərinin yetişdirilməsinə xidmət edən strateji istiqamətdir. Bu yanaşmanın sistemli və davamlı şəkildə tətbiqi ali təhsilin həm milli, həm də beynəlxalq səviyyədə rəqabət qabiliyyətini gücləndirəcək və cəmiyyətin intellektual potensialının artmasına şərait yaradacaqdır.

*Elm və Təhsildə Müasir Tələblər* **XIX Tezislər Toplusu/ 19 aprel / 209-210**
***Modern Requirements in Science and Education*** **XIX Theses Collection/ 19 april / 209-210**
**https://doi.org/10.36719/2789-6919/XIX/TT/ET/2026**

**Səadət Nəzirova**
Bakı Slavyan Universiteti
magistrant
https://orchid.org/0009-0003-5230-4065
nzirovasadt@gmail.com

# M.Şəhriyarın anadilli poeziyasında işlənən etnoqrafizmlərin dialekt və şivələrlə əlaqəsi

***Açar sözlər:*** *etnoqrafizmlər, dialektlər və xalq dili, maddi mədəniyyət leksikası, mərasim lüğəti, milli kimlik, xalq mədəniyyəti, Qarabağ dialektləri*

***Keywords***: *ethnographisms, dialects and vernaculars, material culture lexicon, ceremonial vocabulary, national identity, folk culture, Karabakh dialects*

Məhəmmədhüseyn Şəhriyarın anadilli poeziyası Azərbaycan xalqının milli-mənəvi dəyərlərini, tarixini və etnik təfəkkürünü əks etdirən ən mühüm mənbələrdən biridir. Şairin yaradıcılığında işlənən etnoqrafizmlər xalqın maddi və mənəvi mədəniyyətini dildə yaşadan canlı izlərdir. Mənbələrdə qeyd olunur ki, etnoqrafizmləri toplamaq üçün ən etibarlı və mühafizəkar mənbə məhz dialekt və şivələrdir. Şəhriyarın poeziyasında işlənən maddi mədəniyyət elementləri – geyim adları (çuxa, arxalıq, papaq), yemək adları (aş, kabab) və məişət əşyaları birbaşa canlı xalq danışığından və regional dialektlərdən süzülüb gəlir. Qarabağ bölgəsinin elat dünyasında "ayran" ən mühüm ağartı məhsulları (qatıq, qaymaq, süzmə, pendir və s.) sırasında xüsusi yer tutur. "Ayran" sözünə hələ XIV əsrə aid qədim qrammatik traktatlarda rast gəlinir. O, həmçinin, alman dili kimi xarici dillərə keçmiş türk mənşəli alınmalar sırasında yemək və içki adı kimi qeyd olunur. Bir çox şivələrdə (məsələn: Qazax, Qutqaşen, Kəlbəcər) su qatılaraq duru hala

**https://doi.org/10.36719/2789-6919/XIX/TT/ET/2026**

salınmış qatığa, yəni ayrana "atlama" (və ya fars mənşəli "avdığ") da deyilir. Ayran sadəcə bir içki deyil, xalq müdrikliyinin ifadə vasitəsidir. Azərbaycan dilində ayranla bağlı çoxsaylı atalar sözləri mövcuddur: "Ayranı yox içməyə, körpü axtarır keçməyə", "Heç kəs öz ayranına turş deməz".

"Adaxlı" (və ya "adaqlı") sözü Azərbaycan dilinin mərasim leksikasında nişanlılıq statusunu bildirən fundamental etnoqrafik vahidlərdən biridir. Tədqiqatlar göstərir ki, Qarabağ şivələrində (Ağdam, Füzuli, Şuşa və s.) toy-nişan mərasimləri ilə bağlı işlənən terminlər sırasında adaxlı sözü aktiv mövqedədir. "Adaxlı" (adaqlı) termini təkcə Azərbaycan dilində deyil, qohum türk dillərinin dialektlərində də (məsələn, Özbəkistanın Kaşkadarya və Əndican şivələrində "adaqli" variantında) qədim nişan mərasimi termini kimi mövcuddur. Etnoqrafik faktların toplandığı Naxçıvan, Gəncə-Qazax, Göyçə və Şəki kimi mahallar da bu növ terminlərin (o cümlədən "adaxlı"nın sinonimləri olan "bəlgəli" və "deyikli" sözlərinin) qorunub saxlandığı əsas areallar hesab olunur.

Ərsin sözü Azərbaycanın müxtəlif bölgələrində, o cümlədən Qarabağ şivələrində mətbəx əşyası və qab-qacaq adları sırasında qeydə alınmışdır. Ərsin, adətən, çörək bişirmə prosesi ilə bağlı olan, təndirin divarlarını təmizləmək və ya xəmir kəsmək üçün istifadə edilən metal alətdir. O, dialektlərdə təndir, təhnə, nehrə, cəhrə və həvəngdəstə kimi digər qədim məişət əşyaları ilə eyni leksik layda yer alır.

Nəzik (və ya nəzix) sözü Azərbaycan dilinin bir çox bölgə dialekt və şivələrində aktiv işlənən etnoqrafik leksik vahiddir. Naxçıvanda "nəzık" çox məşhurdur və bəzən "dastana" adı ilə də tanınır, Qazax dialektində "nəzik" südlə yoğrulan yağlı çörəklər qrupuna aid edilir. Gəncə-Qazax bölgəsinin də mətbəx mədəniyyətində mühüm yer tutur. Təbriz dialektində bu söz "nəzix" formasında işlənir və Naxçıvan bölgəsindəki nümunə-

**https://doi.org/10.36719/2789-6919/XIX/TT/ET/2026**

lərlə uyğunluq təşkil edir. Talış bölgəsində də çörək növləri arasında "nəzik" adına rast gəlinir.

"Çarıq" sözü Azərbaycan dilinin demək olar ki, bütün dialekt və şivələrində, xüsusən də kənd yerlərində tarixən geniş işlənmiş etnoqrafik leksik vahiddir. "Çarıq" sözü ümumi Azərbaycan ədəbi dili miqyasında arxaikləşsə də, Naxçıvan mühitində bu gün də ümumişlək səciyyə daşıyır. Qarabağ bölgəsində də çarıq kənd əhalisinin, xüsusilə də kişilərin böyük əksəriyyətinin ənənəvi ayaq geyimi olmuşdur. Həmçinin, Qarabağda elat qadınlarının təsərrüfat işləri zamanı corabın üzərindən çarıq geyindiyi qeyd olunur.

"Badya" Azərbaycan dilinin müxtəlif bölgələrində, xüsusən də məişət leksikasında geniş işlənən etnoqrafik vahid kimi təqdim edilir. Tədqiqatçı M.Ə.Zeynalov "badya" (mis qab) sözünü Naxçıvan dialekt və şivələrində aktiv işlənən məişət əşyası kimi qeydə almışdır. Mənbələrdə vurğulanır ki, "badya" sözünü yalnız bir bölgəyə məxsus hesab etmək doğru deyil, çünki bu söz əksər dialekt və şivələrdə, həmçinin, ümumxalq danışıq dilində də işlənməkdədir.

**https://doi.org/10.36719/2789-6919/XIX/TT/ET/2026**

**Nərmin Məmmədova**
Lənkəran Dövlət Universiteti
magistrant
https://orcid.org/0009-0005-8608-0658
mammedovanarmin17@gmail.com

# Pedaqoji monitorinq və qiymətləndirmənin tədris keyfiyyətinə təsiri

***Açar sözlər***: *pedaqoji monitorinq, qiymətləndirmə, formativ qiymətləndirmə, təhsil keyfiyyəti*
**Keywords:** *pedagogical monitoring, assessment/evaluation, formative assessment, quality of education*

Müasir təhsil sistemində keyfiyyətin təmin olunması və inkişaf etdirilməsi üçün pedaqoji monitorinq və qiymətləndirmə mühüm əhəmiyyət kəsb edir. Bu anlayışlar təlim-tərbiyə prosesinin effektivliyinin artırılmasına, şagird nailiyyətlərinin obyektiv şəkildə müəyyənləşdirilməsinə və təhsilin idarə olunmasının təkmilləşdirilməsinə xidmət edir. Pedaqoji monitorinq təhsil prosesinin davamlı izlənilməsi, məlumatların toplanması və təhlili əsasında vəziyyətin qiymətləndirilməsini təmin edən sistemli fəaliyyətdir. Onun əsas məqsədi tədris prosesində mövcud vəziyyəti müəyyən etmək, problemləri vaxtında aşkar etmək və onların aradan qaldırılması üçün müvafiq tədbirlər görməkdir. Monitorinq müəllim fəaliyyətinin səmərəliliyinin artırılmasına və təlim metodlarının təkmilləşdirilməsinə də şərait yaradır.

Qiymətləndirmə isə şagirdlərin bilik, bacarıq və vərdişlərinin ölçülməsi və nəticələrin müəyyənləşdirilməsi prosesidir. Təhsil sistemində formativ, summativ və diaqnostik qiymətləndirmə növləri geniş istifadə olunur. Formativ qiymətləndirmə təlim prosesində şagirdin inkişafını izləyərək geribildirim

**https://doi.org/10.36719/2789-6919/XIX/TT/ET/2026**

verməyə xidmət edir, summativ qiymətləndirmə isə müəyyən mərhələnin sonunda yekun nəticəni müəyyən edir. Diaqnostik qiymətləndirmə isə şagirdlərin ilkin bilik səviyyəsini müəyyən etməyə imkan yaradır. Müasir dövrdə pedaqoji monitorinq və qiymətləndirmənin reallaşdırılması üçün geniş imkanlar mövcuddur. İnformasiya-kommunikasiya texnologiyalarının tətbiqi, elektron qiymətləndirmə sistemləri, onlayn test platformaları və rəqəmsal təhsil resursları bu prosesin daha effektiv və obyektiv həyata keçirilməsinə şərait yaradır. Bu vasitələr təhsil prosesində şəffaflığın təmin olunmasına, vaxt itkisini azaltmağa və nəticələrin operativ şəkildə təhlilinə imkan verir. Bununla yanaşı, bu sahədə müəyyən problemlər də mövcuddur. Bunlara qiymətləndirmədə subyektiv yanaşma, müəllimlərin yeni metodlara tam yiyələnməməsi və texnologiyalardan istifadə bacarıqlarının kifayət qədər inkişaf etməməsi daxildir. Bu problemlərin aradan qaldırılması üçün müəllimlərin ixtisasartırma təlimlərinin təşkili, müasir texnologiyaların tətbiqinin genişləndirilməsi və qiymətləndirmə meyarlarının təkmilləşdirilməsi vacibdir. Nəticə etibarilə, pedaqoji monitorinq və qiymətləndirmənin düzgün təşkili təhsilin keyfiyyətinin yüksəldilməsində, şagird nailiyyətlərinin artırılmasında və təhsil sisteminin inkişafında mühüm rol oynayır. Bu istiqamətdə innovativ yanaşmaların tətbiqi və beynəlxalq təcrübənin öyrənilməsi gələcək inkişaf üçün əsas istiqamətlərdən biridir.

*Elm və Təhsildə Müasir Tələblər* **XIX Tezislər Toplusu/ 19 aprel / 213-216**
***Modern Requirements in Science and Education*** **XIX Theses Collection/ 19 april / 213-216**
**https://doi.org/10.36719/2789-6919/XIX/TT/ET/2026**

**İlahə Mirzəyeva**
Bakı Slavyan Universiteti
magistrant
https://orcid.org/0009-0006-9232-5321
mirzeyevailaha777@gmail.com

# Nitq mədəniyyətinin inkişafında ədəbi dil normalarının öyrədilməsinin əhəmiyyəti

***Açar sözlər:*** *nitq mədəniyyəti, ədəbi dil normaları, dil mədəniyyəti, orfoepik norma, kommunikasiya*
***Keywords:*** *speech culture, literary language norms, language culture, orthoepic norms, communication*

Nitq mədəniyyəti insanın fikrini düzgün, aydın və təsirli şəkildə ifadə etmək bacarığını əks etdirən mühüm göstəricilərdən biridir. Müasir cəmiyyətdə dil yalnız ünsiyyət vasitəsi deyil, eyni zamanda, insanların mədəni səviyyəsini və dünyagörüşünü əks etdirən əsas amillərdən biri hesab olunur. Bu baxımdan nitq mədəniyyətinin formalaşmasında və inkişafında ədəbi dil normalarının öyrədilməsi mühüm rol oynayır. Ədəbi dil normalarına yiyələnmək insanın fikirlərini daha səlis və məntiqli şəkildə ifadə etməsinə imkan yaradır.

Ədəbi dil ümummilli dilin normalaşdırılmış və cəmiyyət tərəfindən qəbul edilmiş formasıdır. Ədəbi dilin əsas xüsusiyyətlərindən biri onun normativliyidir. Ədəbi dil normaları dil vahidlərinin düzgün istifadəsini təmin edən qaydalar sistemidir və bu normalar fonetik, leksik, qrammatik, orfoqrafik və üslubi sahələri əhatə edir. Dilçilikdə qəbul olunmuş fikrə görə, ədəbi dil normaları dilin sabitliyini qoruyur və ünsiyyət prosesində vahidlik yaradır (Qurbanov, 2003, s. 328).

Nitq mədəniyyəti yalnız düzgün danışmaq deyil, həm də fikrin məqsədəuyğun, məntiqli və situasiyaya uyğun şəkildə

ifadə olunmasıdır. Nitqin düzgünlüyü, aydınlığı və ifadəliliyi ədəbi dil normalarına riayət olunmasından asılıdır. Bu baxımdan norma nitqin keyfiyyətini müəyyən edən əsas meyarlardan biri hesab olunur. Dilçilikdə qeyd olunur ki, normadan kənarlaşma nitqin mədəni səviyyəsini aşağı salır və ünsiyyət prosesində anlaşılmazlığa səbəb ola bilər (Həsənov, 1980, s. 54).

Nitq mədəniyyətinin formalaşmasında orfoepik normaların xüsusi rolu vardır. Orfoepik normalar sözlərin düzgün tələffüz qaydalarını müəyyən edir və şifahi nitqin aydın və anlaşıqlı olmasını təmin edir. Təhsil prosesində şagirdlərin nitqində tez-tez müşahidə olunan problemlərdən biri məhz orfoepik normaların pozulmasıdır. Bəzi hallarda dialekt və şivə xüsusiyyətlərinin nitqə təsiri, vurğunun düzgün qoyulmaması və səslərin ixtisar olunması kimi hallar nitqin normativliyini zəiflədir. Buna görə də orfoepik normaların sistemli şəkildə öyrədilməsi şagirdlərin düzgün tələffüz vərdişlərinin formalaşmasında mühüm rol oynayır (Qurbanov, 2003, s. 330).

Ədəbi dil normalarının öyrədilməsi həm də şagirdlərin dilə olan münasibətinə müsbət təsir göstərir. Bu proses nəticəsində şagirdlər dilin qaydalarını daha yaxşı mənimsəyir və fikirlərini daha düzgün şəkildə ifadə etməyi öyrənirlər. Təhsil prosesində dil normalarının öyrədilməsi şagirdlərin yazılı və şifahi nitqinin inkişafına, onların kommunikativ bacarıqlarının formalaşmasına və dil mədəniyyətinin yüksəlməsinə xidmət edir. Tədqiqatçılar qeyd edirlər ki, nitq mədəniyyəti yalnız dil qaydalarını bilmək deyil, həm də onları düzgün və məqsədəuyğun şəkildə tətbiq etmək bacarığıdır (Abdullayev, 2007, s. 72).

Ədəbi dil normalarına riayət olunması insanların ictimai həyatında və peşə fəaliyyətində də böyük əhəmiyyət daşıyır. Rəsmi çıxışlarda, elmi məruzələrdə və yazılı mətnlərdə normativ dilin istifadə olunması fikrin daha dəqiq və aydın şəkildə ifadə olunmasına kömək edir. Buna görə də nitq mədəniyyətinin

**https://doi.org/10.36719/2789-6919/XIX/TT/ET/2026**

inkişafı üçün ədəbi dil normalarının öyrədilməsi mühüm elmi və pedaqoji əhəmiyyətə malikdir.

Nəticə etibarilə qeyd etmək olar ki, nitq mədəniyyətinin inkişafı ədəbi dil normalarının mənimsənilməsi ilə sıx bağlıdır. Bu normaların sistemli və məqsədyönlü şəkildə öyrədilməsi insanların düzgün və səlis nitq bacarıqlarının formalaşmasına, dil mədəniyyətinin yüksəlməsinə və cəmiyyətdə ünsiyyətin daha səmərəli qurulmasına xidmət edir.

## Ədəbiyyat

1. Abdullayev, A. (2007). *Nitq mədəniyyətinin əsasları*. Maarif.
2. Həsənov, H. (1980). *Müasir Azərbaycan dilinin leksikası*. Elm.
3. Qurbanov, A. (2003). *Müasir Azərbaycan ədəbi dili (I cild).* Nurlan.

*Elm və Təhsildə Müasir Tələblər* **XIX Tezislər Toplusu/ 19 aprel / 217-220**
***Modern Requirements in Science and Education*** **XIX Theses Collection/ 19 april / 217-220**
**https://doi.org/10.36719/2789-6919/XIX/TT/ET/2026**

**Aygün Babayeva**
Bakı Slavyan Universiteti
magistrant
https://orcid.org/0009-0003-9442-1665
aygun.m.babayeva@sosial.gov.az

# Xəzərin hüquqi statusu ətrafında yaranmış fikir ayrılığı və tərəflərin mövqeyi

***Açar sözlər:*** *Xəzər dənizi, hüquqi status, beynəlxalq hüquq, regional əməkdaşlıq, konvensiya, geosiyasi gərginlik*
***Keywords:*** *Caspian Sea, legal status, international law,* regional cooperation*, convention, geopolitical tensions*

Xəzər dənizi, dünyanın ən böyük daxili su hövzəsi olmaqla yanaşı, həm də beynəlxalq hüquqda mürəkkəb və çoxşaxəli məsələlərə səbəb olan bir coğrafi obyekt olaraq diqqət mərkəzindədir. Bu dənizin hüquqi statusu, onun ətrafında yerləşən beş dövlətin – Azərbaycan, Qazaxıstan, Türkmənistan, İran və Rusiya – maraqlarının toqquşduğu bir sahədir. Xəzərin hüquqi statusu ilə bağlı yaranmış fikir ayrılıqları, xüsusilə onun sərhəd mübahisələri, təbii resursların bölüşdürülməsi və dəniz hüququ prinsipləri ətrafında mərkəzləşir. Araşdırmamızda Xəzərin hüquqi statusuna dair mövcud olan əsas mübahisələr və tərəflərin mövqeyinə dair elmi təhlil veriləcəkdir.

Xəzərin hüquqi statusunun tənzimlənməsi üçün bir neçə hüquqi həll yolu mövcuddur. Bunlardan biri, tərəflər arasında regional əməkdaşlığı gücləndirərək, qarşılıqlı razılaşmalar əldə etməkdir. 2018-ci ildə qəbul edilən Xəzər dənizinin hüquqi statusu haqqında Konvensiya, bu əməkdaşlığın hüquqi əsasını formalaşdırır. Konvensiyanın məqsədi, Xəzərin təbii sərvətlərinin ədalətli şəkildə bölüşdürülməsi, ətraf mühitin qorunması və hərbi gərginliyin aradan qaldırılmasıdır.

**https://doi.org/10.36719/2789-6919/XIX/TT/ET/2026**

Xəzər dənizinin hüquqi statusu məsələsi, tarixən müxtəlif müstəvidə müzakirə olunmuşdur. XIX əsrdə Rusiya İmperiyasının və İranın bu ərazidəki mülki mübahisələri ilə başlayan proses, XX əsrin əvvəllərində Sovet İttifaqı və İran arasında Xəzər dənizinin hüquqi statusunun müəyyən edilməsi ilə davam etmişdir. Sovet İttifaqının çökməsindən sonra, Xəzər dənizinin statusu məsələsi, müstəqil dövlətlər olaraq fəaliyyət göstərən Azərbaycan, Qazaxıstan, Türkmənistan, İran və Rusiya arasında yenidən gündəmə gəlmişdir.

1990-cı illərin sonlarına doğru, Xəzərin hüquqi statusunun müəyyən edilməsi məqsədilə müxtəlif müzakirələr aparılmış və nəticədə, 2003-cü ildə tərəflər arasında Xəzərin hüquqi statusuna dair ilkin müsbət irəliləyişlər əldə edilmişdir. 2018-ci ildə isə Xəzər dənizinin hüquqi statusu haqqında Konvensiya qəbul olunmuşdur ki, bu da Xəzərin sərhədlərinin və təbii resurslarının bölüşdürülməsini tənzimləyən mühüm bir sənəd olmuşdur.

Xəzərin hüquqi statusunun müəyyənləşdirilməsi, əsasən, müxtəlif maraq qruplarının qarşılıqlı münasibətləri və dövlətlərin öz mövqelərini qorumağa çalışması ilə xarakterizə olunur. Xəzərin hüquqi statusu ilə bağlı ən mühüm fikir ayrılıqları aşağıdakı sahələrdə özünü göstərir:

*1. Suverenlik və sərhədlərin müəyyən edilməsi.* Xəzər dənizi ətrafında yerləşən dövlətlər, bu su hövzəsinin üzərində suverenlik hüquqları məsələsində bir neçə dəfə fikir ayrılıqlarına düşmüşlər. Rusiya və İran, Xəzər dənizinin ümumi bir "sahə" olaraq qalmasını və hər bir dövlətin suveren hüquqlarının qorunmasını istəyir. Lakin Azərbaycan, Qazaxıstan və Türkmənistan, Xəzər dənizindəki sərhədlərin konkret olaraq müəyyən edilməsini və hər bir dövlətin müəyyən sahələrdə müstəqil fəaliyyət göstərməsini tələb edirlər.

*2. Təbii resursların bölüşdürülməsi.* Xəzərin təbii resursları, xüsusilə neft və qaz ehtiyatları, uzun müddətdir ki, tərəflər arasında əsas mübahisə mövzusu olmuşdur. Hər bir dövlət,

**https://doi.org/10.36719/2789-6919/XIX/TT/ET/2026**

Xəzər dənizinin öz ərazisinə aid olan hissəsində təbii sərvətlərdən istifadə etməyi hədəfləyir. Bu baxımdan, Xəzərin sərhədlərinin müəyyən edilməsi, təbii resursların ədalətli və effektiv şəkildə bölüşdürülməsi vacibdir.

*3. Hərbi və ekoloji təhlükəsizlik.* Xəzər dənizindəki hərbi fəaliyyətlər və ekologiya məsələləri də mübahisə mövzusu olmuşdur. Tərəflər, Xəzər dənizində hərbi qüvvələrin yerləşdirilməsi və ekologiyanın qorunması məsələlərində müxtəlif yanaşmalara sahibdirlər. Xəzər dənizinin təmizliyinin qorunması və ekosistemin davamlılığının təmin edilməsi məsələsi, yalnız hüquqi deyil, həm də siyasi müzakirələrə səbəb olmuşdur.

*4. Xəzər dənizi üçün hüquqi həll yolları və əməkdaşlıq perspektivləri.* Xəzərin hüquqi statusunun tənzimlənməsi üçün bir neçə hüquqi həll yolu mövcuddur. Bunlardan biri, tərəflər arasında regional əməkdaşlığı gücləndirərək, qarşılıqlı razılaşmalar əldə etməkdir. 2018-ci ildə qəbul edilən Xəzər dənizinin hüquqi statusu haqqında Konvensiya, bu əməkdaşlığın hüquqi əsasını formalaşdırır. Konvensiyanın məqsədi, Xəzərin təbii sərvətlərinin ədalətli şəkildə bölüşdürülməsi, ətraf mühitin qorunması və hərbi gərginliyin aradan qaldırılmasıdır.

Bundan əlavə, Xəzər dənizi üçün birgə idarəetmə mexanizmlərinin yaradılması, regional təhlükəsizliyin təmin olunması və təbii resursların idarə olunmasında beynəlxalq hüququn prinsiplərinə uyğunlaşmaq vacibdir.

Bundan əlavə, Xəzər dənizi üçün birgə idarəetmə mexanizmlərinin yaradılması, regional təhlükəsizliyin təmin olunması və təbii resursların idarə olunmasında beynəlxalq hüququn prinsiplərinə uyğunlaşmaq vacibdir.

Ümumiyyətlə, Xəzərin hüquqi statusunun müəyyən edilməsi müasir dövrün ən vacib məsələlərindən biridir, çünki Xəzər regionu zəngin enerji ehtiyatlarına malikdir. Bu ehtiyatların sərbəst istismar edilməsi və istifadəsi, həmçinin, dünya bazarına

**https://doi.org/10.36719/2789-6919/XIX/TT/ET/2026**

çatdırılması, regionun enerji təhlükəsizliyinin təmin edilməsi baxımından çox önəmlidir. Eyni zamanda, bu proseslər burada yerləşən dövlətlərin iqtisadi və siyasi maraqlarının qorunmasına, ümumilikdə isə regionda sabitliyin möhkəmlənməsinə müsbət təsir göstərir.

Xəzər dənizinin hüquqi statusu, regional və beynəlxalq səviyyədə çoxsaylı mübahisələrə səbəb olan bir məsələ olaraq qalır. Tərəflər arasında mövcud olan fikir ayrılıqları, suverenlik, sərhəd məsələləri və təbii resursların bölüşdürülməsi kimi sahələrdə müxtəlif yanaşmaların mövcudluğunu göstərir. Bununla yanaşı, Xəzər dənizinin hüquqi statusunun tənzimlənməsi, regional əməkdaşlığın və beynəlxalq hüququn prinsiplərinin qorunması baxımından önəmli bir məsələ olaraq qalır. Tərəflər arasındakı dialoq və əməkdaşlığın gücləndirilməsi, bu mübahisələrin həllinə doğru atılacaq mühüm addım olacaqdır.

*Elm və Təhsildə Müasir Tələblər* **XIX Tezislər Toplusu/ 19 aprel / 221-226**
***Modern Requirements in Science and Education*** **XIX Theses Collection/ 19 april / 221-226**
**https://doi.org/10.36719/2789-6919/XIX/TT/ET/2026**

# TƏBİƏT ELMLƏRİ

# NATURAL SCIENCES

**Rəxşanə Əhmədova**
AR ETN Canlı Sistemlərin Tədqiqi İnstitutu
https://orcid.org/0009-0003-1029-7477
rahshana81@gmail.com

## Oksidləşdirici stresin travmadansonrakı epilepsiyada patogenetik rolu haqqında

***Açar sözlər:*** *kəllə-beyin travması, travmadansonrakı epilepsiya, oksidləşdirici stres, sərbəst radikallar, oksigenin fəal formaları, lipidlərin peroksidli oksidləşməsi*
***Keywords:*** *traumatic brain injury, post-traumatic epilepsy, oxidative stress, free radicals, reactive oxygen species, lipid peroxidation*

Kəllə-beyin travması (KBT) bütün dünyada ictimai səhiyyənin ən vacib problemlərinin sırasında qalmaqdadır. 40 yaşa qədər insanların ən çox yayılmış ölüm səbəblərindən biri olan KBT-nin rastgəlmə tezliyi inkişaf etmiş ölkələrdə artır, xüsusən də yol-nəqliyyat hadisələrində zərərçəkmişlərin sayının hesabına. KBT-nın səbəbləri arasında məişət, idman, hərbi və istehsalat travmaları da üstünlük təşkil edir.

Keçirilmiş KBT-nin olduqca yayılmış, ən ağır və çətinliklə müalicə olunan nəticələrindən biri travmadan sonrakı epilepsiyadır (TSE). Ədəbiyyat məlumatlarına görə, onun inkişaf tezliyi çox dəyişkəndir. Travmanın ağırlığından və xüsusiyyətindən asılı olaraq TSE-nin inkişaf ehtimalı 2%-dən (yüngül KBT-də) 50% (ağır KBT-də, pediatrik populyasiyada və hərbi heyətdə daha yüksək tezlik) arasında dəyişir. TSE-nin inkişaf riski ilk

**https://doi.org/10.36719/2789-6919/XIX/TT/ET/2026**

dəfə və ya təkrarən alınmış travmadan sonra birinci 2 il ərzində maksimal olur, lakin onilliklər sonra da yüksək qalır.

TSE-yə həsr olunmuş çoxplanlı tədqiqatlara, onların geniş miqyasına və ciddiliyinə baxmayaraq patogenezi hələ də kifayət qədər öyrənilməmiş qalır, bu isə medikamentoz müalicəni çətinləşdirir. Hazırda TSE-nin inkişafının qarşısını alan müalicə mövcud deyildir.

Oksidləşdirici stres (OS) eksaytotoksiklik, neyroiltihab və neyrodegenerasiya ilə yanaşı TSE-yə cavabdeh olan patofizioloji mexanizmlərin 4 əsas elementlərindən biridir.

Məlumdur ki, insanın həyatı üçün molekulyar oksigenin olduqca vacibdir. İnsanın baş beyni ümumi bədən çəkisinin 2%-ni təşkil etdiyi halda, orqanizmin sərf etdiyi oksigenin təxminən 20-25%-ni istifadə edir. Neyronların oksigeni sərfetmə intensivliyi isə digər hüceyrə və toxumalardan əhəmiyyətli dərəcədə artıqdır, yəni dəqiqədə 1 qram toxumaya 350-450 mkl $O_2$ təşkil edir. Müqayisə üçün demək olar ki, bu göstərici ürək üçün 70-90 mkl, skelet əzələlər üçün 1,6-2,4 mkl, faqositlər üçün isə 9-24 mkl-dir.

Hüceyrələrin enerji əldə etmək üçün mitoxondrilərdə adenozintrifosfatın (ATF) yaranması prosesində sərf edilən oksigenin 5%-ə qədəri oksigenin fəal formalarının (OFF) ilkini olan sərbəst superoksid-anion radikalına çevrilir. Müxtəlif patoloji vəziyyətlərdə bu göstərici 10%-dək arta bilir. Sərbəst radikallar bir və daha çox cütləşməmiş elektrona malik qeyri-stabil və yüksək reaksiyayagirmə qabiliyyətli molekullardır. OFF antioksidant sistem (AOS) vasitəsi ilə neytrallaşdırılır. AOS aşağımolekullu antioksidantlardan (elektron donoru xassəsinə malik kimyəvi birləşmələr) və antioksidant xassəli fermentlərdən ibarətdir. AOS sərbəst radikalların patoloji təsirini zərərsizləşdirir və insan orqanizminin müdafiəsini həyata keçirir. Bununla belə, OFF-nin səviyyəsi artanda və AOS kompensator imkanları yetərsiz olanda OS inkişaf edir.

**https://doi.org/10.36719/2789-6919/XIX/TT/ET/2026**

Sinir toxumasının antioksidant müdafiəsi çoxsəviyyəli sistemlə təşkil edilmişdir. Fermentativ hissəyə superoksiddismutaza, katalaza və qlutationperoksidaza daxildir. E və C vitaminləri kimi aşağımolekullu antioksidantlar sıx qarşılıqlı əlaqədə işləyirlər: membranlara quraşdırılmış E vitamini lipid radikalları ələ keçirir, C vitamini isə E vitamininin oksidləşmiş formasını reduksiya edir. Xüsusi yeri qlutation tutur. Onun reduksiya olunmuş forması sərbəst radikalları aktiv şəkildə neytrallaşdıraraq antioksidant kimi təsir göstərir. Qlutationun reduksiya olunmuş və oksidləşmiş formalarının nisbəti hüceyrənin oksidləşdirici statusunun vacib göstəricisidir. Adətən, 90%-ni reduksiya olunmuş, 10%-ni isə oksidləşmiş forma təşkil edir. OS zamanı reduksiya olunmuş qlutation bu prosesə sərf olunduğundan hüceyrələrdə oksidləşmiş qlutationun miqdarı isə reduksiya olunmuşa nisbətən artıq olur.

Orqan və toxumalar müxtəlif dərəcədə OFF-nin təsirinə məruz qalırlar. Baş beynin neyronları oksigenin yüksək sərfinə, öz membranlarında polidoymamış yağ turşularının (araxidon və dokozaheksayen turşuları) böyük miqdarına və nisbətən zəif antioksidant müdafiəyə görə daha həssasdırlar. Məsələn, neyronlarda dokozaheksayen turşusu bütün yağ turşularının 15 – 30%-ni, orqanizmin digər hüceyrələrində isə 3-5%-ni təşkil edir. Araxidon turşusunun miqdarı başqa hüceyrələrdəki 5%-ə nisbətən 15%-ə çatır. Əsas antioksidant fermentlərin fəallığı isə 40 yaşından sonra 15-20% azalır.

KBT-dən sonra eritrositlərin və hemoqlobinin parçalanması nəticəsində dəmir sərbəst "fəal formada" (xüsusən ikivalentli $Fe^{2+}$) azad olunur. Bu OFF-nin intensiv əmələgəlməsi, lipidlərin peroksidli oksidləşməsinin (LPO) inisiasiyası və neyronların ölümü ilə nəticələnir. İn vivo təcrübələrində göstərilmişdir ki, siçovulların beyin qabığı nahiyəsinə hemoqlobinin və dəmir duzlarının yeridilməsi xronik epileptik ocaqların törənməsinə gətirir. Bundan başqa, hüceyrəxarici sahəyə buraxılan sitokinlər

**https://doi.org/10.36719/2789-6919/XIX/TT/ET/2026**

və digər molekullar neyronlarda və qlial hüceyrələrdə sərbəst radikalların sintezinə təkan verir. KBT-nin müxtəlif heyvan modellərində sübuta yetirilmişdir ki, TSE kimi patoloji şəraitdə baş beyində geniş ekspressiya olunmuş nikotinamidadenin-dinukleotidfosfatoksidaza (NADF-oksidaza) artıq miqdarda superoksid-anion radikalını əmələ gətirir və beləliklə, neyroiltihaba və neyrodegenerasiyaya təkan verir. Normal fizioloji şəraitdə superoksiddismutaza fermenti təhlükəli superoksid-anionu katalaza və qlutationperoksidaza üçün substrat olan hidrogen peroksidə ($H_2O_2$) çevirir. Katalaza $H_2O_2$-ni suya və oksigenə metabolizmə uğradır, qlutationperoksidaza isə qlutation ilə reaksiya vasitəsilə reduksiya edir. $H_2O_2$ azot oksidin artıq produksiyasını və eləcə də superoksid-anionunun əmələgəlməsini stimullaşdırır. Patoloji şəraitdə sərbəst radikalların proqressiv sintezindən antioksidant fermentlərin tükənməsi nəticəsində hər iki radikalın (azot oksid və superoksid-anionunun) səviyyəsi artmış olur. Onlar öz aralarında reaksiyaya girərək yüksək reaksiyayagirmə qabiliyyətinə malik güclü oksidləşdirici maddə olan peroksinitritin güclənmiş yaranmasına səbəb olurlar, bu isə OFF-nin artıq əmələgəlməsi, desoksiribonuklein turşusunun (DNT), zülalların və lipidlərin oksidləşməsi, ion kanallarının disfunksiyası və s. ilə nəticələnir. $H_2O_2$ ilə işə salınmış proses sürətlə inkişaf edir, çünki peroksinitrit də azot oksidin produksiyasını artırır və qüsurlu dövran işə salınır: nə qədər çox dağıdıcı peroksinitrit yaranırsa, bir o qədər də onun sintezi sürətlənir. Peroksinitritin qlutationla qarşılıqlı təsiri qlutationun tiil radikallarının yaranmasına gətirib çıxarır və nəticədə qlutation antioksidantdan LPO-nu inisiasiya edən prooksidanta çevrilir. Bundan savayı, qlutationun peroksinitritlə oksidləşməsi hüceyrədaxili reduksiya olunmuş qlutationun səviyyəsinin düşməsinə səbəb olan bir sıra reaksiyaların başlanğıcını qoyur. Əlavə olaraq, KBT-dən sonra beyində səviyyəsi kəskin sürətdə artmış miyeloperoksidaza

*Elm və Təhsildə Müasir Tələblər* **XIX Tezislər Toplusu/ 19 aprel / 221-226**
*Modern Requirements in Science and Education* **XIX Theses Collection/ 19 april / 221-226**
**https://doi.org/10.36719/2789-6919/XIX/TT/ET/2026**

fermenti $H_2O_2$ və xlor ionu ($Cl^-$) arasında reaksiyası nəticəsində toxumaları zədələyən güclü oksidləşdirici hipoxlorit turşusunun (HOCl) əmələgəlməsini kataliz edir. Bu, kalsium homeostazının stabilliyini pozaraq hüceyrələrin ölümünə və neyroiltihiba gətirir. Buna alternativ olaraq, $H_2O_2$ sərbəst dəmir ionlarının iştirakı ilə Fenton və Haber – Veys reaksiyalarına uğrayaraq hidroksil radikalı yaradır. Hüceyrə səviyyəsində oksigenin bu yüksək reaksiyayagirmə qabiliyyətinə və olduqca qısa yarımparçalanma dövrünə malik zərərli sərbəst radikalından müdafiə yoxdur. O, dərhal yaxındakı molekullara hücum edərək OS-in son dərəcə təhlükəli iştirakçısına çevrilir.

OS-in molekulyar mexanizmlərinə bir neçə qarşılıqlı əlaqədə olan proses daxildir: hüceyrə strukturlarının sərbəst radikallarla bilavasitə zədələnməsi, LPO kaskadlarının fəallaşması, zülal və nuklein turşularının oksidləşməsi, mitoxondrial disfunksiya hesabına enerji metabolizminin (neyronlarda ATF-in düşməsi) pozulması. Bu kaspaza kaskadı ilə apoptozun fəallaşması ilə və xroniki iltihabla nəticələnir. Göründüyü kimi, OS-in molekulyar nəticələri sistemli xarakter daşıyır və bioloji molekulların bütün əsas siniflərinə toxunur. Lipid membranlarda LPO reaksiyalar kaskadı işə salınır və bu hidroksil radikalın polidoymamış yağ turşularına hücumundan başlayır. Bu proses hüceyrədə diffuziya edə və ikincili zədələnmələr törədə bilən yüksəktoksiki aldehidlərin (malon dialdehidi, 4-hidroksinonenal) əmələgəlməsinə gətirir. Zülallar karbonilləşmə və tiol qruplarının oksidləşməsinə məruz qalırlar, bu isə fəal mərkəzlərində sistein olan fermentlər üçün xüsusilə təhlükəlidir. Mitoxondrial və nüvə DNT-ləri 8-hidroksi-2′-dezoksiquanozinin əmələ gəlməsilə zədələnirlər.

Travmadan sonra 12/15-lipoksigenazanın beyində səviyyəsi kəskin artır. Bu ferment OS-in modulyasiyasında vacib rol oynayır və oksidləşmiş fosfolipidlər əmələgətirməklə travmadansonrakı tutmaları artırır. Bundan əlavə, KBT-dən sonra

siklooksigenaza-2 fermentinin ekspressiyası kəskin böyüyür. Bu ferment $F_2$ və H prostaqlandinlərini sintez edərək OFF-nin yaranmasını artırır və astrositləri proiltihabi sitokinləri yaratmağa stimullaşdırır, bu isə OS-lə vasitəçilik edilmiş neyronal ölümə siqnal verir. Hesab olunur ki, sərbəst radikalların əmələgəlməsində iştirak edən fermentlərin (NADF-oksidaza, miyeloperoksidaza, 12/15-lipoksigenaza, siklooksigenaza-2) inhibitorlarından istifadəsi ilə TSE-nin və KBT-nin digər nəticələrinin inkişafının qarşısını almaq mümkündür.

TSE-də OS-in patogenetik rolunun gələcəkdə də öyrənilməsi bu xəstəlik haqqında biliklərin dərinləşdirilməsi, TSE-nin antioksidant farmakoterapiyasının yeni perspektivli istiqamətlərinin işlənməsi və tətbiqinə, profilaktik tədbirlərin effektivliyinin artırılmasına kömək edəcəkdir.

*Elm və Təhsildə Müasir Tələblər* **XIX Tezislər Toplusu/ 19 aprel / 227-231**
*Modern Requirements in Science and Education* **XIX Theses Collection/ 19 april / 227-231**
**https://doi.org/10.36719/2789-6919/XIX/TT/ET/2026**

**Firudin Hüseynov**
Azərbaycan Memarlıq və İnşaat Universiteti
magistrant
https://orcid.org/0009-0009-5571-0062
firidun099@gmail.com

# İqlim dəyişmələrinin su ehtiyatlarına təsiri

***Açar sözlər:*** *iqlim dəyişmələri, temperatur, artma, yağıntılar, su ehtiyatları, azalma*
***Keywords:*** *climate change, temperature, increase, precipitation, water resources, decrease*

Tezisdə qlobal iqlim dəyişmələrinin Azərbaycanın su ehtiyatlarına təsiri araşdırılmışdır. Müəyyən edilmişdir ki, 1961-1990-cı illərdəki dövrlə müqayisədə çayların orta axın sərfi 10%-dən 50%-ə kimi azalmışdır. Hətta bir sıra çaylar qurumuşdur. Bu, temperaturun artması, atmosfer yağıntılarının miqdarının azalması ilə əlaqədardır.

Müşahidələrə və meteoroloji mərkəzlərin verdiyi məlumatlara görə keçən əsrin 90-cı illərindən başlayaraq dünyada iqlim faktorlarının kəskin artıb-azalması, təbii hadisələrin sayının və xarakterinin dəyişməsi bir sıra fəsadların yaranmasına səbəb olmuşdur. Ələlxüsus, temperaturun artması və yağıntıların azalması yeraltı və yerüstü su ehtiyatlarının azalmasına gətirib çıxarmışdır. Dünya Bankının 2005-ci ildə Mərkəzi Asiya və Qafqaz ölkələrində quraqlıq haqqında hazırladığı hesabata görə 2050-ci ilə qədər Azərbaycanın su ehtiyatlarının 9,5-11,5 milyard $m^3$ azalması gözlənilir. Odur ki, iqlim dəyişmələrinin ölkənin su ehtiyatlarına təsirinin araşdırılması mühüm praktiki əhəmiyyət kəsb edir.

**https://doi.org/10.36719/2789-6919/XIX/TT/ET/2026**

**Cədvəl 1.**
Əsas çayların axını, $m^3$/san

| İllər üzrə dövrlər | İlin fəsilləri | | | | Orta illik |
|---|---|---|---|---|---|
| | Qış | Yaz | Yay | Payız | |
| **Kür çayı (Tiflis şəhəri)** | | | | | |
| 1961-1990 (təbii) 1990-1999 (müşahidə edilən) | 98<br>119 | 429<br>351 | 251<br>185 | 135<br>115 | 230<br>190 |
| **Kür şayı (Salyan şəhəri)** | | | | | |
| 1961-1990 (təbii) 1990-1999 (müşahidə edilən) | 403<br>500 | 1528<br>510 | 897<br>332 | 527<br>334 | 840<br>411 |
| **Araz (Qıvraq məntəqəsi)** | | | | | |
| 1961-1990 (təbii) 1990-1999 (müşahidə edilən) | 86,6<br>105 | 399<br>211 | 181<br>69 | 99<br>91 | 190<br>119 |
| **Alazan-Əyriçay** | | | | | |
| 1961-1990 (təbii) 1990-1999 (müşahidə edilən) | > 4<br>>7 | 169<br>126 | 19<br>110 | 107<br>86 | 127<br>104 |

*Təhlil və müzakirələr.* Qlobal iqlim dəyişmələri temperaturun, yağıntıların və buxarlanmanın miqdarının dəyişməsi ilə xarakterizə edilir. Bu iqlim faktorlarının dəyişməsi mütləq bir qanuna tabe olmur. Lakin iqlim amillərindən başlıcası hesab

**https://doi.org/10.36719/2789-6919/XIX/TT/ET/2026**

edilən havanın temperaturunun artması Yer kürəsində ətraf mühitin, o cümlədən atmosferin alt qatlarına külli miqdarda karbon və digər qazların atılması hesabına baş verir. İnsanların təsərrüfat fəaliyyəti nəticəsində iqlim ünsürləri (temperatur, yağıntılar, buxarlanma, küləklər və s.) ilkin vəziyyətini itirmişdir.

Dünya Bankının 2005-ci ildə Mərkəzi Asiya və Qafqaz ölkələrində quraqlıq haqqında hazırladığı hesabata görə havanın temperaturu 0,6$^0$C yüksəlmiş və yağıntıların miqdarı isə 10 %-ə qədər azalmışdır (Zasuxa, 2005). Eyni zamanda, ölkə ərazisinə düşən qar örtüyü də azalmağa başlamışdır. Həmin hesabata görə, Azərbaycanda 2050-ci ilə qədər su ehtiyatlarının 9,5-11,5 km$^3$ azalması gözlənilir.

Dünya Bankının verdiyi məlumatlara görə, Kür çayının axını təbii çoxillik axınla müqayisədə 2 dəfədən çox azalmışdır. Oxşar tendensiya digər çaylarda da müşahidə edilir (cəd.1). Kür çayının təbii axın sərfi Salyan məntəqəsində 1989-cu ilə kimi 840 m$^3$/san təşkil etdiyi halda, sonrakı illərdə 411 m$^3$/san olmuşdur. Son illərin məlumatlarında da Kür və digər çayların sərfinin mənsəb məntəqələrində azaldığı göstərilir.

Kür çayı üzərində yerləşən hidrometrik məntəqələrdən alınan məlumatlara görə, Kür çayının mənsəb hissəsində (Salyan məntəqəsində) çayın axını onun yuxarı hissəsindəki (Sabirabad rayonu, Surra məntəqəsi) axından bütün müşahidə dövrlərində azdır. 1937-1953-cü illərdə Kür çayının orta çoxillik məişət axını Surra məntəqəsində 765 m$^3$/san, 1954-1970-ci illərdə 566 m$^3$/san, 1971-2005-ci illər üzrə isə 450 m$^3$/san olduğu halda, bu qiymətlər Salyan məntəqəsində həmin dövrlərə müvafiq olaraq 660, 531 və 426 m$^3$/san təşkil etmişdir (cəd.2). Yəni, Kürün axını yuxarı hissəsində çox, mənsəb hissəsində isə azdır. İlk baxışda bu hal anomal hal kimi görünür. Əslində isə bu, yuxarıda qeyd edildiyi kimi, çay boyu müxtəlif yerlərdən suvarma və digər məqsədlər üçün suyun götürülməsi ilə əlaqədardır.

*Elm və Təhsildə Müasir Tələblər* **XIX Tezislər Toplusu/ 19 aprel / 227-231**
***Modern Requirements in Science and Education*** **XIX Theses Collection/ 19 april / 227-231**
**https://doi.org/10.36719/2789-6919/XIX/TT/ET/2026**

**Cədvəl 2.**

Kür çayının orta çoxillik su sərfləri, *m*$^3$/*san*

| Dövr, illər üzrə | Orta aylıq | | | | | | | | | | | | Orta illik |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | | 3 | 4 | 5 | 6 | 7 | 8 | | | 11 | 12 | |
| **Zərdab məntəqəsi** | | | | | | | | | | | | | |
| 1930-1953<br>1954-2002 | 24<br>2<br>38<br>4 | 25<br>5<br>39<br>9 | 349<br>370 | 805<br>318 | 1059<br>317 | 797<br>361 | 445<br>318 | 275<br>253 | 26<br>3<br>26<br>4 | 5<br>6<br>4 | 328<br>300 | 252<br>361 | 452<br>328 |
| **Surra (Sabirabad) məntəqəsi** | | | | | | | | | | | | | |
| 1937-1953<br>1954-1970<br>1971-2007 | 42<br>0<br>58<br>9<br>52<br>3 | 43<br>7<br>59<br>6<br>52<br>2 | 615<br>614<br>521 | 1270<br>806<br>536 | 1834<br>913<br>589 | 1411<br>687<br>507 | 791<br>395<br>341 | 484<br>326<br>328 | 42<br>3<br>39<br>9<br>30<br>6 | 5<br>0<br>3<br>2<br>1 | 524<br>486<br>406 | 443<br>554<br>498 | 765<br>566<br>450 |
| **Salyan məntəqəsi** | | | | | | | | | | | | | |
| 1937-1953<br>1954-1970<br>1971-2005 | 39<br>0<br>56<br>7<br>48<br>3 | 59<br>5<br>54<br>8<br>48<br>5 | 542<br>586<br>493 | 1142<br>771<br>512 | 1687<br>883<br>566 | 1226<br>666<br>514 | 636<br>360<br>325 | 331<br>272<br>250 | 31<br>5<br>35<br>4<br>29<br>4 | 7<br>1<br>3<br>0<br>8 | 452<br>405<br>384 | 386<br>526<br>477 | 660<br>531<br>426 |

1960-1970-ci illər ərzində Kürün orta sərfi 552 m$^3$/san, 1970-1980-cı illər ərzində 438 m$^3$/san, 1980-1990-cı illər ərzində 411 m$^3$/san, 2000-2010-cu illər ərzində isə 435 m$^3$/san təşkil etmişdir. Təhlillər göstərir ki, bu dəyişmə təbii iqlim amillərinin, əsasən yağıntıların miqdarının illər üzrə dəyişməsi ilə əlaqədardır.

1.Aparılmış araşdırmalar göstərir ki, dünyada, o cümlədən Azərbaycanda iqlim dəyişmələri və istiləşmə prosesi baş verir. Bu proseslər su ehtiyatlarının formalaşmasına güclü təsir göstərir. Odur ki, su ehtiyatlarından bir daha qənaətlə və səmərəli istifadə edilməlidir.

*Elm və Təhsildə Müasir Tələblər* **XIX Tezislər Toplusu/ 19 aprel / 227-231**
*Modern Requirements in Science and Education* **XIX Theses Collection/ 19 april / 227-231**
**https://doi.org/10.36719/2789-6919/XIX/TT/ET/2026**

2. Mövcud meteoroloji məlumatların təhlili göstərir ki, gözlənilmədən müxtəlif təbii hadisələr, o cümlədən şiddətli və davamlı quraqlıq baş verə bilər. Ona hazır olmaq üçün mövcud su ehtiyatlarının tədricən artırılması, suya qənaətedici texnika və texnologiyaların yaradılması, yeni aqrotexniki tədbirlərin işlənilməsi vacibdir.

**https://doi.org/10.36719/2789-6919/XIX/TT/ET/2026**

# RİYAZİYYAT VƏ MEXANİKA ELMLƏRİ

# MATHEMATICS AND MECHANICS SCIENCES

**Ruslan Həmidov**
Lənkəran Dövlət Universiteti
riyaziyyat üzrə fəlsəfə doktoru
https://orcid.org/0000-0002-6221-2610
rqamidov@mail.ru
**Almaz İsmayılova**
Lənkəran Dövlət Universiteti
magistrant
https://orcid.org/0009-0009-8233-3477
ismayilovaalmaz65@gmail.com

## Riyaziyyatın fizika və iqtisadiyyat fənlərilə əlaqəli tədrisinin metodik və riyazi modelləri

***Açar sözlər:*** *inteqrasiya, təhsil innovasiyaları, analitik düşüncə, riyazi model, fənlərarası əlaqə*
***Keywords:*** *integration, educational innovations, analytical thinking, mathematical model, interdisciplinary connection*

Müasir dövrdə təhsil sisteminin qarşısında duran ən mühüm vəzifələrdən biri şagirdlərdə təkcə birtərəfli faktiki biliklərin deyil, həm də ətraf aləmi bütöv qavramağa imkan verən inteqrativ təfəkkürün formalaşdırılmasıdır. Məlumdur ki, tədris olunan hər bir fənnin məzmununa daxil olan bilik, bacarıq və vərdişlərin mənimsənilməsi müəyyən ardıcıllığa əsaslanır ki, bu da təlim prosesində inteqrativ əlaqələrin daha aydın təsəvvür olunmasında mühüm rol oynayır. Eyni zamanda bəllidir ki, təhsildə fənlərarası inteqrasiya hər hansı fənn üzrə nəticələrin digər fənlər üzrə nəticələrlə əlaqəliliyini nəzərdə tutur (Abasov,

**https://doi.org/10.36719/2789-6919/XIX/TT/ET/2026**

2014). Bu yanaşma şagirdlərin mücərrəd riyazi anlayışları dərk etməsini asanlaşdırmaqla yanaşı, onlara elmlərin qarşılıqlı vəhdətdə olduğunu göstərir. Aydındır ki, riyaziyyatın tədrisi müasir təhsil sistemində yalnız düsturların və alqoritmlərin mexaniki şəkildə əzbərlədilməsi ilə məhdudlaşmır. Bu fənn həm də şagirdlərin analitik, yaradıcı və tənqidi düşüncə qabiliyyətlərinin inkişafı üçün əsas vasitədir. Riyaziyyatın digər fənlərlə, xüsusilə də fizika və iqtisadiyyat kimi tətbiqi sahələrlə inteqrasiyası şagirdlərin müşahidə, ölçmə, modelləşdirmə və əldə olunan nəticələrin düzgün qiymətləndirilməsi bacarıqlarını əhəmiyyətli dərəcədə artırır (Məmmədov, 2018). Belə bir yanaşma şagirdlərin mövzuya olan marağını yüksəldir və onların dərs prosesində passiv dinləyicidən fəal tədqiqatçıya çevrilməsini təmin edir (Polya, 1957). Fizika real dünyada baş verən proseslərin riyazi dillə təsvir olunduğu bir məkandır (Feyzullayev, 2015). Digər tərəfdən, riyaziyyatın iqtisadiyyat ilə inteqrasiyası şagirdlərdə kiçik yaşlarından riyazi modelləşdirmə mədəniyyətini və maliyyə savadlılığını formalaşdırır (Səmədov, 2019). İqtisadiyyat dərslərində tətbiq olunan faiz, mürəkkəb faiz artımı düsturları riyazi ardıcıllıqların əməli tətbiq sahəsidir. Bu səbəbdən də tədqiqat işində riyaziyyatın yalnız fizika və iqtisadiyyat fənləri ilə fənlərarası inteqrasiyasına baxılır və konkret tətbiqi modellərlə məsələ həlli şərh olunur (Gravemeijer və b., 2017).

Məsələ 1 (Fizika ilə inteqrasiya modeli):

Bir cisim $v_0 = 20$ m/s sürətlə şaquli yuxarı atılır. Sərbəst düşmə təcili $g = 10$ m/san$^2$ qəbul edilir.

Tapın:

1. Cismin maksimal qalxma hündürlüyünü;
2. Maksimal hündürlüyə çatma vaxtını;
3. Ümumi havada qalma müddətini.

Həlli:

**https://doi.org/10.36719/2789-6919/XIX/TT/ET/2026**

Hərəkətin tənliyi riyazi olaraq kvadratik funksiya şəklində ifadə olunur:

$$h(t) = v_0 t - \frac{1}{2} g t^2$$

1.Maksimal hündürlüyə çatma vaxtı: Maksimum hündürlükdə sürət sıfıra bərabərdir:

$$v = v_0 - gt = 0 \Rightarrow t = \frac{v_0}{g}$$

$$t = \frac{20}{10} = 2 \text{ saniyə}$$

2.Maksimal hündürlük: Alınan zaman qiymətini tənlikdə yerinə yazaq

$$h_{max} = v_0 t - \frac{1}{2} g t^2$$

$$h_{max} = 20 \cdot 2 - \frac{1}{2} \cdot 10 \cdot (2^2) = 40 - 20 =$$

20 metr

3.Ümumi havada qalma vaxtı: Hündürlük sıfır olanda:

$$h(t) = 0 \Rightarrow t = \frac{2v_0}{g}$$

$$t = \frac{2 \cdot 20}{10} = 4 \text{ saniyə}$$

Bu misal göstərir ki, riyaziyyatdakı kvadrat funksiyalar, parabolanın qrafiki fizikanın hərəkət qanunları ilə birbaşa əlaqəlidir.

Məsələ 2 (İqtisadiyyat ilə inteqrasiya modeli):

Bir şəxs bankdan 20 000AZN kredit götürür. Kreditin illik faiz dərəcəsi 12%-dir. Kredit 5 il müddətinə, bərabər aylıq ödənişlərlə (annuitet) qaytarılmalıdır.

Tapın:

1. Aylıq ödəniş məbləğini,
2. Ümumi ödənilən məbləği,
3. Faizlərə verilən ümumi məbləği.

Həlli:

Bərabər aylıq ödənişlərin hesablanması üçün Annuitet ödənişi düsturundan istifadə olunur:

**https://doi.org/10.36719/2789-6919/XIX/TT/ET/2026**

$$A= P \cdot \frac{r(1+r)^n}{(1+r)^n-1}$$

Burada

- P = 20000(əsas borc),
- İllik faiz = 12 % ⇒ aylıq faiz r = $\frac{0.12}{12}$ = 0.01,
- Müddət = 5 il ⇒ $5 \cdot 12 = 60$ ay

$$A \approx 444.89 \text{ AZN}$$

Nəticələr:

1.Aylıq ödəniş: təqribən 444.89 AZN

2.Ümumi ödəniş:

$$444.89 \cdot 60 \approx 26\,693.34 \text{ AZN}$$

3.Faizlərə verilən məbləğ:

$$26\,693.34 - 20\,000 = 6\,693.34 \text{ AZN}$$

Tədqiqat göstərir ki, riyaziyyatın digər fənlərlə, xüsusilə fizika və iqtisadiyyatla inteqrasiyalı tədrisi şagirdlərin həm nəzəri biliklərini, həm də praktiki bacarıqlarını eyni vaxtda inkişaf etdirir. Şagirdlər fərqli fənlərdən əldə etdikləri bilikləri sintez edərək problemlərə alternativ həll yolları tapır və gəldikləri elmi nəticələri məntiqi şəkildə əsaslandırırlar. Bu metod müasir kurikulumun tələb etdiyi XXI əsr bacarıqlarının formalaşmasına şərait yaradır. Aparılan elmi-metodik təhlillər əsasında riyaziyyat dərslərində fənlərarası əlaqələrin daha səmərəli qurulması üçün fənlər arası sinxron planlaşdırma aparılmalı və layihə əsaslı tapşırıqlar artırılmalıdır.

## Ədəbiyyat

1. Abasov, Ə. (2014). *Pedaqogika: dərslik*. Mütərcim.
2. Feyzullayev, C. (2015). *Fizika və riyaziyyatın vəhdətdə tədrisinin metodik əsasları*. Elm.
3. Gravemeijer, K., Stephan, M., Julie, C., Lin, F.L., Ohtani, M. (2017). What Mathematics Education May Prepare Students for the Society of the Future? *International Journal of Science and Mathematics Education, 15*(1), 105–123.

**https://doi.org/10.36719/2789-6919/XIX/TT/ET/2026**

4. Məmmədov, T. (2018). *Riyaziyyatın tədrisində fənlərarası əlaqələrin rolu*. ADPU nəşriyyatı.
5. Polya, G. (1957). *How to Solve It: A New Aspect of Mathematical Method*. Princeton University Press.
6. Səmədov, Q. (2019). *Məktəb riyaziyyat kursunda maliyyə və iqtisadiyyat elementlərinin öyrədilməsi*. Elm.

**https://doi.org/10.36719/2789-6919/XIX/TT/ET/2026**

**Vahab Həbibov**
Lənkəran Dövlət Universiteti
riyaziyyat üzrə fəlsəfə doktoru
https://orcid.org/0000-0002-1689-9132
vahab.hebibov@mail.ru
**Aysel Əliyeva**
Lənkəran Dövlət Universiteti
magistrant
https://orcid.org/0009-0000-2365-7943
aysel.aliyeva823@gmail.com

# Ümumtəhsil məktəblərində dərinləşdirilmiş riyaziyyat kursunda funksiya anlayışının formalaşdırılması metodikası

***Açar sözlər***: *funksiya, riyazi modelləşdirmə, interaktiv təlim, vizuallaşdırma, metodika, GeoGebra, Desmos*
***Keywords***: *function, mathematical modeling, visualization, interactive learning, GeoGebra, Desmos, methodology*

Funksiya anlayışı riyaziyyat təliminin əsas anlayışlarından biridir və həm ali, həm də ümumtəhsil səviyyələrində mühüm yer tutur. Müasir təlim metodikası tələb edir ki, funksiyanın tədrisi sadəcə hesablamalarla məhdudlaşmasın, həm də onun məntiqi, tətbiqi və qrafik mahiyyəti dərin şəkildə öyrədilsin. Bu istiqamətdə texnologiya inteqrasiyası (GeoGebra, Desmos və s.) mühüm rol oynayır.

Funksiya anlayışının mərhələli formalaşdırılması: 1. Əyani mərhələ: Real həyatdan götürülən asılılıqlar üzərində funksiyanın mahiyyətinin izahı (məsələn, məsafə–zaman, qiymət–məhsul əlaqəsi); 2. Simvolik mərhələ: Riyazi ifadələr vasitəsilə asılılığın modelləşdirilməsi; 3. Qrafik mərhələ: Funksiyanın qrafikinin qurulması və onun xüsusiyyətlərinin araşdırılması; 4.

*Elm və Təhsildə Müasir Tələblər* **XIX Tezislər Toplusu/ 19 aprel / 237-239**
*Modern Requirements in Science and Education* **XIX Theses Collection/ 19 april / 237-239**
**https://doi.org/10.36719/2789-6919/XIX/TT/ET/2026**

Analitik mərhələ: Funksiyanın artma, azalma, ekstremum və s. kimi xassələrinin öyrənilməsi.

Bu mərhələlərin inteqrasiyası şagirdlərdə funksional təfəkkürün sistemli formalaşmasına gətirib çıxarır. Kompüter texnologiyalarının rolu, Funksiya anlayışının tədrisində interaktiv proqramlar mühüm vasitədir. GeoGebra və Desmos proqramları vasitəsilə şagirdlər funksiyanın qrafiklərini qurur, parametrləri dəyişərək nəticəni müşahidə edirlər.

Məsələ: 1. Bir mağazada hər bir kitabın qiyməti 15 AZN-dir. Mağaza eyni zamanda 5 AZN endirim kartı da təklif edir. Bir müştəri x ədəd kitab alırsa, ödəyəcəyi ümumi məbləğ funksiyası belədir:

$S(x) = 15x – 5$

Tapşırıqlar:

1. Müştəri 4 kitab aldıqda nə qədər ödəyəcək?

Həlli:

1. 4 kitab üçün ödəniş:

$S(4) = 15•4 – 5 = 60 – 5 = 55$

Cavab: Müştəri 4 kitab üçün 55 AZN ödəyəcək.

Məsələn, $f(x) = x^2$ və $g(x) = x^2 + 3$ funksiyalarının qrafiklərini müqayisə etməklə şagirdlər qrafikin yuxarı istiqamətdə paralel surətdə yerini dəyişdiyini aydın şəkildə görürlər. Belə tapşırıqlar funksiyanın parametrlərindən asılı dəyişməsini interaktiv şəkildə nümayiş etdirir və anlayışın dərinləşməsinə xidmət edir. Hər dərsdə nəzəri anlayışlar praktiki nümunələrlə tamamlanmalıdır. Şagirdlərin fəal iştirakı və tədqiqat yönümlü tapşırıqlara cəlb olunması təmin edilməlidir. İnteraktiv və vizual metodlardan istifadə dərs prosesini daha məhsuldar edir. Müəllimlər texnoloji vasitələri sistemli və məqsədyönlü şəkildə tətbiq etməlidirlər. Dərinləşdirilmiş funksiya anlayışının formalaşdırılması riyaziyyat tədrisində məntiqi və yaradıcı təfəkkürün inkişafını təmin edir. Kompüter əsaslı metodların istifadəsi dərslərin elmi səviyyəsini yüksəldir,

**https://doi.org/10.36719/2789-6919/XIX/TT/ET/2026**

funksional təfəkkürün formalaşdırılması müasir funksiyanın məzmununun daha aydın qavranılmasına şərait yaradır. Beləliklə, riyaziyyat təliminin əsas istiqamətlərindən biri kimi çıxış edir.

## Ədəbiyyat

1. Azərbaycan Respublikası Təhsil Nazirliyi. (2020). *Ümumtəhsil məktəbləri üçün riyaziyyat fənn kurikulumu*.
2. NCTM. (2020). *Principles and Standards for School Mathematics*.
3. Stroud, K., Booth, D. (2013). *Advanced Engineering Mathematics*. Palgrave Macmillan.
4. Vinner, M. (1983). *Concept Image and Concept Definition in Mathematics Learning*. Educational Studies in Mathematics.

*Elm və Təhsildə Müasir Tələblər* **XIX Tezislər Toplusu/ 19 aprel / 240-246**
***Modern Requirements in Science and Education*** **XIX Theses Collection/ 19 april / 240-246**
**https://doi.org/10.36719/2789-6919/XIX/TT/ET/2026**

# TEXNİKA ELMLƏRİ

# TECHNICAL SCIENCES

**Elnur Abbasov**
Azərbaycan Dövlət Dəniz Akademiyası
texnika üzrə fəlsəfə doktoru
https://orcid.org/0009-0002-6687-6892
abbasovelnur1980@mail.ru
**Fərqan Kəlbiyev**
Azərbaycan Dövlət Dəniz Akademiyası
texnika üzrə fəlsəfə doktoru
https://orcid.org/0009-0005-7784-6949
fmkelbiyev@mail.ru
**Eldar Temirbulatov**
Azərbaycan Dövlət Dəniz Akademiyası
doktorant
https://orcid.org/0009-0003-0403-3475
eldar.temirbulatov@gmail.com

## "Yaşıl" gəmiçilik konsepsiyasının inkişafı və onun dəniz nəqliyyatına təsiri

***Açar sözlər:*** *yaşıl gəmiçilik, dəniz nəqliyyatı, ekoloji təhlükəsizlik, alternativ yanacaq, "yaşıl dəhlizlər"*
***Keywords:*** *green shipping, maritime transport, environmental safety, alternative fuels, green shipping corridors*

Tezisdə "yaşıl" gəmiçilik konsepsiyasının formalaşması və inkişaf dinamikası müasir beynəlxalq normativ tələblər, enerji keçidi və rəqəmsal transformasiya kontekstində sistemli şəkildə ümumiləşdirilir. Təhlillər göstərir ki, dəniz nəqliyyatında ekoloji tələblərin sərtləşdirilməsi ilk növbədə Beynəlxalq Dəniz

*Elm və Təhsildə Müasir Tələblər* **XIX Tezislər Toplusu/ 19 aprel / 240-246**
***Modern Requirements in Science and Education*** **XIX Theses Collection/ 19 april / 240-246**
**https://doi.org/10.36719/2789-6919/XIX/TT/ET/2026**

Təşkilatının (İMO) MARPOL Konvensiyasının Əlavə VI üzrə "IMO 2020" qlobal kükürd limitinin tətbiqi, eləcə də istixana qazlarının azaldılması üzrə 2023-cü il IMO Strategiyasının hədəfləri ilə şərtlənir. "IMO 2020" çərçivəsində gəmi yanacağında kükürdün qlobal limitinin 0,50%-ə endirilməsi hava çirklənməsinin azalmasına yönəlmiş fundamental addım olmuş, eyni zamanda, aşağı kükürdlü yanacaqlara keçid, tüstü qazlarının təmizləmə sistemləri və alternativ yanacaqların (LNG, bioyanacaq, metanol, ammonyak və s.) genişlənməsini sürətləndirmişdir. 2023-cü il IMO İQ Strategiyası isə karbon intensivliyinin 2030-a qədər ən azı 40% azaldılması və enerji balansında sıfır və ya sıfıra yaxın emissiyalı texnologiya/ yanacaq payının minimum 5% səviyyəsinə çatdırılması kimi yeni ambisiya səviyyəsini müəyyən etmişdir. Tezisdə, həmçinin, "yaşıl nəqliyyat dəhlizləri" yanaşmasının dəyər zənciri üzrə koordinasiya, liman infrastrukturu və yanacaq təminatı mexanizmləri baxımından rolu, eləcə də "yaşıl" və heyətsiz gəmiçilik konsepsiyalarının inteqrasiyası nəticəsində yaranan sinergetik effekt əsaslandırılır (IMO 2020 – cutting sulphur oxide emissions).

Beynəlxalq ticarətin böyük hissəsi dəniz nəqliyyatı ilə icra olunduğundan bu sektorun ekoloji izinin azaldılması davamlı inkişaf gündəliyinin əsas istiqamətlərindən biridir. Son illərdə normativ mühitin sərtləşməsi, alternativ yanacaq bazarlarının genişlənməsi və "yaşıl" logistika arxitekturalarının (liman–gəmi–enerji təminatı) formalaşması "yaşıl" gəmiçilik konsepsiyasını sadəcə ekoloji təşəbbüs deyil, həm də rəqabətlilik və risklərin idarə edilməsi alətinə çevirmişdir.

Tədqiqatın məqsədi "yaşıl" gəmiçilik konsepsiyasının inkişaf məntiqini ümumiləşdirmək, onun dəniz nəqliyyatına texniki–təşkilati təsir mexanizmlərini sistemləşdirmək və "yaşıl" + heyətsiz gəmiçilik inteqrasiyasına əsaslanan tətbiqi tövsiyələr formalaşdırmaqdır.

Tədqiqatın obyekti isə ekoloji tələblərin sərtləşməsi və enerji keçidi fonunda dəniz daşımalarının təşkili və istismarı sistemidir.

Araşdırmanın əsas predmeti "yaşıl" gəmiçiliyin normativ-hüquqi bazası, alternativ yanacaqların tətbiqi, enerji səmərəliliyi tələbləri, liman infrastrukturu və rəqəmsal (avtonom) idarəetmə texnologiyalarının inteqrasiya mexanizmləri təşkil edir.

Tədqiqatlarda müqayisəli təhlil, tarixi-məntiqi yanaşma, sistemli təhlil metodları istifadə olunub (2023 IMO Strategy on Reduction of GHG Emissions from Ships).

Normativ tənzimləmənin sərtləşməsi: "IMO 2020" və MARPOL Əlavə VI. 2020-ci il 1 yanvar tarixindən etibarən "IMO 2020" qlobal kükürd limiti qüvvəyə minmiş və ECA zonalarından kənarda yanacaqda kükürd miqdarının 0,50% ilə məhdudlaşdırılmasını tələb etmişdir. Bu tələbin sektor üçün əsas praktiki nəticələri aşağıdakı transformasiya xəttində yanacaq portfeli, texnoloji tədbirlər və alternativlər ümumiləşdirilə bilər. "IMO 2020" yalnız hava çirklənməsinin azaldılması deyil, eyni zamanda "yaşıl" gəmiçiliyin bazis "trigger" mexanizmlərindən biri kimi çıxış etmişdir.

İstixana qazları üzrə hədəflər: IMO-nun 2023-cü il İQ Strategiyası dəniz nəqliyyatı üçün daha yüksək ambisiya səviyyəsi müəyyən edir. Bu ambisiyaya karbon intensivliyində beynəlxalq gəmiçilik üzrə orta hesabla 2030-a qədər ən azı 40% azaldılma, yanacaq/texnologiya keçid yani 2030-a qədər sıfır və ya sıfıra yaxın emissiyalı texnologiya/yanacaq payının ən azı 5% (10%-a can atmaqla) olması, həmçinin uzunmüddətli hədəf kimi sektor üzrə 2050-ci ilə qədər net-zero istiqaməti prioritetləşdirilir. Bu çərçivə "yaşıl" gəmiçiliyi texniki modernləşmə və enerji keçidi kimi iki paralel istiqamətdə irəli aparır.

Yeni tikilən gəmilərin enerji səmərəliliyi gündəliyinin mərkəzində EEDI yanaşması dayanır və bununla bağlı IMO-nun

**https://doi.org/10.36719/2789-6919/XIX/TT/ET/2026**

MEPC sənədləri metodoloji bazanı formalaşdırır. Sənaye proqnozları da göstərir ki, 2030–2040 dövründə rentabelliyin qorunmasında əməliyyat səviyyəsində enerji səmərəliliyi tədbirləri "ilk dalğa" həllər kimi kritik rol oynayır.

Alternativ yanacaqlar və infrastruktur: Təcrübədə LNG bir çox operatorlar üçün "keçid yanacağı" funksiyasını daşıyır. SOx azaldılması və NOx/$CO_2$ üzrə nisbi üstünlüklərlə yanaşı, əsas məhdudiyyət uzunmüddətli perspektivdə net-zero trayektoriyasının təmininə dair tələblərin artmasıdır. IMO hədəflərinə uyğunlaşma üçün isə yanacaqların həyat dövrü yanaşması və liman–bunker infrastrukturu vacib olur. Eyni zamanda "yaşıl" ammonyak/hidrogen kimi həllərin genişlənməsi üçün pilot və demonstrasiya layihələrinin, xüsusən bunkerləmə təhlükəsizliyi və standartlaşdırma aspektlərinin önəmi vurğulanır.

"Yaşıl nəqliyyat dəhlizləri" konsepsiyası sıfır (sıfıra yaxın) emissiyalı gəmilərin konkret marşrutlarda dəstəklənməsi üçün limanlar, yanacaq təchizatçıları, yük sahibləri və tənzimləyicilər arasında koordinasiyanı tələb edir. Bu yanaşmanın yayılması barədə beynəlxalq hesabatlar "dəhliz" təşəbbüslərinin artdığını və əsas çağırışın məhz dəyər zənciri üzrə maliyyələşmə–standart–infrastruktur sinxronluğu olduğunu göstərir.

Avropa İttifaqının FuelEU Maritime tələbi də limanlara çağıran gəmilər üçün enerji intensivliyinin mərhələli şəkildə azaldılmasını hədəfləməklə bu koordinasiyanı normativ səviyyədə gücləndirir (IMO's work to cut GHG emissions from ships– London: IMO, 2023).

https://doi.org/10.36719/2789-6919/XIX/TT/ET/2026




***Şəkil 1.** Dəniz nəqliyyatında "yaşıl" gəmiçiliyə keçidin mərhələli alqoritmi*

**https://doi.org/10.36719/2789-6919/XIX/TT/ET/2026**

Heyətsiz gəmiçilik və "yaşıl" konsepsiya: Heyətsiz/avtonom gəmiçiliyin inkişafı təhlükəsizlik, insan amili risklərinin azalması, marşrut və enerji sərfiyyatının optimallaşdırılması baxımından "yaşıl" gündəliyi tamamlayır. İnkişaf trayektoriyası göstərir ki, avtonom idarəetmənin real tətbiqi üçün sahil əsaslı idarəetmə, rabitə etibarlılığı, kibertəhlükəsizlik, hüquqi məsuliyyət bölgüsü və liman prosedurlarında uyğunlaşdırma tələb olunur. Bu səbəbdən "yaşıl" + avtonom inteqrasiyası, düzgün qurulduqda, həm emissiyaların azalmasına, həm də əməliyyat xərclərinin optimallaşmasına gətirə biləcək sinergetik model kimi qiymətləndirilə bilər.

Aparılmış ümumiləşdirmələr əsasında aşağıdakı nəticələr çıxarılır (İMO Resolution MEPC, 2018):

1. Dəniz nəqliyyatında "yaşıl" transformasiyanın əsas drayveri normativ tələblərin ardıcıl sərtləşməsidir: "IMO 2020" kükürd limiti və 2023 IMO İQ Strategiyası sektorda yanacaq, texnologiya və idarəetmə səviyyələrində çevrilməni sürətləndirir.
2. Alternativ yanacaqlara keçid yalnız gəmi üzərində texniki dəyişiklik deyil; liman infrastrukturu, bunker təchizatı, standartlaşdırma və investisiya mexanizmlərinin eyni vaxtda formalaşdırılmasını tələb edir.
3. "Yaşıl nəqliyyat dəhlizləri" marşrut səviyyəsində net-zero hədəflərə yaxınlaşmanı praktikləşdirən prioritet mexanizmdir və dəyər zəncirinin bütün iştirakçılarının koordinasiyasını tələb edir.
4. Heyətsiz/avtonom gəmiçilik texnologiyalarının "yaşıl" konsepsiya ilə inteqrasiyası enerji optimallaşdırması, təhlükəsizlik və əməliyyat xərclərinin azalması baxımından sinerji yaradır; lakin bunun üçün hüquqi və infrastruktur hazırlıq paralel aparılmalıdır.

*Elm və Təhsildə Müasir Tələblər* **XIX Tezislər Toplusu/ 19 aprel / 240-246**
*Modern Requirements in Science and Education* **XIX Theses Collection/ 19 april / 240-246**
**https://doi.org/10.36719/2789-6919/XIX/TT/ET/2026**

## Ədəbiyyat

1. International Maritime Organization. (2020). *IMO 2020 – cutting sulphur oxide emissions: Hot Topic*. IMO.
2. International Maritime Organization. (2023). *2023 IMO Strategy on Reduction of GHG Emissions from Ships*. IMO.
3. International Maritime Organization. (2023). *IMO's work to cut GHG emissions from ships (candidate mid-term measures)*. IMO.
4. International Maritime Organization. (2018). *Resolution MEPC.308(73) (2018 Guidelines on the method of calculation of the attained EEDI for new ships)*. IMO.

*Elm və Təhsildə Müasir Tələblər* **XIX Tezislər Toplusu/ 19 aprel / 247-250**
*Modern Requirements in Science and Education* **XIX Theses Collection/ 19 april / 247-250**
**https://doi.org/10.36719/2789-6919/XIX/TT/ET/2026**

**Məftun Əliyev**
Naxçıvan Dövlət Universiteti
fizika üzrə fəlsəfə doktoru
https://orcid.org/0009-0001-9956-6068
meftunaliyev@ndu.edu.az
**Aysel Hüseynova**
Naxçıvan Dövlət Universiteti
magistrant
https://orcid.org/0009-0003-2445-295X
aysella2002@gmail.com

# İnformasiya təhlükəsizliyinin sosial anatomiyası insan davranışı prizmasından

***Açar sözlər:*** *informasiya təhlükəsizliyi, insan faktoru, kiberdavranış, sosial mühəndislik, koqnitiv qərəzlər, rəqəmsal dözümlülük*

***Keywords:*** *information security, human factors, cyberbehavior, social engineering, cognitive biases, digital resilience*

Müasir dövrdə informasiya təhlükəsizliyi artıq sadəcə texnoloji bir çağırış deyil, həm də insan davranışı, qərar qəbulu və təşkilati mədəniyyətin kəsişməsində dayanan sosial bir fenomendir (Khadka və Ullah, 2025). Texnoloji tərəqqinin təkbaşına kifayət etmədiyi bu mühitdə, insan faktoru həm boşluqların yaranmasında, həm də kiber davamlılığın qurulmasında həlledici rol oynayır. Tədqiqatlar göstərir ki, kiberhücumların böyük bir hissəsi, xüsusilə sosial mühəndislik və fişinq, məhz insan zəifliklərindən istifadə edərək qabaqcıl texniki müdafiə sədlərini aşa bilir (Khadka və Ullah, 2025).

*İnsan davranışı və risk profilləri* kiber məkanda təhlükəsizlik siyasətlərinin bünövrəsini təşkil edir (Przymus və b.,

2024). Xüsusilə uzaqdan iş mühitində kiberdavranışların diaqnostikası fərdləri dörd fərqli profil üzrə qruplaşdırmağa imkan verir: "Ehtiyatlı", "Ehtiyatsız", "Ağıllı" (Reasonable) və "Risk axtaranlar" (Przymus və b., 2024, s. 1437). Bu təsnifat göstərir ki, kiberdavranış dinamikasını anlamaq daha humanist və effektiv təhlükəsizlik siyasətlərinin hazırlanması üçün zəruridir (Przymus və b., 2024, s. 1438).

İnsan faktorunun mürəkkəbliyini artıran digər mühüm aspekt *koqnitiv qərəzlərdir*. Məsələn, *optimistlik qərəzi* (optimism bias) fərdlərin mənfi kiber hadisələrin onların başına gəlmə ehtimalını aşağı qiymətləndirməsinə səbəb olur (Eling və Jung, 2025). Bu cür qərəzlər, hətta kiber risklər artsa belə, qərar qəbul edənlərin əlavə risk idarəetmə tədbirlərinə və ya kiber sığortaya investisiya qoymaqdan imtina etməsi ilə nəticələnir (Eling və Jung, 2025). Həmçinin, "həddindən artıq inam" (overconfidence bias) fərdlərin öz kiber təhlükəsizlik qabiliyyətlərini reallıqdan yüksək görməsinə və nəticədə hücumların hədəfinə çevrilməsinə yol açır (David və Bode-Asa, 2024).

Sosial mühəndislik, insan etibarını və səhvlərini manipulyasiya edərək məxfi məlumatları əldə edən bir təcrübədir (David və Bode-Asa, 2024). Hücum edənlər insanların maraq, qorxu, həyəcan və təciliyyət hisslərindən məharətlə istifadə edirlər (David və Bode-Asa, 2024). Bu prosesdə Çaldininin (Cialdini) "avtoritet", "sosial sübut", "rəğbət", "qarşılıqlılıq" və "qıtlıq" kimi inandırma prinsipləri fərdlərin qərar vermə prosesini dumanlandırır (David və Bode-Asa, 2024). Məsələn, fişinq e-məktublarında ən çox "Rəğbət, Oxşarlıq və Aldatma" (LSD) prinsipləri istifadə olunur ki, bu da insanların özlərinə bənzər və ya tanış hesab etdikləri mənbələrə etibar etmə meylinə əsaslanır (Ferreira və b., 2015).

Peşəkar sosial şəbəkələrdə (məsələn, LinkedIn) fərdlərin məlumat paylaşma davranışı *məxfilik hesabı* (privacy calculus) nəzəriyyəsi ilə izah edilir (Eitiveni və b., 2023). İstifadəçilər

**https://doi.org/10.36719/2789-6919/XIX/TT/ET/2026**

məlumat paylaşarkən gözlənilən faydaları (karyera yüksəlişi, şəbəkə qurmaq, özünü təqdim etmə) potensial risklərlə (məlumatın sui-istifadəsi, identikliyin oğurlanması) müqayisə edirlər (Eitiveni və b., 2023). Perseptual nəzarət (perceived control) və xidmət təminatçısına olan etibar bu balansın qurulmasında əsas amillərdir (Eitiveni və b., 2023).

Nəticə olaraq, informasiya təhlükəsizliyinin təmin edilməsi yalnız texnoloji həllər deyil, həm də psixoloji dözümlülük, adaptiv təlim və rəqəmsal savadlılığın inteqrasiyasını tələb edir (Khadka və Ullah, 2025). İnsanları "ən zəif bənd" kimi görməkdən uzaqlaşaraq, onları kiber müdafiənin ayrılmaz bir hissəsi kimi gücləndirmək müasir kiber ekosistemlərin əsas hədəfi olmalıdır (Khadka və Ullah, 2025).

## Ədəbiyyat

1. David, U.G., & Bode-Asa, A. (2024). *An Overview of Social Engineering: The Role of Cognitive Biases Towards Social Engineering-Based Cyber-Attacks, Impacts and Countermeasures*. Bournemouth University.
2. Eitiveni, I., Hidayanto, A.N., Dwityafani, Y.A., & Kumaralalita, L. (2023). Self-Disclosure on Professional Social Networking Sites: A Privacy Calculus Perspective. *Human Behavior and Emerging Technologies*.
3. Eling, M., & Jung, K. (2025). Optimism bias and its impact on cyber risk management decisions. *Risk Sciences*, *1*, 100001.
4. Ferreira, A., Coventry, L., & Lenzini, G. (2015). *Principles of Persuasion in Social Engineering and Their Use in Phishing*. University of Luxembourg & Northumbria University.
5. Khadka, K., & Ullah, A. B. (2025). Human factors in cybersecurity: an interdisciplinary review and framework

proposal. *International Journal of Information Security*, *24*(119).

6. Przymus, Z., Małagocka, K., & Przybyszewski, K. (2024). The human factor in cybersecurity: from risk profiles to resilience. *Procedia Computer Science*, *246*, 1437–1445.

**https://doi.org/10.36719/2789-6919/XIX/TT/ET/2026**

**Nigar Abilova**
Azerbaijan State Oil and Industry University
https://orcid.org/0009-0007-2369-6978
abilova.nigar87@gmail.com

# Integratıon of Intellectual Informatıon Technologıes into Management Mechanısms of the Oıl and Gas Productıon Chaın

***Keywords:*** *oil and gas, intelligent technologies, production, risk management, efficiency*
***Açar sözlər:*** *neft-qaz, intellektual texnologiyalar, hasilat, risklərin idarəsi, səmərəlilik*

The thesis shows that the integration of intelligent information technologies (IIT) into the oil and gas production chain increases the efficiency of operations, optimizes the use of resources, reduces technical and environmental risks, facilitates the management of production, processing and transportation processes, and provides flexibility in decision-making. IIT increases the efficiency of operations through real-time monitoring of wells and equipment, multi-criteria analysis and predictive models, allows for cost optimization and production sustainability, while also taking into account challenges such as cybersecurity, high investment costs and lack of qualified personnel.

Oil and gas production is a chain. It has geological exploration, production, processing, transportation and sales stages. At each stage, in fact, a lot of data is generated. At the exploration stage, the main focus is on geological samples, that is, seismic and other geophysical data are also collected. Systematic collection, structuring and analysis of data help to accurately determine the presence of deposits and probable

*Elm və Təhsildə Müasir Tələblər* **XIX Tezislər Toplusu/ 19 aprel / 251-254**
***Modern Requirements in Science and Education* XIX Theses Collection/ 19 april / 251-254**
**https://doi.org/10.36719/2789-6919/XIX/TT/ET/2026**

reserves. Modern oil and gas companies no longer look only at old methods, they also turn to geological modeling and estimation systems based on intelligent information technologies. This helps to use geological data more efficiently and reduces investment risks. At the production stage, real-time collection and processing of operational data plays a key role. Monitoring indicators such as well performance, product volume and quality, equipment telemetry system increases productivity and helps to detect accidents and malfunctions in a timely manner. At this stage, the data collected through IoT sensors and telemetry systems is large in volume and multifaceted, their automated analysis increases production continuity, reduces operating costs and allows for more efficient use of labor.

To make informed decisions, it's crucial to monitor and analyze data from various stages of oil and gas operations. This includes keeping an eye on things like pressure, temperature, and energy consumption in real-time, which helps ensure everything runs safely and efficiently. Automatic control systems, like Supervisory Control and Data Acquisition, play a key role in this by constantly reviewing data to reduce accidents, save energy, and make equipment last longer. When it comes to sales, having the right data on market prices, supply, and logistics is vital for making strategic decisions. By using advanced technologies, companies can directly analyze market trends, predict how much they'll sell, and manage their logistics more effectively. The data from each stage is vast, complex, and always changing, making it impossible to rely solely on traditional management methods to make accurate decisions. Therefore, collecting, processing, integrating, and analyzing data correctly is extremely important. It gives oil and gas companies a significant advantage in technical, financial, and environmental areas. By doing this, they can make better decisions, reduce risks, and improve their

*Elm və Təhsildə Müasir Tələblər* **XIX Tezislər Toplusu/ 19 aprel / 251-254**
***Modern Requirements in Science and Education*** **XIX Theses Collection/ 19 april / 251-254**
**https://doi.org/10.36719/2789-6919/XIX/TT/ET/2026**

overall performance. This approach is essential in today's fast-paced and competitive market, where having the right data at the right time can make all the difference. In essence, the ability to manage and analyze large amounts of data effectively is no longer a luxury, but a necessity for success in the oil and gas industry. It's about turning data into actionable insights that drive business forward, while also ensuring safety, efficiency, and sustainability. By embracing this data-driven approach, companies can stay ahead of the curve and achieve their goals in a rapidly changing world.

Intelligent information technologies play a big role in managing information flow, but they also help with analysis, forecasting, and making good decisions. For example, artificial intelligence looks at geological data and gives a clear picture of what deposits are really capable of. Sensors from the Internet of Things keep an eye on wells and equipment in real time during production, spot problems before they happen, and reduce the risk of accidents. These technologies make operations more efficient, use resources better, cut down on energy and raw materials, and help keep costs under control. They also reduce technical and environmental risks, help companies follow environmental rules, and make sure industrial operations are sustainable. With real-time monitoring, simple data analysis, and predictive models, operations become safer and more sustainable from both a technical and environmental point of view. This is because intelligent information technologies provide a more accurate and detailed understanding of the production process, allowing for better decision-making and more effective management of resources. As a result, companies can optimize their operations, reduce waste, and improve their overall performance.

The Internet of Things plays a big role in the oil and gas industry, from start to finish. When companies are looking for

**https://doi.org/10.36719/2789-6919/XIX/TT/ET/2026**

new places to drill, they use machine learning to study the earth and figure out which areas might produce the most oil. Sensors are also used to keep an eye on how wells are doing, checking things like pressure and temperature in real time. This helps prevent equipment from breaking down and reduces the chance of accidents. As the oil is being processed and transported, special systems like the Control and Data Acquisition System are used to monitor the pipelines. These systems check pressure, temperature, and flow rate, which helps save energy and prevent accidents. When it's time to make decisions, companies look at lots of different factors, including financial, technical, environmental, and social concerns. They use special tools like analytical dashboards to visualize the data and make quick, informed decisions. This helps them prioritize projects and make the best choices for the company and the environment.

The application of IIT increases the efficiency of the production chain, reduces risks, increases flexibility in decision-making and provides transparency in the production process. Regulating energy use during processing greatly reduces operating costs, while pipeline monitoring minimizes the risk of accidents and leaks. However, the application of these technologies raises cybersecurity issues, requires a large initial cost and creates difficulties such as a shortage of qualified workers who can work with IIT.

As a result, the integration of intelligent information technologies into the oil and gas production chain provides a strategic advantage and increases efficiency. These technologies not only optimize financial indicators, but also allow for effective management of technical, environmental and social aspects. Production continuity is ensured, operating costs are reduced and risks are managed in advance, thus making the production chain more sustainable and transparent.

# İÇİNDƏKİLƏR
# CONTENTS

## HUMANİTAR VƏ İCTİMAİ ELMLƏR
## HUMANITIES AND SOCIAL SCIENCES

**Təranə Əzimova**
Mir Cəlalın romanlarında realist təsvir, sosial tənqid və milli ideya ........ 7
**Leyla Məcidova, Mətanət Rzayeva**
Arxeoloji kolleksiyaların mühafizəsi və təhlükəsizliyinə dair yeni strategiyalar ........ 15
**Faidə İsayeva**
Müxtəlifsistemli dillərdə sifətin tədrisi yolları ........ 19
**Günel Allahverdiyeva**
Kalka metodunun xüsusi adların üslubi ifadəsindəki funksiyası ........ 22
**Yaqub Səmədov**
Müasir dövrdə Azərbaycan – Özbəkistan hərbi əməkdaşlığının əhəmiyyəti ........ 25
**Mobil Məcidov, Seymur Süleymanov**
Yeni texnologiyalar dövründə elm-təhsil əlaqəsi ........ 28
**Maya Qasımova**
İbtidai məktəbdə mətn üzrə işin təkmilləşdirilməsi yolları: yeni tapşırıq modelləri, yaradıcı və interaktiv üsullar ........ 34
**Eynur Rüstəmov**
Cinayət hüququnun əsas xüsusiyyətləri ........ 38

**Sevda Ağayeva**
Dilçilikdə söz birləşməsi anlayışının əhəmiyyəti və tətbiqi .... 42
**Fatma Əliyeva**
Tərcümə sənəti dillərarası və mədəniyyətlərarası ünsiyyətin bir forması kimi ........................................................................ 45
**Nüşabə İsmayılova**
Təhsildə motivasiya ................................................................ 47
**Aytən İbrahimova**
Qərbi Azərbaycan folklorunda Vətən anlayışı və yurd itkisi motivləri ........................................................................ 51
**Ülviyyə Quliyeva**
Qarabağ bölgəsinin biomüxtəlifliyinin araşdırılması və onun mühafizəsi ........................................................................ 58
**Nazilə Rəhimova**
İngilis dilində təyin budaq cümlələrinin qrammatik Quruluşu ........................................................................ 63
**Tünzalə Yusubova**
Xarici dil tədrisində qiymətləndirmə savadlılığı: müasir problemlər və konseptual yanaşmalar........................................ 68
**Nigar Gasimova**
Hyperbole and Litotes as Figures of Speech: A Semantic and Stylistic Analysis................................................................ 74
**Tərlan Əliyeva**
Ümumtürk mədəniyyətinin məhsulu olan kitabələrimizin öyrənilməsi tarixi .................................................................. 79
**Gülnarə Həsənova**
Tərcümədə fon biliklərinin və mədəni kontekstin rolu............ 85
**Nuranə Teymurlu**
XIX əsrin İrəvanında təhsil ocaqları ........................................ 89
**Aidə Əbilzadə**
Cümlə anlayışının formalaşdırılması ........................................ 93

**Nabat Xanlarzadə**
Müasir cəmiyyətdə uşaqlar arasında təhsil bərabərliyi............ 96
**Lamiyə Süleymanlı**
Azərbaycanda gənclərin əmək bazarına inteqrasiyasında dövlət siyasətinin rolu............................................................. 98
**Turan Muxtarova**
Rəsmi-işgüzar üslubda olan mətnlərin tərcüməsinin qrammatik xüsusiyyətləri ..................................................... 101
**Zərmin Baxşiyeva**
İngilis dilində sinonimlərin tədrisinə müasir yanaşmalar...... 105
**Ruqiyyə Atayeva**
Ali məktəbin profilləşməsi və layihə idarəetməsinin strateji əhəmiyyəti ........................................................................ 107
**Pərvin Mayilova**
Azərbaycan dilinin orfoepiya qaydalarının ibtidai siniflərdə tədrisi.............................................................................. 112
**Alidə Manaflı**
İrəvan kişi gimnaziyası və görkəmli maarifçiləri.................. 115
**Arzu Atakişiyeva**
Maliyyə resurslarının idarə edilməsi və onun Azərbaycanda sənaye müəssisələrinin inkişafına təsiri................................ 119
**Rəşad Rüstəmov**
Azərbaycan təsviri incəsənətində Şərq motivləri və onların tədris metodikasında tətbiqi.................................................. 123
**Şəlalə Kərimova**
Sosial media diskursunda ingilis dilinin transformasiyası .... 128
**Səbinə Axundova**
Rəqəmsal oyunların məktəbəqədər yaşlı uşaqların sosial bacarıqlarına təsiri: müasir texnologiya və sosiallaşma ........ 131
**Turan Rzayeva**
Sinif rəhbəri və valideyn münasibətlərinin nəzəri-pedaqoji əsasları haqqında ......................................... 134

**Aygül Ağayeva**
Tədris prosesinin təşkilində müasir təlim metodlarından istifadə imkanları ........ 137
**Zərif Hüseynzadə**
Tərbiyəçi-müəllim və valideyn əməkdaşlığının davranış problemlərinin həllində əhəmiyyəti ........ 142
**Bəsti Əzizli**
Şəxsiyyətyönümlü inkişafetdirici təlim texnologiyalarında fərdi yanaşmanın üstünlükləri ........ 145
**İsmayıl Məmmədov**
Müəssisənin iqtisadi göstəricilər sistemi ........ 148
**Günəş Cəfərova**
Lüğət üzrə işin təşkili ........ 154
**Fatimə İbadullayeva**
Mətn üzrə yaradıcı tapşırıqların hazırlanması metodikası..... 156
**Əli Abbaszadə**
Azərbaycan rəngkarlığında təbiət mənzərəsi və onun ........ 159
**Sevil Kərimova**
Məktəbəqədər təhsil müəssisələrində didaktik oyunların uşaqların inkişafına təsiri ........ 163
**Murad Kazımov**
Elm və təhsildə müasir tələblər: inteqrasiya və inkişaf istiqamətləri ........ 167
**Məryəm Məmmədova**
Ümumtəhsilin səmərəli idarə edilməsində inklüziv yanaşma ........ 169
**Səriyyə Salahlı**
Təlim prosesində qiymətləndirmə və onun əhəmiyyəti ........ 173
**Orxan Əliyev**
Yerli özünüidarəçilik elementləri fonunda iqtisadi inkişafın təməl xüsusiyyətləri ........ 175

**Təranə Zaidova**
Azərbaycan rəngkarlığında natürmort janrının təşəkkülü ..... 178
**Şəbnəm Həşimli**
Əsas nitq hissələri və onların sintaktik
\funksiyalarının tədrisi ........................................................ 184
**Vəfa Həbibzadə**
Müasir ingilis dilində çoxmənalı sözlərin tədrisi .................. 188
**Aynur Müslümova**
İrəvan təhsil tarixində Haşim bəy Nərimanovun rolu ........... 193
**Zümrüd Məmmədova**
Ali təhsildə innovativ təlim texnologiyalarından
istifadənin imkanları ............................................................ 198
**Validəxanım Məmmədli**
İdarəetmədə şagirdlərin özünüqiymətləndirmə
mexanizminin təşkili xüsusiyyətləri ..................................... 201
**Fəridə Qəhrəmanova**
Humanitarlaşma anlayışı və ali təhsilə inteqrasiyası ............ 204
**Səadət Nəzirova**
M.Şəhriyarın anadilli poeziyasında işlənən etnoqrafizmlərin
dialekt və şivələrlə əlaqəsi .................................................... 209
**Nərmin Məmmədova**
Pedaqoji monitorinq və qiymətləndirmənin tədris
keyfiyyətinə təsiri ................................................................. 211
**İlahə Mirzəyeva**
Nitq mədəniyyətinin inkişafında ədəbi dil normalarının
öyrədilməsinin əhəmiyyəti .................................................... 213
**Aygün Babayeva**
Xəzərin hüquqi statusu ətrafında yaranmış fikir ayrılığı və
tərəflərin mövqeyi ................................................................. 217
**Rəxşanə Əhmədova**
Oksidləşdirici stresin travmadansonrakı epilepsiyada
patogenetik rolu haqqında .................................................... 221

**Firudin Hüseynov**
İqlim dəyişmələrinin su ehtiyatlarına təsiri ........................... 227

## RİYAZİYYAT VƏ MEXANİKA ELMLƏRİ

## MATHEMATICS AND MECHANICS SCIENCES

**Ruslan Həmidov, Almaz İsmayılova**
Riyaziyyatın fizika və iqtisadiyyat fənlərilə əlaqəli tədrisinin metodik və riyazi modelləri .................................. 232
**Vahab Həbibov, Aysel Əliyeva**
Ümumtəhsil məktəblərində dərinləşdirilmiş riyaziyyat kursunda funksiya anlayışının formalaşdırılması metodikası ................................................ 237

## TEXNİKA ELMLƏRİ

## TECHNICAL SCIENCES

**Elnur Abbasov, Fərqan Kəlbiyev, Eldar Temirbulatov**
"Yaşıl" gəmiçilik konsepsiyasının inkişafı və onun dəniz nəqliyyatına təsiri ............................................................. 240
**Məftun Əliyev, Aysel Hüseynova**
İnformasiya təhlükəsizliyinin sosial anatomiyası insan davranışı prizmasından ......................................................... 247
**Nigar Abilova**
Integratıon of Intellectual Informatıon Technologıes into Management Mechanısms of the Oıl and Gas Productıon Chaın...................................................................... 251

**Redaksiyanın ünvanı**
AZ1073, Bakı şəh.,
Yasamal r-nu, A.M.Şərifzadə 19
Tel.: +994 99 807 67 68
+994 99 808 67 68
e-mail: tezis.tedqiqat@aem.az

**Editorial address**
AZ1073, Baku,
Yasamal dist., A.M.Sharifzade 19
Phone: +994 99 807 67 68
+994 99 808 67 68
e-mail: tezis.tedqiqat@aem.az

İmzalandı: 14.03.2026
Onlayn çap: 19.04.2026
Kağız formatı: 60x84, 1/16
H/n həcmi: 16,5 ç.v.
Sifariş: 159

aem.az saytında çap edilmişdir.
Ünvan: Bakı şəh., Yasamal r-nu,
A.M.Şərifzadə 19
Tel.: +994 12 510 63 99
e-mail: zengezurda1868@mail.ru

Signed: 14.03.2026
Online publication: 19.04.2026
Format: 60/84, 1/16
Stock issuance: 16,5 p.s.
Order: 159

It has been published on aem.az
Address: Baku city, Yasalam dist.,
A.M.Sharifzade 19
Phone: +994 12 510 63 99
e-mail: zengezurda1868@mail.ru